AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# SMOMPK: AZƏRBAYCAN FOLKLORU MATERİALLARI

**4-cü cild**

BAKI – 2021

**Elmi redaktoru:** **Muxtar Kazımoğlu (İmanov)**
AMEA-nın həqiqi üzvü

**Tərcümə və transliterasiya edən:** F.ü.f.d., dosent **Rza Xəlilov**

**Tərtib edənlər və ön sözün müəllifləri:** F.ü.f.d., dosent **Rza Xəlilov**
F.ü.f.d., dosent **Afaq Xürrəmqızı**
F.ü.f.d., dosent **Aynur Hüseynova**

**SMOMPK: Azərbaycan folkloru materialları, 4-cü cild.** Bakı, Elm və təhsil, 2021, -184 səh.

"SMOMPK: Azərbaycan folkloru materialları" seriyasının növbəti cildi bu məcmuədə çap olunmuş erməni "oğurluqları"na həsr edilmişdir. SMOMPK məcmuəsində Azərbaycan türk folklor materialları erməni söyləyicilərindən toplanaraq erməni folklor mətni kimi təqdim edilmişdir. Amma bu mətnlərin mövzusu, söylənmə şəkli, qəhrəmanları və bir çox elementlər materialların Azərbaycan folklorundan oğurlandığına şübhə yeri qoymur. Kitaba həmin mətnlərdən bir qismi salınmışdır.

folklor.az

S 4603000000 Qrifli nəşr
N-098-2021

© Folklor İnstitutu, 2021

# BİR NEÇƏ SÖZ

Məlum olduğu kimi, SMOMPK toplusunun buraxılışlarında hal-hazırda Qafqazda, Zaqafqaziyada yaşayan xalqların, millətlərin, böyük və kiçikliyindən asılı olmayaraq etnik qrupların, çoxsaylı və ya azsaylı olmasından asılı olmayaraq bütün bölgə sakinlərinin folklor və etnoqrafiyası, tarixi və dili, dini görüşləri, gündəlik məişətləri ilə bağlı müxtəlif araşdırmalar, məlumatlar və o cümlədən folklor mətnləri rus dilində, həmçinin orijinalın dilində yer almaqdadır.

Toplunun müxtəlif buraxılışlarının səhifələrində həmçinin, erməni folklor və etnoqrafiyası və s. ilə bağlı materiallar da geniş təmsil edilməkdədir. Buradakı folklor materialları, örnəkləri başlıca olaraq "N.Kalaşev. Şamaxı qəzasında yazılmış erməni nağılları" (7-ci buraxılış, 1889-cu il, 2-ci şöbə, səh 141-231), "Erməni nağılları, rəvayətləri və əfsanələri" (13-cü buraxılış, 1892-ci il, 2-ci şöbə, 75-140), "Zaqafqaziya müəllimlər seminariyasının yetişdirmələri tərəfindən toplanmış nağıllar" (21-ci buraxılış, 1896-cı il 2-ci şöbə, səh 1-106), "Erməni əfsanə və nağılları" (24-cü buraxılış, 1898-ci il, 2-ci şöbə, 96-279), "Zaqafqaziyada erməni xalq filologiyası (28-ci buraxılış.1900-cu il, 2-ci şöbə, səh 1-167), "Vostrikov. Yelizavetpol quberniyasında yazılmış nağıllar" (42-ci buraxılış, 1912-ci il, 2-ci şöbə, səh.1-169) və s. kimi başlıqlar altında təqdim edilməkdədir.

Erməni folklor örnəkləri mətnləri əsasən S.Zelinski, N.Kalaşev, A.Kalaşev, E.Məlik-Şahnəzərov, P.V.Trikov, S.Tabaqyants, A.Babalyan, O.Yazıkova və bu kimi erməni və rus ziyalı və maarif işçiləri tərəfindən toplanılıb yazıya alınmışdır.

Bu mətnlərlə tanış olarkən məlum olur ki, onlar ermənilər tərəfindən özününküləşdirilmiş Azərbaycan folklor örnəkləridir. Dırnaqarası "erməni folklor mətnlərinin" toplanıb yazı-

ya alındığı yerlərə, ərazilərə gəlincə isə onlar toplunun A.Boqoyavlenski, M.Kaqan və bu kimi müəlliflərinin göstərdikləri kimi, əsas etibarilə Bakı, Yelizavetpol, İrəvan quberniyaları, Şamaxı, Zəngəzur, Gorus, Şuşa qəzaları və s. yerlərdir.

Tanınmış biblioqraf, filologiya elmləri namizədi Əmin Əfəndiyev hələ bir neçə il bundan əvvəl toplu ilə bağlı tərtib etdiyi izahlı biblioqrafik göstəricidə yeri gəldikcə ermənilərin Azərbaycan türk folklorundan etdikləri iqtibaslardan, plagiatdan bəhs etmişdir[1]. Ə.Əfəndiyev hər erməni plagiatı ilə bağlı öz vətəndaşlıq mövqeyini də bildirmişdir.

Qeyd etdiyimiz kimi, toplunun müxtəlif buraxılışlarında işıq üzü görmüş erməni folklor materialları ilə tanış olarkən burada Azərbaycan türk şifahi xalq ədəbiyyatı örnəklərinin-mərasim nəğmələrinin, əfsanə və rəvayətlərin və xüsusilə də nağıllarının erməni folklor örnəkləri kimi təqdim edildiyini görə bilərik. Bu məsələ ilə bağlı görkəmli ziyalı və maarif xadimi, pedaqoq Firudin bəy Köçərlinin 1912-ci ildə Bakıda çap edilmiş “Balalara hədiyyə” kitabına yazdığı “Mühərririn ifadeyi-məramı” başlıqlı ön sözündən bir məqamı yada salmaq yerinə düşərdi. Müəllif o dövrün Azərbaycan cəmiyyətində xalq ədəbiyyatına olan etinasız münasibəti ilə baglı etdiyi giley-güzardan sonra bəlkə də bir qədər kinayə ilə yazır: “Bu barədə qonşularımız daha da irəliyə gedirlər: türk milləti əsrlərcə yaradıb vücuda gətirdiyi nağıl, hekayələri və xoşlarına gəldiyi məsəlləri özlərinə məxsus edib “Erməni nağıl və məsəlləri” adı ilə ilam edirlər. Amma biz onların qədrini bilmirik və itib batmağına əsla itina etmirik. Hər işdə qafil olduğumuz kimi bu məsələdə dəxi səhv və qəflətimiz zahir olur”[2].

---

[1] Əfəndiyev Ə. Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu (QƏXTMT). İzahlı biblioqrafiya. Bakı: Qartal, 1998, 219 s.

[2] Köçərli F.B. Mühərririn ifadeyi-məramı // Balalara hədiyyə. Bakı: 1912

Erməni folklor materiallarının topluda ilk çapının tarixi 1882-ci ilə təsadüf edir. Həmin il toplunun 2-ci buraxılışında İrəvan gimnaziyasının müəllimi S.Zelinskinin "Erməni xalq nəğməkarı Vartan Xoylunun nəğməsi" adlı materialı çap edilmişdir. Burada erməni aşığı Vartan Xoylunun bir vücudnaməsinin rus dilinə tərcümədə mətni verilir. Vücudnamə Azərbaycan türkcəsindən ruscaya S.Zelinski tərəfindən tərcümə edilmişdir. Göstərmək gərəkir ki, bu vücudnamə həmçinin S.Zelinski tərəfindən yazıya da alınmış, bu materiala "Mütərcimdən bir neçə söz" adlı kiçik bir ön söz də yazılmışdır. O, burada dörd yüz il boyunca tatarların (*azərbaycanlıların-tərt.*) hökmranlığı altında qaldıqlarını və bunun onların həyat tərzinə, ailə, ictimai və mənəvi həyatına, o cümlədən dillərinə dərin təsir etdiyini yazır. Belə ki, o, bəzi yerlərdə, ərazilərdə yaşayan ermənilərin öz dilini tamamən unutduğunu, erməni dilinin qaldığı və işlənməkdə olduğu yerlərdə isə çox sayda tatar söz və ifadələrin, atalar sözü və məsəllərin bu dilə keçdiyini göstərir. Ermənilərin tatar dilinə meyl göstərdiklərini, yaxınlaşdıqlarını yazan müəllif onların öz nəğmələrini dinləməkdən vaz keçərək tatar nəğmələrini dinləməyə üstünlük verdiklərini, erməni aşıqlarının tatar dilində nəğmələr qoşub yaratdıqlarını vurğulayır. S.Zelinski toy, xaç suyuna salmaq münasibətilə təşkil edilən qonaqlıq və s. kimi ictimai yığıncaqlarda ermənilərin nəinki tatarca nəğmələr oxuduqlarını, hətta lətifələr, nağıllar və s. nəql etdiklərini də yazır[3].

Göründüyü kimi, S.Zelinski bu qeydləri ilə sadaladığı bu faktlarla ermənilərin Azərbaycan türkcəsinə və folkloruna olan marağını təsdiq etməkdədir, göstərməkdədir.

---

[3] Зелинский С. Песня Хойского Вартана, армянского народного певца (Записал и перевел С.Зелинский). Несколько слов от переводчика // СМОМПК, 2-ой выпуск, Тифлис: 1882 год, 2-ое отделение, стр.99-106.

Ə.Əfəndiyev bu nəğmənin - vücudnamənin Azərbaycan folklorundan iqtibas edildiyini yazır[4].

Ümumiyyətlə, toplunun daha sonrakı buraxılışlarında Azərbaycan folklorundan edilən çox sayda erməni iqtibasları geniş şəkildə yer almışdır. Burada Azərbaycan türk folklorunun şərti olaraq böyük və kiçik deyə adlandırılan janrlarından çox sayda erməni şifahi xalq ədəbiyyatı "oğurluqları" çap edilmişdir.

Toplunun 1910-cu il 41-ci buraxılışında F.Köçərlinin "Valehin nəğməsi" adlı başlıq altında rus və Azərbaycan dilində bir yazısı çap edilmişdir. Müəllif burada Aşıq Valehin vücudnaməsinin dini, fəlsəfi baxış və görüşlərinin mahiyyətindən bəhs etdikdən sonra Vartan Xoylu adlı bir erməni aşığının da bir vücudnaməsi olduğunu yazır. O, bu vücudnamənin İrəvan gimnaziyasının keçmiş müəllimi S.Zelinski tərəfindən rus dilinə bir qədər dəyişmiş şəkildə tərcümə edildiyini və toplunun 2-ci buraxılışında çap edildiyini göstərir. F.Köçərli sözünə davam edərək nəğmənin ümumi quruluşunun və buradakı baxış və görüşlərin tam müsəlman baxış və görüşləri olduğunu qeyd edir. Müəllif deyilənlərdən çıxış edərək bu nəğmənin erməni tərəfindən deyil, hər hansı bir azərbaycanlı aşıq tərəfindən qoşulub yazıldığını düşündüyünü qeyd edir[5].

Dövrünün tanınmış ziyalılarından olan, SMOMPK ilə əməkdaşlıq edən və burada çap edilən folklor materiallarını izləyən F.Köçərli erməni "oğurluğundan" xəbərdar idi. Ədibin yuxarıda qeyd etdiyimiz "Balalara hədiyyə"də verdiyi fikirləri də bunu göstərir. Onun "Valehin nəğməsi" adlı yazısını

---

[4] Əfəndiyev Ə. Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu (QƏXTMT) M.F.Axundov adına kitabxananın mətbəəsi, Bakı: Qartal, 1998, s.19

[5] Кочарлинский Ф.Б. Песня Валеха//СМОМПК, 41-ой выпуск, Тифлис, 1910-ой год.2- ой отделение.

erməni mənimsəmələrinə bir cavab kimi də dəyərləndirmək mümkündür.

Toplunun müxtəlif buraxılışlarındakı erməni folklor örnəkləri ilə tanış olarkən daha çox nağıllarımızın erməni oğurluğuna məruz qaldığının şahidi oluruq. Bu nağıllarda beynəlxalq səyyar süjetlərin, motivlərin, ənənəvi mövzuların, ideyaların və obrazlar sisteminin geniş yayıldığı gözə çarpmaqdadır.

Məhz buna görə də SMOMPK-un müxtəlif buraxılışlarına yazılmış ön sözlərdə hər hansı bir Qafqaz xalqının nağıllarından bəhs edilərkən Azərbaycan, erməni, gürcü, rus və b. xalqların nağıllarından paralellər gətirilir, variantlar göstərilir, qarşılaşdırmalar, müqayisələr aparılır.

Toplunun müəlliflərindən biri, 2-ci Tiflis kişi gimnaziyasının müəllimi A.Boqoyavlenski erməni nağıllarından bəhs edərkən burada xristianlığın, kilsənin güclü təsiri olduğunu xüsusi qeyd edir[6].

Yeri gəlmişkən, o, "Dərvişə verilmiş şahzadə", "Xır-xır kosa", "Ata vəsiyyəti" kimi erməni nağıllarında həmin təsirin görünmədiyini də göstərir[7]. Bu nağıllarla tanışlıq onların bir çox göstəricilərə görə Azərbaycan nağıl fondundan iqtibas edildiyini göstərməkdədir.

A.Boqoyavlenski SMOMPK-un 13-cü buraxılışında "Erməni nağılları, rəvayətləri və əfsanələri" adı altında toplanmış nağılların başlıca olaraq Bakı, Yelizavetpol və İrəvan quberniyalarında toplanılmağı ilə yanaşı, onlara ümumi bir dəyər verərkən onlardan bəzilərində Şərq təsirinin cizgilərinin olduğunu da yazır[8]. Böyük ehtimalla müəllif "Şərq təsiri" deyər-

---

[6] Богоявленский А. Предисловие// СМОМПК, 13-ый выпуск,1892 год, стр.14

[7] Yenə orada, səh. 14

[8] Yenə orada, səh. 11

kən burada Azərbaycan nağıl yaradıcılığını və nağıllarını nəzərdə tutur.

Müəllif erməni və Azərbaycan nağılları arasındakı bənzərlik, səsləşmələrdən bəhs edərkən bunu mövzunun etnoqrafik iqtibası (этнографическое позаимствование) adlandıraraq onun Qafqazın erməni və Azərbaycan əhalisinin yaxın qonşuluğu ilə izah edir[9]. O, sözünə davam edərək bunun nəticəsində erməni əhalisinin bir çox Azərbaycan adət-ənənələrini, hətta Azərbaycan dilini və şifahi ədəbiyyatını müəyyən dərəcədə özününküləşdirdiyini, özünün malı etdiyini də yazır[10].

A.Boqoyavlenski özünün bu tezisini sanki dəstəkləmək üçün erməni toplayıcılarından biri olub Toplu ilə əməkdaşlıq edən keşiş Q.Bunyadovun 1898-ci ildə SMOMPK-un 24-cü buraxılışında çap edilmiş "Qayraman-Blut" erməni nağılı ilə bağlı ətək yazısını göstərir: "Erməni nağıl söyləyiciləri son vaxtlaradək öz nağıllarını tatarca söyləyirdilər, çoxları elə indi də söyləyirlər"[11].

Göründüyü kimi, Q.Bünyadovun bu qeydi S.Zelinskinin bir qədər bundan əvvəl Azərbaycan türkcəsinin erməni cəmiyyətindəki yeri, mövqeyi ilə bağlı yazdığının bəzi məqamlarını təsdiq etməkdədir.

SMOMPK-un 13-cü cildinə yazdığı ön sözdə də A.Boqoyavlenski erməni aşıqlarının Azərbaycan türkcəsində nağıl söyləməsi məsələsinə toxunur.

Toplunun 1898-ci il 25-ci buraxılışında Çaykənd məktəbinin baxıcısı F.İ.Ceyranovun "Yelizavetpol qəzasının Çaykənd kəndi" başlıqlı məqaləsi çap edilmişdir.

---

[9] Богоявленский А. Предисловие // СМОМПК, 28-ой выпуск, 1900, стр.14

[10] Yenə orada, səh 14.

[11] Подстр.прим. // СМОМПК, 24-ый выпуск, 1898 год, 2-ое отделение, стр.139

Məqalənin “Bayramlar” adlı bölməsində “Xaşıl” adlı bir dini bayramın keçirilməsinin təsviri verilir. Bayramın başlamasına bir həftə qalmış orucluq günlərində oğlan uşaqlarının axşam vaxtı qazma evlərin damlarına çıxdıqları göstərilir. Onlar hər bacanın yanında durub “Xdırı” nəğməsi oxuyur və ev adamlarından pay almaq üçün əllərindəki kiçik torbaları içəri sallayır. Nəğməni dinləyən ev adamları öz imkanları daxilində torbaya oğlanlar üçün müxtəlif hədiyyələr qoyurlar.

Məqalə müəllifi “Xdırı” nəğməsinin tatarca oxunduğunu yazır və onun məzmununun belə xülasəsini verir: ““Mən üşüdüm, mən üşüdüm. Almaları daşıdım. Almaları əlimdən aldılar. Məni hər şeydən mərhum etdilər. Kasıblıq məni bezikdirdi. Mən bir quyu qazım. Quyuda beş keçi var, onların bələdçisi axı haradadır. Qayanın başında. Onu çağırdım, çağırdım. Amma o gəlmədi. Ona boyana təklif etdim, o, istəmədi. Boyananı bişirim. Keçi balası (oğlaq) qazanın yanında oynayır. Keçi balasını yerə çırpacağam, o mənə var-dövlət verəcək. Onu qəribə verərəm. Qərib mənə darı verər. Darını mən quşa verərəm. O, mənə qanad verər. Qanadlanaram mömin həyatinə uçmağa. Həyətdə bir süpürgəçi nəğmə oxuyur. İçində bülbül mənə nəğmə oxuyacaq. Kiçik qardaşım isə Allahın kəlamını oxuyur. Pay verənə qoy Allah beli gümüş kəmərli oğul, verməyənə isə kor qız versin. Görüm o da çatdasın ölsün. Allah, yerinə yetir. Amin”.

Mətnin məzmunundan da göründüyü kimi, bu uşaq mərasim nəğməsi erməni iqtibasına bariz nümunədir. Bu məqalədə başqa bir “oğurluq” faktı da diqqəti çəkir. Erməni bayramı Vardavarın poetik mətni “Can gülüm” adlanır. SMOMK-un 18-ci buraxılışında bu bayrama geniş bir yazı həsr edən Yelizavetpol quberniyasının Mixaylovski peşə məktəbinin müəllimi A.Kalaşev mərasimin iştirakçısı olur və oradakı mətnləri qeydə alır. Yazıda müəllif mərasimin mətn-

lərini orijinalda və rusca tərcümədə təqdim edir. Onları nəzərdən keçirərkən türkcə söyləndiyinin və tam şəkildə azərbaycanlılardan oğurlandığının şahidi oluruq:

“Can, gülüm, can, can!
Özün Şirvannı, Sultanın qızı,
Yerin çiçəyi, göyün ulduzu

Gənclər tatarca oxumağa başlayır:

Vardavar gələcəkdir, can gülüm, can, can.
Süfrəni salacaqdır, can gülüm, can, can.
Hər kəsin yarı yoxtı,
Bəyənib alacaqdı

Qızlar cavab verir:

Çardaxta oturmanam,
Yaman söz götürmənəm,
İlan vırsa, tas-tas,
Sannan əl götürmənəm.

Oğlanlar:

Arannan gəldim yalqız,
Qolun boynımnan sal, qız!
Hamı cüt-cüt yatallar,
Mən necə yatım yalqız!,

Qızlar:

Arxalığın iki qat,
Birin saxla, birin sat.
Əgər mənim yarımsan
Gecə gəl, qoynumda yat.

Oğlanlar:

Bulağın başı mənəm,
İçində daşı mənəm.
A suva gələn tər qızlar
Gecə yoldaşın mənəm.

Qızlar:

Otırıpsan daş üstə,
Qələm kaşım kaş üstə
Sən havax göz eylədin
Mən demədim: "baş üstə!" [12]

A.Kalaşevin bu məqaləsində daha bir məqam vardır. Ermənilər bu cür açıq-aşkar bayatı oğurluğundan başqa həm də janr oğurluğu ilə də məşğul olmuşlar. Vardavar bayramının ermənicə oxunan mətnləri bayatı quruluşunda söylənir və külli miqdarda türk sözlərindən ibarət olur. Kalaşevin ermənicə latın-kiril transliterasiyasında və rusca tərcümədə verdiyi nümunələrə nəzər salaq:

"Юноши:

Kez min **koca** (*qoca-tərt.*) hep ones,
Kez min **qözəl** (*gözəl-tərt.)* mer ones;
**Arxayin** (*arxayın-tərt.)* **gülüm** *(gülüm-tərt.)* asa
Ammen mazit ter ones.
Ты одного безволосого отца имеешь,
Ты одну красавицу мать имеешь;
Спокойно гулум говори
Для каждого волоска своего защитника имеешь.

Девушки:

Saran ver yeki hartı,
Kiqetsı **dəstə** (*dəstə-tərt.)* vartı,
Yes kiqetsı, tu tarar:
**Maşallah** maçi martı
С горы спустилась на равнину,
Нарвала пучок розы
Я нарвала, ты унес
Молодцом внутренний человек

---

[12] Калашев А. Вардавар // СМОМПК, 18-й выпуск, II отделение, Тифлис, 1894, с.10.

Девушки:

Nıstelınk **baxa-baxa** *(baxa-baxa-tərt.)*
Tar **çoxa** (*çuxa-tərt.*), karmür **yaxa** (*yaxa-tərt.)*
Axçik, tığa nıstelınk
Kalelınk ürür **yax**a (*yaxa-tərt.*)
Сели смотря-смотря
Темны чухи, красные воротники:
Девушки, юноши сели мы
Схватили друг друга за воротник”[13].

Bu misalların sayını artırmaq mümkündür. Çünki məqalədə verilən 100-dən artıq erməni mətninin demək olar ki, hər birində türkcə sözlər işlənir və bu mətnlərin quruluşu eynilə bayatı janrının tələblərinə (yeddi hecalı, aaba qafiyəli) uyğundur. Əslində ermənilər özləri bu mətnlərin mənimsəmə olduğunu dolayı yolla təsdiqləyirlər. Belə ki, müəllifin qeydinə nəzər salaq: ““Gülüm” (tatarca – gülüm mənim), yerli ermənilərin izahına görə Vardavar günü şəninə mahnı oxunan həmin gülün tatarca adıdır, burada oxunan mahnılar da “gülüm” adlanır”[14]

Beləliklə, burada “bir neçə söz”ün hüdudları daxilində gətirilən faktlar, folklor örnəkləri, əgər belə demək mümkünsə, erməni cəmiyyətində və şifahi xalq ədəbiyyatı məkanında Azərbaycan türkcəsinin və folklorunun üstün - dominant mövqedə və statusda olduğunu göstərməkdədir. Azərbaycan türkcəsi ermənilərin məişətinə, gündəlik həyatına geniş şəkildə daxil olması, sirayət etmiş və onların arasında ünsiyyət vasitəsinə də çevrilmişdir. Ermənilər məhz bu dil vasitəsilə Azərbaycan türk folkloru ilə yaxından tanış olmaq, onu

---

[13] Калашев А. Вардавар // СМОМПК, 18-й выпуск, II отделение, Тифлис, 1894, с.13

[14] Калашев А. Вардавар // СМОМПК, 18-й выпуск, II отделение, Тифлис, 1894, с.2.

özününküləşdirmək, mənimsəmək imkanı əldə etmişlər. Başqa əsas bir amili də göstərmək gərəkir ki, o da onların Azərbaycan türk folkloru mühitində yaşamalarıdır. Təbii ki, deyilənləri nəzərə alaraq bütün bunları tarixi, ictimai bir prosesin məntiqi bir nəticəsi kimi də dəyərləndirmək olar.

Ermənilərin Azərbaycan türk folklorundan, yumşaq desək, "mənimsəmələr" etməsinin səbəbini yəqin ki, onların özlərinin şifahi xalq ədəbiyyatında mövzu, obrazlar sistemi, ideya, poetik dəyərlər, formullar və s. cəhətindən olan boşluğu bir növ doldurmaq, onu yaxşı yöndən tanıtmaq istəyi ilə əlaqələndirə bilərik. Digər tərəfdən, folklorumuz uzun illər boyunca ermənilərin arasında dövriyyədə olduğundan, görünür mənfur qonşular bu əsərlərin əsil sahiblərinin kim olduğunu və kimə aid olduğunu belə "unutmuşlar".

Bu cildin hazırlanmasının başlıca məqsədi ermənilərin hələ iki əsr əvvəl folklorumuzdan oğurladıqları və utanmadan SMOMPK-da erməni folkloru kimi təqdim etdikləri bu "oğurluq" faktlarının cüzi bir hissəsini gec də olsa geniş oxucu kütləsinə çatdırmaqdır.

***R.Xəlilov***
***A.Xürrəmqızı***

## 7-ci buraxılış, 1889-cu il, II bölmə, s. 141-231

# BAKI QUBERNİYASI ŞAMAXI QƏZASINDA YAZIYA ALINMIŞ "ERMƏNİ" NAĞILLARI

## ŞAH İSMAYIL[15]

Aslan paşa bir dövləti idarə edirdi. O, öz dövrünün ən varlı və ən güclü hökmdarlarından idi. Aslan paşa və onun arvadının uzun müddət uşağı yox idi və bu onları çox kədərləndirirdi. Baxmayaraq ki, onlar əllərindən gələn hər şeyi edirdilər. Müxtəlif türkəçarələrin, dərvişlərin və b. köməyinə müraciət edirdilər, lakin kömək etmirdi. Yeri gəlmişkən, onların çoxdan bəri gözəl bir madyanları var idi. O da nəsil törətmək bacarığından məhrum idi.

Bir dəfə Aslan paşa arvadını da götürüb yaxın qohumlarının və nökərlərin müşaiyəti ilə çəmənliyə yola düşdü. Paşanın arvadı gözəl madyanın üstündə gedirdi. Onlar bir çəmənliyə gəlib çatıb soyuq bulağın yaxınlığında yerləşdilər. Paşanın arvadı bulağa yaxınlaşanda yaşıl, təzə yarpaqları olan iki alma suya düşdü. Bu hadisə payızda baş verirdi. Aslan paşa arvadı ilə bu almaları yedilər. Onların qabıqlarını isə yarpaqları ilə bərabər madyana verdilər. Həmin gündən paşanın arvadı hamilə qaldı.

Müəyyən vaxtdan sonra o, oğlan doğdu. Adını da Şah İsmayıl qoydular. Madyan da dayça doğdu, adını da "Qırat" qoydular.

Anası Şah İsmayılı süddən ayıran kimi ona xüsusi otaq ayırdılar. Onun yanına xüsusi lələ qoşdular. Lələ[16] ona qulluq edir və onu həyətə çıxmağa qoymurdu. Oğlan nəinki kənar adamları, hətta öz ata-anasını da görmürdü. Onun 5-6 yaşı

---

[15] Müqayisə üçün SMOMPK-da çap olunmuş nağıllara bax: "Şah İsmayıl" – 3-cü buraxılış, 2-ci bölmə, c.181-184 və "Gözəl şahzadənin nağılı" – 6-cı buraxılış, 2-ci bölmə, c. 124-140 – *Redaktorun qeydi*

[16] Lələ tatar dilində-əmi,dayı deməkdir. - *Toplayıcının qeydi*

tamam olanda bir müəllim tutdular. Müəllim ona oxuyub, yazma öyrətmək üçün gəlir və sonra da öz evinə gedirdi. Aslan paşanın əmrinə görə Lələ əvvəlcə əti sümüklərdən təmizlər, sonra ona yeməklər gətirirdi. Belə ki, Şah İsmayıl heç onları görməmişdi. Bir dəfə necə oldusa Lələ xəstələndi. O, xəstə olduğunu Aslan paşaya xəbər vermədi. Yoldaşlarının birinə gizlicə təvəqqe etdi ki, Şah İsmayıla yeməyi o aparsın. Yoldaşı onun tapşırığını yerinə yetirdi. Lakin ətin sümüklərini təmizləməyi unutdu. Şah İsmayıl qəribə şey gördü. Onun orasına-burasına baxdı, və onu pəncərənin şüşəsinə atdı. Şüşə sındı və günəşin şüaları otağa düşdü. Pəncərənin şüşələri rənglənmiş olduğundan onlardan heç bir şey görmək mümkün deyildi. Şah İsmayıl pəncərədən işığı görüb özünü küçəyə atdı. Küçədə oynayan uşaqları gördü. Onlardan bəziləri oynayır, bəziləri isə iş dalınca gedir, çoxları rəqs edirdilər.

Müəllimin gəlməyinin vaxtı çatanda şahzadə evə qayıtdı. Müəllim Şah İsmayılda bir dəyişiklik hiss etdi. Həm də sınmış şüşəni gördü. Həmişə utancaq və dərsləri ilə məşğul olan Şah İsmayıl müəllim gələn kimi ilk növbədə ondan təvəqqe etdi ki, valideynlərinin yanına gedib özü üçün onlardan sərbəstliyə çıxmaq, təmiz hava ilə nəfəs almaq, təbiətdən həzz almağın icazəsini alsın. Necə ki, başqa uşaqlara icazə verirdilər. O, sözünə davam edib dedi:

– Mən axı qatil deyiləm, oğurluq etməmişəm, heç bir şeydə də təqsirkar deyiləm. Onda bəs niyə məni bir otaqda oturdublar və Allahın işığını da görməyi mənə icazə vermirlər?

Müəllim naəlac qalıb Aslan paşanın yanına getdi, vəziyyətdən xəbərdar etdi. Atası oğlunun təvəqqesinə razılıq verdi. Saraya bahalı xalça və palazlar döşətdirdi. Şah İsmayıl onun hüzuruna gələndə atası onun sarayın bütün otaqlarına aparıb göstərdi. Amma qapısına qıfıl vurulmuş bir otağa aparmadı.

Şah İsmayıl atasına nə qədər yalvardısa o, sözündən dönmür, bu qapını ona açmırdı.

Axırda o naəlac qalıb oğlunun istəyinə güzəştə getdi. Qapıları açan kimi üç gözəl qızın şəkli onun gözünə dəydi. Elə həmin andan o, onlara vuruldu və atasına dedi ki, nə olursa olsun o, bu gözəl qızlarla evlənməlidir. Atası oğluna məsləhət görməyə başladı ki, bu fikri başından atsın, çünki o da bu gözəl qızlara evlənmək istəmişdi. Bu səbəbdən də o, çox qoşun itirdi. Az qala bütün var-dövləti əlindən çıxdı, axırda onlara sahib çıxa bilmədi.

Bundan sonra Şah İsmayıl gəzintiyə getmək istədi. Atasına əmr etdi ki, Qıratı gətirsinlər və o, Lələnin müşayiəti ilə atın belində evdən çıxıb getdi. Onlar çox getməmişdilər ki, bir ceyrana rast gəldilər. Şah İsmayıl ceyranı çox qovdu, axırda ceyran Aslan paşanın məmləkətində yaşayan Nemət bəyin çadırına qaçıb girdi.

Şah İsmayıl da ceyranı qovhaqov gəlib çadıra girdi və nə gördü?! Baxıb gördü ki, çadırda nağıllarda təsvir edilən bir gözəl qız oturub. O saat Şah İsmayıl və Gülzar (gözəl qızı belə adlandırırdılar) bihuş olub yerə yıxılırdılar. Onları huşa gətirmək üçün hərəsinə camda su verdilər. Camdakı suda onlardan hər biri öz sevgilisini gördü. Şah İsmayıl Gülzarı, Gülzar isə onu.

Şah İsmayıl evə qayıdanda atasına Gülzarla evlənmək istədiyini söylədi. Gülzar Şah İsmayılın atasının sirli otağında şəkillərini gördüyü üç gözəl qızdan biri idi. Oğlu çıxıb getdikdən sonra Aslan paşa həyəcan içində Nemət bəyi hüzuruna çağırır və ona deyir:

– Hələ ki, oğlum yatır, sən kənddən öz qızını götür və bir yerdə onu gizlət ki, o bundan sonra bir daha onunla görüşə bilməsin. Əks halda boynun vurulacaqdır.

Aslan paşanın istəyi dərhal yerinə yetirildi. Nemət bəy ailəsi, mülkü ilə özgə yerə yola düşdü. Onlar heç uzaq getməmişdilər Gülzar atasına deyir ki, o, bıçağını evdə unudubdur və

buna görə də o, evə qayıtmalıdır. Gülzar Şah İsmayılın mütləq onu axtarmağa başlayacağını bilərək bir gün əvvəl görüşdükləri həmin yerə öz üzüyünü və bir məktub qoyur. O, məktubda onu sevdiyini təsdiqləyir. Və həmçinin xəbər verirdi ki, valideynləri onu Şah İsmayıla ərə vermək istəmirlər, həm də onun atası Aslan paşa bu evliliyə qarşıdır. Məktub da bu sözlərlə qurtarırdı:

– Məni unutma, yoxsa, Allahın qarşısında günaha batarsan.

Gülzar məktubu daşın altına elə qoydu ki, onu görmək mümkün olsun, özü isə tələm-tələsik valideynlərinə yetişmək üçün yola düşdü.

Nemət bəy Aslan paşanın hüzurunda olanda Şah İsmayıl yatırdı. Buna görə də heç nədən xəbəri yox idi.

Səhər Şah İsmayıl yuxudan durub atasına bir söz demədən vaxt itirmədən Nemət bəyin yanına getdi. Amma çadırın yerində heç bir şey yox idi.

Şah İsmayıl dərddən bayatı (kədərli ağı) deyir, oxuyur, ağlayırdı. Axırda o daşın altında bir üzük və məktub gördü. Bu tapıntı onu bir qədər sevindirdi. O, məktubu oxudu və o saat sevgilisi Gülzarı axtarmağa yola düşdü.

Şah İsmayıl bir qədər yol gedib, yolda gözəl binadan uca bürcü olan bir qalaya rast gəldi. O, elə güman edirdi ki, sevgilisi Gülzar böyük ehtimalla bu qaladadır. Şah İsmayıl qalanın ətrafında nə qədər dolansa da, ora giriş qapısını tapa bilmədi.

Axırda o hirsindən qalanın divarlarına qılınc zərbəsi endirdi və divar yıxıldı. Sonra o, Qırata bir möhkəm qamçı vurdu və at yıxılmış divarın böyük hündürlüyünə baxmayaraq onun üzərindən atılıb keçdi və qalanın içinə düşdü. Elə bu vaxt eyvanda Pərişan adlı bir gözəl qız oturmuşdu. O, Şah İsmayılı görüb ondan kim olduğunu və necə cürət edib qalaya gəlməsinin səbəbini xəbər aldı. Şah İsmayıl özünü elə itirmişdi ki, onu sevgilisi Gülzar zənn etdi və ona görə də dedi ki, ona evlənmək üçün gəlmişdir. Pərişan dedi:

– Məgər sən mənim yeddi qardaşımdan qorxmursan? Əgər sən mənə evlənmək istəyirsənsə əvvəlcə get onlarla görüş. Bax onlar o dağda döyüşürlər. Onların icazəsi olmadan mən ərə gedə bilmərəm.

Şah İsmayıl ehtiramla ona baş əydi və döyüş meydanına tələsdi. Şah İsmayıl dağa yaxınlaşarkən bir tərəfdən tam bir qoşunun, o biri tərəfdən beş qardaşın durduğunu gördü. Onların yanında öldürülmüş iki qardaşın meyidi uzanmışdı. Şah İsmayıl atını yaxına sürüb uca səslə dedi:

-Qoşunlara baxıram onların sayı ulduzlardan çoxdur. Yeddi qardaşdan ikisi öldürülmüşdür. Allah, mənə yardımçı ol!

Bunu deyib Pərişanın qardaşlarına yaxınlaşır və onlara təklif edir ki, bir qədər uzaqda dursunlar. Belə ki, o, tək başına vuruşacaq və düşmən qoşununun hamısını qırıb catacaq. Devlər[17] – Pərişanın dev qardaşları ona gülməyə başladılar:

– Sən nə nəhəngsən, biz bu qoşunla bir şey edə bilmədik, hətta iki qardaşımız da öldürüldü. Sən isə tək başına onlara qalib gəlmək istəyirsən? Sən bizə gülürsən?

Amma Şah İsmayıl onlara təvəqqe etdi ki, bir az aralı durub nə olacağına baxsınlar. Onlar Şah İsmayılın istədiyi kimi etdilər.

Şah İsmayıl bir göz qırpımında Qıratın belində qoşuna tərəf çapıb onların hamısını qırıb tökdü və beş dev qardaşlarla Pərişanın qalasına qayıtdı. Ən kiçik qardaş yıxılmış divarı görüb təəssüflə bacısına dedi:

– Biz sənə görə döyüşdük, çox qoşun qırıb çatdıq, sənə görə iki qardaşımız öldü. Sən isə yanına sevgililərini gətirirsən.

Onda Şah İsmayıl boynuna aldı ki, divarı qılıncı ilə o, dağıdıbdır.

Dev qardaşlar bir səslə dedilər:

– Əgər belədirsə, biz gözəl-göyçək bacımızı sənə ərə veririk.

---

[17] Başqa şəkildə - divlər, bahadırlar, pəhləvanlar. - *Toplayıcının qeydi*

Şah İsmayıl razı oldu, amma bir şərtlə ki, əvvəlcə gedib özünün sevimli Gülzarını axtarıb tapsın. O, onlarla görüşüb yoluna davam etdi.

Az getdi, üz getdi, dərə təpə düz getdi. Axır gəlib bir yol ayrıcına çatdı, bir az fikirləşəndən sonra sol tərəfdəki yolu seçdi. Yolla gedərkən o, çoxlu səyahətçilərə rast gəldi. Onlar onun nə üçün yola çıxdığını bilib ona dedilər ki, əgər bu yolla getsə, onu öldürəcəklər, geri qayıtsın. Şah İsmayıl yolunu dəyişmək istədi. Amma məğrurluğu ona üstün gəldi və o, öz yoluna davam etdi.

Doğrudan da, çox keçmədən Şah İsmayılın getdiyi yolun təhlükəli olması təsdiq olundu. Bu təhlükə Ərəb-Zəngi adında bahadır qız idi. Bəlkə də az qala bütün dünyanın qorxduğu bu bahadır qızın keçmişi belə idi.

Ərəb-Zəngi hələ üç yaşında olanda xəmir yoğuran anasından çörək istəmişdi. Anası cavab vermişdi ki, hələlik çörək yoxdur, buna görə də balaca qız gözləməlidir.

Ərəb-Zəngi hirslənib bir yumruq zərbəsilə öz doğma anasını öldürmüşdü. Onun atası bu işi belə görüb fikirləşdi ki, gec-tez qızı onun da başına bu işi gətirə bilər. Ondan uzaq olmaq üçün onu meşəyə aparır və burada özbaşına buraxır. Qız meşədə ovçuluqla dolanmağa başlayır və müxtəlif heyvanların ətini yeyirdi.

Bir vaxtdan sonra o, tamamilə vəhşiləşdi və bir yırtıcı heyvana oxşamağa başladı. Meşədə qarşısına çıxanı öldürürdü.

Nəhayət, hər gün yüzlərlə adamların gəlib keçdikləri yola çıxaraq bütün yoldan keçənləri öldürməyə başladı. İş o yerə çatdı ki, artıq heç kim o yolla getməyə cəsarət etmirdi. Yalnız Şah İsmayıl kimi bu yerləri tanımayanlar buradan gəlib keçirdi.

Ərəb-Zəngi çirkli kişi libası geyinirdi. Həmişə at belində gedir və onun 20 arşın uzunluğunda qılıncı da var idi. O hər əlində camışı bir cücə tuturmuş kimi tuta bilərdi.

Ərəb-Zəngi pəncərənin qarşısında oturduğundan görürdü ki, yoldan kim gəlib keçir. O, hər yoldan keçənə təklif edirdi

ki, ona zəhmət verməsinlər, onun yanına gəlsinlər, o da onların boynunu vursun.

Ərəb-Zəngi Şah İsmayılı görəndə adətən hamıya dediyini ona da dedi. Şah İsmayılın üzü ağardı və təvəqqe etməyə başladı ki, onu buraxsın, çünki o, sevgilisinin yanına gedir. O, dedi:

– Ərəb-Zəngi, yol ver, məni narahat etmə, vacib iş üçün gedirəm.

Amma Ərəb-Zəngi ona cavab verdi:

– Buradan yol keçənin dodaqları çatlayır, üzünün rəngi saralır, o, özü isə canını mənə verir, sonra da çıxıb gedir.

Sonra o, üç şərt təklif edərək dedi ki, əgər təkliflərin üçü də yerinə yetsə, onu sap-sağlam buraxacaq, əks halda boynunu vuracaq.

Ərəb-Zəngi her şeydən əvvəl Şah İsmayıla dağa qalxmağı təklif etdi. Dağa kim birinci çıxsa həmin adam qalib olur. Onlar dağa qalxmağa başladılar. Şah İsmayıl Qıratı ilə dağa birinci qalxdı.

Bundan sonra Ərəb-Zəngi dəyirman daşından iki dəfə böyük və ağır olan daşı sinəsinədək qaldırdı və onu elə atdı ki, daş yarıyacan torpağa batdı. Şah İsmayıl bunu görüb qorxdu. Bütün bədəni tir-tir titrədi və az qaldı daşı atmaqdan boyun qaçırsın.

Amma sonra var gücünü topladı. Allaha yalvardı ki, onu bəladan qurtarsın. O daşı torpaqdan çəkib çıxartdı. Başının üstündən arxaya elə atdı ki, daş bütün torpağa girdi.

Bu məğlubiyyətdən sonra Ərəb-Zəngi ona güləşməyi təklif etdi. Şah İsmayıl necə oldusa onu yıxdı. Onda Şah İsmayıl qılıncını sıyırdı ki, Ərəb-Zəngini öldürsün. O, qabaqcadan ondan təvəqqe etdi ki, onunla evlənsin. Şah İsmayıl hazır olduğunu dedi.

Amma onu da dedi ki, hər şeydən əvvəl özünün sevimli Gülzarını tapmalıdır. Ərəb-Zəngi ona qoşuldu və bir yerdə atlarını sürüb getdilər onu axtarmağa.

Onlar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər. Allah bilir, axır gəlib bir şəhərə çatdılar. Bir qarının evində qonaq qaldılar. Bu vaxt şəhərdə toy çalınırdı. Onlar qarıdan kimin toyu olduğunu xəbər alanda o, Nemət bəyin qızı Gülzarın buranın padşahının oğluna ərə getdiyini və artıq yeddi gün toya hazırlıq getdiyini dedi. O, Gülzarın isə yəqin başqa nişanlısı olduğundan, şahzadəyə ərə getməyinə razı olmadığını da dedi.

Onda Şah İsmayıl barmağından Gülzarın üzüyünü çıxartdı, və həmin qarıdan təvəqqe etdi ki, onu dərhal gəlinə çatdırsın. Qarı razılıq verdi və saraya yola düşdü. O, Gülzarın otağına yaxınlaşanda gördü ki, o bir əlində zəhər, o biri əlində qılınc tutubdur, özünü öldürmək istəyir. Belə ki, onun etirazına baxmayaraq nə olursa olsun, onun mütləq şahzadəyə ərə verilməsi qərara alınmışdır.

Qarı qapını döyən kimi Gülzar yaxınlaşdı və üzüyü ondan aldı. O, üzüyü görən kimi tanıdı, o saat zəhər və qılıncı yerə atdı. Ətrafdakılar bunu görüb elə düşündülər ki, o fikrini dəyişib və şahzadəyə ərə getməyə razıdır. O, qarı ilə Şah İsmayılla görüş haqqında danışıb padşaha xəbər göndərdi ki, ertəsi günü şəhərdə bütün dükanları bağlasınlar və küçələrdə heç kim olmasın, çünki o bağa gəzməyə gedəcək. Onun istəyi yerinə yetirildi.

Səhər o, qarabaşlarla bağa yollandı. Şah İsmayılla Ərəb-Zəngi də ora gəldilər. Şah İsmayıl Gülzarı görüb hələ hasarın arxasından mahnı oxumağa başladı. O, bu mahnısında Gülzarın gözəlliyini tərifləyir və tərənnüm edirdi. Gülzar özünün axsaq qarabaşına təklif etdi ki, o, da ona mahnı ilə cavab versin, lakin o, rədd etdi,ondan təvəqqe etdi ki, o,özü cavab versin.

Gülzar cavab verəndə Şah İsmayıl onu tutdu və özünün arxasına - Qırata mindirdi. Qırat çaparaq getdi. Axsaq onu götürməyi təvəqqe etdi. Onda Ərəb-Zəngi onu tutdu yerə elə çırpdı ki, o bütün yerə girdi.

Şah İsmayıl Gülzar, Ərəb-Zəngi ilə yolüstü Pərişanın yanına gəldilər. Ərəb-Zəngi onu öz tərkinə aldı. Şah İsmayıl üç arvadı ilə yola düşdülər. Yolda onlar dincəlmək qərarına gəldilər, dağın zirvəsinə qalxdılar və orada da yerləşdilər.

Şah İsmayıl uzun söhbətdən yorulub başını Gülzarın dizi üstə qoydu və bahadır yuxusuna getdi. Sonra Pərişan və Gülzar da yatdılar. Təkcə Ərəb-Zəngi yata bilmirdi. Birdən o baxıb görür ki, 300 min nəfərlik qoşun dağa qalxır. O, kişi libasını geyinib atına suvar oldu və qoşunun qabağına çıxdı. Son adamınadək qoşunu qırdı çatdı. Qoşunun hamısını qırıb çatandan sonra Şah İsmayıla dedi:

– Qoy xəbər Hacı Osana çatsın. Yüz min tülkü bir ac şirə nə edə bilər? Əzizim, oyan, bax gör nə oldu?

Lakin Şah yuxudan oyanıb dedi:

– Ərəb, sənin niyyətin məni yuxusuz qoymaqdır deyəsən?

Ərəb-Zəngi dedi:

– Bizim yerdə yuxudan oyananda sağa, sola baxırlar.

Onda Şah İsmayıl yerindən qalxdı və bir tərəfdə meyidlərdən yaranmış böyük bir dağ, o biri tərəfdə qandan yaranmış çay gördü.

Şah İsmayıl buradan öz vətəninə qayıtdı. O, atasının yaşadığı şəhərin ətrafındakı dağda dayandı. O burada öz arvadları ilə çadırlarda dincəlməyə dayandı ki, sonra atasının sarayına getsin.

Şah İsmayıl zarafatla Pərişana dedi ki, Gülzar onun sevgilisi, Ərəb-Zəngi bahadır onun nəyinə gərəkdir. O, cavab verdi ki, o, yaxşı fala baxır və gələcəkdən xəbər verir. Onda Şah Abbas təvəqqe etdi ki, o fala baxsın, görsün atası Şah İsmayılı görəndə sevinəcəkmi, bu vaxt nə deyəcək?

Pərişan fala baxmağa başladı və dedi ki, atası onun xəbərlə göndərdiyi adamlara belə cavab verəcək:

– Nə olsun, oğluma bir arvad bəsdi. Arvadların ikisi isə mənim olacaqdır.

Şah İsmayıl atasının yanına adam göndərdi ki, onun gəlib çıxmasından onu xəbərdar etsin. Doğrudan da, o Pərişanın dediyi kimi də cavab verdi. Şah İsmayıl atasından belə cavab alıb onu görmək istəmədi.

O, üç günə dağda təsəvvür edilməz bir qala tikdi.

Aslan paşa bu qalanı öz sarayının eyvanından gördü. Bilmədi ki, onu oğlu tikdirib. Qalanın sahibini yeməyə dəvət etdi. Şah İsmayıl yeməyə getməzdən əvvəl Pərişana təvəqqe etdi ki, fala baxsın, görəsən atası onu necə qarşılayacaq və onun başına nə gələcək? Pərişan ona dedi ki, atası həyətdə qapıların qabağında bir çala qazırıb onun da üstünü xalıyla örtdürüb ki, o gələndə həmin çalaya düşsün, ona veriləcək bütün yeməklər zəhərlidir.

Buna görə Pərişan təhlükədən uzaq olmaq üçün ona məsləhət gördü ki, Sambur tulasını da özü ilə götürsün. O haradan keçsə, o da oradan keçsin. Pərişan zəhərlənməkdən qorumaq üçün ona bir üzük verdi və tapşırdı ki, yemək yeməyə başlamazdan əvvəl həmin üzüyü yemək olan qaba salsın. Sonra isə yeməyə başlasın.

Şah İsmayıl deyilənlərə əməl etdi. Yemək yeyəndə Şah İsmayıl bir qaşıq plov götürüb pişiyə verdi. Pişik plovdan yeyən kimi öldü. Onda Şah İsmayıl bütün qonaqların qarşısında atasına dedi:

– Sən gözünün ağı-qarası oğlunu o qədər istəyirdin ki, o da indi partlayan pişik kimi partlasın? Bu iltifatın üçün çox sağ ol!

Aslan paşa cürbəcür yollarla özünə bəraət qazandırmaq istədi. O, oğlunun könlünü almaq üçün ona qumar oynamağı təklif etdi. Şah İsmayıl atası ilə qumar oynamağa başladı. O, atasının malikanəsini uddu. Axırda belə şərt bağladılar ki, kim qalib gəlsə uduzanı öldürsün. Bu dəfə Şah İsmayıl uduzdu.

Atası onun çox qüvvətli adam olmasını bilib və cəlladları öldürəcəyindən qorxaraq əvvəlcə onun əl-ayağını və bütün bədənini zəncirlə sarıdı. Sonra oğlundan xəbər aldı.

– Sənin gücün haradadır?

Şah İsmayıl ona gücünün böyük barmaqlarının dırnaqlarında olduğunu dedi.

Onda Aslan paşanın əmrinə görə bu barmaqları sabunlanmış iplə möhkəm sarıdılar. Və ipi oynaq yerindən çıxanadək dartdılar. Sonra isə onun əmrinə görə Şah İsmayılı kor etdilər. Sol gözünü sağ cibinə, sağ gözünü sol cibinə qoydular. Şah İsmayıl bircə onu dedi:

– Bağban əkdiyi ağacı baltalamaz, ata, sən nə üçün məni öldürürsən? Axı mənim ölümümlə sən özünün əl və ayaqlarından məhrum olursan. Allaha and verirəm, məni öldürmə. Bunun əvəzində sənə öz Gülzarımı verərəm.

Pərişan burada nə baş verirdisə fala baxıb öyrənir və Şah İsmayılın o biri arvadlarına xəbər verirdi.

Bütün işgəncələrdən sonra Aslan paşanın əmrinə görə Şah İsmayılı meşəyə apardılar. Bununla bir vaxt Aslan paşa yeddi cəsur arvadlarını hüzuruna çağırdı və Şah İsmayılın arvadlarını birtəhər aldadıb yanına gətirmələrini əmr etdi.

Ərəb-Zəngi bu arvadlarının hamısının dodaqlarını kəsdi və bi şərtlə onları sağ-salamat buraxdı ki, gedib Aslan paşaya bunun kimin etdiyini çatdırsınlar. Onlar Aslan paşanın hüzuruna qayıdanda o, Şah İsmayılın arvadlarının harada olduqlarını və özlərinin isə nədən güldüklərini xəbər aldı (dodaqsız arvadlar gülən kimi görünürlər).

Məsələ açılanda onlar dedilər ki, Ərəb-Zəngi onlardan söz alıb ki, Aslan paşaya onun bu sözlərini çatdırsınlar.

– Əgər Aslan paşa bacarırsa qoy məndən intiqam alsın!

Aslan paşa qeyz içində Şah İsmayılın arvadlarına qarşı qoşun göndərdi. Amma Ərəb-Zəngi təkbaşına qoşunun hamısını qırdı və meyitlərdən hündür bir divar tikdi.

Meşədə özbaşına buraxılmış Şah İsmayıl burada ac-susuz qırx gün, qırx gecə keçirtdi. O, əldən elə düşmüşdü ki, güclə hərəkət edirdi. Qırxıncı gün iki göyərçin uçub gəldi. Göyərçinlər onun yanında, onun ətrafında qanad çalıb öz aralarında dedilər ki, ona bir lələk atacaqlar. Onda Şah İsmayıl sağ cibindən sol gözünü, sol cibindən sağ gözünü çıxardıb öz yerinə qoysun. Sonra isə lələyi onun yaxınlığında yaşıl yarpaq altında olan bulaqda isladıb gözlərinə çəksin. Onda o, görəcək.

Bunu deyib göyərçinlər gözdən itdilər. Şah İsmayıl birtəhər lələyi, sonra isə bulağı tapdı, göyərçinlərin dediyini tərsinə etdi. O, Allahın işığını görsə də çaş göz oldu. Şah İsmayıl ayağa qalxdı və evinə yollandı. Yolda ağlayan bir qoca kişiyə rast gəldi. Şah İsmayıl ondan ağlamağının səbəbini xəbər alanda o dedi:

– Niyə də ağlamayım, Aslan paşa Şah İsmayılın arvadlarının üstünə böyük bir qoşun göndərib, Ərəb-Zəngi hamısını qırıb çatıb. Sabah isə növbə mənə çatacaq, mən ölsəm kim mənim ailəmi dolandıracaq?

Şah İsmayıl çox ac idi. Qocaya dedi:

– Öz camışını qurban kəs, biz onu yeyək. Sabah isə mən sənin yerinə vuruşmağa gedəcəm.

Qoca ondan vəd etdiyini yerinə yetirəcəyi sözü alıb, camışı kəsdi. Şah İsmayıl camışın hamısını yedi. Təkcə qocanın ailəsinə bir az ət saxladı.

Şah İsmayıl qocanı padşahın yanına göndərdi ki, ona desin ki, onun evində Əhməd bəy adlı bir qərib qonaq var. O, Şah İsmayılın arvadlarını ona gətirə bilər. Padşah bu təklifə çox sevindi. Yalançı Əhməd bəyi öz hüzuruna dəvət etdi. Əhməd bəy ona Ərəb-Zəngini öldürəcəyini vəd etdi. Əgər o, istəsə ona

yol yoldaşı olmağı da təklif etdi. O, Aslan paşadan yalnız Şah İsmayılın atını istədi.

Şah İsmayılı kor edəndə Qıratı tövlədə bağladılar. Ona tövlənin damındakı deşikdən ot və su sallayırdılar. Lakin ağıllı at öz sevimli sahibinin vəziyyətini hiss edərək bütün vaxtı öz sahibi kimi ac qaldı. Yalançı Əhməd bəyin istəyi yerinə yetirildi. İsmayıl özü tövləyə girdi. Qıratı bir az yedirtdi və Aslan paşa ilə Ərəb-Zənginin yanına getməyə tələsdi. Şah İsmayılın qalasına çatmağa bir neçə verst qalmış Aslan paşa dayandı və Əhməd bəyi qabağa göndərdi.

Ərəb-Zəngi qalada oturmuş və görürdü ki, Qıratın üstündə elə bil qəbirdən xortdamış arıq, sarı rəngli, çaş gözlü bir nəfər ona tərəf gəlir. O, adam Ərəb-Zəngiyə yaxınlaşanda o, yerindən qalxdı və əlində sıyrılmış qılınc onu öldürmək niyyətilə ona yaxınlaşdı. Amma yalançı Əhməd bəy mahnıları ilə özünü ona tanıtdı. Ərəb-Zənginin əli yanına düşdü. Şah İsmayıl ona xəbər verdi ki, Aslan paşa yaxınlıqda onu gözləyir. O, Ərəb-Zəngini guya öldürəcəyi bəhanəsilə Aslan paşanı öldürmək üçün aldadıb bura gətirmişdi. Şah İsmayılla Ərəb-Zəngi öz aralarında Aslan paşanı cəzalandırmaq barədə şərtləşdilər.

Şah İsmayıl guya Ərəb-Zəngini öldürmək məqsədilə ona ox atdı və bilərəkdən yan vurdu. Qılıncını sıyırdı və Ərəb-Zəngiyə öldürücü zərbə endirdi və o, yalandan yerə yıxıldı və özünü ölmüş göstərdi.

Şah İsmayıl onun başını əli ilə tutdu və Aslan paşanı yanına çağırdı ki, onun boynunu vursun. Aslan paşa onlara yaxınlaşanda Şah İsmayıl Ərəb-Zəngini buraxdı. Ərəb-Zəngi Aslan paşanı yerə yıxdı və gözlərini çıxardı.

Bundan sonra Şah İsmayıl öz qalasına daxil oldu. Sağ-salamat xilas olduğu üçün böyük məclis qurdular. Sonra isə o, arvadları ilə öz şəhərinə qayıtdı və əcdadlarının taxtına oturdu.

O, gözü çaş qalsa da, dövlətini yaxşı idarə edirdi.

# ƏLİXAN

Padşah Hacı Səidin uzun müddət uşağı olmurdu. O, dəfələrlə müxtəlif vasitələrə əl atdısa bir fayda görmədi. Axırda o, Allaha üz tutdu, on bir dəfə ziyarətə getdi ki, Allah onun dualarını eşitsin və ona övlad versin.

Bir dəfə o, üzünü qırxdıranda qəm-qüssə içində saqqalına dən düşdüyünü gördü. Əllərini dizlərinə vurdu, dərindən bir ah çəkdi. O, ucadan dedi:

– Uşağım yoxdu, bəs mənim var-dövlətimin varisi kim olacaq?

Saqqalını qırxan dəllək ona məsləhət gördü ki, Allaha xoş getsin deyə fəqir-füqəraya kömək etsin, əyin-başı olmayanları geyindirsin, acları doyuzdursun, yedizdirsin, susamışları içirtsin. Onda bütün rəiyyəti hökmdarlarının yaxşılığını görüb onun üçün dua edəcəklər və Allah onların duasını eşidib ona bir varis oğul verər. Padşah dəlləyin məsləhətinə əməl etdi, o gündən hamıya əlindən gələn köməyi etdi.

Bir dəfə Hacı Səid məçiddən çıxanda onun qapısında atılmış yeni doğulmuş bir körpə uşaq gördü. O, çox sevindi, onu qaldırdı qucaqladı və evinə gətirdi. Uzun müddət bilmədilər körpəyə nə ad qoysunlar. Axırda qərara gəldilər ki, onun adını Tapdıq (tapılmış) qoysunlar. Sonralar məlum oldu ki, o, Zariyə adlı yaşlı bir qızdan qanunsuz olaraq doğulmuşdur.

Tapdıq sarayda yaşamağa başladı. Hacı Səid arvadı ilə onu öz doğma oğulları kimi sevdilər. O, böyüyüb-boya başa çatanda Allah Hacı Səidə oğlu Əhmədi və qızı Pəri xanımı verdi.

Hacı Səid ona bəxş etdiyi iki oğul və bir qıza görə Allaha təşəkkür etmək üçün on ikinci dəfə Həccə yola düşmək istədi. Bu dəfə o özü ilə arvadını və Tapdığı götürmək istədi. Amma axırda Əhmədin çox təvəqqesindən sonra Əhmədi götürüb Tapdığı və Pərixanımı evdə qoymalı oldu. Tapdıq və Pəri-

xanım qan qohumu olmadıqlarını bilmirdilər və bir-birlərini lap doğma insanlar kimi sevirdilər.

Hacı Səid yola düşəndən sonra bir dəfə Tapdıq bazardan evə qoyun əti və başqa yemək ərzaqları gətirdi. O, həyətdə durmuş Pərixanımı görüb onu çağırdı və təvəqqe etdi ki, yaylığın içindəki ərzaqları evə aparsın.

Həyətdə iki qoca qarı da durmuşdurlar. Onlar Tapdığın Pərixanıma "Əziz bacım" dediyini eşidib ona dedilər:

– Axmaq, o sənin bacın deyil. Sən Zariyənin oğlusan, o isə Hacı Səidin qızıdır. Yaxşısı budur ki, padşah qayıdanadək sən onunla evlən, yoxsa bu gün sabah Əhməd böyüyəcək və padşah səni qovacaq, Əhməd isə taxta oturacaq.

Tapdıq bunu eşidib evə qayıtdı və Pərixanıma dedi ki, nə olursa olsun onlar evlənməlidirlər. Pərixanım təəccüblə ona dedi:

– Sən mənə evlənmək istəyirsən. Əziz qardaşım, Allaha dua et ki, şeytan səndən uzaq olsun. Necə ola bilər ki, qardaş bacıya evlənsin. Axı bu Allaha və onun peyğəmbərinə xoş olmaz.

Tapdıq Hacı Səidin mülklərindən və taxtından məhrum olmamaq üçün özünə söz verdi ki, nə olursa olsun evlənməlidirlər. O, Pərixanıma işin məzğini başa saldı və dediyinin üstündə durdu.

Pərixanım görəndə ki, indi Tapdıqla danışmağın yeri deyil, özünü elə göstərdi ki, razıdır, özü isə gizlənmək qərarına gəldi. O, bir bəhanə ilə otaqdan çıxıb yuxarı mərtəbəyə qalxmağa başladı. O, yuxarıya qalxmış idi ki, şübhə ilə onu izləyən Tapdıq ona tərəf atıldı. Pərixanım onu elə itələdi ki, yerə yıxıldı və başı yaralandı.

Pərixanım bir bacı kimi onun bu halına dözməyib pilləkəndən aşağı endi. Qardaşının yarasını yudu, yaraya kül səpdi və əskilə yaranı sarıdı. O, yaranı sarımağı yenicə qurtarmışdı ki, qasid gəlib xəbər gətirdi ki, Hacı Səid ailəsilə

şəhərə yaxınlaşır. Onda Tapdıq hiylə işlədib xəyanətkarcasına Pərixanıma dedi:

– Ziyarətə gedənin atının nalını öpən ziyarətdə olmuş hesab edilə bilər.

O, bunu deyib ziyarətdən gələnləri qarşılamağa tələsdi.

Tapdıq olanları bacısının atasına xəbər verəcəyindən qorxdu və onu məhv etmək qərarına gəldi.

Hacı Səid ondan axsamasının səbəbini soruşanda o, dedi ki, onlar burada olmayanda Pərixanım sevgililərini başına yığırdı. Və güc ilə onları dayandırmaq istəyəndə onun sevgililəri onu döydülər.

Hacı Səid ailəsinin başına gələn bu biabırçılığa dözmədi. O, oğlu Əhmədə əmr etdi ki, evə gələnədək dərhal gedib Pərixanımı öldürsün və qəbirdə basdırsın.

Əhməd Pərixanımla görüşüb atasının əmrini yerinə yetirə bilmədi. Bacı qardaş qucaqlaşdılar. O, bacısından təvəqqe etdi ki, geyinsin və onun dalınca gəlsin. O, burada da onu hansı məqsədlə özü ilə götürdüyünü ona demədi. Onlar gəldikdən sonra o, bacısının köynəyini çıxartdı və kəsdiyi keçinin qanına bulaşdırdı. O köynəyi atasına göstərmək üçün özü ilə apardı.

Pərixanım gecələri meşədə keçirdikcə Əlixan adlı bir gənc yuxuda görür ki, ona içməyə su verirlər. Bu yuxuda o, Pərixanımı görür. Ona deyirlər ki, o, mərmər hovuzun yanında, meşənin tənha yerində yaşayır və o, bu qızla evlənməlidir.

Əlixan həmin gecədən onu axtarmağa başlayır. Bununla yanaşı Pərixanım da ona vurulur.

Bir dəfə Pərixanım meşədə oturanda hardansa bir atlı gəlib çıxır. Atlı ona təklif edir ki, atının tərkinə minsin. O, bir xeyli razı olmur, çünki atlını birinci dəfə idi görürdü. Axırda Pərixanım atlının istəyinə razı oldu. O, onu mərmər hovuzun yanına gətirdi. Əlixan yuxudan oyanıb özünə uzun müddət gələ bilmədi. Axırda o, tərlanı və ov itlərini götürüb ova getdi.

Əlixan ov ovlaya-ovlaya gəlib Pərixanımı tapdığı mərmər hovuza çatdı. O, Pərixanıma çox sual verdi, amma Pərixanım ona cavab vermək istəmədi. Onda Əlixan ondan xəbər alanda ki, o, kimdi və belə bir vaxtda meşədə nə işi var? O mahnı ilə cavab verdi:

– Əgər bilmək istəsən mən Hacı Səidin qızı Pərixanımam. Ağa, kim olduğumu görürsən. Mən buradamı olmalı idim?!

Əlixan elə həmin gecə onu öz evinə apardı. Bütün bu vaqiə bir gecədə baş verdiyindən xidmətçilər, nökərlər xəbər tuta bilmədilər.

Səhər xidmətçilərdən biri onun yanına gəlir və ağasının tək olmadığını görüb o biri xidmətçilərə də xəbər verir. Onların hamısı maraq içində otağa girdilər və Pərixanımın gözəlliyinə valeh oldular.

Bir müddətdən sonra Pərixanım əvvəl bir oğlunu, sonra ikinci oğlunu doğdu.

Günlərin bir günü Əlixan harasa uzağa ova getdi. Evdə arvadı və iki oğlu qaldılar. Pərixanım bu vaxt anasını yadına saldı və içdən ağlamağa başladı. Əlixan ovdan qayıtdı, arvadını kədər içində gördü və səbəbini soruşdu. Pərixanım ona cavab verdi:

– Bunun heç bir faydası olmayacağını bilə-bilə nə üçün ağlamağımın səbəbini sənə deyim.

Əlixan yenə israr etməyə başladı ki, o, ağlamağının səbəbini açsın. Axırda Pərixanım ona güzəştə getməyə başladı. Pərixanım tələb etdi ki, o, Qurana and içsin ki, onun təvəqqesini yerinə yetirəcək. Pərixanım ona dedi ki, o öz anasını yadına salıb və nə olur-olsun onunla görüşmək istəyir.

Əlixan çox götür-qoy etdi ki, bunu necə rahat şəkildə etmək olar. Axırda belə qərara gəldi ki, arvadını və oğullarını özünün sevimli böyük dəstəsi və gözətçilərinin müşayiətilə göndərsin.

Onlar axşam düşənəcən yol getdilər və gecələmək üçün körpünün yanında dayandılar. Burada iki çadır qurdular. Biri

Pərixanım və oğulları, o biri isə Lələ üçün. Gözətçilər hər iki çadırı dövrəyə aldılar. Gözərçilər axşamdan oxudular, oynadılar, rəqs etdilər və yatmaq vaxtı gələndə Əlixanın vəziri gözətçilərə dedi ki, xanın arvadı yorulub və qorxur ki, onlar onu narahat edərlər. Vəzir onlara əmr etdi ki, çadırlardan uzaq dursunlar.

Bu arada xanın arvadı yuxuya gedəndə vəzir onun çadırına soxuldu və özünün də Əlixandan heç də pis olmadığını, nə olursa olsun ona sahib olacağını deyərək onu təhqir etmək istədi. Pərixanım nə qədər çalışdısa, ağlını itirmiş qocaya ağıl versin olmadı. Axırda bir hiyləyə əl atdı. O, qocaya dedi ki, bir neçə dəqiqəliyinə bayıra çıxmalıdır və o, onu geri qayıdacağından arxayın etmək üçün bir ayağına ip bağladı və ipin ucunu ona verdi. O, bayıra çıxan kimi ipi ayağından açdı və onun ucunu kola bağladı. Özü isə bir ağaca çıxdı.

Vəzir onu çox gözlədi, onun gəlmədiyini görəndə Pərixanımı axtarmağa getdi. Axırda səhər o, Pərixanımı tapdı və o, ağacdan düşüb onunla getmək istəyəndə vəzir hirsindən Pərixanımın bir oğlunu, sonra isə o biri oğlunu öldürdü.

Pərixanım bundan sonra da ağacdan yerə enmədi. Onda vəzir ağacı baltalamağa başladı. Bu vaxt gözətçilər yuxudan oyanmağa başladılar. Vəzir Əlixanın oğullarının meyitlərini göstərib onlara dedi ki, xanın arvadı onları öldürdü. Özü isə öz sevgililərilə qaçıb getdi. Amma onun hansı tərəfə qaçdığını bilmir. Onun əmri ilə gözətçilər qara libas geyindilər, atları tərsinə yəhərlədilər. Özləri isə Əlixanın oğullarının meyitlərini götürüb onun yanına yollandılar.

Əlixan onların geri qayıtdıqlarını görüb Pərixanımın qohumlarının yanına getmək fikrindən yayındığına sevindi, amma bu sevinc ani oldu. Hələ uzaqdan matəmi görüb nə isə pis hadisə baş verdiyini başa düşdü. Onun nə baş verib sualına vəzir belə cavab verdi:

– Sən bu avara arvadı hardan tapmısan. O, nələr etmədi, axırda da oğullarını öldürdü və özünün əvvəlki sevgilisilə qaçıb getdi.

Arvadının bu hərəkəti haqqında bu sözləri eşitmək Əlixan üçün çox ağır idi.

Əlixan əynindəki bahalı libası çıxardı, dərviş libası geyindi və vəzirə təklif etdi ki, bir yerdə Pərixanımı axtarmağa getsinlər. Vəzir hər vasitə ilə getmək istəmədi. Dedi ki, nə qədər ki, ona 700 rubl verməyib o onu getməyə buraxmır. Əlixan 700 rubl əvəzinə 800 verdi. Əlixan vəziri yola gətirib özü ilə apardı.

Əlixan dərviş libası geyinib əlinə aldı, vəzir gələnədək həyətdə var-gəl etdi. Əlixan ucadan bayatı oxuyurdu. Vəzir həyətə girib dərviş libasında olan Əlixanı tanımayıb onun üstünə qışqırdı:

– Bu necə olub ki, dərviş cürət edib icazəsiz həyətə girib. Əgər Əlixan onu görsə onu sağ buraxmayacaqdır.

Bu vaxt Əlixanın qüssəsi daha da artdı. O, vəzirə mahnı ilə cavab verdi:

– Mən Əlixanam,
Dərviş libası geymişəm
Vəzir, sən Allah, yola düş.
Pərim mənim hara getdi?

Onlar dərviş libasında Pərixanımı axtarmağa getdilər. Onlar düz yeddi il gəzib dolaşdılar.

Bu arada gözətçilər Əlixanın yanına gələndə həmin gün səhər Hacı Səidin çobanlarından biri sürünü Pərixanımın çıxdığı ağacın yanına gətirdi. Pərixanımın əynindəki libasların üstündəki qızılın parıltısından qoyunlar qorxub dağılışdılar. Çoban hirslənib onları döyməyə başladı. Çobanın görmədiyi Pərixanım ondan təvəqqe etdiki, qoyunları boş yerə vurmasın, çünki onların qorxuya düşməsinin təqsirkarı odur. Çoban onu görən kimi tələb etdi ki, o, ağacdan aşağı ensin. Pərixanım ağacdan enməyə söz verdi, bu şərtlə ki, ona heç bir pislik etməyəcək.

Pərixanım ağacdan düşdü. O, könüllü olaraq əynindəki libası və qızılları çobana verdi və əvəzində çoban libası geyindi. Saçlarını gizlətmək üçün başına qoyun qarnı qoydu.

Bundan sonra o, çobanla nəzakətli vidalaşdı. Məktub yazıb onu körpüyə yapışdırıb, ata evinə yollandı. Məktubda bu yazılmışdı: “Yoldan keçən ağalar, tacirlər bu məktubu Əlixana çatdırın”.

Ata evində onu heç kim tanımadı. Belə ki, o, çox ehtiyatlı idi. O, padşah evinə adi qulluqçu kimi düzəldi. Düz yeddi il ata evində qulluq etdi. Bütün bu vaxt ərzində ona Keçəl Əhməd deyə müraciət edirdilər.

Bu arada Əlixan gəzə-gəzə onun uşaqlarının və arvadının yaxınlığında öldükləri həmin körpüyə yaxınlaşdı. Gördü ki, bəzirgan Pərixanımın yazdığı məktubu oxuyur. O, məktubu götürdü və vəzirdən gizlicə onu oxudu. Bu məktubdan o bildi ki, Pərixanım atasının yaşadığı vətəninə gedib. O, məktubda Əlixandan təvəqqe edirdi ki, onun harada olmasından asılı olmayaraq onun dalınca getsin və tapsın.

Əlixan Hacı Səidin olduğu şəhərə gəlib çıxdı. O, bazarda adi dərviş kimi nağıllar danışmağa başladı. Elə həmin vaxt Hacı Səidin oğlu Əhməd də həmin bazarda idi. Keçəl Əhməd də onu müşaiyət edirdi. Pərixanım Əhmədin bacısı idi. O, dərvişi görüb sevimli ərini, onun yanında olan oğlanlarının qatilini tanıdı.

Yalançı Keçəl Əhməd bazardan qayıtdıqdan sonra Hacı Səidə müraciətlə dedi ki, Qurana əl basıb and içsin ki, onun təvəqqesini yerinə yetirəcək. Padşah söz verdi və Keçəl Əhməd padşahdan təvəqqe etdi ki, o, bir günlüyünə ixtiyarı ona versin,onun vəzifələrini isə öz üzərinə götürsün.

Onda Keçəl Əhməd padşah kimi sarayda məclis günü kimi nağılları belə tanışlar dərvişləri Əlixan və vəziri saraya çağırdı. Tapdığı Əhməd və padşah ailəsindən başqa adamlar masa arxasında otururlar.

Şam yeməyi vaxtı dərviş oxumağa başlayanda yalançı Keçəl Əhməd dözə bilmədi, dərvişin əlindən balalaykanı (*sazı – tərt.*) aldı və oxumağa başladı. Sənin hər iki oğlunun qatili yanındakı vəzirdir. Mənə evlənmək istəyən yanındakı bu Tapdıqdır. Mən isə Hacı Səidin qızı Pərixanımam.

Pərixanım bunu deyib hörüklərini gizlədən başındakı qoyun qarnını da çıxartdı. Anası və Hacı Səid onu tanıdılar. Pərixanım hökmdar kimi əmr etdi ki, Tapdığı ocaq qurub ocaqda yandırsınlar.

Bundan sonra hər şey məlum olduqdan sonra atası, anası və qardaşı Pərixanımın tapılmasına sevindilər və yeddi gün Əlixana toy çaldırdılar. Sonra Əlixan Pərixanım öz evlərinə qayıtdılar. Xalq öz hökmdarı xanın və xan arvadının qayıtmasına sevindi, onların adına məclis quruldu.

Pərixanım evə qayıtdıqdan sonra əmisinin iki oğlunu yanına gətizdirdi və analarının gözü qabağında onların öldürülməsini əmr etdi. Əmisinin özünə toxunmayıb diri saxladı ki, bir vaxtlar çəkdirdiyi əzabları özü çəksin.

## NOVRUZ

Kərim paşa güclü padşahlardan biri idi. O, uzun illərdir ki, sonsuz idi. Paşa arvadı ilə oğlan və ya qız varisini dünyaya gətirmək üçün müxtəlif vasitələrə əl atırdılar.

Günlərin bir günü əri evdə olmayanda arvadı pəncərənin qabağında oturmuşdu. Bu vaxt pay yığan bir dərviş pəncərəyə yaxınlaşdı. Padşah arvadı öz dərdini ona danışdı. Dərviş ona bir cüt alma verdi və dərhal gözdən itdi. Onu nə qədər axtardılarsa, tapa bilmədilər.

Günorta Kərim paşa evinə qayıtdı. Arvadı ona dərvişin iki alma verdiyini və sonra isə özünün gözdən itdiyini danışıb onu vaqiədən hali etdi. Padşah və arvadı almayla nə etdiklərini

bilməyərək çox götür-qoy etdilər. Axırda almaları yemək qərarına gəldilər.

Bu işin üstündən 9 ay keçdikdən sonra Kərim paşanın arvadı bir oğlan uşağı doğdu. 10-12 yaşınadək ata-anası Novruzu (oğlanı belə adlandırmışdılar)-evdən bayıra buraxmırdılar. Amma bir dəfə onu lələsilə gəzməyə yola saldılar. Şəhərin kənarında Novruz üç aşıq (müğənni) gördü. Sadəlövhlüyündən onları buynuzlu adamlara oxşatdılar. Onda lələsi ona izah etdi ki, onlar müğənnidilər. Onların buynuzları yoxdur, buynuza oxşayan balalaykadır[18] (*sazdır – tərt.*). Novruzu maraq götürdü: onun xahişi ilə aşıqlar çaldılar-oxudular. Onların çaldığı nəğmələr Novruzun o qədər xoşuna gəldi ki, o, təəssüfünü də bildirdi ki, əsən külək mahnının bir hissəsini özü ilə aparırdı. Bu da onun daha çox zövq almasına mane olurdu. Novruz daha gəzmək istəməyərək aşıqları evinə dəvət etdi. Aşıqlar bir ay müddətində onun evində yaşadılar. Aşıqlar hər axşam orada oxuyur və balalaykada çalırdılar. Bundan əlavə onları yedirir və içirdir və həm də elə səxavətlə onları makafatlandırırdı. Onlar o qədər varlandılar ki, sərvətlərini qoymağa yer tapmırdılar.

Bir dəfə Novruz yuxusunda görür ki, ona camda su verirlər və bu suyun içində Cəlal paşanın qızının əksi var. Elə bu andan da o qıza vurulur.

Kərim paşa oğlunun aşıqları belə səxavətlə mükafatlandırdığını bilib qorxdu ki, o qısa müddət ərzində tamamilə müflisləşə bilər. O, çox götür-qoy etdi. Nə etsin ki, Novruz aşıqları buraxsın. Axırda o belə bir fikrə gəldi ki, aşıqları aldatmaq lazımdır ki, Novruz onlardakı var-dövləti əllərindən almaq və özlərini də qovmaq istəyir. Odur ki, onlar əllərindəki var-dövlətdən məhrum olmamaq üçün Novruz yatanda qaçıb getsinlər.

---

[18] Mətndəki balalaykanın saz olduğu şəksizdir. Nağılın sonrakı səhifələrində balalayka sözünün yanında mötərizədə (saz) yazılması da bunu təsdiq edir – *tərt.*

Aşıqlar Kərim paşanın özlərini ondan bixəbər gizlincə eşitdilər, gecə yarısı var-dövlətlərini yığıb-yığışdırıb Novruzun evini tərk edib qaçdılar.

Elə həmin gecə aşıqlar qaçıb gedəndə Novruz Kandatturu yuxusunda gördü. Nədənsə onu qara basdı. Ağzı köpükləndi nəsə onu boğmağa başladı. O yuxudan ayılıb ağır yuxunu unutmaq üçün aşıqları səslədi. Onlardan hay verən olmadı. O, aşıqların xəbər-ətərsiz çıxıb getdiklərini biləndə bir nəfəri göndərdi ki, ona balalayka (saz) alsın.

Novruz balalaykanı (saz) əllərinə alıb atasının yanına gəldi. Və onlara dedi ki, Cəlal paşanın qızı Kandatturu ona buta veriblər və onun dalınca gedir. O, bunu deyib onlarla vidalaşdı. Onun ana-atası çox kədərləndilər. Ona xeyir-dua verdilər o, doğma evini tərk etdi.

Novruz yolda bir çox məcaralardan sonra bir gəmidə üzməli oldu. Gəmi dənizin ortasında olanda bir tufan qopdu və gəmi bütün sərnişinləri ilə batdı. Təsadüfdən bircə Novruz xilas oldu. O, dənizin ortasında bir taxtanın üstündə qalıb batmış gəminin yanında uzun müddət üzdü. Axırda mayakdakı bir dənizçi gördü ki, batan gəminin yanında bir adam var. Dənizçi gəmiyə tərəf üzüb Novruzu gördü. O, Novruzdan kim olduğunu xəbər aldı. Novruz ona bir cavab vermədi. Onda dənizçi sualını nəğmə ilə oxuyub təkrar edəndə o ona nəğmə ilə cavab verdi. O, nəğməsində gəmiyə necə gəlib düşdüyünü onun necə batdığını və özünün Kərim paşanın oğlu olduğunu və Cəlal paşanın qızı Kandattura ilə evlənməyə getdiyin dedi. Dənizçi onu öz qayığına mindirdi, və onu öz evinə gətirdi. O, evinə gəlib Novruzu qızı Gülzarla tanış edib dedi ki,ona bir qardaş tapmışdır, lakin qızı dedi:

– Nə üçün ona qardaş deyim, daha yaxşı ona ərə gedərəm.

O, qonağa yer saldı, qu tükündən iki yastıq qoydu və Novruza dedi ki, otursun Novruz oturan kimi atasının öyüd

nəsihətlərinə baxmayaraq onun yanında oturdu. Atası qızının ağlını itirdiyini, utancaqlığını unutduğunu görüb Novruza təklif etdi ki, bağa çıxıb onunla gəzsin, bəlkə bu vaxt ərzində cin-şəyatin qızının ürəyindən uzaqlaşar və qızı ağıllanar.

Novruz və dənizçi bağa getdilər və elə orada da gecələdilər. Səhər Novruz dənizçi ilə vidalaşdı və yoluna davam etmək istəyəndə Gülzar gəlib onun yolunu kəsdi və dedi ki, nə qədər ki, o, onunla evlənməyəcək onu buraxmayacaq. Onda Novruz sözlərinin qıza təsir etmədiyini görüb xəncərilə Gülzarın əlində olan arxalığının ətəyini kəsdi və qaçdı! Gülzar var qüvvəsilə onu çağıranda o, geri qayıdanda mütləq onunla evlənəcəyini dedi və yoluna davam etdi.

Az getdi, üz getdi, dərə təpə düz getdi, axır gəlib Cəlal paşanın vilayətinə yetişdi. O, padşahın sarayına girəndə burada çalıb oxuyan aşıqlar gördü. Cəlal paşaya yeni gəlib çıxmış aşığın, yəni Novruzun xəbərini verdilər. O, əmr etdi ki, onu bağa aparsınlar və yeddi gün yedirib içirtsinlər və səkkizinci gün sınağa çəksinlər. Bu arada Novruzun qaldığı bağa Kandattura gəlməyə başladı. Onlar bağda təklikdə qalıb bir-birinə isinişdilər. Bir gün Kandattura Novruza dedi:

– Sən atamın hüzurunda nə vaxt oxusan, ona de ki, ondan bir təvəqqen var!

Nə vaxt ki, o sənin təvəqqeni yerinə yetirəcəyinə “Quran”a əl basıb and içəçək o, vaxtadək bir söz söyləmə. Nə vaxt ki, o and içdi, onda de ki, mənimlə evlənməyə gəlmişsən.

Yeddi gün gəlib keçdi, səkkizinci gün padşah yeni gəlmiş aşığı yadına saldı və onun əmrinə görə Novruzu saraya apardılar. Novruzun oxuması və balalaykada (sazda) çalması Cəlal paşanın çox xoşuna gəldi. Cəlal paşa aşığı mükafatlandırmaq istədi, aşıq hədiyyələri almaqdan boyun qaçırdı. O, dedi ki, onun hökmdardan bir təvəqqesi var. Əgər hökmdar “Quran”a əl basıb and içsə ki, onun təvəqqesini

yerinə yetirəcək ,onda o, istəyini hökmdara deyəcək. Cəlal paşa çox dirəndi, amma axırda and içdi. Novruz ona dedi ki, onun qızı Kandattura ilə evlənmək üçün bura gəlmişdi. Padşah dərvişin belə bir cəsarətli təvəqqesini eşidib qeyzləndi, cəlladları hüzuruna çağırdı və onun boynunu vurdurmaq istədi. Amma burada olan vəzir və əyanları padşahdan təvəqqe etdilər sakitləşsin, aşığı isə məsləhət gördülər ki, bir müddətə zindana salsınlar. Padşah onların təvəqqesini yerinə yetirdi, aşığı yeddi gündən sonra məhkəməyə vermək niyyətilə zindana saldılar. Kandattura Novruzun həbs olunması xəbərini eşidəndə dərddən xəstələndi və gündən-günə zəifləməyə başladı. Axırda anasına dedi ki, onun dərdinin dərmanı Novruzdur, anası isə elə bildi ki o, novruzgülü, bahar gülləri istəyir və dərhal onnan bir dəstə novruzgülü gətizdirdi. Kandattura bir daha təkrar etdi ki, onun xəstəliyinin səbəbi Novruzdur. Bu vaxt ona daha çox gül gətirdilər. O, balalayka (saz) istəyəndə ona qaz gətirdilər. Kandattura isə balalaykada çalaraq öz kədərinin səbəbini ata-anasına bildirmək istəyirdi. Axırda o, cürət edib dedi ki, həbs edilmiş aşığa ərə getmək istəyir. Sevgilisi həbsdə olduğu üçün xəstələnmişdir. Bu xəbəri padşaha çatdıranda o, hirsləndi və əmr etdi ki, şahzadə qızı da başqa zindana salsınlar.

Novruzun həbs edilməsinin altıncı günündə padşah yuxusunda gördü ki, yol gedir, amma nə qədər çalışırsa məqsədinə, müqəddəslərin qəbrinə çata bilmir. Nəsə ona mane olur, öz vədini yerinə yetirmədən evə qayıtmalıdır. Birinci yuxudan sonra o, ikinci yuxu görür ki, əlində iki şam var, bu iki şam öz-özünə sönür.

Belə qorxulu yuxulardan sonra Cəlal paşa səhər bütün münəccim və vəzirləri hüzuruna yığır və onlara gördüyü yuxuları danışır. Amma onlardan heç kim bu yuxuları yozmağa boyun olmur. Birdən hardansa bir dərviş gəlib çıxır. O, padşahın yuxularını belə yozur:

– Sənin birinci yuxun o deməkdir ki, qibleyi-aləm, sən günahkar adamsan. Allah o səbəbdən sənin dualarını qəbul etmir ki, sən Qurana and içmisən, amma öz vədini yerinə yetirməmisən.

İki şam isə rəmzi olaraq biri sənin qızını, biri sənin kürəkənini bildirir. Sən onları birləşdirməkdənsə, öldürmək istəyirsən. Beləliklə, sən onların həyatını birdəfəlik söndürmək istəyirsən.

Novruz boynu vurulacağı gün öz taleyindən padşahın yuxularından, dərvişin yozumlarından bixəbər özünün axırıncı bayatısını oxudu. Bayatı Kərim paşanın oğlu olduğunu, Cəlal paşanın yanına ona bərabər bir adam kimi gəldiyini onun isə onu öldürmək istədiyinndən bəhs edirdi. Elə bu vaxt padşah zindanın yaxınlığından keçirdi, hər şeyi eşitdi və məmnun oldu ki, onun əsiri adi dərviş deyil, şahzadə Novruzdur.

Hökmdar Novruzun bayatısına axıradək diqqətlə qulaq asıb saraya qayıtdı və əmr etdi ki, şahzadəni onun hüzuruna gətirsinlər. Sonra o, çoxsaylı gözləri bağlı xalqın və öz əyanlarının hüzurunda Novruza dedi ki, indi onun yanından çox qız keçəcək, əgər o, qızlar arasında olan Kandatturu tanısa qızını ona ərə verəcək, əgər tanımasa, onun boynunu vurduracaq.

Kandatturadan başqa 19 qız – vəzirlərin, nazirlərin, əyanların qızlarını da gətirdilər. Qızlar Novruzun yanından keçirdilər, o, padşahın əyanlarının adını bilməsə də, onların qızlarının adlarını çəkirdi. Beləliklə on səkkiz qız gəlib keçdi, on doqquzuncu qız qazinin ağsaq və bir gözü kor olan qızı idi. O, qız təvəqqe edirdi ki, aşığı öldürməsinlər, onu ərə versinlər. Həmin qız Novruzun yanından keçəndə o, bu nəğməni oxudu:

Sənin ayağın ağsaqdır, gözün isə pərdəlidir,
Xoş gəldin, qazinin qızı!

Qız onu söydü və tutulmuş halda çıxıb getdi.

Axırda iyirminci qız keçəndə Novruz bu qızın öz sevgilisi Kandattura olduğunu bildi. Onun əlindən tutdu və qucaqladı. Hökmdar isə dedi ki, o, səhv edir, çünki qız Kandattura deyil.

Novruz isə onu heç eşitmək belə istəmədi. Onu buraxmayaraq tələb etdi ki, gözlərini açsınlar. Onun gözlərindən sarğını götürəndə o, dedi ki, o, Kərim paşanın oğlu şahzadə Novruzdur. Bundan sonra Cəlal paşa qızına toy etdi və toya az qala bütün şəhər əhlini çağırdı. Novruz Cəlal paşanın yanında qalmayıb arvadı ilə getməli olanda padşah ona və qızına yaxşı bir at bağışladı. Onların keçib getməli olduqları yolda buradan keçənləri öldürən təkgöz bədheybət (Kəlləgöz) yaşadığı üçün onları təhlükədən qorumaq üçün Cəlal paşa özün ən cəsur gözətçilərindən birini onlara təhkim etdi.

Novruz və Kandattura Cəlal paşanın və arvadının xeyir-duasını aldıqdan sonra gözətçinin müşayiətilə yola düşdülər. Onların bir yerdə getməsi uzun sürmədi. Yolda gözətçi onları tək buraxıb evinə qayıtdı. O, əmin idi ki, Kəlləgöz mütləq Noruzu öldürəcək və onda o, Kandatturu özünə alar. Xain döyüşçü belə düşüncələr içində saraya qayıtdı. Cəlal paşaya dedi ki, onları sağ-salamat təhlükəli yerdən keçirdi. Onlar da heç bir təhlükə olmadığından və təkbaşına getmək istədiklərini söylədilər.

Novruz Kəlləgözün evinə yaxınlaşanda o, çox sevindi və dedi:

– Xoş gəlmisiniz, səhər yeməyinə bir şeyim oldu.

Novruz Kəlləgözə sözünün qurtarmağına imkan vermədi, ona bir ox atdı, ox gedib sinəsinə batdı və o, yerə ölü düşdü. Bu vaxt Novruz Kəlləgözün evinə yaxınlaşanda onun qızı evin damında durmuşdu və Novruzu görəndə ona səsləndi:

– İgid, özünə yazığın gəlsin, geri qayıt, yoxsa atam səni öldürəcək.

Novruz Kəlləgözü öldürəndə o, Şahpəriyə (bədheybətin qızını belə adlandırırdılar) öldürdüyü atasının meyidini göstərdi. O, atasını öldürülmüş görüb Novruza dedi:

– İndi ki, sən mənim atamı öldürdün, onda sən mənimlə evlənməlisən. Sən məni burada tək buraxa bilməzsən.

Novruz onun istəyini yerinə yetirdi və iki arvadı - Kandatturu və Şahpəriylə yoluna davam etdi. Onlar bir az yol getmişdilər ki, dənizçinin qızı Gülzar onların yolunu kəsdi. Novruz öz əhdini yadına saldı və onunla evləndi. Dördü də Kərim paşanın evinə doğru yollarına davam etdilər.

Az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, onların qabağına bir ceyran çıxdı. Novruz ceyranı qovmağa başladı və öz arvadlarından çox aralandı! Arvadları bunu görüb öz aralarında danışmağa başladılar: "O, bu ceyranı bizim üçümüzdən çox istəyir, gəlin onu tərk edib geri qayıdaq". Elə də etdilər. Onlar atlarını çapıb getdilər, Novruz arxasına baxıb gördü ki, arvadlarını buraxıb getdiyi yerdə indi onlar yoxdular. O, ucadan oxumağa və təvəqqe etməyə başladı ki, onlar geri qayıtsınlar və onu atmasınlar. Onlar çox inad etsələr də, sevimli Kandattura dözmədi və birinci geri qayıtdı və onun arxasınca da Şahpəri və Gülzar qayıtdılar. Onlar yollarına davam etdilər.

Yolda üç çoban qoyun sürüsünü otarırdı. Onlar Novruzu arvadları ilə görəndə onlardan biri deyir:

– Budur üç gözəl qız at belində gedirlər və onların da yanında bir cavan oğlan var. Gəlin onu öldürək, sonra mən ağ atın belində gedən (bu Kandattura idi) qızı alaram, qalanları isə siz götürərsiniz.

Onlar belə qərara gəlib aralarında ən güclü olanı əlində uzun dəyənəklə Novruzun üstünə göndərdilər. O, Novruzu öldürmək istədi. Novruz nə qədər təvəqqə etdi, nə qədər yalvardı ki, onlara mane olmayıb buraxsınlar, çoban inad etdi, onlara yol vermədi. Onda Novruz çobana qurban gedəcəyini görüb kədərini bir qədər yüngülləşdirmək üçün bayatı oxumağa başladı. O, bayatıda başına gələnlərdən-vətənini, qohumlarını tərk etməsindən, necə onları görmək istəməsindən, lakin çobanın ona öz məqsədinə çatmağına mane olmasından danışdı. Çoban bayatıdan onun ağası Kərim paşanın oğlu olduğunu

öyrəndi. Ondan üzr istədi, atını çapıb Kərim paşanın yanına muştuluğa getdi. Şahzadə Novruzun ata-anası çoxdan idi ki, yas libasları geyinmişdilər.

Kərim paşanın sevincinin həddi-hüdudu yox idi, o, çobanı səxavətlə mükafatlandırdı və sonra onu özünə vəzir təyin etdi.

Çoban təğyir-libas olub bahalı libaslar geyindi, qoşunla, əyanlarla və xalqla Novruzu qarşılamağa çıxdı. Görüş vaxtı çobanlar indi vəzir olmuş yoldaşlarını tanımadılar.

Novruz xalqın müşayiətilə arvadları ilə birlikdə saraya gəlib çatdı. Novruz atasının hüzuruna gəlib onları atasına təqdim etdi. Onun ata-anası oğullarının sağ-salamat qayıtması münasibətilə böyük bir məclis qurdular.

Bundan sonra Kərim paşa hələ uzun illər yaşadı, öləndə isə taxt-tacını oğlu Novruza verdi. Novruz ədalətlə və müdrükcəsinə xalqı idarə etdi.

## ÇIĞALI

Bir padşahın Ceyran adında tək övladı var idi. Ceyran şahzadə olsa da, işləməyi çox xoşlayırdı. O, hər gün səhər tezdən əlində tikmə həyətə düşür və bütün günü bu işlə məşğul olurdu.

Günlərin bir günü evə qayıdanda ağacda ağ sapların dəstəsini unutdu. Gecənin bir vaxtı saplar qırovla (çiğə) örtüldü. Səhər o, qırovlu sapları görəndə onun ağlına bir fikir gəldi. Ola bilsin ki, qonşu vilayətdə hökmranlıq edən Çığalı (yəni Çiğ Əli) padşah da yəqin belə gözəldir və ya bu sap dəstəsi kimi bəyaz tənlidir. O vaxtdan Çığalı padşahın adı onun başından çıxmırdı, o, hər səhər düşünürdü ki, bu Çığalı görəsən necə adamdır. O qədər fikirləşdir ki, axırda Çığalıya vuruldu.

Günü gündən onun məhəbbəti daha da artırdı. Bu məhəbbətin gücündən yazıq qız gündən-günə zəifləməyə başladı, az qala öləcəkdi. Atası onun xəstəliyinin səbəbini öyrənməyə çalışdı. Dəvət edilmiş həkimlər də şahzadəylə nə baş verdiyini

öyrənə bilmədilər. Axırda onlardan biri padşah qızının xəstəliyinin səbəbini öyrənməyə boyun oldu. O, padşahı öz məqsədindən hali edib, gizlicə Ceyranın otağına girdi. O, yatdığı vaxt tavandan iki qoç asdı. Biri arıq, biri kök. Özü isə şahzadə qızın qadın qohumları ilə başqa otaqda nə olacağını gözləməyə başladı. Ceyran yuxudan oyanan kimi tavandan asılmış qoçlar onun gözünə dəydi. O, arıq qoça müraciətlə dedi:

– Məgər sən kök yoldaşının yediyi yemdən yeməmisən, o içdiyi sudan içməmisən? Bəlkə sən də mənim kimi Çığalı üçün dərd çəkirsən?

Həkim axırıncı sözləri eşidən kimi o saat padşaha xəbər verməyə getdi ki, onun qızı Çığalı padşaha vurulmuşdur və buna görə də dərd çəkir. Padşah çox götür-qoy etdi, necə etsin ki, Çığalı onun qızı ilə evlənsin. Çünki o, qızının xilas olması üçün hər şeyə hazır idi. O, vaxt itirmədən özü Çığalı padşahın yanına getmək qərarına gəldi.

Çığalı padşah qonşu vilayətin padşahının onun yanına gəlməsindən xəbər tutub öz əyanları ilə onu qarşılamağa çıxdı və qonağı böyük ehtiramla qarşılaşdı.

Sarayda hər iki padşah təkbətək qalanda Ceyranın atası Çığalı padşaha dedi ki, onun qızı ona vurulmuşdur. Ona görə də qız xəstələnmişdir. O, Çığalıya öz qızı ilə evlənməyi təklif etdi.

Çığalı sevinc içində onun təklifini qəbul etdi və toyun vaxtını təyin etdi. Çığalı evinə yola düşən padşaha dəsmalını verdi və dedi:

– Qoy şahzadə qız bu yaylığı iki dəfə yusun. Birinci yuyulmanın suyunu öz evinin astanasına töksün, ikincini qonşunun. Onda onun evinin astanasında qızılgül kolu bitəcək. Qonşu qadının evinin astanasında tikan.

Bundan sonra padşah Çığalı ilə vidalaşdı və öz evinə qayıtdı. O, Çığalının dəsmalını dərhal qızına verdi və onun tapşırığını çatdırdı.

Qonşu arvadın qızı bu söhbəti gizlicə eşitdi. Gözəl Ceyran dəsmalı alıb, sağaldı, yatağından qalxdı və dəsmalı yumağa başladı. Bu vaxt qonşunun qızı Fatma gəldi və ondan maya istədi.

Şahzadə qız yerindən tərpənməyərək mayanın harada olduğunu göstərdi və Fatmadan təvəqqe etdi ki, özü götürsün.

Fatma göstərilən yerdən dəstəni götürüb gizlətdi və Ceyrana dedi ki, mayanı axtarıb heç bir yerdə tapmır. Onda şahzadə qız Fatmanın pis niyyətindən şübələnməyərək ayağa qalxdı və o, mayanı axtaranacan Fatma fürsət tapıb birinci yuyulmanın suyunu götürdü, fürsət edib suyu aparıb öz qapılarının astanasına tökdü, ləyənə yenidən su töküb əvvəlki yerinə qoydu. Sonra Fatma mayanı götürüb hiyləcərcəsinə Ceyrana təşəkkür etdi və getdi.

Bir müdətdən sonra şahzadə qızın astanasında bədbəxtlikdən tikan kolları, Fatmanın astanasında isə qızılgül kolu bitdi.

Günlərin bir günü Çığalı padşah saray adamlarının və əyanlarının müsaiyətilə gəlinin dalınca gəldi. O, gəlib qızılgül kolunu axtarmağa başladı və onu bir evin astanasında tapdı, buradakı qız onu çox təəccübləndirdi.

Nə etmək olar, o, bəzənib-düzənərək onu gözləyən yalancı gəlin Fatmanın evinə girdi. Çığalı və əyanları Ceyranın evinə deyil, Fatmanın evinə gedəndə şahzadə qız boyük kədər içində anasından bu halda nə etməli olduğunu xəbər aldı. Anası ona yalnız bunu dedi:

– Səbr et, Allah böyük və mərhəmətlidir.

Qonşu evdə kəbin kəsməyə hazırlaşırkən o, yenə də anasına müraciət edib nə etməli olduğunu xəbər alanda yenə həmin cavabı aldı.

Yeni evlənmiş ər-arvad evdən çıxanda o, yenə həmin sualla anasına müraciət etmək istəyirdi. Amma heç bir kömək olmayacağını görüb özündən çıxmış halda diz çöküb Allaha yalvarmağa başladı. O, elə həmin anda ağ göyərçinə çevrildi və

Çığalının arvadının başını quş zılı ilə çirkləndirərək onların başı üzərində dolanmağa başladı. Göyərçinin peyda olması Çığalının diqqətini çəkmədi, amma Fatma göyərçinin gözəl Ceyran olduğunu bildi.

Yeni evlənmiş ər-arvad Çığalının sarayına gəldilər, amma göyərçin də onlarla gəldi. Onda şahın arvadı tələb etməyə başladı ki, göyərçini kəssinlər, çünki zılı hər tərəfi çirkləndirir və boş yerə onları narahat edir.

Çığalı arvadının istəyini yerinə yetirdi. Şəxsən özü göyərçinin başını arvadının ona verdiyi göy boşqabda kəsdi. O, çalışdı ki, göyərçinin bir damcı qanı da yerə tökülməsin. Qanı bir kiçik qaba tökdülər və padşahın arvadı onu özünə götürdü.

Ceyranın bəxtindən nə padşah, nə də Fatma göyərçinin bir damcı qanının yerə töküldüyünü görmədilər. Qan damcısının töküldüyü yerdə çox gözəl qovaq ağacı bitdi. Fatma bu ağacda da öz rəqibi Ceyranı tanıdı. Tələb etməyə başladı ki, yeni doğulmuş körpəsinə həmin ağacdan kəsib nəni düzəltsinlər. Əri arvadının bu tələbini də yerinə yetirdi. Padşahın arvadı ağac yenidən bir də bitməsin deyə özü şəxsən nəni düzəltdikdən sonra qovaq ağacının artıq qalan parçalarını bir yerə yığdı və yandırdı. Amma necə oldusa bir taxta parçası onun ayıq gözlərindən kənar qaldı.

Onların qonşusu kasıb Mina qarı həmişəki kimi Çığalının həyatində doğranan ağacların artıqlarını yığıb evinə gətirdi. Həmin ağacların içində qovaq parçası da vardı. Bu taxta parçasını yandırmağa onun heyfi gəldi. Ona görə də o, bu taxta parçası ilə mayanın ağzını örtdü və özü qazanc dalınca getdi.

Axşam evinə qayıdanda isə otağının səliqə-səhmanla yığılmasını, yeməyinin bişirildiyini görüb çox təəccübləndi. Qarı tək yaşadığından qonşulardan xəbər aldı ki, bəlkə onlar bu otağı yığıb yığışdırıb. Qonşu arvadlar yox cavabı verdilər.

Mina adəti üzrə hər gün işə gedirdi. O, bu işlə özünü güclə dolandırırdı və işdən geri qayıdanda otağını silib süpürülmüş görürdü. O, axırda bu gizli köməkçisinin kim olduğunu öyrənmək üçün bir hiyləyə əl atdı.

Bir dəfə qarı özünü həyətdən gedirmiş kimi göstərib öz-özünə ucadan danışmağa başlayıb dedi ki, bu gün işdən axşam qayıtmalı olacaq. O, özünü işə gedirmiş kimi göstərib əslində həyətə geri qayıtdı və qapının arxasında durub qaravul çəkməyə başladı.

Budur, bir də gördü ki, maya üzərində olan qapaq bir qıza çevrildi. Həmin qız otağı süpürüb-silməyə, yığışdırmağa başladı. Qız təmizlik işini qurtarandan sonra dolaba qayıtdı. Elə bu vaxt qarı onu hər iki əli ilə tutub saxladı, o, nə qədər yalvarsa da təvəqqe etsə də buraxmadı:

– Yaxşı oldu! İndi ki, Allah səni mənə göndərib səni nə üçün buraxım?

Bu vaxtdan qız sonsuz, tək yaşayan dul arvadın yanında yaşamağa başladı.

Bir neçə gündən sonra Çığalı padşahın nökərləri şəhərdə gəzib dolaşmağa və adamlara padşahın tövləsindən atlar paylamağa başladılar. Onlar bu atları müəyyən müddət qulluq saxlamalı idilər. Əlbəttə ki, atları yedirməyə imkanı olanlar alırdı. Minanın qızlığı qarıya yalvarmağa başladı ki, o, da padşahdan təvəqqe edib bir at alsın. Qarı qızın təvəqqesini yerinə yetirməkdən boyun qaçırdı. Lakin qız atı özü yedirib – içirəcəyini dedi və qarı razı oldu.

O, padşahın nökərlərindən bir at təvəqqe etdi. Onlar ona rədd cavabı verdilər. Onda qız israr etdi ki, qarı şəxsən Çığalı padşahın hüzuruna gedib onun özündən təvəqqe etsin.

Padşah əvvəlcə onun təvəqqesini yerinə yetirmək istəmədi, dedi:

– Sən atı necə və nə ilə saxlayacaqsan?

Amma görəndə ki, qarı əl çəkmir, əmr etdi ki, ona bir dəri, bir sümük olan pis atı versinlər. Qarının qızı atı yaşadıqları otaqla bir olan tövləyə salaraq ona qulluq etməyə başladı.

Həmin vaxt axurun bir tərəfində bitməyən su, o biri tərəfində yem peyda oldu. At gündən-günə kökəlməyə başladı və ən qısa zamanda elə bir biçimli ata çevrildi ki, onu şəhərdə ən çapağan at kimi göstərmək olardı.

Üç aydan sonra atlar padşaha lazım oldu. Padşahın nökərləri şəhəri gəzib dolaşmağa başladı və atları yığmağa başladılar. Bədbəxtliyə bax ki, paylanmış atların yerinə onların dərilərini toplayırdılar. Belə ki, sərt qışa görə yemsizlik səbəbindən atlar tələf olmuşdur.

Mina qarının növbəsi gəlib çatdı. Nökərlər ondan verdikləri atın dərisini tələb etdilər, amma qarı dəri əvəzinə onların qarşısına gözəl at çıxardı. Padşahın nökərləri bu işə xeyli təəccüb etdilər və padşaha xəbər verməyə getdilər.

Onlar saraya padşahın hüzuruna getməkdə olarkən qarının qızlığı Çığalının dəsmalı ilə atı üç dəfə vurdu və dedi:

– Əgər padşahın nökərləri səni vursalar mən gəlib "qalx" deyənədək uzan, tərpənmə! Əgər sən buna əməl etməsən qoy Allah mənim yaxşılıqlarımı bilmədiyinə görə sənin cəzanı versin!

Bu arada padşahın nökərləri geri qayıtdılar və qarıya hədiyyələr gətirdilər, amma nə qədər çalışsalar və atı qamçılasalar da at yerindən tərpənmir və qarının otağı tərəfə baxırdı.

Adamlar hal-qəziyyəni padşaha xəbər verdilər. O, şəxsən tövləyə gəldi. Amma at əvvəlki kimi inad göstərirdi və elə hey qarının otağının qapısına tərəf baxırdı. Bu padşahın diqqətini çəkdi. O, əmr etdi ki, orada nə var ki, at elə hey ora baxır.

Nökərlər padşaha xəbər verdilər ki, otaqda padşah arvadı olmağa layiq gözəl qızdan başqa heç kim yoxdu. Padşahın əmrinə görə qarının qızı gəldi. O, üzünü örtmüşdü. O, Çığalınınn dəsmalını çıxarıb onunla üç dəfə atın belinə vurdu və

onlara müraciət etdi ki, hərə bildiyi nağılı burada danışsın. Hamı müxtəlif bəhanələrlə nağıl danışmaqdan boyun qaçırdı.

Qarının qızını göstərərək dedilər ki, o, çox ölkələrdə olub. Ceyran özü də padşaha layiq bir nağıl danışmaq istəsə də, ədəb qaydalarını bildiyinə görə danışmadı. Padşah israrla tələb edəndə o, öz hekayətini danışmağa başladı. O, bütün əhvalatı öz adından deyil, başqasının adından danışmağa başladı.

Beləcə nəql etdi ki, bir padşah var imiş. O, bir qızla nişanlanır. Amma keçəl qızla evlənib beləcə aldanır. Sonra isə onun nişanlısı bir göyərçinə, ağaca, sonra yenə də qıza çevrilir.

Bunu danışanda bütün həqiqət üzə çıxdı və Çığalı necə aldadıldığını və arvadının doğrudan da keçəl olduğunu bildi. O, əmr etdi ki, onu uşağı ilə eşşəyə mindirsinlər və bütün şəhərdə gəzdirsinlər və axırda üstlərinə neft töküb yandırsınlar.

Bundan sonra Çığalı özünün əsl nişanlısı şahzadə Ceyran ilə evləndi. Toy etdilər, şad-xürrəm yaşamağa başladılar və köhnə dərdlərini unutdular.

## SÖVDƏGƏR ƏHMƏD

Bir vaxtlar Dərbənd şəhərində Sövdəgər Əhməd çağırılan varlı bir tacir yaşayırdı. O, yer kürəsinin müxtəlif yerləri ilə öz ticarətini edirdi, bu iş üçün onun qırx nəfər buyruqçusu var idi. Onlar müxtəlif şəhərlərdə ticarət əməliyyatları ilə məşğul olurdular.

Günlərin bir günü o, buyruqçularının hamısını Dərbəndə çağırdı və onlardan olduqları şəhərləri soruşmağa başladı. Buyruqçular ona bir çox şəhərlərin adlarını söylədilər. Moskva, Peterburq, Paris, London, İstanbul, Təbriz və s. Amma Qafqazın paytaxtı Tiflis haqqında heç kim bir söz demədi. Sövdəgər Əhməd əlində olan bütün malları götürüb, buyruqçularını, oğlu Məmməddən heç də az sevmədiyi nökəri Yusifi də yanına qoşub Tiflisə yola düşdü. O, yola düşərkən əvvəlcə yeganə övladı Məhəmmədi götürmək, Yusifi isə evdə qoymaq istədi.

Sonra götür-qoy etdi ki, Yusif inciyə bilər və elə ehtimal edə bilər ki, Əhməd onu sevmir və ona qarşı riyakarlıq edir.

Bir neçə gündən sonra Əhmədin karvanı Tiflisdən bir neçə verst aralıda Hərami burnu adlanan yerə çatdı. Onlar burada gecələmək qərarına gəldilər.

Qədim zamanlarda quldurlar burada çox dolaşırdılar. O vaxtlar burada məşhur Səid Məmmədin başçılığı altında qırx adamdan ibarət bir dəstə gizlənirdi. Səid Məmməd Əhmədin düşərgəsindən uzaqda deyildi və o, durbin vasitəsilə bütün karvanı və yolçuları gözdən keçirdi. Yusif qəddi-qamətinə görə Səid Məmmədin xoşuna gəldi. Buna görə yoldaşlarına təklif etdi ki, gizlicə gecə vaxtı yaxınlaşsınlar və Yusifi oğurlasınlar.

Hamı karvanı çox sayda gözətçilərin qoruduğunu deyib bu işə boyun olmadılar. Səid Məmməd öz məqsədinə çatmaq üçün istər-istəməz özü getməli idi. O, bir gözünü və qolunu sarıdı. Təğyir-libas olub cır-cındır geyindi və axşam tacirin yanına pay dilənməyə getdi. Karvan yolçularından hər biri ona pay verdi.

Artıq axşam düşmüşdü, Əhmədin ona ürəyi yanıb yazığı gəldi. Ona Yusifin yanında gecələməyə icazə verdi. Karvandakıların hamısı yatdı. Yusif də yatdı, bircə Səid Məmməd yata bilmədi. Elə ki, Səid Məmməd gördü ki, karvana sakitlik çökdü və Yusif dərin bir yuxuya gedib, o, onu yorğana büküb çiyninə aldı və tələm-tələsik karvanı tərk etdi.

Səhər karvan ayağa qalxanda baxıb gördülər ki, Yusif və yalançı dilənçi yoxdur, onu gördüm deyən olmadı. Əhməd çox kədərləndi, ediləsi bir şey yox idi. Karvan matəm içində yoluna davam etdi.

Əhməd Tiflisdə özü kimi varlı tacirlə – Gürcü Vəli adlı bir tacirlə tanış oldu, onunla dostlaşdı. Əhməd bu dostluğu daha da möhkəmlətmək üçün Vəlinin gözəl qızı Gülzarı oğlu Məhəmmədə istədi. Əhməd bütün malları satdıqdan kəbin kəsildi və o, Gülzarı da qulluqçuları ilə götürüb öz evinə - Dərbəndə yola düşdü.

Karvan sağ-salamat Hərami-burnunu, Şamaxı və Qubanı keçib Dərbəndə yaxınlaşırdı. Məhəmməd atasının yaxınlaşmaqda olduğunu bilib bir dəstə atlılarla onu qarşılamağa çıxdı.

Atasını qarşılayarkən o, nişanlısı Gülzarı və onun qulluqçularını gördü. Nişanlısının kəccavəsinin yanından keçəndə Gülzarın çox çirkin, üzü qırış olan bir qulluqçusu hamıdan əvvəl onun gözünə dəydi; nişanlısını isə görmədi. Məhəmməd bu qulluqçunun nişanlısı olduğunu zənn edərək fikrə daldı: "Atam Tiflisdə qızları ərə yaxşı cehizlə verdiklərini bilərək belə qarımış qız aldı ki, daha çox cehiz alsın. Sanki özünün var-dövləti az idi".

Məhəmməd o saat ürəyində özünə söz verdi ki, nə olursa olsun arvadı ilə yaşamayacaq. Onlar gəlib şəhərə çatdıqda yeddi gün, yeddi gecə toy etdilər, yedilər-içdilər. Bu şadyanalığa bir neçə yüz min manat xərcləndi. Toyun axırıncı günü gəlini Məhəmməd gəlinin gəlməyinə etiraz etməsə də, onun üzünə belə baxmadı. Yerli adətə görə səhər "yengə" və başqa arvadlar gənc qıza baş çəkərdilər. Indi də yeni evlənənlərin gecəni necə keçirdiklərini öyrənməyə gəldilər. Məhəmməd hamısına səxavətlə mükafatlandırdı və təvəqqe etdiki, onun qohumlarına hər şeyin yerində olduğunu və Məhəmmədin ər kimi öz vəzifəsini yerinə yetirdiyindən əmin olduqlarını desinlər. Halbuki nə Məhəmməd, nə də gələn arvadlar gəlini heç görməmişdilər.

Yazıq Gülzar tam iki ay evdə oturmuş və ərini bir dəfə də olsun görməmişdi. Onun yanına Tiflisdən gətirdiyi qulluqçu qız gəlirdi. Bu qulluqçu qıza da Məhəmməd hədiyyələr verməyi unutmurdu ki, o, bu sirri açmasın.

Məhəmmədin dostlarından biri olan Hacı Mürşüdün toyu olmasa idi, yazıq Gülzar hələ uzun müddət ailə həyatının sevinclərindən məhrum qalacaqdı. Əhmədin ailəsinin bütün qadınları - Məhəmmədin bacısı və arvadı, kişilərdən isə təkcə Məhəmmədin özü toya dəvət edilmişdi.

Məhəmməd qadın məclisinin yanından keçəndə içəri baxdı və gördü ki, pəncərənin qabağında padşah arvadı olmağa layiq yaraşıqlı bir gözəl qadın oturmuşdur və onun haqqında məlumat toplamağa başladı. Hamı ona eyni cavabı verdi:

– Sən arvadınla fəxr edirsən. Hamı bilir ki, o, qəşəngdir, gözəldir. Nə üçün başqalarını qıcıqlandırırsan?

Məhəmmədin yoldaşları yeyib-içdilər, o isə pəncərənin yanında durub elə hey arvadına baxdı...

Gülzar bunu sezdi və şalı başından açdı ki, Məhəmməd onu daha yaxşı görsün. Məhəmməd toy qurtarana kimi pəncərənin yanında durdu. Toy qurtaranda hamı evinə dağılışdı.

Məhəmməd də evinə gəldi və dəlicəsinə vurulduğu arvadına ehtiras içində yaxınlaşmaq istədi. Amma nə qədər istədisə, Gülzar onu otağına buraxmadı. Axırda o, dedi:

– Sabah cıdır olacaq,mənə bir dəst kişi libası, silah və gərəkən hər şey tap. Cıdırda iştirak edək, evə qayıdanda səninlə barışaram.

Məhəmməd qızın dediklərinin hamısını hazır etdi: özü üçün də yaxşı bir at tapdı, qıza isə Dərbənd at yarışlarında qalib olan çapağan atı yəhərlədi ki, cıdırda iştirak etsinlər. Cıdır vaxtı Gülzar hamını ötüb keçdi. Hamı təəccübləndi. Onun kim olduğunu bilmirdilər, yalnız Məhəmməd bilirdi. Başqaları onu Məhəmmədin qaynı bilirdilər.

Gülzar iki-üç məsafə at çapıb atın başını döndərdi və böyük poçt yolu ilə Tiflisə tərəf götürüldü. Məhəmməd başa duşdu ki, o, öz qəddarlığına görə son dərəcə pis cəzalandırılmışdır. O, bildi ki, indi arvadına çatmaq qeyri-mümkündür. Çünki Dərbənd atlarından heç biri ona yetişə bilməzlər.

Yalnız bir vasitə var idi, o da arvadını kəndarası yolla qabaqlamaq idi. Məhəmməd Gülzara çatdı və onu Qubaya gedən yolda Xaladar adlanan yerdə ötüb keçdi.

Gülzar təvəqqe etdi ki, ona yol versin. Məhəmməd ona yalvardı ki, keçmişdə olanı unutsun və evə qayıtsın. Amma

Gülzar sözündən dönmədi və əri ona yol vermədiyindən o, qılınc zərbəsilə onu başından yaraladı, özü isə atını çapıb getdi. Bu arada maraq ona güc gəldi və o çevrilib arxaya baxdı. O, arxaya baxanda qanın içində uzanmış ərini gördü.

Qaynatası Əhmədə olan ehtirama görə ərinin yanına qayıtdı. Onun qanını yudu, yarasını sarıdı, özü yerdə oturdu, Məhəmmədin başını o özünə gələnədək dizləri üstə qoydu.

Elə ki, Məhəmməd ayıldı və Gülzarı gördü, yarasını unutdu və onu öpmək istədi. Amma Gülzar bunu etməyə imkan verməyib dedi:

– Kişilər onlara yaxşılıq etməyə layiq deyillər.

Bunu deyib onun başını daşın üstünə qoydu, özü isə atını çapıb yoluna davam etdi.

Gülzar Tiflisə gəlib çatanda atası onu əvvəlki nişanlısına tiflisli tacir Hacı Murtuzun oğlu Əbdülhaşıma ərə verdi.

Əvvəllər Əbdülhaşım Gülzarla evlənməyə çox can atırdı, amma indi dərin fikrə getdi, çünki artıq o, başqa adamın arvadı idi. Nəhayət, qohumlarının arzularını yerinə yetirərək öz iradəsi ilə bu evliliyə qərar verdi. Bu arada Məhəmməd toya bir neçə gün qalmış Tiflisə gəlib çıxdı və ara düzəldən müxtəlif qarıların vasitəsilə Gülzardan təvəqqe etməyə başladı ki, Gülzar yenə onun yanına qayıtsın.

Toy artıq başlamışdı, amma Məhəmmədin aradüzəldən qarıları hər vasitə ilə toyu pozmağa çalışırdılar. Gülzarın qulağına Əbdülhaşımın onunla öz istəyinə görə deyil, qohumlarının təkidinə görə evlənməsilə bağlı dedi-qodular çatdığına görə o, Məhəmmədə xəbər vermişdi ki, toy gecəsi onu Əbdülhaşımın qapısının ağzında gözləsin, əgər o, dedi-qoduların doğru olduğundan əmin olsa, onda onunla qaçacaq.

Toy gecəsi Əbdülhaşım Gülzarı əvvəl onunla nişanlı olduğu halda başqasına ərə getməsinə görə məzəmmət etdi, söz sözü çəkər, yeni evlənənlər dalaşdılar. Gülzar ağacla yeni

ərinin başına vurdu və özünü həyətə atdı. Və vaxt itirmədən onu gözləyən Məmmədlə Dərbəndə yola düşdü.

Yolda onlar Yusifin qaçırıldığı Hərami burnu adlı yerdə qaldılar. Həmin gecə Səid Məmməd Məhəmmədin dayandığı yerin yaxınlığında idi. O, durbinlə ilə baxıb, yatan Məhəmməd və Gülzarı gördü. Onları görüb sevindi və öz yoldaşlarını, Yusifi onların üstünə göndərdi. Gecə olduğundan Yusif Məhəmmədi tanımadı. Quldurlar əvvəlcə yatmış Məhəmmədi öldürmək qərarına gəldilər, sonra fikirlərini dəyişdilər. Əvvəlcə yuxudan oyatmaq, sonra isə öldürmək istədilər. Quldurlar Məhəmmədi yuxudan oyatdıqda və quldurbaşının əmrini yerinə yetirmək üzrə onu öldürmək istəyəndə Gülzar onlardan təvəqqe etməyə başladı ki, ərini öldürməsinlər, çarəsiz qaldıqda onu uzağa aparsınlar ki, onun ölümünü görməsin.

Məhəmmədi aparanda Yusif onu tanıdı. O, bayatı oxumağa başladı. O, bayatısında Tiflisin Məhəmmədin atasını məhv etdiyini, əvvəl sevimli Yusifindən, indidə oğlundan məhrum olduğundan danışdı. Yusif Məhəmmədi xilas etməyin yolunu çox götür-qoy etdi. Axırda yoldaşlarını yola gətirməyə çalışdı ki, Məhəmmədə toxunmasınlar, o, nəğmələr oxuyub onları əyləndirə bilər. Yoldaşları razı oldular, Məhəmməd və Gülzarı quldurbaşının yanına apardılar və Səid Məmmədə dedilər ki, o, yaxşı aşıqdır, buna görə də onu öldürməyib onun yanına gətiriblər.

Yusif özünü Məhəmmədə tanıtmağın yolunu çox götür-qoy etdi. Axırda o, macal tapıb özünü Gülzara tanıtdı və onunla quldurların əlindən qurtulmağın yollarını fikirləşdilər.

Səid Məmməd Gülzarı görəndə onun sevincinin həddi-hüdudu olmadı. O, bir məclis qurdu və adət üzrə onunla evlənmək istədi. Bu məqsədlə bir neçə qoç kəsdilər. Ət, yağ, düyü tapıb müxtəlif yeməklər bişirməyə başladılar. Məhəmməd aşbaz kimi Gülzarın göstərişilə yemək bişirir, Yusif isə xidmətçi idi. Gülzar yeməyə zəhər qatıb quldurlara verdi, onlar dərin yuxuya

getdilər. Məhəmmədlə Yusif bu işdən əvvəlcədən xəbərdar idilər. Elə ki, quldurlar yemək yeyib yatdılar, Məhəmməd daha vaxt itirmədən hamısının başlarını kəsdi. Zəhər yalnız Səid Məmmədə təsir etməmişdi. O, yerindən qalxmaq istədisə Yusif qılınc zərbəsilə onu yaraladı, ikinci zərbə ilə isə öldürdü.

Yusif, Məhəmməd və Gülzar ölmüş quldurların meyidlərini burada buraxıb, onların var-dövlətini də götürüb Dərbəndə gəldilər. Əhməd oğlunun arvadı və Yusiflə sağ-salamat gəldiklərini bilib bir böyük dəstə atlıların başında onları qarşıladı.

Əhməd gələn kimi Yusifə də onun könlüncə bir qız seçib nişanladı. O, yenidən toy etdi, bütün şəhər əhlinin iştirak etdiyi toyda iki həftə boyunca yeyib içdilər, şənləndilər. Əhməd Yusifin və Məhəmmədin qayıtması münasibətilə ehtiyacı olan hər kəsə kömək etməyə başladı, var-dövlətinin yarısını az qala xərclədi.

Bundan sonra Məhəmməd Gülzar ilə uzun illər xoşbəxt yaşadılar və keçmişdə olanları unudub bir-birlərini çox sevməyə başladılar.

***Göyçay ikisinfli kənd məktəbinin nəzarətçisi Nikolay Kalaşev tərəfindən toplanıb.***
***Göyçay, 1888-ci il.***

## SƏQQA YUSİF

Bir dul arvadın Yusif adında gözünün ağı-qarası bir oğlu var idi. Oğlan boya-başa çatanda anası onu var-dövlətli bir tacirə nökər verdi. Tacir bir vaxtdan sonra Yusifin vicdanlı və diribaş olduğunu görəndə onu öz dükanına, daha sonra isə özünə işlər müdiri təyin etdi.

Günlərin bir günü tacir Yusifi özü ilə bir şəhərə apardı. Yusif burada bir müddət tacirin xidmətində oldu. Yusif görəndə ki, bu şəhərin su ticarəti yaxşı gəlir gətirir, o, bu işlə məşğul olmaq üçün sahibindən təvəqqe etdi ki, onu işdən

azad etsin. Tacir bir söz deməyib onu sərbəst buraxdı. Yusif tuluğda su daşımağa başladı və bu münvalla gündə iki manat qazanırdı. Çox keçmədən ondan su almaq istəyənlərin sayı o qədər artdı ki, o, hamıya su çatdıra bilmədi. Bir dəfə Yusifdən su alanlar ondan təvəqqe etdilər ki, əgər bacarsa, suyu xanın həyətindən götürsün, çünki oradakı su şəhərdə ən yaxşı su idi. Yusif nökərlərin köməyi ilə bu işi qura bildi və o, həmin gündən hamıya xan bulağından su gətirməyə başladı.

Yusif son dərəcə gözəl, yaraşıqlı bir cavan oğlan idi. Xanın qızı hər gün Yusif bulaqdan su götürəndə onun gözəlliyindən həzz alırdı. Xanın qızı gündən günə Yusifə aşiq olur, ona könül verirdi. Qız onunla söhbət etməyə fürsət axtarmağa başladı. Belə bir fürsət ələ düşdü. Söhbət əsnasında xan qızı ondan gündə nə qədər qazandığını xəbər aldı. Yusif ona iki manat deyəndə xan qızı ona həyətindəki gül və ağacları sulamağı tapşırdı və bu iş üçün ona günə üç manat maaş təyin etdi. Yusif sevinc içində gülləri və ağacları sulamağa başladı. Yusif gülləri və ağacları sulayanda qız da onun yanında dururdu, axırda o, könlünü oğlana açdı. Yusif də onu sevirdi, bəlkə də ondan daha çox sevirdi, amma bunun sonrakı nəticələrindən qorxaraq ondan qaçmağa başladı. Xan qızı onu hər cür arxayn edirdi ki, sevgilərinin sirr olaraq qalması üçün tədbirlər görür. Axırda Səltənət (xan qızının adı belə idi) Yusifə dedi ki, onu ata evindən götürüb qaçsın. Bunun üçün o çox böyük bir yeşik sifariş verdi, onun içinə çoxlu qızıl, gümüş və başqa qiymətli şeylər qoydu, belə ki, ata-anasının var-dövlətinin təqribən yarısını götürdü.

Təyin edilmiş gün o özü də yeşikdə gizləndi və Yusif yeşiyi götürüb gəmi ilə göndərdi. Həmin gün Yusifin keçmiş ağası Hacı Məhəmməd də getməli idi. Hacı Məhəmməd gəmi ilə getməmişdən əvvəl Yusifin yanına gəldi və onunla gedəcəyini vəd etdi, indi isə ondan təvəqqe etdi ki, anasına yazdığı məktubu

ona çatdırsın. O məktubunda anasına işlərinin yaxşı getdiyini ona yeşikdə müxtəlif hədiyyələr göndərdiyini yazmışdı.

Gəmi dənizə çıxmazdan əvvəl Səltənətin yoxa çıxması məlum oldu. Dərhal onu axtarmağa başladılar. Lakin bütün axtarışlar uğursuz oldu. Axırda Yusif şübhə oyandırdı. Belə ki, xana xəbər verdilər ki, ondan başqa kənar adamlardan heç kim Səltənətin sarayına gəlib getmirdi. Yusifi dərhal tutub saxladılar. Ona nə qədər işgəncə versələr də, döysələr də, cəzalandırsalar da, hətta öldürməklə hədələsələr də o, heç nəyi boynuna almadı. Belə olduqda xanın yaxın adamları ona dedilər:

– Bu tuluqcu Yusif nə karədir ki, xanın qızı Səltənəti qaçırtmağa cürət etmiş olsun. Məgər xanın qızı onunla qaçmağa razı olardımı?

Xan cavab verdi:

– Hesab edirəm ki, ondan şübhələnərək səhv etmirəm. Lakin O, əgər gərcəkdən günahsızdırsa, onda dözülməz işgəncələr qarşısında onu mükafatlandırmaq lazımdır.

O, dediyi kimi də etdi, Yusifə təqribən yüz çervon (əşrəfi) bağışladı və onu sərbəst buraxdı. Yusif əvvəl olduğu kimi öz işi ilə məşğul olmağa, yəni su gətirib şəhər adamlarına satmağa başladı.

Tacir məktubu və yeşiyi Yusifin anasına çatdırdı. Xeyirxah qadın oğlunun sağ-salamat olmasına sevindi, yeşiyə isə diqqət göstərmədi. Qadın qazmada təkbaşına yaşadığından hər axşam gecələmək üçün qonşularının evinə gedirdi və yeşiyi aldığı gün də elə etdi. Ertəsi gün səhər evinə qayıtdıqda qazmanı səliqə ilə silib süpürülmüş görəndə çox təəccübləndi, hətta ocaq yeri yenidən şirələnmişdi. O, bütün bu işlərin özünün etmiş olduğunu və sonra unutduğunu düşündü. Həmin günü evində keçirdi, axşam düşəndə isə qonşularından birinin evinə getdi. Səhər qazmasının yenə də səliqə səhmanla yığışdırılmış, qaydaya salınmış gördü. Onda qarı qətiyyətlə bu sirrin axırına çıxmaq

qərarına gəldi. Axşam düşəndə o,evdə olmayanda burada kimin gəldiyini öyrənmək üçün qapının arxasında gizləndi və keşik çəkməyə başladı. Birdən yeşikdən bir cavan, gözəl qız çıxdı, O, qoca qarını görən kimi özünü itirmiş halda yenidən yeşikdə gizlənmək istədi. Qoca qarı ona bunu etməyə imkan vermədi. Onda hər şey aydın oldu və onlar birlikdə burada yaşamağa başladılar. Bir neçə gündən sonra Səltənət özünün gələcək qaynanasına pul verdi və ondan təvəqqe etdi ki, Yusif gələnə kimi üçmərtəbəli gözəl bir imarət tikdirsin. Çox keçmədən qazmann yerində şahlara layiq bir imarət ucaldı. İmarət tikilib hazır olan kimi hər iki qadın evə hər avadanlıq alıb içini doldurub bəzədilər. Qoca qarı gəlini ilə yaşamağa başladılar.

Tacir Hacı Məhəmmədin işi elə gətirdi ki, o, yenə Yusifin yaşadığı şəhərə gəlməli oldu. O, ananın yanına gəldi ki, ondan hal-əhval tutsun və əgər onun Yusifə məktubu varsa, özü ilə götürüb ona çatdırsın. Baxıb nə gördü? Qazmanın yerində gözəl bir imarət ucalır. Qonşular ona bu imarətdə Yusifin anasının yaşadığını xəbər verdilər. O, gözlərinə inanmayaraq qarının yanına gəldi. Qarı məktub yazılanadək bir qədər gözləməsini təvəqqe etdi. Tacir bir yerdə oturub gözləməyə başladı. O, pəncərədən baxıb gördü ki, huri kimi bir gözəl qız evin bir tərəfində masanın arxasında oturub məktub yazır. Tacir bu gözəlliyi görəndə başı gicəlləndi, gözləri qaraldı. Bu vaxt o, başa düşdü ki, xan qızının qaçırılmasında Yusifdən şübhələnərkən səhv etməmişdi.

Yusif tacir Hacı Məhəmmədə çox yaxşılıqlar etmişdi. Odur ki, tacir ona xoş münasibət bəsləyirdi. Hacı Məhəmməd qızı gördükdən sonra Yusifə olan münasibəti bir anın içində yox oldu. O, Yusifi məhv etmək və nişanlısına sahib olmaq üçün bir fürsət axtarmağa başladı. Bu arada məktubu yazıb qurtardılar və tacir onu götürüb qarı ilə halallaşıb yoluna

düzəldi. Həsəddən qeyzlənmiş tacir məktubu açdı. Səltənət məktubda yazırdı:

Allaha şükürlər olsun, evimiz, mülkümüz, ürəyin istəyən hər şeyimiz var. Nə vaxtadək su daşıyacaqsan? Hər şeyi qoy, tez evə qayıt!

Tacir məktubu cırdı və anasının adından ona məktub yazdı:

– Əziz oğlum, sənə verdiyim südü unutdunmu əxlaqsızlıq edən bir pozğun arvadı yanıma göndərdin. O, burada bir neçə girişi olan böyük bir imarət tikdirib. Bir qapıdan o, yanına gələnləri içəri buraxır, başqa qapıdan isə yola salır. Səhərdən gecə düşənədək adamlar onu ziyarət edirlər. Gəl və məni xilas et! Biz əvvəllər kasıb yaşasaq da təmiz adımız var idi.

Yusif belə bir məktubu alıb çaşıb qaldı. Hər şeyi ticarəti, borcluları unudub tələm-tələsik anasının yanına yola düşdü. O, şəhərə gəlib çatanda öz qazmasının yerində doğrudan da bir neçə girişi olan gözəl bir imarət gördü. Bu vaxtadək cilovladığı qan beyninə vurdu. Anasının məktubuna inanaraq o yuxarı qalxdı. O, otağa girərək Səltənəti mürgüləyən gördü, anası isə başını onun dizləri üstünə qoyaraq möhkəm yatırdı. Səltənət yad addım səsləri eşidib yuxudan oyandı, amma əlində sıyrılmış xəncər olan qeyzdən ağlını itirmiş Yusifi görəndə dəhşətə gəldi, ana isə hələ yatırdı. Yusif sevimli Səltənətini əlindən yaralayıb onu pəncərədən küçəyə atdı. Bu vaxt üç gənc oğlan həmin küçədən keçirdilər. Onlar dərhal qızı yerindən qaldırdılar. Yarasını yuyub sarıdılar. Sonra öz aralarında qızın onlardan kimin bacısı olacaqdır deyə mübahisə etməyə başladılar. Mübahisə edərkən oradan bir atlı keçirdi. Mübahisəni eşidib dedi:

– Mübahisə etməkdənsə, yarışmaq daha yaxşı deyilmi? Evin ətrafında qaçın, sizlərdən kim bura birinci gəlib çıxsa qızı özü ilə götürsün?

Gənc oğlanlar atlının sözünə razı oldular. Onlar evin ətrafında qaçarkən atlı Səltənəti tərkinə alıb çaparaq getdi. Aldanmış gənc oğlanlar atsız olduqlarından atlıya heç cürə çata bilməzdilər. Atlı isə yoluna davam etdi, onun sevincinin həddi-hüdudu yox idi. Şəhərdən bir qədər aralandıqdan sonra Səltənətə yaxınlıq təklif etdi və yazıq qız nə qədər yalvardısa, atlı söz dinləmədi. Onda Səltənət hiyləyə əl atdı, atlıya təklif etdi ki, qoy əvvəlcə yaxınlıqdakı göldə çimsin, sonrasına baxarıq. Atlı Səltənətin istədiyini yerinə yetirməyə razı oldu. O, atdan enib geyim-keçimini, yaraq-əsləhəsini Səltənətin yanında qoyub çimmək üçün gölə girdi. Səltənət fürsətdən istifadə edib atlının geyim-keçimini geyindi, yaraq-əsləhəsini qurşandı və atına mindi, var-gücü ilə ata bir qamçı vurub dördnala çaparaq sürüb getdi. Aldanmış atlı vəziyyəti belə görüb tələm-tələsik çıxdı. Səltənəti nə qədər çağırdısa, o, hay vermədi, yoluna davam etdi, gözdən itib getdi.

Səltənət az getdi, üz getdi, dərə-təpə düz getdi, Allah bilir nə qədər yol getdi. Axırda gəlib bir çayın kənarına çıxdı. Səltənət buradan qayıqla çayın o biri kənarına keçmək istədi. Qayıqçı diqqətlə onun qəddi-qamətinə, əyin-başına baxıb onun qadın olduğunu bildi. O, Səltənətin gözəlliyini görüb ağzının suyu axdı, qayıq çayın ortasına çatanda Səltənətə təklif etdi ki, ona ərə gəlsin, yoxsa, onu öldürəcək. Səltənət ona itaət göstərib hiyləgərcəsinə dedi:

– Görünür bu mənim qismətimdir, bu pulları götür və mənə arvad paltarı al, onda mən də sənə əynimdəki paltarı verərəm və biz kəbin kəsdirərik. Qayıqçı gözəl və varlı arvadla yola çıxdığı qayıqla sahilə çatdı. Qayıq sahilə çatan kimi qayıqçı tez şəhərə yola düşdü. Səltənət isə qayıqla çayın o biri sahilinə keçdi və hara gedəcəyini fikirləşməyə başladı. Birdən təpənin arxasında bir dəstə atlı tərlanları və tulaları ilə göründü. Bu öz əyanları ilə ova çıxmış xan idi. O, Səltənəti

görər-görməz onun gözəlliyinə, qəddi qamətinə valeh oldu və dərhal evinə qayıtmaq qərarına gəldi. O, öz-özünə dedi:

– Nə qədər etsəm də, bundan yaxşı qənimət tapmaram. Hamı şəhərə qayıtdı. Səltənətdən başqa xanın altı arvadı var idi. Xan evinə gəlib çatan kimi kəbin kəsmək üçün bir molla dəvət etdi. Amma Səltənət yaslı olmasını bəhanə gətirərək qırx gün ərə getməyə razı olmayacağını dedi. Qırx gün çıxana yaxın o, xanla toy edə bilər.

Yasın otuz doqquzuncu günü xan ailəsini götürüb seyrə çıxdılar. Səltənət xan arvadlarına çayda qayıqda gəzməyi təklif etdi, onlar da razı oldular. Səltənət təklif etdi ki, özləri ilə qayıq götürsünlər. O, qayığı sürməyi öz boynuna götürdü. Onlar çayda qayıqla gəzəndə xan çadırdan onlara tamaşa edirdi. Birdən Səltənət qayığı əks sahilə yönəltdı. Qadınların hamısı sahilə çıxdılar. Qayığı çəkib sudan çıxartdılar, xan isə nökərləri ilə çadırda qaldı. Yazıq yeddinci arvadla evlənmək istəyirdi. Amma axırıncı onu altısından da məhrum etdi. Xan qayıq tapanadək onun arvadları sahildən çox uzaqlaşa bildilər. Bu vaxt yeddi dəliqanlı cavandan ibarət olan quldur dəstəsi onlara hücum etdi. Onlar görünməmiş belə qənimətə çox sevindilər və qızları özlərinə arvad etməyə razı oldular. Səltənət quldurbaşının payı oldu, başqaları isə dəstənin üzvləri arasında bölündü. Bu hadisə xan arvadlarını çox sevindirdi. Onlardan biri dedi:

– Biz az deyilik, on dörd nəfərik, belə olduqda hər cütlüyə niyə toy etməyək. Əgər pulunuz yoxdursa, mən onların xərclərini ödəyərəm. Quldurlar razılaşdılar onlardan biri kişi paltarı geyinmiş Səltənətlə şəhərə getdi ki, lazım olan ərzaqlardan və arvadlara müxtəlif geyim, zinyət əşyaları alsınlar. Səltənət başqa alınacaq şeylərlə yanaşı, ona yol yoldaşlığı edən quldurdan gizlincə bihuşdarı da aldı.

Səltənət və onun yol yoldaşı şəhərdən qayıtdıqdan sonra hamı birinci toya – Səltənətlə quldurbaşının toyuna hazırlaşmağa başladı. Yemək hazırlayan arvad yeməklərə Səltənətin gətirdiyi zəhəri qatdı. Quldurlar yeməklərdən yeyən kimi yerə yıxılır və huşlarını itirirdilər. Qadınlar isə bu fürsətdən istifadə edərək, quldurların libaslarını geyinib təğyiri-libas oldular, silahlandılar və elə onların atlarına süvar olub çaparaq getdilər, quldurlar isə dərin yuxuda qaldılar.

Bədbəxt xan arvadları çox yol getdilər. Axır gəlib bir şəhərə çatdılar, gördülər ki, şəhər meydanı yaman tünlükdür, adamla doludur. Xəbər alıb öyrəndilər ki, məmləkətin padşahı ölüb. Odur ki, şəhər əhli özünə padşah seçir. Bu şəhərdə belə adət var idi ki, dövlət quşu kimin başına qonsa idi o, padşah seçilirdi. Adətə görə məmləkətin bütün kişiləri burada olmalı idi. Odur ki, kişi libasları geyinmiş xan arvadları padşah seçkisində iştirak etməli idilər. Dövlət quşu qəfəsdən buraxılan kimi o uçub gəlib Səltənətin başına qondu. Səltənət o şəhərin rəiyyəti olmadığı üçün quşu bir də uçurtdular. Quş yenə gəlib onun başına qondu. Camaat yenə razı olmadı. Belə qərara gəldilər ki, dövlət quşunu üçüncü dəfə uçurdanda Səltənəti şəhərin kənarındakı tövlədə gizlətsinlər. Elə də etdilər. Quşu üçüncü dəfə də uçurtdular. Quş birbaşa Səltənətin olduğu yerə gəldi. Camaat naəlac qalıb Səltənəti özünə padşah seçdi. Səltənət bir şərtlə padşah olmağa razı oldu ki, onun altı yaxın yoldaşını ona əyan təyin etsinlər. Camaat bu təklifi qəbul etdi və Səltənət padşahlıq etməyə başladı. O, taxta çıxandan bir neçə gün sonra bir rəssam hüzuruna çağırtdırdı və ona əmr etdi ki, hamıdan gizli qadın libasında onun rəsmini çəksin. Rəsmi hazır olandan sonra əmr etdi ki, rəsmi şəhərin görkəmli yerindən assınlar. Səltənət rəsminin qarovulunu çəkmək üçün bir gözətçi də təyin etdi və ona tapşırdı ki, kim şəklə baxıb ah çəksə həmin adamı dərhal onun yanına gətirsin.

Birinci Səqqa Yusifi padşahın hüzuruna gətirdilər. Səltənət əmr etdi ki, Səqqa Yusifə gözəl otaq ayırsınlar və padşaha bişirilən yeməklərdən ona da versinlər. İkinci olaraq Hacı Məmmədi padşahın yanına gətirdilər. Səltənət əmr etdi ki, onu zirzəmiyə aparsınlar və ona gündə bir dəfə çörək qalıqları versinlər. Üçüncü olaraq pəncərədən küçəyə atılmış Səltənəti özləri ilə götürmək istəyən gənc oğlanları gətirdilər. Səltənət əmr etdi ki, onlara yaxşı bir otaq ayırsınlar və ürəkləri istəyən yemək və içməyi versinlər. Dördüncü olaraq atlını Səltənətin yanına gətirdilər. Həmin atlı ki, Səltənət onun libasını, yarağını və atını oğurlamışdı. Hacı Məmmədin başına gələn onun da başına gəldi. Beşinci olaraq qayıq sürəni Səltənətin yanına gətirdilər. Ona da yaxşı baxmağa başladılar. Altıncı olaraq arvadlarından məhrum olmuş xanı gətirdilər. Ona özünə uyğun otaq və xidmətçilər verdilər. Ən axırıncı olaraq yeddi arvadın aldatdığı quldurları gətirdilər. Hamısı həbs edildikdən sonra Səltənət bu adamların hər birini öz hüzuruna çağırdı və təklikdə nə üçün ah çəkdiklərini xəbər aldı. Onların hər biri öz hərəkətlərinə rəsmdəki gözələ olan sevgilə bəraət qazandıraraq macəralarını müfəssəl və olduğu şəkildə ona nəql etdilər. Səqqa Yusif də öz təqsirini etiraf etdi, arvadına yazığı gəldi, onun barəsində deyilənləri yoxlamadan, onun özü ilə söhbət etmədən onu yaraladığını və evdən qovduğu üçün peşman olduğunu bildirdi. Səqqa Yusifi otaqdakı pərdə arxasında oturtdular ki, deyilənləri özü eşitsin. Ondan sonra Hacı Məmməd gəldi. O, etiraf etdi ki, Yusif Səqqanın arvadına həsəddən ərinin qarşısında şər atmışdır. Sonra başqaları da sorğu-sual edildilər. Səltənət xana arvadlarını qaytardı. Quldurları gördükləri pis işlərə görə cəzalandırdı.

Əmr etdi ki, Hacı Məmmədi çarmıxa çəksinlər. Atlı və qayıqçını yüngül cəzalandırdı. Üç gənci mükafatlandırdı və onlara sarayda iş verdi.

Bundan sonra Səltənət camaaatı yığdı və elan etdi ki, o, özü və altı əyanı kişi libası geyinmiş qadınlardır. Səqqa Yusif isə onun əridir. Əgər xalq Səqqa Yusifi padşah, özünü isə padşah arvadı olaraq qəbul etməyə hazırdısa, onlar burada qalacaqdır. Əks halda o, camaata təklif etdi ki, taxtı bir kiməsə versin, onu isə sərbəst buraxsın. Camaat bir səslə Səqqa Yusifi padşah, onu isə padşah arvadı seçdi.

– Əgər arvad belə ustalıqla və vicdanla camaatı idarə edə bilmişdirsə, onda əri daha yaxşı bu işi bacarar.

Camaat öz padşahının şərəfinə məclis qurdu, şadyanalıq etdi. Sonra Yusifin anasını gətirdilər. Hər üçü xoşbəxt yaşamağa və ədalətlə camaatı idarə etməyə başladılar.

## MƏLİKMƏMMƏD

Biri var idi, biri yox idi, bir şah var idi. Bu şahın yeddi oğlu var idi. Şah bu oğullarını eyni vaxtda bir şahın qızları ilə evləndirmək istəyrdi. O, hələ ərə getməmiş yeddi qızı olan belə şahı çox axtarırdı. Çoxlarını sorğu-sual etdi, amma nə qədər çalışdısa belə şah tapa bilmədi. Onun kiçik oğlu qardaşlarının yaşının ötdüyünü və atasının axtarışlarının boşuna getdiyini görüb ona deyir:

– Atayi-mehriban, bir vilayətin padşahının hələ ərə getməmiş altı qızı var. Həmin qızları yaşları keçən böyük qardaşlarım üçün istə. Mənim barəmdə fikirləşməyə dəyməz, mən hələ gözləyə bilərəm.

Şah ona qulaq asdı, bir müddətdən sonra Məlikməmmədi evdə qoyub o biri oğullarını da özü ilə götürür və əyanları ilə həmin şahın vilayətinə yola düşür ki, onun qızlarını oğlanları üçün istəsin. Məlikməmməd atası yola düşməmişdən ona deyir:

– Atayi-mehriban, sənin qarşında iki yol olacaq. Onlardan biri susuz çöllük, həm də əyri-üyrü yoldur. Əgər bu yolu tutub getsən çox əziyyətlər çəkəcəksən. İkinci yol isə yaşıllıqlarla

örtülmüş düz yoldur, onun hər iki tərəfində, hər yerdə sərin bulaqlar vardır. Bu, çox rahat yoldur. Ata, mən sənə məsləhət görərdim ki, birinci yolu tutub gedəsən, yoxsa, sonra peşmançılıq çəkəcəksən.

Şah oğlunun sözünə qulaq asıb birinci yolla şahın vilayətinə yola düşdü. Yolda o, çox məhrumiyyətlərə, çətinliklərə məruz qaldı, axır şahın vilayətinə çatdı. Şah onları böyük mehribanlıqla qarşıladı. Çox keçmədən toy elədilər. Məlikməmmədin böyük qardaşları axır ki, evləndilər. Onlar öz vilayətlərinə yola düşəndə düz, rahat, yolu seçdilər. Şah kiçik oğlu Məlikməmmədin sözlərini yadında saxlamış olsa da və onun istəyinə qarşı getmək istəməsə də, çox mübahisələrdən sonra saray əyanlarının, böyük ogullarının xahişlərini yerinə yetirməyə məcbur oldu. Lakin onlar bu yolu tutub çox getməmişdilər ki, çox böyük, bədheybət bir ilan onların yolunu kəsdi. Bu ilan yerində xeyli qıvrıldı özüdə çox böyük idi və axırda başını qaldırdı və quyruğu üstə oturdu. Onlar birinci dəfə belə bir nəhəng ilan görürdülər, qorxub dayandılar. İlan şahı yanına çağırdı və ondan xəbər aldı.

– Sən kimi daha çox istəyirsən, Məlikməmmədi, yoxsa özünü altı oğlunla, arvadları və onların müşayətçilərini daha çox istəyirsən? Əgər sən istəmirsən ki, burada olanların hamısını öldürəm, onda Məlikməmmədi yanıma göndər!

Şah Məlikməmmədi başqa oğlanlarından daha çox sevirdi və oğlundan ayrılmaq ona çox çətin idi. Amma nə etməli. O, bir şeyə ümid edirdi ki, bəlkə Məlikməmməd ilandan bir təhər canını qurtara bilər. O, ilana vəd etdi ki, evinə gəlib çatan kimi Məlikməmmədi onun yanına göndərəcək.

Onda ilan onları buraxdı və onlar sağ salamat ilanın müşayətilə evə döndülər. Onlar saraya yaxınlaşanda Məlikməmməd nə baş verdiyini bildi. Onların qarşısına çıxıb onları salamladı və atasına dedi:

– Atayi-mehriban, sən gərək mənim məsləhətimə qulaq asaydın, indi kədərlənməyə dəyməz. Təsəvvür et ki, sənin oğullarından biri yolunu azmışdır və sən onu atmısan.

Məlikməmməd bunu deyib ata-anası, qardaşları ilə görüşüb halallaşdı və ilanın arxasınca yola düşdü. İlan onu öz padşahının yanına gətirdi. İlan padşahı Məlikməmmədin gözəlliyinə və qəddi-qamətinə baxıb ona dedi:

– Sən və cin padşahının qızı Gülzar anadan olduğunuz gündən mənə hədiyyə edilmisiniz, mən sizin gözəllikdən həzz alacağam. Get necə istəyirsən onu tap və yanıma gətir. Mən sizdən həzz alacağam və çoxlu ənam verib sərbəst buraxacağam.

Məlikməmməd şaha baş əydi və çıxıb getdi. Məlikməmməd az getdi, üz getdi, dərə təpə düz getdi, axır gəlib bir yerə çatdı. Gördü ki, qarışqalar arxın o biri tərəfinə keçmək istəyirlər. Onların bir hissəsi arxın o biri tərəfinə keçmişdilər. Arada yağış yağdığından və arx su ilə dolduğundan keçə bilmirdi. Məlikməmməd qarışqaları bu vəziyyətdə görüb qılıncını sıyırdı və onu körpü kimi arxın üstünə qoydu. Qarışqalar rahatlıqla, sağ-salamat arxın o biri tərəfinə keçdilər. Bütün qarışqalar arxı keçdikdən sonra Məlikməmməd qılıncını götürüb yoluna davam etmək istədi. Onda qarışqaların padşahı onu dayandırdı və ona bir qarışqa ayağı verib dedi:

– Bunu özündə saxla, dünyada hər şeyi əvvəlcədən görmək olmaz. Elə hadisələr olur ki, şah kasıb dərvişin köməyinə möhtac olur. Sənə də mənim köməyim lazım ola bilər. Onda bu ayağı çaxmaq daşına vur və mən sənin yanına gələrəm.

Məlikməmməd ayağı götürüb və qarışqaların padşahı ilə halallaşıb yoluna davam etdi.

O, az getdi, üz getdi, dərə, təpə düz getdi, şeytan padşahının qızını tutmuş bir çobanın uşaqlarına rast gəldi. Şeytan padşahının qızı çobanın uşaqlarının qır sürtdükləri və qəsdən üstünü at dərisi ilə örtdükləri tuluğa yapışmışdı. Şeytan padşahının qızı nə

qədər çalışsa da, uşaqların əlindən xilas ola bilmirdi, uşaqlar da onu əllərindən buraxmaq istəmirdilər. Məlikməmməd şahzadə qızı-şeytanı uşaqların əlindən aldı və sərbəst buraxdı. Onda o, başından bir neçə saç qoparıb öz xilaskarına verdi:

– Bu saçları özündə saxla, köməyimə ehtiyacın olanda onları çaxmaq daşına vur mən rəfiqələrimlə dərhal sənin köməyinə gələrik. O, bunu deyib gözdən itdi, Məlikməmməd isə yoluna davam etdi.

Axırda gənc şahzadə Gülzarın öz ata-anası ilə yaşadıqları şəhərə gəlib çatdı. O, kimdən Gülzarı xəbər alırdısa, hamı ona məsləhət görürdü ki, bu işdən vaz keçsin. Onlar bunu deyib ona Gülzarla evlənmək istəyənlərin kəllələrindən ucaldılmış minarəni göstərirdilər. Gülzarın padşah atası qızı ilə evlənmək istəyənlərə müxtəlif tapşırıqlar verirdi, onları yerinə yetirə bilməyənlərin isə boynu vurulurdu.

Məlikməmməd buna baxmayaraq saraya tərəf yollandı, padşahın özü onun qabağına çıxdı. Məlikməmməd ona baş əydi və onu salamladıqdan sonra gəlişinin məqsədini ona açdı. Padşah nəvazişlə onu qəbul etdi və ona minarəni göstərib dedi:

– Orada hələ bir kəllə çatmır. Əgər sən mənim tapşırığımı yerinə yetirə bilməyəcəksənsə, yaxşısı budur ki, buradan sağ-salamat get, sənə yazığım gəlir, sən hələ çox cavansan!

Məlikməmməd padşahın sözlərini dinləyib ona dedi ki, o, özünə əhd etmişdir ki, nə olursa olsun, hətta canımı belə qurban versəm, Gülzarla evlənməliyəm. Onda padşah dedi:

– Yaxşı, qoy sənin dediyin olsun. Mən əmr edəcəyəm sənə qırx xalvar[19] düyüdən, yağdan, kişmişdən, qaysıdan və s. plov bişirsinlər. Amma ədvalar qırx xalvara daxil deyil və sən bütün bunları yeməlisən. Əgər sən tapşırığımı yerinə yetirə bilməyəcəksənsə, ən yaxşısı elə indi nə qədər ki, gec deyil, imtina et, yoxsa sabah boynunun vurulmasını əmr edəcəyəm.

[19] Xalvar - 5 puda bərabərdir. Toplayıcının qeydi.

Amma Məlikməmməd qorxmadı və padşahın tapşırığını yerinə yetirməyə razılıq verdi. Plovu bişirdilər, qapıları bağladılar və qapıda qarovulçular qoydular. Otaqda Məlikməmməd tək qaldı. O, çox oturub götür-qoy etdi və axırda bu çətin vaxtda qarışqaları yadına saldı və qarışqanın ayağını çaxmaq daşına vuran kimi saysız-hesabsız qarışqalar onu dövrəyə aldı və onlar bir neçə dəqiqəyə plovun hamısını yedilər, bir dənə düyü də qalmadı.

Səhər padşah Məlikməmmədin yanına gələndə qazanları tərtəmiz gördü elə bil ki, onlar gecə yenidən qalaylanmışdı. Padşah bundan bir qədər təəccübləndi, Məlikməmmədin gülümsədiyini görüb dedi:

– Yeməyinlə qürurlanma, necə yeyərsən elə də işləyəcəksən.

Padşah bu sözlərini deyib onu yunla dolu anbara apardı, ona cəhrə, daraq və dəzgah verdi və tələb etdi ki, o, səhərə yunun hamısını təmizləsin, ondan saplar əyirsin və xalçalar toxusun.

Məlikməmməd əvvəlcə ona tapşırılan işin çətinliyindən qorxdu, amma sonra özünə gələrək şeytanı yadına saldı. O, şeytanın tükünü götürüb çaxmaq daşına vurdu, bir anda minlərlə şeytan onu dövrəyə aldı. O, onlara padşahın ondan nə tələb etdiyini deyəndə padşahın arvadı-şeytan onu sakitləşdirdi. Şeytanlar dərhal yunun hamısını şəhərdə çox uzaq olan yarğana atdılar. Sonra isə varlı şəhər adamlarının evlərini bir-bir gəzib orda olan ən yaxşı xalçaları gecə yarısı Məlikməmmədə gətirdilər. Məlikməmmədin sevincinin həddi-hüdudu yox idi. O, elə fikirləşirdi ki, bütün sınaqlar artıq qurtardı. Amma o, hələ bilmirdi ki, ən çətin tapşırıqlar qabaqdadır.

Səhər padşah yenə Məlikməmmədin yanına minlərlə xalçanın üst-üstə yığıldığı anbara gəldi. O, daha çox təəccübləndi, Məlikməmmədi sehrkar bildi. Padşah fikirləşib ona dedi:

– İndi sənin mənim axırıncı istəyimi yerinə yetirməyin qalır. Əgər sən bunu da yerinə yetirsən, onda mənim əziz və gözəl qızım Gülzarla evlənə bilərsən.

Məlikməmməd saraya gəldiyi gün Gülzar onu görə bilmişdi və gənc oğlana bərk vurulmuşdu. O, buna görə həyəcandan əsirdi ki, birdən Məlikməmməd atasının tapşırığını yerinə yetirə bilməz və boynu vurular.

Padşah bir məcmeyiyə ağ vərəq kağız qoydu, onun üstünə də su ilə dolu stəkan qoydu. O, tələb etdi ki, Məlikməmməd məcmeyini əlində tutaraq sarayın həyətindəki ağaca elə dırmaşsın ki, su çalxalanmasın, yoxsa boynu vurulacaq. Gülzar gizlincə üzüyünü ona verdi və dedi ki, üzüyü stəkana salsın. Məlikməmməd qızın dediyini edən kimi su buza döndü. Onda Məlikməmməd sakitcə ağacın başına dırmaşdı. Ağac o qədər hündür idi ki, o, öz doğma şəhərini gördü, ata-anasını yada saldı və ağlamağa başladı, bu vaxt bir damcı göz yaşı kağıza düşdü. Məlikməmməd bunu görüb məcmeyini özündən aralı tutdu və doyunca ağladı. O, ağacdan yerə düşən kimi üzüyü stəkandan çıxardı və məcmeyini, suyu padşaha verdi. O, padşaha kağızın üstündəkinin su deyil, özünün gözyaşı olduğunu və ağlamağının səbəbini də ona dedi. Padşah onunla razılaşmadı və onun boynunu vurdurmaq istədi, amma əyanlar ona dedilər ki, kağızda sudan ləkə qalmaz, burada isə ləkə sarı rəngdədir və buna görə də padşahdan təvəqqe etdilər ki, belə bir gənci həyatdan məhrum etməsin. Axırda padşah onlarla razılaşdı, Məlikməmmədə xeyir-dua verdi və Gülzarla onun toyunu etdi.

Məlikməmməd qaynatasının yanında iki-üç gün qonaq qalıb onunla halallaşdı və arvadını götürüb ata-anasının yanına yola düşdü. Yolüstü Gülzarla ilanlar padşahını ziyarət etdi. İlanlar padşahı onları mehribanlıqla, nəvazişlə qəbul etdi, onlara xeyir-dua verdi.Onlara yaxşı ənam verərək yola saldı.

Onlar ənamları götürdülər və ilanlar padşahına təzim edib sağ-salamat ata sarayına çatdılar.

Məlikməmmədin artıq qocalmış atası oğlunun qayıtmasına çox sevindi və bir dəfə də ona toy etdi. Bütün xalq iki həftə boyunca Məlikməmmədin toyunda yeyib-içdilər, şadyanalıq etdilər. Padşah öz oğlanları və gəlinləri ilə xoşbəxt yaşamağa başladılar. O, qocalıb öləndə taxtını kiçik oğlu Məlikməmmədə verdi.

## QULUXAN

Bir zamanlar Quluxan adında dindar və ədalətli padşah yaşayırmış. Günlərin bir günü onun yanına saraya bir dərviş gəldi. Dərvişin bəlağətli danışığı, nəql etdiyi hekayətlər Quluxanı o qədər cəlb etdi ki, öz əyanları və yaxınları getdikdən sonra o, dərvişi bir axşam evinə dəvət etdi. Quluxan axşam söhbətindən sonra dərvişə çoxlu ənam vermək istədi, amma o, xanın təklif etdiyi qızıldan imtina etdi:

– Məgər biz bu dünyada əbədi olaraq qalacağıq ki, qızıl və qiymətli şeylər yığaq. Əgər, qibleyi-aləm, sən məni mükafatlandırmaq istəyirsənsə, mənə beş gün müddətinə sənin xalqını sənin yerinə idarə etmək imkanı ver ki, mən sənin öz torpaqlarını genişləndirmək və məmləkətin var-dövlətini artırmaq istəyində yaxşı nə olduğunu görə bilim.

Quluxan onun söhbətinə elə valeh olmuşdu ki, dərvişin pis niyyətindən heç cürə şübhələnməyərək ona on gün müddətinə ölkəni idarə etmək imkanı verdi.

Dərviş xalqı idarə etməyi öz üzərinə götürən kimi o, dövlət idarələrində işləyənlərin maaşını iki qat artırdı, kəndlilərdən alınan vergiləri yarıyacan azaltdı. Əlbəttə, qulluqçular və kəndlilər yeni hökmdarı xeyirxah adlandırdılar və onlar Quluxandan çox yeni hökmdardan razı qalmışdılar.

Quluxan dərvişə on günlüyünə dövlətin idarə edilməsini vermək istəyəndə padşahın arvadı razı olmamışdı. O, ərindən təvəqqe etmişdi ki, dərvişə dövlətin idarəsini verməkdən başqa hər hansı başqa bir istəyini yerinə yetirsin.

Günlər gəlib keçdi, nəhayət şərt kəsdikləri onuncu gün gəldi. Quluxan taxtda yenidən öz yerini tutmaq üçün gəldi. Dərviş: – Padşah xalq tərəfindən seçilir və o, xalq üçün yaranmışdır, xalq isə padşah üçün yaranmamışdır, – deyərək ona təklif etdi ki, sakinlərdən kimin hökmdar olacağını xəbər alsın. Xalq və qulluqçular dərviş padşahın tərəfində olduqları üçün Quluxan məğlub oldu. O, hər şeyini itirərək vaxtilə idarə etdiyi məmləkəti tərk etmək qərarına gəldi. İki oğlunu və arvadını da yanına alıb özünə dolanacaq qazanmaq üçün yola çıxdı.

Axşam düşəndə yolda çöldə gecələməyə məcbur oldular. Qızınmaq üçün ocaq qaladılar. Sən demə, onların yaxınlığında Hacı Nəcəf adlı varlı bir tacirin karvanı da yerləşmişdi. Tacir karvanının yaxınlığında ocaq görüb orada kimlərin olduğunu öyrənmək üçün bir nökəri od istəmək bəhanəsilə ora göndərdi. Nökərlər Quluxanı ailəsi ilə görüb geri qayıtdılar. Onlar Hacı Nəcəfə xəbər verdilər ki, oradak adamlar kasıb olsalar da, görünür onlar aşağı zümrədən deyillər, çox güman ki, şah nəslindəndilər.

Hacı Nəcəfin göndərdiyi adamlar Quluxanın arvadına heyran olmuşdular. Onda Hacı Nəcəf bu gözəl qadını birtəhər aldadıb yanına gətirmək üçün bir hiyləyə əl atdı. Guya tacirin arvadı bari-həmlini yerə qoymağa hazırlaşır. Karvanda isə onun yanında bir qadın yoxdur, ona görə də xahiş edilir ki, Quluxanın arvadı ona kömək etsin. Əvvəlcə Quluxanın arvadı getmək istəmədi. Onun ürəyinə dammışdı ki, burada nəsə bir hiylə var, amma ərinin tələbinə tabe olub getdi. O, karvana yaxınlaşanda onlar artıq yola çıxmağa hazırlaşmışdılar. Hacı Nəcəfin adamları Quluxanın arvadını tutdular və karvan

tələm-tələsik yola düşdü. Yazıq Quluxan arvadını çox gözlədi o, gəlmədi. Səhər baxıb gördü ki, nə arvad var, nə də karvan.

Nə etməli, qanı qara, qəm-qüssə içində iki oğlunun da əllərindən tutub yoluna davam etdi. O, çox yol getdi, axırda dərin bir çaya gəlib çatdı. Uşaqlar özləri çaydan keçə bilməzdi. Onda o, oğullarından birini özü ilə götürdü, o birini isə sahildə qoydu ki, sonra gəlib onu çaydan keçirsin. Amma o, çayın ortasında olanda haradan isə bir aslan gəldi və onun sahildə duran uşağını aparıb getdi. Quluxan dərhal sahilə qayıtmaq istədi ki, uşağını qurtarsın. Dəhşətdən əlləri əsdi, gözləri qaraldı oğlanı əlindən buraxdı və su bir anda onu alıb axınla aşağı apardı.

Özünün acı taleyindən kədərlənmiş Quluxan yoluna davam etdi və başına gəlmiş müsibətlərə baxmayaraq O, Allahdan narazılıq etmədi. Axır o, gəlib bir şəhərə çatdı. Sən demə bir neçə gün bundan əvvəl bu şəhərin şahı Allah rəhmətinə getmişdi. Bu şəhərin adətinə görə xalq özünə yeni bir şah seçməli idi. Quluxan da həmin yerə getdi. Başına dövlət quşu qonan şəxs şah seçiləcəkdi. Birinci dəfə buraxılmış dövlət quşu Quluxanın başına qondu, amma o gəlmə olduğu üçün xalq onun seçilməsini qəbul etmədi. Quluxanı uzaqdakı bir evə aparıb saxladılar. Dövlət quşunu ikinci dəfə uçurtdular. Quş bu dəfə də Quluxanın saxlandığı evin üstünə qondu. Xalq bu dəfə də onu şah seçmədi. Quluxanı şəhərdən qovdular. Dövlət quşunu üçüncü dəfə uçurtdular. Quş uçub Quluxanı tapdı. Onda şəhər sakinlərindən bir müdrik adam şəhər meydanında toplanmış xalqa xitabən dedi:

– Əgər şahı özünüz seçirsinizsə, onda dövlət quşu nəyinizə gərəkdir? Yox, əgər onun seçiminə tabe olursunuzsa, o artıq üç dəfə sizə şahı göstərdi.

Beləliklə, Quluxan bir çox müsibətlərdən sonra yenə padşah oldu. Quluxan burada qalmaqda olsun, görək onun oğulları necə oldu? Quluxanın çayı keçdiyi yerin yaxınlığında

çobanlar öz sürülərini otarırdılar. Onlar aslanın bir uşağı apardığını görüb onun dalınca qaçdılar və uşağı sap-sağlam geri aldılar. Çobanlar öz aralarında danışıb uşağı oğulluğa götürmək qərarına gəldilər. Onlar elə də etdilər. Oğlan çobanlara kömək edərək işləməyə başladı. O, hər gün səhər bazara pendir, süd, yağ və s. ağartı məhsulları satmağa gedirdi.

İkinci oğlanı su dəyirmana gətirdi. Oğlan dəyirmanın novuna düşdü, bununla da dəyirmanın işini dayandırdı. Dəyirmançı bunu görüb dərhal eşiyə çıxdı ki, görsün nə olub. Baxıb bir oğlan uşağı tapdı. Dəyirmançı o saat uşağı başı aşağı tutdu ki, o, sudan azad olsun. Sonra da onu huşa gələnə kimi ovuşdurmağa başladı. Beləliklə, Quluxanın ikinci oğlu da sağ qaldı və dəyirmançı onu oğulluğa götürdü. Dəyirmançı demək olar ki, hər gün onu un satmaq və yemək-icmək üçün bazara göndərərdi.

Quluxan əmin idi ki, oğulları sağ deyillər, ona görə də yeni taxta çıxanda onların rəsmlərini öz yaxınlarına göstərmişdi və əmr etmişdi ki, oğullarına oxşar iki oğlan uşaq axtarıb tapsınlar. O, uşaqları oğulluğa götürməyi fikirləşirdi. Onun göndərdiyi adamlar axtarışlara çıxan kimi sarayın yaxınlığında pendir və yağ satan birinci oğlana rast gəldilər. Bunun üstündən çox keçməmiş un satan ikinci oğlana rast gəldilər. Hər iki oğlanı padşahın yanına gətirdilər. Oğlanların onun oğullarına son dərəcə çox oxşamasına baxmayaraq Quluxanın heç ağlına belə gəlməzdi ki, bunlar onun öz oğullarıdır. Axı özü onların məhv olmasını görmüşdü. Uşaqlar da bir-birini tanımadılar.

Bu arada çoban və dəyirmançı öz yetişdirmələrinin qayıtmasını çox gözlədilər və axırda şəhərə yola düşdülər ki, onlar haqqında bir məlumat toplasınlar. Onlar padşahın uşaqları yanına götürdüyünü və onları oğulluğa götürmək istədiyi bildikdə saraya gəldilər ki, padşah onları qaytarsın.

“Qibleyi-aləm belə zorla öz təəbələrin olsa da, başqasının uşaqlarını götürməməlidir”. Padşah onları başa salmağa ça-

lışdı ki, onlar oğullarının xoşbəxtliyi üçün sevinməlidirlər. Oğullarını şah oğulluğa götürmüşdü, saraya nökər kimi gətirməmişdir. Axır çoban və dəyirmançı götürdükləri usaqların padşahın yanında qalmaqlarına razılıq verdilər və özləri də evlərinə geri qayıtdılar.

Quluxan və uşaqları burada qalsınlar, görək Hacı Nəcəfin qaçırtdığı arvadı necə oldu. Quluxanın arvadı tacirə ərinin başına gələnləri nəql edəndə o, bildi ki, qadın doğma əmisi qızıdır. O vaxtdan Quluxanı hər yerdə axtarmağa başladı. Hacı Nəcəf çox vaxt karvanı ilə Quluxanın olduğu şəhərin ətrafında dayanır və hər dəfə padşahı ziyarət edirdi. O, padşahla elə dostlaşdı ki, o, taciri çox vaxt nahara dəvət edirdi.

Günlərin bir günü Hacı Nəcəf axşam vaxtı padşahla uzun söhbət elədi. Padşah ondan təvəqqe etdi ki, onunla şam etməyə qalsın. Amma Hacı Nəcəf çadırında heç kimə etibar etmədiyi bir əmanət olduğunu deyərək onun təklifini qəbul etmədi. Onda padşah onun çadırının qarovulunu çəkmək üçün oğullarını göndərdi. Onlar çadıra gələndə fikirləşdilər necə etsinlər ki, vaxt tez keçsin. Böyük oğlan dedi:

– Gəl, hərəmiz öz hekayətini nəql etsin ki, səhərə qədər yuxuya getməyək. Allah etməsin, əgər biz yuxuya getsək və çadıra bir şey olsa padşah boynumuzu vurdurar. Hamı bilir ki, biz onun doğma oğulları deyilik.

Elə də etdilər. Onlardan hər biri öz hekayətini nəql edəndə məlum oldu ki, onlar qardaşdılar. Quluxanın oğullarıdır. Anaları isə çadırda oturub onların hekayətlərinə qulaq asırdı və onların öz oğulları olduğunu bildi, onun sevincinin həddi-hüdudu yox idi. O, gözlərində yaş oğlanlara dedi ki, onların anasıdır. Oğlanlarını öpdü, dizləri üstə oturtdu. Uzun vaxt sevincdən heç kim bir söz deyə bilmədi. Bu vaxt Hacı Nəcəf çadıra girdi. Bacısının oğlanlarla qucaqlaşdığını görərək və nələr baş verdiyini başa düşməyərək padşahın yanına gəldi. O

oğlanların bacısına etdikləri namusuzluq üçün intiqam və cəza tələbi ilə padşaha şikayət etdi.

Bunu eşitmək padşaha xoş deyildi və o, dərhal cəlladları göndərib əmr etdi ki, elə çadırın yanında oğlanların boyunlarını vursunlar və meyitlərini də ona gətirsinlər.

Cəlladlar gələndə anası onlara toxunmağa imkan vermədi. Dedi:

-Gedin, Hacı Nəcəfə deyin ki, onlar mənim sevgililərim deyildir, oğlanlarımdır. Mən onları çox axtarmışam.

Bu vaxt Hacı Nəcəf də qayıdıb gəldi və məsələ aydınlaşdı. O, ana və uşaqlardan daha çox sevindi ki, tale onlara belə kömək etdi.

Cəlladlar çadırda baş verənləri padşaha təfərrüatı ilə çatdırdılar. Sonra Hacı Nəcəf oğlanlarla padşahın yanına gəldi. Padşah uşaqları məcbur etdi ki, onlar Hacı Nəcəfin bacısının anaları olduğunu haradan bildiklərini ona nəql etsinlər. Oğlanlar yuxuya getməmək üçün bir-birlərinə öz hekayətlərini danışdıqlarını və bu səbəbdən çadırda olan analarının onları tanıdıqlarını padşaha nəql etdilər. Amma padşah bununla qane olmadı və oğlanlardan tələb etdi ki, öz keçmiş həyatlarında olanları ona da nəql etsinlər. Bu zaman padşah öz kiçik uşaqlarını tanıdı və öz əziz arvadını taparaq sevincdən az qala ağlını itirirdi. Bu vaxtdan onların hamısı xoşbəxt yaşamağa başladılar. Belə ki, Quluxan əvvəl olduğundan daha geniş bir dövləti idarə edirdi. Beləliklə, Quluxanın taxtını xain dərvişə verdiyi vaxt dediyi “Allah haqqı nahaqqa verməz” sözləri öz təsdiqini tapdı.

## 13-cü buraxılış, 1892-ci il, s.75-140

# "ERMƏNİ" NAĞILLARI, RƏVAYƏTLƏRİ VƏ ƏFSANƏLƏRİ

### Div-arxı rəvayəti

Tərtər çayı meşə öytüyü olan yüksək dağların arasından, Cavanşir qəzasının Madagis kəndi yaxınlığından axaraq düzənliyə çıxır. Çayın sol tərəfi boyu uzanan dağ yüksək deyil, keçilməz meşə mane olmasaydı ona rahatlıqla çıxmaq olardı; sağ tərəfdəki dağ isə əksinə çox sıldırımdır. əsasını Tərtər çayından götürən çoxlu arxlar düzənliyi yarıb keçir. Bu kanallardan ancaq ikisinin izləri qalıb. Amma onlardan biri – çayın sağ tərəfi boyu uzanan arx eni və uzunluğu ilə adamı heyrətləndirir. Tərətər çayının sol sahilindən baxanda, onun mənsəbini görmək olar. Bu arxa "Div-arxı" deyirlər.

Bu arxın mənşəyi ilə bağlı aşağıdakı rəvayət yaranmışdır:

İndi Cavanşir qəzasının olduğu yerdə - Qarabağın həmin ərazisində bir zamanlar bir xan hökmranlıq edirdi. Onun öz gözəlliyi ilə bütün gözəlləri kölgədə qoyan bir qızı var idi. İki gənc oğlan ona vurulmuşdu. Onlardan biri özünün var-dövləti, digəri isə bütün xanlıqda seçilən gücü və cəsurluğu ilə məşhur idi. Bütün adamlar onun qabağında tir-tir əsirdilər və buna görə də xalq ona Div (nəhəng) ləqəbi vermişdi. Hər iki gənc xan qızına evlənmək təklif etmişdi, amma o bilmirdi ki, kimin təklifini qəbul etsin. Bir gün qız gənclərə dedi:

- Kim hamıdan tez arx qazarsa, onunla Tərtər çayından düzəngaha su gətirərsə, mən ona ərə gedəcəyəm. Amma biriniz arxın bir tərəfindən, o biriniz digər tərəfindən qazmağa başlamalısınız. Hər ikiniz bir yerdən işə başlamalısınız.

Budur, onlar qızğın işə başlayırlar. Varlı gənc qaçıb çayın sol sahilində özünə yaxşı və yüngül bir yer seçir. Divə isə qayalıqlı, sıldırımlı sağ sahili qalır. Lakin Div xan qızına olan

qızğın sevgisindən, Allaha olan ümidindən buna fikir vermir və ürəklə işə başlayır. Varlı gənc isə özünün bir şey edə bilməyəcəyini bildiyindən onlarla işçi tutur. İşçilər onun göstərişinə görə arxı qazmağa başlayırlar.

Div öz gücünə, varlı gənc isə pullar hesabına hərəkət edirdi. Div elə ürəklə işləyirdi ki, bütün gün ərzində səhər tezdən axşamdan keçənədək nə yorğunluq, nə də bir aclıq hiss etmirdi, iş eləcə qaynayırdı. Daşlar sanki özləri beləcə dığırlanırdı, bütöv ağaclar kökləri ilə sanki gözə görünməyən bir qüvvə tərəfindən torpaqdan ayrılırdı. Digər tərəfdən varlı gəncin də işçiləri yaxşı ödənişin həvəsinə səylə işləyirdilər. Amma Div xan qızına olan sevgisindən gündən-günə öz canfəşanlığını artırır, iş getdikcə daha coşqunluqla irəli gedirdi. Onlar hər gün səhər və axşam öz rəqiblərinin işinə baxırdı.

Xan qızı adaxlıların işlərinin gedişini öyrənmək üçün onların yanına adam göndərirdi. O, Divin valehedici işləri haqqında eşidəndə qiyabi olaraq ona vurulur, nə olursa olsun onun arvadı olmaq qərarına gəlir.

Divin işləri sona yaxınlaşır, varlı gəncin isə hələ bir neçə günlük işi qalırdı. O, bunu görüb qanı çox qaralır, hiss edir ki, Div qalib gələcək. Lakin varlı gənci bir qarı bəladan qurtarır. Qarı gəncin yanına gəlib deyir:

– Sevgilinin sənə qismət olması üçün Divi özünü öldürməyə məcbur etsəm, mənə nə verərsən?

Varlı gənc cavab verir:

– Əgər sən bunu bacarsan, nə istəsən sənə verərəm.

Qarı deyir:

– Get mənə bir neçə yüz arşın qalın kətan al.

Div artıq işi qurtarıb ertəsi gün səhər arxla suyu düzəngaha buraxmağa hazırlaşanda gənc oğlan dərhal qarının tələbini yerinə yetirir, qalın kətan alır və onu qarıya gətirir. Qarı tapşırır ki, qalın

kətanı bir gecə suda saxlasınlar, səhər dan yeri ağaranda onu varlı gəncin arxı boyunca sərsinlər. Hər şey yerinə yetirilir.

Div səhər tezdən yerindən qalxır, öz arxı ilə suyu yönəltmək istəyir. O, rəqibinin arxına nəzər salanda görür ki, günəşin parlaq şüalarında arxda nə isə parıldayır. Bir an içində ağlına belə bir fikir gəlir ki, rəqibi artıq öz işini görüb qurtarmışdır. Su günəşdən parıldayaraq arxla axıb gedir. O, məğlubiyyətlə razılaşmayaraq ümidsizlik içində qılıncı özünə saplayır.

Xan qızı elə həmin gün öz adamlarından Divin özünü öldürməyindən və varlı gəncin hiyləsindən xəbər tutur. Divi çayın dağdan düzəngaha çıxdığı sahildə dəfn edirlər. Divin arxı onun adı ilə "Div arxı" adlanmağa başlayır.

Xan qızı Divin ölümündən sonra onu daha çox sevməyə başlayır. O, dərdindən heç bir yerdə təskinlik tapa bilmir, bu dərd-kədər onun xəstələnməyinə səbəb olur. Ölümündən əvvəl valideynlərinə yalvarır ki, onu Divin məzarının yanında dəfn etsinlər. Valideynləri sevimli qızlarının xahişini yerinə yetirib onu Divin yanında dəfn edirlər.

Varlı gənc oğlan bütün bunlardan xəbərdar idi. O, rəqibinə və sevgisini rədd etmiş xan qızına olan nifrətindən alovlanaraq qəbirdə belə onlardan qisas almağa davam edir. İki sevgilini bir-birindən ayırmaq üçün onların məzarları arasında öz məsləhəti ilə Divin və onun nişanlısı olan xan qızının ölümünə səbəb olan qarının cəsədini basdırır. Varlı gənc belə düşünür ki, əgər qarı sağ ikən onlara birləşməyə imkan vermədisə, ölümdən sonra da imkan verməyəcək.

Doğrudan da, belə olur. Bir müddətdən sonra Divin və onun nişanlısının qəbirlərindən iki qızılgül kolu, bu kolların arasında isə tikan kolu bitir. Hər iki koldan qızılgüllər gül açaraq bir-birinə tərəf uzanırlar, amma tikan kolu onları bir-birinə yaxın buraxmır.

İndi rəvayətə görə, üç qəbrin olduğu yerdə çayın üzərində körpü salınmışdır. Deyilənlərə görə, bu körpü varlı gənc tərəfindən onun istəyini yerinə yetirdiyi üçün qarının şərəfinə tikilmişdir. O, bu körpünü "Qarrı Körfü"[20], yəni qarının körpüsü adlandırır.

***Zaqafqaziya Müəllimlər Seminariyasının tələbəsi A.Mirzəyev Yelizavetpol quberniyasının Cavanşir qəzasının Yengicə kəndində Q.Mirzəyevin dilindən qələmə almışdır.***

## DƏRVİŞƏ VERİLMİŞ ŞAHZADƏ

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın oğlu olmurdu. Bu səbəbdən padşah çox fikir çəkirdi. Bir gün padşah ümidsizlikdən hər şeyi – taxt-tacı, dövləti tərk etmək qərarına gəlib bir mağaraya çəkildi. Padşah günahlarından tövbə edərək bu mağarada təkbaşına yaşamağa başladı. Nə vəzirləri, nə vəkilləri onu bu qərarından döndərə bilmədi. Padşah deyirdi:

– Allah günahlarıma görə mənə acığı tutduğu, mənə sevinc gətirəcək uşaqlar, varislər bəxş etmədiyi bir vaxtda taxt və var-dövlət nəyimə gərəkdir?

Günlərin bir günü padşah ağsaçlı bir dərvişlə rastlaşdı. Dərindən baş əyərək dedi:

– Salam əleykum, qibleyi-aləm!

Padşah cavab verdi:

– Əleykum əs-salam!

– Təkbaşına hara gedirsən?

Padşah cavab olaraq dərvişə öz dərdini danışdı. Dərviş dedi:

– Get öz xalqını idarə et! Əgər sən on ildən sonra onlardan birini mənə verməyi əhd edirsənsə, bir ildən sonra sənin iki oğlun olacaq. Əks halda mənim dediyim yerinə yetməyəcək.

---

[20] Qafqaz Hərbi Dairəsinin çap etdirdiyi xəritədə bu körpü "Qarı-Körpü" kimi verilib.

Padşah onun sözlərinə inanmadı, amma dünyaya gələcək oğullarından birini on ildən sonra dərvişə verəcəyini əhd etdi və sevincək öz sarayına qayıtdı. Bir ildən sonra, doğrudan da, padşahın bir-birindən gözəl iki oğlu dünyaya göz açdı. Padşah sevinc içində idi, o, dərvişə nə vəd etdiyini tamamilə unutmuşdu. Uşaqlar böyüdülər, bir müddətdən sonra onlar məktəbə getdilər. Molla padşahın oğullarından çox razı idi, onları tərifləməkdən yorulmurdu. Ata və oğulları bir-birini çox sevirdilər.

On il gəlib keçdi. Günlərin bir günü padşaha xəbər verdilər ki, hansısa bir dərviş onunla görüşmək istəyir. Padşah verdiyi vədi yadına salıb qorxuya düşdü. Amma artıq gec idi, dərviş içəri girdi və padşaha təzim etdi. O, on il bundan öncə padşahın verdiyi vədi xatırlatdı. Padşah deməyə söz tapmadı. Həmin vaxt uşaqlar məktəbdə idilər. Padşah belə qərara gəldi ki, məktəbə bir nəfər göndərsin, həmin adam mollaya uşaqları məktəbdə yubatmağı əmr etsin, dərvişə isə peyğəmbərliyinin gerçəkləşmədiyi deyilsin. Amma dərvişin yanında belə əmr vermək mümkün deyildi. Padşah oğlunu qorumaq üçün yalan danışmağa belə əl atdı. O dedi:

– Əziz dərviş, sənin peyğəmbərliyin yerinə yetmədi, sən boş yerə bura gəlmisən!

– Mərhəmətli padşah, bu ola bilməz, sən düz demirsən. On il bundan əvvəl elə bu gün, bu saatda sənin iki övladın dünyaya gəldi. Mənim dediyim düz olmaya bilməz!

Bu vaxt qapı açıldı və padşahın oğulları səs-küylə otağa girdilər. Onlar kitablarını bir tərəfə tullayaraq atalarının qucağına atıldılar və onu öpməyə başladılar. Padşah göz yaşlarını saxlaya bilməyib uşaq kimi ağlamağa başladı. O, dərvişin ayaqlarına sarılıb bədbəxt ataya aman verməsini xahiş etdi. Amma dərviş amansız idi. O dedi:

- Padşah öz vədlərində möhkəm olmalıdır!

Bədbəxt padşah oğullarından hansını dərvişə verəcəyini bilmirdi, ikisini də eyni dərəcədə çox sevirdi. Ona görə də dərvişə təklif etdi ki, öz seçimini etsin. Dərviş bədbəxt padşahın və arvadının yalvarışlarına, göz yaşlarına fikir verməyərək kiçik oğulu seçdi və öz malikanəsinə yola düşdü.

Dərviş və şahzadə çox yol getdilər, axırda keçilməsi mümkün olmayan geniş bir dənizə çatdılar. Dərviş şahzadəni öz çiyninə oturtdu, çox ciddi şəkildə tapşırdı ki, gözlərini yumsun və nəbadə açmasın. Şahzadə dözə bilmədi, gözlərini açdı və gördü ki, dərviş nəhəng bir əjdahaya çevrilmişdir. Onun başı buludlara dəyirdi, bir ayağı dənizin bir sahilində, o biri isə əks sahildə idi, şahzadənin özü isə göylərdə, dənizin ortasında idi. Yazıq şahzadə dəhşətə gəlib gözlərini yumdu. Dərviş dənizi adlayıb keçdi, şahzadəni yerə qoydu və onlar yollarına davam etdilər. Çoxmu getdilər ya yox, bunu Allah bilir, amma axırda bir böyük gözəl saraya çatdılar. Dərviş dedi:

– Bu saray mənə məxsusdur, biz burada birlikdə yaşayıb əylənəcəyik. Amma indi sən burada qal, mən isə meşədən odun gətirim, özümüzə yemək bişirib yeyək.

Dərviş bunu deyib böyük bir ip götürdü və meşəyə yola düşdü. Şahzadə tək qalıb sarayı gəzməyə başladı. Birdən ona diqqətlə baxan bağlanmış iki şir gördü. Oğlan qorxdu və qaçmaq istədi, amma şirlər onu dayandırıb dedilər:

– Yazıq oğlan, kim olmağından asılı olmayaraq sənə yazığımız gəlir. Səni bura gətirən dərviş adamyeyəndir. O, indi çoxlu odun gətirəcək, təndiri qalayacaq, odun yanında oturacaq və səni də odun yanında qızınmağa çağıracaq. Sən yaxın gələn kimi səni təndirə itələyəcək, bişirib bütöv yeyəcək. Amma sən bizə qulaq assan, məhv olmazsan. O sənin tədbirindən duyuq düşməməsi üçün səni çağıranda çox sakitcə ona de ki, belə bir böyük təndirə alışmamısan, ona yaxınlaşmaqdan və isinməkdən qorxursan. Ondan xahiş et ki, sən hələlik böyük oda alışanadək o orada tək

otursun. Bu arada sən fürsət tapıb var gücünlə onu təndirə itələ. O, təndirdən qurtula bilməyəcək və orada yanacaq. Beləliklə, əjdahadan həm özünü, həm də düz yeddi il əziyyət çəkmiş bizi xilas etmiş olacaqsan. İndi isə öz yerinə get, o indi gələcək.

Oğlan öz yerinə getdi. Dərviş gəldi və o qədər odun gətirdi ki, bu odunlarla on öküz və yüz qoyun bişirmək olardı. O, çox böyük bir təndiri qaladı, onun kənarında oturub oğlanı yanına çağırdı. Amma oğlan belə böyük oddan qorxduğunu deyib onun yanına getmədi. Dərviş üzünü çevirəndə oğlan elə ilk fürsətdən istifadə edib arxadan onun üstünə atıldı, onu odun içinə itələdi və şirlərə baş vermiş hadisəni danışmağa qaçdı.

Şirlər onun sözlərinə inanmadılar. Onlar sözlərini deyib qurtarmamış sanki göy guruldadı, dərvişin kəlləsi partladı.

Şirlər mehribanlıqla dedilər:

– İndi biz sənə inanırıq, əjdaha öldü. Bizi bu zəncirlərdən tez qurtar, biz sənə dərvişin bütün xəzinəsini göstərərik. Sən bizim xilaskarımızsan, biz sənə bu sarayın sahibi kimi xidmət edəcəyik.

Oğlan zəncirləri açdı və şirləri sərbəst buraxdı, şirlər isə ona bütün malikanəni göstərdilər. Dərvişin evinin anbarlarında pullar, qiymətli daşlar, sehirlənmiş silahlar, müxtəlif bahalı əşyalar, tövlədə isə üç at – ağ, qara və qırmızı at var idi.

Şirlər ona dedilər:

– Tövlənin açarlarını götür, nə vaxt sənə at lazım olsa, açarı bir-birinə vur və çağırmaq istədiyin atın rəngini de. Sən harda olursan ol, o, dərhal sənin yanına gələcək.

Sonra şirlər oğlana üç bulaq göstərdilər. Onların birindən qızılı su, başqasından gümüşü su və üçüncüsündən mirvari su axırdı. Şahzadə barmağını gümüşü bulağa saldı. O, saçlarını qızıl bulaqda islatdı, saçları qızıldan oldu. Şahzadə saçlarına görə onu öldürməsinlər deyə başına bir dəri keçirdi və keçəl kimi göründü. Oğlan öz atlarını yoxlamaq istədi, o, cibindən açarları

çıxarıb onları bir-birinə vurdu və ağ atı çağırdı. Bir dəqiqədən sonra ağ at çaparaq yanına gəldi. Oğlan atı mindi, bir qədər atı çapdıqdan sonra onu tövləyə buraxdı. Beləliklə, üç atın hər birini yoxladı və üçünü də bəyəndi. Qara at xüsusilə xoşuna gəldi.

Bu hadisənin üstündən bir çox illər keçdi, oğlan boya-başa çatdı və gözəl bir gənc oldu. Bir dəfə o öyrəndi ki, atası qonşu padşah ilə döyüşür və o, çoxlu döyüşçülər itirdiyi üçün çox ümidsiz haldadır. Yaxın günlərdə son döyüş olacaq. Gənc oğlan bunu bilib ən gözəl libası geyindi, dərvişin ən yaxşı sehirli silahını götürdü, özünün qara atını mindi və sürətlə döyüş meydanına getdi.

Döyüşün qızğın vaxtı idi, gənc şahzadə döyüş meydanında qarşısına çıxan hər bir düşməni məhv edirdi. Sonda düşmənlər davam gətirə bilməyib qaçdılar. Padşah uzaqdan xilaskarını görüb, onu kim olduğunu ağlına belə gətirə bilmirdi. O öz döyüşçülərinə əmr etdi ki, döyüş qurtardıqdan sonra həmin cəngavəri onun yanına gətirsinlər. Amma döyüş qurtaran kimi gənc oğlan gözdən itdi, heç kim onun hansı səmtə getdiyini bilə bilmədi.

Bir neçə gündən sonra yeni döyüş başlandı. Padşah öz döyüşçülərinə əmr etdi ki, əgər həmin sirli gənc döyüş meydanında görünsə, onu tutub yanına gətirsinlər. Döyüş vaxtı gənc oğlan yenə göründü, lakin bu dəfə mindiyi at qırmızı rəngdə idi. O, bir-birinin ardından düşmənin dəstələrini məhv etməyə başladı. Bu dəfə də gənc oğlan düşməni qaçmağa məcbur etdi. Padşahın döyüşçüləri nə qədər çalışsalar da, qələbənin səbəbkarını tuta bilmədilər, elə bil yer yarılıb yerə girmişdi.

Bir nəfərə məğlub olmalarından hiddətlənən düşmən tərəf özlərinin olub qalan son qüvvələrini toplayıb üçüncü dəfə ata-padşahın üstünə getdilər. Misli bərabəri olmayan bir döyüş başladı. Gənc oğlan ağ atda döyüş meydanında göründü, bu at yorulanda onu dəyişib qara ata mindi. Ata-padşah qərib gənc

oğlanın qəhrəmanlıqlarına heyran qalmışdı və düşmənlərin onu öldürə biləcəklərindən qorxurdu.

Birdən cəsur gənc oğlan sol əlindən yaralandı. Padşah vəziyyəti belə görcək özünün qırmızı ipək dəsmalını onun qoluna sarıdı. Döyüş ata-padşahın xeyrinə qurtardı. Düşmənlər ən cəsur döyüşçülərini itirib qaçmağa məcbur oldular.

Gənc oğlan döyüş qurtarmadan yenə gözdən itdi. Padşah gənc oğlanın onun döyüşçüləri arasında gizləndiyini fikirləşərək əmr verdi ki, onun qırmızı dəsmalı olan adamı kimliyindən asılı olmayaraq tapıb gətirsinlər. Axtarışlar nə qədər səylə aparılsa da, onu tapa bilmədilər. Padşah öz xilaskarını tapmaq ümidini itirdi. Padşah və xalqı belə düşünməyə başladılar ki, onların xilaskarı Allahın göndərdiyi mələkdir.

Bundan sonra bir dəfə padşah bərk xəstələndi. Loğmanlar ona dənizin o tayında yaşayan şirlərin südündən içməsə sağalmayacağını dedilər. Padşahın adamları südü əldə etmək üçün yola düşdülər. Padşahın adamları tərəfindən təqib edilən şirlər dərvişin sarayında toplaşdılar, onları təqib edən tanımadıqları adamların qəddarlığından padşahın oğluna şikayət etdilər və oğlandan xahiş etdilər ki, onları müdafiə etsin. Çox keçmədi ki, padşah ovçuları da saraya gəldilər. Padşahın oğlu hirslə onlara qışqırdı:

– Mənim şirlərimi özü də mənim evimdə narahat etməyə sizin nə haqqınız var?

Padşahın ovçuları dərhal onun qarşısında diz çökdülər və təəssüflə padşahın xəstəliyindən danışdılar və xahiş etdilər ki, onları bağışlasın. Gənc oğlan dedi:

– Yaxşı, mən sizi bağışlayıram, sizə şir südü verəcəyəm, amma bədəninizə öz damğamı vuracağam.

Nə etmək olar, ovçular razı olub adi şirlərin südünü götürüb onu padşaha apardılar. Padşah onları igidliklərinə görə tərif edib qiymətli hədiyyələr verdi. Ovçular padşaha şir südünü necə rəzalətlə əldə etdiklərini demədilər.

Dərvişin sarayında yaşayan padşah oğlu ovçuları buraxıb özünün iki şirinə öz dişi padşahlarının yanına getməyi və ondan süd təvəqqe etməyi əmr etdi.

Şirlərin başçısı onun iki şiri təhlükədən qurtarmağını yadına salıb padşah oğlunun xahişini məmnuniyyətlə yerinə yetirdi.

Gənc oğlan gərəkdiyi şəkildə əyin-başını dəyişib qara atını mindi, südü götürdü və atasının yanına yola düşdü.

***Zaqafqaziya müəllimlər seminariyasının tələbəsi A.Babayans tərəfindən toplanıb***

## XIR-XIR KOSA

Biri var idi, biri yox idi, üç oğlu olan padşah var idi. Onun bağında hər üç ildən bir bar verən alma ağacı var idi. Bu almaları yeyən ölümsüz olurdu.

Padşah heç cürə bu almalardan yeyə bilmirdi. Onlar yetişən kimi kimsə hər dəfə onları oğurlayırdı.

Axırda padşah günlərin bir günü öz oğullarına deyir:

- Əziz uşaqlar, budur artıq neçə ildir ki, bizim bağda bu alma ağacı bitir. Amma biz onun meyvələrindən yeyə bilmirik. Siz növbə ilə alma ağacının keşiyini çəkin və oğrunu tutun!

Oğulları razı oldular və birinci gecə böyük qardaş keşik çəkməyə getdi. Gecə yarı olanda o yuxuya qalib gələ bilmədi və yatdı. O, səhər yuxudan durub gördü ki, ağacda bir alma çatmır. Ertəsi gün ortancıl qardaş keşik çəkməyə getdi, onun başına eyni şey gəldi.

Axırda üçüncü gecə padşahın kiçik oğlu keşik çəkməyə getdi. Gecəyarısı o da yatmaq istədi. Amma o bilərəkdən barmağını kəsdi, yaraya duz basdı və beləliklə də, yuxunu qovdu. Düz gecənin yarısında Xır-xır Kosa gəldi, ağacdan axırıncı almanı dərdi. O almanı dərib getmək istərkən igid oğlan oxu ona sapladı. Xır-xır Kosa qanı axa-axa gözdən itdi.

Şahzadə evə gəlib hər şeyi atasına və qardaşlarına danışdı. Ertəsi gün üç qardaş oğrunu axtarmağa getdilər. Onlar yaralı Xır-Xır Kosanın qanının iziylə çox getdilər və axırda gəlib izin qurtardığı bir quyuya çatdılar. Qardaşlar qərara gəldilər ki, quyuya düşsünlər və orada oğrunu axtarsınlar. Əvvəlcə böyük qardaşı quyuya salladılar, quyunun ortasınadək düşməmişdi ki, qışqırmağa başladı:

– Yanıram, yanıram, yanıram!

Onu quyudan çıxartdılar, sonra ortancıl qardaşı quyuya salladılar. O da qışqırmağa başladı ki, nə isə yandırır. Belə ki onu da çıxartdılar. Onda kiçik qardaş dedi:

– Mən nə qədər qışqırsam da, yalvarsam da məni çıxardın, mənə qulaq asmayın, məni quyunun dibinədək sallayın.

Onu quyuya salladılar. O da qışqırmağa və yalvarmağa başladı ki, onu quyudan çıxarsınlar. Amma qardaşlar onun sözlərinə əməl edərək qışqırıqlarına fikir vermədilər və onu quyunun lap dibinədək salladılar. Məlum oldu ki, quyunun dibində pilləkən var. Şahzadə pilləkənlə qalxıb qapını açdı və bir otağa daxil oldu. Orada gənc gözəl bir qız oturub qızıl dovşanın dalınca qaçan bir qızıl ov itinə tamaşa edirdi. O, gözəl qızı öpüb, bitişik qapını açdı və başqa otağa girdi.

Buradakı qız birinci gördüyü qızdan daha gənc və gözəl idi. Onun qarşısında qızıldan kiçik dəyirman durmuşdu. Dəyirman işləyir, qız isə ona tamaşa edirdi. Şahzadə onu da öpüb bitişik qapını açdı və üçüncü otağa girdi.

Orada dünyanın heç bir yerində olmayan gözəl bir qız oturmuşdu. O, ikinci qızdan daha gənc idi. Xır-xır Kosa başını onun dizləri üstə qoyub yatırdı. Gözəl qız şahzadəni görüb dedi:

– Gənc oğlan, sən nə edirsən?! Yoxsa sən burada kimin yaşadığını bilmirsən? Mənim sənə yazığım gəlir. Bax bir azdan

bu əjdaha yuxudan ayılacaq və səni bütöv yeyəcək. Əgər həyatından bezməmisənsə buradan uzaqlaş!

Şahzadə cavab verdi:

– Mənim gözəlim, narahat olma! Mən bura onu öldürməyə və səni qurtarmağa gəlmişəm. Ən yaxşısı, sən mənə de, onun gücü haradadır ki, onu öldürmək asan olsun.

– Onun gücü bu şüşədədir, sən onu götür və cibində gizlət. Sən bunu edəndə əjdaha yuxudan oyanacaq və şirin dillə səndən şüşəni aldadıb almağa çalışacaq. Əgər o şüşəni səndən alsa, səni yeyəcək.

Gənc oğlan taxçaya yaxınlaşdı, şüşəni götürdü və onu cibində gizlətdi. Bu vaxt zəifləmiş Xır-xır Kosa yuxudan ayıldı. O, şahzadəni görüb şirin dillə ona müraciət etdi və xahiş etdi ki, şüşəni ona versin, çünki o şüşə heç nəyə yaramır. Amma şahzadə şüşəni verməyə razı olmadı. Kosa əllərini uzadıb şüşəni şahzadənin cibindən güclə götürmək istəyəndə o özü şüşəni çıxardı və daşa çırpıb parça-parça sındırdı. Bədheybət kükrəyib ölü düşdü.

Onda şahzadə onun dodaqlarını, burnunu və qulaqlarını kəsdi, dəsmala bükdü və şüşənin durduğu yerə qoydu, özü isə üç gözəl qızı götürüb, quyuya tərəf getdi. O, gözəl qızlardan böyüyünü yuxarı göndərib dedi ki, onu böyük qardaşına göndərir. Ortancıl qızı ortancıl qardaşına verdi. Bundan sonra quyuda kiçik gözəl qız və şahzadə qaldı. Onlar öz aralarında mübahisə etməyə başladılar ki, kim əvvəlcə qalxmalıdır? Gənc oğlan istəyirdi ki, əvvəlcə gözəl qız qalxsın. O isə deyirdi ki, şahzadə birinci qalxsın. Gözəl qız şahzadə oğlana deyirdi:

– Əgər mən birinci qalxsam, sənin qardaşların mənim gözəlliyimi görüb səni buradan çıxartmaq istəməyəcəklər. Yox, əgər sən birinci qalxsan, sonra məni də quyudan çıxararsan.

Şahzadə isə gözəl qızla razılaşmaq istəmədi. O, qıza bildirdi ki, onu orada tək qoyub birinci çıxmaqdansa, ölüm

daha yaxşıdır. Qız çarəsiz qalıb şahzadədən əvvəl qalxmağa razı oldu və oğlana dedi:

– Nəzərə al, əgər qardaşların səni burada buraxsalar, yalnız Xır-xır Kosanın atı buradan qurtaracaqdır. O, tövlədədir. Tövlənin qapısı sənin şüşə götürdüyün taxçanın içindədir. Əgər bu at sənə kömək etsə, sən buradan çıxarsan. Yox, əgər kömək etməsə, sən burada həmişəlik qalacaqsan.

Onun dedikləri yerinə yetdi. O, iplə qalxanda qardaşları qızın cəlbedici gözəlliyini görüb öz kiçik qardaşlarını quyuda qoydular və evə qayıtdılar. Ataları onlardan kiçik qardaşlarının harada olduğunu xəbər alanda onlar cavab verdilər ki, o yolda onlardan ayrıldı və hara getdiyi məlum deyil. Bu əsnada onlar öyünərək dedilər ki, Xır-xır Kosanı öz əlləri ilə öldürmüş, üç gözəl qızı da özləri ilə gətirmişlər.

Şahzadə qardaşlarının ona ip sallayacaqlarını çox gözlədi və başa düşdü ki, qardaşları ona xəyanət etmişlər. Onda o, Kosanın atının yanına getdi ki, at onu quyudan çıxartsın. At onun xahişinə belə cavab verdi:

– Mən onu ölmüş olduğuna əmin olmadığım üçün sən mənə Kosanın dodaqlarını, burnunu, qulaqlarını gətirməlisən ki, mən səni buradan çıxardım.

Şahzadə o saat qaçıb Kosanın dodaqları, burnu və qulaqları olan dəsmalı gətirdi və onları ata göstərdi. O, Kosanın, doğrudan da, öldürüldüyünü görüb təəccübləndi və qəddar sahibinin tamamilə yox olduğuna əmin olub gənc oğlana dedi:

– Hə, yəhəri götür, məni yəhərlə və min. Qamçını mənə elə vur ki, dərimdən bir parça qopsun. Amma möhkəm yəhərlə ki, sən bəlaya düçar olmayasan.

Şahzadə atın dediyi kimi də elədi. Ata minəndə onu qamçı ilə var qüvvəsiylə vuranda at küləkdən də sürətlə yerindən qopub çapdı və bir anda quyudan uçub çıxdı, oğlanı öz doğma şəhərinə apardı. Şəhərə yaxınlaşanda at gənc oğlana dedi:

– Şahzadə, indi şəhərə piyada yola düş. Əgər məni görsələr, səni öldürüb, mənə sahib çıxacaqlar. Mənim tükümdən kəs götür. Sənə lazım olaramsa tükü daşın altına qoy, üç dəfə məni çağır. Mən dərhal gələcəm.

Bunu deyib at şahzadəni buraxdı, özü isə yenidən quyuya qayıtdı. Gənc oğlan şəhərə yola düşdü və bir zərgərin yanında şagird işləməyə başladı.

Bu vaxt padşah özünün böyük oğlunu böyük qızla evləndirmək istədi. O zamanlar belə bir adət var idi ki, oğlan öz nişanlısının zövqünə görə ona hədiyyə edirdi. Böyük oğul nişanlısından xəbər alanda ki, ona nə bağışlasın, qız cavab verdi ki, özünün əvvəlki oyuncaqlarını, yəni qızıl ov iti ilə qızıl dovşan istəyir. Belə ki, bu hədiyyə olmadan heç kimə ərə getməyəcək. Adaxlı oğlan şah xəzinəsindən qızıl götürdü və tələb olunan şeyləri sifariş etməyə getdi. Zərgərlərin hamısı belə şeyləri düzəldə bilməyəcəklərini deyərək bu işdən imtina etdilər. Axırda adaxlı bir ustanın yanına gəldi. Şahzadə elə bu ustanın yanında şagird işləyirdi. Bu usta işdən imtina etməyə başladı, amma şagird ondan xahiş etdi ki, sifarişi götürsün. Usta qızılı götürdü, oyuncaqları bir həftəyə hazır etməyə razı oldu. Sifarişçi çıxıb gedəndə ustanı hədələdi ki, əgər sifariş yerinə yetirilməsə, o edam ediləcək. Usta öz şagirdini söyməyə və vurmağa başladı:

– Elə dünən gəlmisən, əlində çəkic tuta bilmirsən, amma padşah sifarişlərini yerinə yetirmək istəyirsən! Hazır elə, görək! Yoxsa əvvəlcə sən öləcəksən, sonra isə məni edam edəcəklər.

Şahzadə cavab verdi:

– Usta, narahat olma, yeddi gündən sonra mən lazım olanı sənə təqdim edəcəyəm, indi isə sən get bazara, yeddi kisə xırda qoz və kişmiş al, yoxsa mən heç nə etməyəcəyəm.

Usta qoz və kişmiş alıb, onları şagirdə verdi. Şagirdi bir küncdə oturub, onları yeməyə başladı, işə isə əlini belə vurmadı.

Dükan xırda qoz qabıqları ilə dolu idi. Usta sifarişin yerinə yetirilməsinə ümidini çoxdan itirmişdi və ertəsi gün sifarişçilərin hüzurunda onu aldatmış şagirdini boğazlamağa hazırlaşırdı. Sifariş günü ərəfəsində gecə usta öz otağına getdi, şahzadə isə atının tükünü daşın altına qoydu və üç dəfə onu çağırdı. At həmin anda gəlib çıxdı və onun qarşısında durdu. Şahzadə ona dedi:

– Get qızıl ov itini və dovşanı elə indicə mənə gətir. Onlar mənə çox lazımdır.

At gözdən itdi və o saat oğlanın tapşırdığı əşyalarla geri döndü. Səhər usta gəldi və masasının üstündə ov itini və dovşanı gördü. Hiyləgər usta həm çox sevincli, həm də təəccüblü idi. Amma öz sevincini büruzə vermirdi. Şagird şahzadə ondan xəbər aldı:

– Hə, nə deyirsən? Yaxşımı düzəldilib?

Usta əlindəki çəkiclə görk üçün əşyaların ora-burasını vurub cavab verdi:

– Tam yaxşı olmasa da, qənaətbəxşdir.

Şagird şahzadə öz-özünə dedi:

– Yaxşı, mən sənə "qənaətbəxşdir" göstərərəm, gözlə!

Nəhayət, adaxlı şahzadə gəldi, əşyaları götürdü və öz nişanlısına bağışladı. Öz xilaskarının həyatı üçün narahat olan üç gözəl öz oyuncaqlarını görüb sevindilər, başa düşdülər ki, onların xilaskarı sağdır, quyudan çıxa bilmiş və şəhərdədir. Hamıdan çox isə kiçik gözəl sevinirdi.

Ölkənin adətinə görə, toydan əvvəl cıdır təşkil olunmuşdu. Bütün şəhər onun keçirildiyi yerə toplaşmışdı. Şagird şahzadənin ustası da dükanı öz şagirdinə tapşırıb özü də ora getdi. Amma usta gözdən itən kimi şahzadə libasını dəyişib dükanı bağladı, öz atını çağırdı və cıdıra yerinə getdi. O, atı ilə iki-üç hərəkət edib bütün xalqı təəccübləndirdi.

Şahzadə birdən dayanıb, böyük qardaşını oxla sinəsindən vurdu. Qardaşı yerində yırğalanıb hissiyyatsız yerə yıxıldı.

Şahzadə dükana qayıtdı, atı buraxıb öz işi ilə məşğul olmağa başladı, sanki dükandan heç yerə getməmişdi. Bir neçə vaxtdan sonra usta da gəldi, o meyit kimi solğun idi.

Şagird şahzadə bilmirmiş kimi xəbər aldı:

– Hə, usta, orada nə baş verdi?

– Nə oldu? O oldu ki, oyunun lap qızğın vaxtı bir adam külək kimi sürətli atın belində peyda oldu, atla bir neçə dövrə vurdu, bir ox atıb şahzadə adaxlını öldürdü. İndi bütün xalq çaşqınlıq içindədir. Bu hələ harasıdır, mən ona heç bir şey etməmişəm, mənim yanımdan çaparaq keçəndə mənə elə şillə vurdu ki, indi başım ağrıyır.

Şagird ürəyində ustaya gülürdü, – qoy bu sənə dərs olsun ki, düzəldə bilmədiyin şeyi pisləməyə cürət etməyəsən, – deyə fikirləşirdi.

Bir vaxt keçdi və padşah ortancıl oğlunu ikinci qızla evləndirmək istədi. Adaxlı oğlan öz nişanlısının yanına gəlib xəbər aldı ki, ona nə hədiyyə bağışlasın. O cavab verdi ki, özü işləyən və onu əyləndirən qızıl dəyirman istəyir. İstədiyi olmasa, heç kimə ərə getməyəcək.

Ortancıl qardaş qızıl götürdü və ustaların yanına getdi, onlardan heç kim belə bir dəyirman düzəltməyi boynuna götürmədi. Axırda ov iti sifariş edilən həmin ustanın yanına gəldilər. O da öz növbəsində əvvəlcə imtina etmək istəyirdi. Şagirdi tərəfindən təhrik edilən usta sifarişi qəbul edərək dəyirmanı bir həftədən sonra hazır etməyi vəd etdi. Sifarişçilər getdikdən sonra şagird ustadan yeddi torba xırda qoz və yeddi torba kişmiş tələb etdi. O, əvvəl də olduğu kimi yeddi gün yeddi gecə qoz və kişmiş yedi. O, yeddinci gecənin ərəfəsində öz atını çağırdı, at dərhal gözəlin dəyirmanını gətirib gəldi:

Şagird şahzadə ustasından xəbər aldı:

– Hə, nə deyirsən, dəyirman yaxşımı düzəldilib?

Usta dəyirmanın ora-burasını düzəldirmiş kimi çəkiclə döyəcləyərək cavab verdi:

– Pis deyil.

Şagird ürəyində dedi:

– Mən də səni belə düzəldərəm.

Vaxt tamam olanda şahzadə adaxlı gəlib dəyirmanı götürdü və öz nişanlısına bağışladı. Gözəl qız digər bacıları ilə birgə xilaskarın sağ olması sübutunu alıb çox sevindilər.

Yenə yarış təşkil edildi. Şagird şahzadə usta gedəndən sonra libasını dəyişib atına mindi və yarışa getdi. Birinci dəfə olduğu kimi indi də iki-üç dəfə dövrə vurub ortancıl qardaşı ox vurub öldürdü və ustanın yanından çapıb keçərkən başına bir şapalaq vurdu. Dükana qayıdıb atını buraxdı və yenə də öz işi ilə məşğul oldu. Zərbədən sərsəmləşmiş usta evə gəldi. Şagird şahzadə xəbər aldı:

– Hə, usta, necə vaxt keçirdin? Yarışda kim uddu?

Usta hirslə cavab verdi:

– Kim uddu? Oyunun qızğın vaxtı yenə həmin gənc oğlan gəlib çıxdı, ikinci şahzadəni öldürdü, məni vurdu (mən bilmirəm bu yaramaza nə etmişəm), gözdən itdi. Xalq çox çaşqınlıq içindədir. Padşah iki böyük oğlunu itirdi, üçüncü oğlundan isə bir xəbər-ətər yoxdur, hamı onu ölmüş bilir. Sabah bu quldurу tapmaq üçün məşvərət olacaq, mən fikirləşirəm ki, o ya şeytandır, ya Əzrail.

Şagird şahzadə ondan xəbər aldı:

– Usta, sən də ora gedəcəksən?

– Əlbəttə, gedəcəyəm. Məni də şəhərin baş ustası kimi ora dəvət ediblər.

– Usta, məni də ora apar! Mən baxmaq istəyirəm ki, mühüm şəxslər necə məşvərət edirlər. Bəlkə, mən də orada nəsə bir söz deyə bilərəm.

– Kəs səsini, küçük. Gör kim saray adamları ilə oturub-durmaq istəyir.

Amma şagirdi onu öz xahişi ilə o qədər təngə gətirdi ki, usta onu da özü ilə götürməyə razılıq verdi. Ertəsi gün onlar saraya gəldilər. Burada mötəbər adamlar dala-qabağa hərəkət edirdilər. Hamı kədərli idi. Məşvərət başlayanda hamı döşəkçələrin üstündə öz yerini tutdu. Usta və şagirdi küncdə, qapının yanında oturdular. Hadisəni müzakirə etməyə başladılar. Biri birini deyirdi, o biri başqasını. Bir şeyin üstündə durmaq çətin idi...

Şagird şahzadə birdən uca səslə dedi:

– Böyük hökmdar, icazə ver, mən də bir söz deyim.

Qorxuya düşmüş usta öz şagirdinin sözünü kəsərək dedi:

– Sus, sus, yaramaz! Sus, dəli!

Amma şahzadə ona heç bir fikir vermədi. Bu arada şura üzvlərinin hamısı təəccübləndilər ki, adi gənc oğlan özündə cürət tapıb bura daxil olub və bundan əlavə danışıq üçün padşahdan rüxsət istəyir. Padşah gənc oğlana dedi:

– Danış, əzizim, bir qulaq asaq görək bizə nə deyəcəksən!

Şagird şahzadə rüxsət alıb evdən çıxan gündən başına gələnləri nağıl şəklində danışmağa başladı. O, nağılını danışıb qurtarıb atasından xəbər aldı:

– Ey mərhəmətli hökmdar, sən bu şahzadəni necə qəbul edərdin, əgər o, sənin oğlun olsa idi? Əgər sən, bu şahzadənin yerində olsa idin, sən necə hərəkət edərdin?

Padşah cavab verdi:

– Mən gənc oğlanın yerində olsa idim, şahzadə hərəkət etdiyi kimi hərəkət edərdim. Mən onun atası olsa idim, onu bağışlar və öpərdim.

Onda şagird-şahzadə atasına yaxınlaşdı və dedi:

– Məni bağışla və öp, çünki mən sənin oğlun və xain qardaşlarının qatiliyəm.

Padşah oğlunu öpdü. Burada olanların hamısı təəccüblәndilәr vә sevindilәr.

Ustaya gəlincə isə o hələ bilmirdi bütün bunlar yuxuda yoxsa gerçəkdə baş vermişdir.

Ertəsi gün toy məclisi quruldu. Şahzadə kiçik gözəllə evləndi. Böyük gözəllərdən biri vəzirin oğluna, o biri isə vəkilin oğluna ərə getdi. Onların hamısı şad-xürrəm və uzun ömür sürdülər.

***Zaqafqaziya müəllimlər seminariyasının tələbəsi A.Babayans tərəfindən toplanıb***

## ATA VƏSİYYƏTİ

Biri var idi, biri yox idi, bir padşah var idi. Onun üç oğlu və üç qızı var idi. Padşah artıq qocalmışdı. Günlərin bir günü oğlanlarının hamısını yanına çağırıb onlara dedi:

– Əziz uşaqlarım, hiss edirəm ki, ölümüm yaxınlaşıbdır. Buna görə də sizdən xahiş edirəm. Birincisi, ölümümdən sonra növbə ilə üç gecə qəbrimin keşiyini çəkin. İkincisi, kim mənim qızlarımla evlənmək istəsə, rədd etməyin. Üçüncüsü, məndən bir xatirə olaraq, bu şəhərdə elə bir məscid tikdirin ki, heç bir yerdə tayı-bərabəri olmasın və əgər kimsə onun qüsurunu göstərsə, həmin qüsuru düzəldin.

Oğulları söz verdilər ki, atalarının vəsiyyətlərinə əməl edəcəklər.

Bundan iki ay sonra padşah öldü. Böyük oğullar atalarının adını heç eşitmək də istəmirdilər. Onlardan kiçik qardaş böyük qardaşının yadına saldı ki, vəsiyyətə görə gecə padşahın qəbrinin keşiyini çəkməlidir. Amma böyük qardaş getməyi heç düşünmürdü də. Onda kiçik qardaş özünün ox-yayını və qılıncını götürüb qəbrin keşiyini çəkməyə getdi.

Gecənin yarısında qırmızı ata minmiş bir atlı gəldi. O, meyidi parça-parça edib quş və heyvanlara verməklə bağlı hədələr və

lənətlər yağdıraraq qəbrə tərəf cumdu. Bu vaxt şahzadə qılıncını çəkdi, atlını və atını iki yerə böldü. Sonra o, atlının və atın burnunu, dodaqlarını, qulaqlarını özü ilə götürüb qardaşlarının yanına gəldi. O, başına gələnləri onlara danışdı və sübut olaraq atlının üzünün və onun atının ağzının hissələrini onlara göstərdi.

Ertəsi gün ortancıl qardaş da qəbrin keşiyini çəkmək istəmədi və onun yerinə də kiçik qardaş getdi.

Bu gecə qara ata minmiş başqa bir atlı gəldi. O da lənətlər və hədələr yağdıraraq qəbrə cumdu. Şahzadə onu da öldürdü, atlının və atının burnunu, dodaqlarını, gözlərini və qulaqlarını qardaşlarına gətirdi.

Üçüncü gecə o, atasının qəbri üstündə ağ ata minmiş atlını öldürdü.

Kiçik şahzadə atasının birinci vəsiyyətini yerinə yetirib tələb etdi ki, qardaşlar məscidin tikintisinə başlasınlar.

Bu arada bir gecə qardaşlar bir yerə yığılıb görüləcək işlər haqqında məsləhətləşəndə kimsə qapını bərk döyməyə başladı. Şahzadə gedib öyrəndi ki, bu, Leylək padşahdır, böyük bacı ilə evlənmək istəyir. Şahzadə o saat bacılarının yanına getdi və bir neçə dəqiqədən sonra böyük bacısının qulağından tutub gətirdi. Leylək padşah özünün çox gözəl nişanlısını götürüb, qaranlıqda gözdən itdi. Şahzadə qardaşlarının yanına gəlib hadisədən onları xəbərdar etdi, qardaşlar ona çox hirsləndilər.

Ertəsi gün gecə yenə qapını döyməyə başladılar. Bu ortancıl bacı ilə evlənmək istəyən Göyərçin padşah idi. Kiçik qardaş şahzadə qızla o saat gözdən itən Göyərçin padşahın istəyini yerinə yetirdi. Qardaşlar kiçik qardaşa əvvəlkindən daha çox hirsləndilər.

Üçüncü gün Qaraquş padşah kiçik bacı ilə evlənmək istədiyi üçün gəldi. Kiçik şahzadə kiçik bacısını ona verdi. Qardaşların bundan sonra qəzəblərinin həddi-hüdudu yox idi. Ediləcək bir şey yox idi, bacıları qaytarmaq olmazdı.

Çox keçmədən məscid də tikilib qurtardı. Elə bir gözəl məscid idi ki, onu görən hər kəs valeh olurdu. Kim onda bir nöqsan tapa bilərdi?! Amma günlərin bir günü üç şahzadə məsciddə namaz qılarkən üç göyərçin uçub gəldi, və insan dilində dedilər:

– Çox təəssüf olsun ki, belə gözəl məscidin bir nöqsanı vardır!...

Göyərçinlər bunun deyib uçub getdilər. Hamı nöqsanın nədən ibarət olduğunu öyrənmək üçün məscidi gözdən keçirməyə başladı. Amma məscid heç bir nöqsanı olmayan bir tikili olaraq görünürdü.

Ertəsi gün göyərçinlər yenə uçub məscidə gəldilər, təəssüflərini bir də bildirib uçub getdilər. Belə vəziyyət bir neçə gün davam etdi.

Axırda qardaşlar qərara gəldilər ki, göyərçinləri tutmaq və məscidin nöqsanının nədən ibarət olduğunu öyrənmək üçün növbə ilə keşik çəkmək lazımdır.

Birinci gecə böyük qardaş keşik çəkməyə getdi. Amma o, çox keçmədən yuxuya getdi, qardaşlarına isə heç bir şey görmədiyini dedi.

Ortancıl qardaş o biri gecə keşik çəkməyə getdi və böyük qardaşı kimi hərəkət etdi. Axırda kiçik qardaşın növbəsi gəldi. O, balalaykasını (sazını-*tərtibçilərdən*) götürüb məscidə getdi, və göyərçinlər gələnə kimi balalaykasında ifa etdi. Düz gecə yarısı göyərçinlər uçub məscidə gəldilər və öz təəssüflərini bildirdilər. Bu vaxt şahzadə qapıları bağladı və onlardan xəbər aldı:

– Mənə deyin, siz kimsiniz? Bu məscidin hansı nöqsanı vardır? Əgər deməsəniz sizi buradan buraxmayacağam!

Göyərçinlər görəndə ki, başqa cür onlar məsciddən çıxa bilməyəcəklər dedilər:

– Bizim kim olduğumuzu sən bilməməlisən, məscidin nöqsanı isə budur ki, belə gözəl məscidin üstündə gərək Kosanın Yeddi rəng tükü olan bülbülü oxusun.

Şahzadə bunu eşidib göyərçinləri buraxdı və göyərçinlərin dediklərini qardaşlarına çatdırdı. Qardaşlar qərara gəldilər ki, Kosanın bülbülünü axtarsınlar. Onlar çoxlu ərzaq və pul götürüb yola düşdülər. Onlar birlikdə xeyli yol getdilər, sonra qərara gəldilər ki, hər biri ayrılıqda yollarını davam etsinlər.

İki böyük qardaş heç nəyə nail olamayacaqlarını düşünüb yolun yarısından evlərinə geri döndülər. Kiçik qardaş isə xeyli yol qət etdikdən sonra bir qalaya gəlib çatdı. Birinci qapının arxasında o, bir divar gördü, onu dolanıb keçərək ikinci qapıya rast gəldi, qapıdan içəri keçdi və üçüncü divar gördü, onu da dolanıb keçdi və üçüncü qapını tapdı. Bu qapı heç padşahın sahib olmadığı çox gözəl bir otağa açılırdı. Bu otaqda bahalı taxtın üstündə onun böyük bacısı oturmuşdu. O, qardaşını görüb onun üstünə atıldı, öpməyə və sevincdən ağlamağa başladı.

Sonra qardaşının onlara gəlməyindən təəssüfləndiyini bildirdi və dedi ki, Leylək padşah onu görsə, mütləq öldürəcək.

– Mən səni gizlədərəm, ərimdən xəbər alaram ki, səni necə qarşılayacaq? Əgər desə ki, səni öldürəcək, o gedənədək gizləndiyin yerdə qalarsan. Yox, əgər öldürməyəcəyini bildirsə, onda sən gizləndiyin yerdən çıxarsan.

Bacısı bunu deyib onu gizlətdi. Çox keçmədi ki, Leylək padşah gəldi və arvadı ondan xəbər aldı:

– Mənim qardaşlarımdan kimsə bizə gəlmiş olsa, sən onu necə qarşılayarsan?

– Necə qarşılayaram? Əgər sənin böyük qardaşın gəlsə, onun bədənindən qalan ən böyük parça qulağı olacaq. Ortancıl qardaşını da eyni aqibət gözləyir. Əgər kiçik qardaşın gəlsə, onun yeri başımın üstə olacaq.

Onda gözəl qız qardaşını ərinin yanına gətirdi və Leylək padşah onu çox böyük sevinclə qarşıladı. Şahzadə Leylək padşaha səfərinin məqsədini danışdı. Leylək padşah isə ona geri qayıtmağı məsləhət gördü, çünki o özü belə qorxunc Kosanın

sərhəddini keçməyə qorxurdu. Amma şahzadə öz niyyətində möhkəm idi. Belə olduqda Leylək padşah ona ortancıl bacısının əri Göyərçin padşahla danışmağı məsləhət bildi, çünki o, daha təcrübəli olduğu üçün lazımi məsləhətlər verə bilərdi.

Şahzadə Leylək padşah və böyük bacını burada qoyub yola düşdü. Ortancıl bacısının yaşadığı yerə çox getdi, nəhayət, mənzil başına çatdı. Göyərçin padşahın qalası Leylək padşahın qalasına oxşayırdı, amma ondan daha gözəl idi.

Ortancıl bacı da onu böyük bacısı kimi qarşıladı. Göyərçin padşah da ona bu ağılsız niyyətindən əl çəkməyi məsləhət bildi, amma ölüm də şahzadəni yolundan döndərə bilməzdi. Göyərçin padşah onu kiçik bacısının əri Qaraquş padşahın yanına göndərdi, çünki o daha təcrübəli idi, nə etməyi o yaxşı bilirdi.

Şahzadə Qaraquş padşahın yanına getdi. Qaraquş padşah onu Göyərçin və Leylək padşahdan daha yaxşı qarşıladı. Amma o da şahzadənin niyyətindən xəbər tutduqda evə qayıtmağı məsləhət gördü. Şahzadə öz fikrindən heç vəchlə dönmək istəmirdi. Qaraquş padşah bunu görüb dedi:

– Əgər sən yoluna davam etməkdə qətiyyətlə israrlısansa, onda mənim dediklərimi çox dəqiqliklə yerinə yetir. Kosanın otağına girəndə qəfəsdə bülbülünü görəcəksən. Orada pərdənin arxasında qara saçları görünən gözəl bir qız yatır. Sən ona yaxınlaşarsan, elə onun saçları ilə əllərinin iki baş barmaqlarını bağlayarsan, sonra yanaqlarından öpərsən. Bu vaxt o, yuxudan oyanacaq, səndən xahiş edəcək ki, onu azad edəsən. Amma o, anasının südünə and içməyincə, Kosanın quşu ilə sənin arxanca getməyənədək bunu etmə. Əgər onu qaçırda bilsən, onunla evlən, bülbül isə məscidin üstündə oxusun.

Şahzadə o saat yola düşdü və Kosanın evinə gəlib çıxanda Kosa evdə yox idi. Gözəl qız pərdənin arxasında yatırdı, onu uzun saçları isə bahalı xalıların üstündə idi. Şahzadə ona yaxınlaşdı və Qaraquş padşahın ona məsləhət gördüyü kimi

hərəkət etdi. O, gözəl qızın məxmər yanaqlarına dodaqlarını toxunduran kimi o saat gözlərini açdı və şahzadəyə yalvarmağa başladı ki, onu azad etsin.

Amma şahzadə soyuqqanlılıq göstərib onun istəyini yerinə yetirmədi. Gözəl qız onun arxasınca getməyə hazır olub anasının südünə and içəndən sonra şahzadə onu azad etdi və onlar qaçmağa hazırlaşdılar. Gözəl qız Kosanın üç atından ən arığını yəhərləməyi məsləhət bildi, çünki bu at Kosanın ən çapar, ən sürətli atı idi. Şahzadə arıq atı yəhərlədi, onun belində oturub, gözəl qızı da öz dizləri üstündə oturtdu, quşu da götürüb öz şəhərinə tərəf çapmağa başladı.

Kosa evinə gəlib görəndə ki, evdə nə arvadı, nə də bülbülü var, gülümsədi. Kosa fikirləşirdi ki, oğru onun kök atına minib, o isə arıq atına minib tezliklə onlara çatacaq. Kosa tövləyə girdi və çox təəccübləndi ki, onun arıq, gözə xoş gəlməyən arıq atı tövlədə yox idi. Amma bu atın dayçası tövlədə idi, Kosa bu atla yola çıxdı. Onları təqib edərkən öz-özünə fikirləşdi: "Anası dayçanın səsini eşidər və dayanar". Kosanın fikirləşdiyi kimi oldu. Şahzadənin mindiyi at öz dayçasının kişnəməyini eşidib dayandı və irəli getmək istəmədi.

Kosa şahzadəyə ox atdı, arvadını və bülbülünü götürüb evinə qayıtdı. Ölü şahzadəni isə heyvanlarına yem etdi.

Bu vaxt Qaraquş padşah ova çıxmışdı, o, qaynını ölmüş görüb, cibindən bir məlhəm çıxardı, onu şahzadənin yarasına sürtdü. Şahzadə o saat dirildi. Şahzadə dedi:

– Ah mən nə qədər çox yatdım!

Qaraquş padşah cavab verdi:

– Nə yatmaq, sən ölü uzanmışdın. İndi isə gedək bizə, sonu ölüm olan bu işi burax!

Şahzadə cavab verdi:

– Nə olursa olsun, o gözəl qızsız və bülbülsüz geri qayıtmayacağam. Ölərəm, amma bu işdən əl çəkmərəm!

Şahzadə düşməni öldürdüyünə əmin olub, rahatca ova gedən Kosanın evinə qayıtdı. Gözəl qız elə hey şahzadəni fikirləşir və onun üçün göz yaşları axıdırdı. Şahzadə gələn kimi qız onun qucağına atıldı və təvəqqe etdi ki, onu tez aparsın. Qız şahzadəyə məsləhət gördü ki, özü ata minsin, onu isə dayçaya mindirsin. Şahzadə qızın məsləhət etdiyi kimi hərəkət etdi. Çox keçmədən onlar artıq Kosanın evindən çox uzaqda idilər, istəsə də Kosa onlara çata bilməzdi.

Şahzadənin böyük qardaşları evlərinə geri dönüb evlənmiş, şad-xürrəm yaşayırdılar. Günlərin bir günü onlar öz qardaşlarını axtarmaq fikrinə düşdülər. Onlar qorxuya düşmüşdülər, çünki bilirdilər ki, əgər kiçik qardaşa bülbülü tapıb gətirmək qismət olarsa, fürsət düşən kimi onları utandıracaq. Ona görə də bülbülü götürüb onu öldürmək qərarına gəldilər.Yol üçün lazım olan hər bir şeyi hazırlayıb yola düşdülər.

Kiçik qardaşın, gözəl qızın və bülbülün yaşadığı şəhərə gəlib çatanadək xeyli yol getdilər, bir çox şəhərlərdə oldular. Şəhərdə hamı ondan danışırdı, qardaşları isə paxıllıq edirdilər. Onlar bir neçə gün qardaşlarını necə öldürməyi, gözəl qızı və bülbülü qaçırmağı fikirləşirdilər. Axırda onlar libaslarını sadə adamlar kimi geyinərək kiçik qardaşlarının yemək götürdüyü yeməkxanaya xidmətçi kim işə düzəlmək qərarına gəldilər. Onlardan biri dedi:

– Yeməkxananın sahibi bizlərdən hansı birimizi kiçik qardaşımıza yemək aparmaq üçün göndərərsə, o, qardaşımızın tutduğu otağın qapısında xəncərlər qoysun ki, gecə xəncərlərin üstünə yıxılsın, ölümcül doğransın.

Qardaşlar bunu qərarlaşdırıb, ertəsi gün yeməkxananın sahibinin yanına gəldilər. Yeməkxana sahibi məmnuniyyətlə qardaşları işə götürdü. O, qardaşlara kiçik qardaş üçün yemək aparmağı tapşırdı. Onlar iki dəfə qardaşlarına yemək apardılar, evin quruluşunu yaxşıca öyrənərək qapıya xəncərlər qoydular.

Şahzadə axşamdan keçmiş evə qayıdanda qapını açdı, ayaqları xəncərlərə ilişib, onların üstünə yıxıldı və ağır yaralandı. Böyük qardaşlar onu huşsuz vəziyyətdə görüb, fikirləşdilər ki, artıq o ölüb, gözəl qızı və bülbülü götürüb dərhal evlərinə qayıtdılar.

Səhər adamlar yaralının yanına yığışdılar, təbibləri çağırıb, xeyli qan itirməkdən yarımcan olan gözəl gənc şahzadənin həyatını qurtarmaq üçün əllərindən gələni etdilər. Çox keçmədən şahzadə sağaldı və özünün doğma şəhərinə gəlib çatdı. O, məscidin üstündə bülbülü görüb, yoldan keçənlərdən onu kimin gətirdiyini xəbər aldı. Ona cavab verdilər ki, üç şahzadənin hamısı bülbülü axtarmaq üçün yola çıxmışdı, kiçik şahzadə hələ də qayıtmayıb. Lakin böyük qardaşlar bu yaxınlarda harasa gedib, bülbül və gözəl bir qızla geri döndülər.

Şahzadə bunu eşidib işin nə yerdə olduğunu başa düşdü: "Deməli, mənim qardaşlarım məni həyatdan məhrum etmək istəyirlərmiş. Onda mən onlara əvəzini verərəm!"

O gedib bir dərzinin yanında şagird işləməyə başladı. Çox keçmədən belə bir söz yayıldı ki, gözəl qız ona əl ilə tikilməyən toy libası gətirən şahzadəyə ərə gedəcək.

Şahzadələr o saat belə libas sifariş vermək üçün bütün dərzilərin yanına getdilər. Amma bu dərzilərin hamısı əl ilə tikilməyən libas tikə bilmədiyini deyib imtina etdilər. Axırda şahzadələr qardaşlarının yanında olduğu dərzinin yanına gəldilər. Bu dərzi də əl ilə tikilməyən libas tikməkdən imtina etdi. Amma şahzadə şagird gizlincə dərziyə yalvarırdı ki, sifarişi qəbul etsin. Dərzi əvvəlcə öz şagirdinə hirsləndi. Dedi:

– Ay axmaq, sən əlində iynəni hələ tuta bilmirsən, bəs belə libası necə hazırlayacaqsan?

Amma şahzadə onu elə boğaza yığdı ki, o, sifarişi çarnaçar qəbul etdi. Sifarişçi gedəndən sonra o dərziyə dedi:

– Əgər istəyirsən ki, libas vaxtında hazır olsun, mənə on funt[21] xırda qoz və on funt kişmiş al.

Dərzi şahzadənin tələbini yerinə yetirdi. Şahzadə isə öz otağında oturub üç günün ərzində qoz və kişmiş yedi. Möhlətin qurtarması ərəfəsində Şahzadə gizlətdiyi əşyalarını götürmək üçün gecə meşəyə getdi. Qardaşları tələsdiyi üçün bu əşyaları özləri ilə götürməmişdilər. Şahzadə gözəl qızın əl ilə tikilməyən libasını götürdü və otağına gətirdi. Libas ətrafa elə bir işıq saçırdı ki, qonşular, – Yanğın, yanğın, – deyə evi əhatəyə almışdılar. Şahzadə alışıb yanan əl ilə tikilməyən libası göstərib camaatı sakitləşdirdi. Şahzadə sifarişçilər gəlib libası götürdülər və gözəl qıza verdilər. Gözəl qız başa düşdü ki, onun nişanlısı sağdır və gəlib onu qardaşların əlindən alacaqdır. O, qəsdən əl ilə tikilməyən libası tələb etmişdi, bilirdi ki, əgər kiçik şahzadə sağdırsa yalnız o, libası əldə edə bilər.

Toy günü təyin edildi. Toya saray üçün işləyən usta kimi dərzi də dəvət olunmuşdu. Şahzadə ondan xahiş etdi ki, onu da özü ilə toya aparsın. Dərzi toya gedəndə istehza ilə dedi:

– Küçük, sənin harana padşah nəslindən olan adamlarla bir sırada oturmaq yaraşır? Sən yaxşısı budur, get donuzları otar!

Onda şahzadə meşəyə getdi, gözəl qızın ona verdiyi üç şabalıdın birini burada saxladığı libasının cibindən çıxardı. Bu şabalıdların hər birində bir cüt insan libasları var idi. O, bir şabalıddan bir libas çıxardı, əyninə geyinib saraya yola düşdü. Toyun qızğın yerində o, qardaşlarının üstünə atıldı, onları yerə yıxdı, ayaqları ilə onları əzdi. O öz ustası – dərzinin də payını verməyi unutmadı. Bundan sonra şahzadə pəncərədən uçub çıxdı və qaranlıqda gözdən itdi. O, meşəyə gəlib, libası çıxartdı, onu yığıb şabalıda qoydu, adi libasını geyindi və yeməkxanaya gəldi. Usta tamam döyülmüş və çox hirsli

[21] funt-girvəngə

vəziyyətdə evə gəlib çıxdı. Şahzadə ürəyində ona istehza edərək padşah toyunu xəbər alanda dərzi hirslə onu söydü.

O biri gün dəvət olunanlar yenə toya getdilər. Şahzadə ikinci şabalıddan uçan libas geyindi və saraya yola düşdü. O, birinci dəfə olduğu kimi bu dəfə də toyda qarışıqlıq yaratdı. Baxmayaraq ki, hamı onu tutmağa çalışırdı, o, pəncərədən uçub çıxdı və gözdən itdi.

O, üçüncü gecə üçüncü şabalıddan çıxardığı üçüncü libası geyindi və yenə toya uçub gəldi. Qardaşlarını əvvəlkindən daha artıq döydü. Sonra isə otağın ortasında dayandı və uca səslə onların iç üzünü açıb tökdü, əvvəldən axıradək onların yalan danışdıqlarını hamıya söylədi, guya ki, bülbülü və gözəl qızı onlar əldə etmişlər. Camaat təəccüb içində idi. Şahzadə danışığını qurtarıb xəbər aldı:

– Siz mənim layiqsiz qardaşlarımı nə ilə cəzalandırmaq istəyirsiniz?

Onda xalqın qərarına görə iki böyük qardaşı atların quyruqlarına bağladılar və atlar onları sürüdülər.

Kiçik qardaş isə gənc gözəl qızla evləndi və xalq onu ata taxtına oturtdu.

Zaqafqaziya Müəllimlər Seminariyasının yetirməsi<br>A.Babalyan Bakıda yazıya almışdır.

## AŞIQ KƏRƏM

Bir zamanlar bir şəhərdə bir-birinə qonşu olan erməni keşiş və molla yaşayırdı. Onların hər ikisi sonsuz idi. Onlardan hər biri öz varidatını kimə qoyub gedəcəyini fikirləşəndə çox kövrəlir və özlərini hərtərəfli bədbəxt adam sayırdılar.

Onlar ara həkimlərinə və dərvişlərə müraciət etdikdən sonra keşişin arvadının məsləhətiylə sidq ürəkdən gələn dua ilə Allaha yalvardılar və bir-birlərinə söz verdilər ki, əgər Allahın

onlara yazığı gəlib birinə oğul, o birinə isə qız verərsə, onları bir-biriylə evləndirsinlər.

Allah onların ürəkdən gələn dualarını eşitdi, bir ildən sonra o keşişə bir qız, mollaya isə bir oğul bəxş etdi. Valideynlərin sevincinin həddi-hüdudu yox idi. Yeddinci gün mollanın oğluna Kərəm, qıza isə Əsli adını qoydular.

İllər keçdi. Keşiş və molla dostcasına yaşamağa başladılar. Kərəm və Əsli böyüyüb yaşa doldular, evlənmə yaşına çatdılar. Molla keşişlə görüşəndə Kərəm və Əslinin evlənməsi ilə bağlı işarələr edirdi, keşiş isə birbaşa cavab verməkdən qaçaraq deyirdi ki, uşaqların evlənməsi haqqında düşünmək hələ tezdir.

Keşiş çox çətin vəziyyətdə idi. Bir tərəfdən ona elə gəlirdi ki, xristian qızının tatara ərə getməyi ən böyük günahdır, digər tərəfdən isə mollaya verilən sözü yerinə yetirməmək onun üçün ağır idi. Həm də onlar Allahın adı ilə bir-birilərinə and içmişdilər. Keşiş nə etməli olduğu haqqında çox götür-qoy etdi və axırda bu məsələ ilə bağlı arvadının rəyini xəbər aldı. O, dedi ki, qızı tatara ərə vermək qeyri-mümkündür. Əgər keşiş üçün evlənmək məsələsində mollaya rədd cavabı vermək çətindirsə, ən yaxşısı harasa köçüb getməkdir. Arvadının məsləhəti keşişin çox xoşuna gəldi. O, doğma şəhərini tərk etmək qərarına gəldi.

Kərəm uşaqlığını gözəlliyi ilə bütün qızlardan üstün olan Əsli ilə keçirərək ona vurulmuşdu. Keşiş öz ailəsi ilə birlikdə şəhərdən gizlincə çıxıb gedəndə Kərəmə Əsliyə olan sevgisi bir dəqiqə də olsa rahatlıq vermirdi. O, öz-özünə əhd etdi ki, sevgilisinin harada olmasından asılı olmayaraq onu tapmalıdır.

Kərəm özünə bir balalayka (saz) aldı və aşıq libasında yola düşdü. Çox keçmədən balalaykada çox gözəl ifa etməyi öyrəndi. Əsliyə olan sevgi Kərəmə onun şəninə nəğmələr qoşdururdu. Kərəm şəhərdən şəhərə səyahət edərək öz nəğmələri ilə rast gəldiyi adamlardan Əslinin harada yaşadığını xəbər alır və keşişin ailəsini vəsf edirdi.

Çox uzun sürən səyahətdən sonra Kərəm bir şəhərdə rastına çıxanlardan öyrəndi ki, bu yaxınlarda keşiş arvadı və tək qızı ilə gəlmişdir və bu keşişin arvadı xəstə dişləri çəkməklə məşğul olur. Kərəm bütün səhəri ev-ev gəzərək keşişin ailəsini tapdı.

O, özünü xəstəliyə vurdu və keşişin evinə daxil olub onun arvadından xahiş etdi ki, xəstə dişlərini çəksin. O, Kərəmə uzanmağı, Əsliyə isə şam tutmağı əmr etdi. O, Kərəmin göstərdiyi dişləri biri belə qalmayanadək bir-bir çəkməyə başladı. Kərəmin bir dişi belə ağrımırdı, öz sevgilisinə daha uzun müddət baxmaq üçün onların hamısını çəkdirdi. O, ağrı yerinə hətta bir həzz duyurdu. Bütün dişləri çəkilib qurtaranda Kərəm onları öz yerlərinə qoydu və balalaykada çalmağa başladıqda dişlər dərhal çənələrində möhkəmləndi.

Kərəm keşişin ailəsinə kim olduğunu başa salmaq üçün oxumağa başladı:

- Mən mollanın oğlu, şəhərin sakini Kərəməm. Mən yeddi ildir ki, sevgilim Əslini axtarıram.

O, oxuyarkən onun sinəsi Əsliyə sevgi ilə alovlanırdı, onun ağzında qığılcımlar ətrafa səpələnirdi. Budur, bir qığılcım onun ayağının baş barmağının üstünə düşdü və onu alışdırdı. Alov get-gedə yuxarı qalxırdı, Kərəm isə öz taleyi ilə başına gələnlər haqqında oxuyurdu. Əsli görəndə ki, alov bədbəxt aşığın artıq sinəsinə yaxınlaşır və bədbəxt Kərəmə əyləncə olan balalayka yanmağa başlayır. İçində su olduğunu zənn edərək yaxınlıqdakı kuzəni tez götürdü və onu aşığın üstünə tökdü. Kuzədəki su yox, neft imiş, elə bir böyük alov qalxdı ki, Kərəm ilə Əsli yandılar. Amma onların külü birləşdi.

***Kasapet məktəbinin nəzarətçisi Q.İzraelov tərəfindən qeydə alınıb.***

## 19-cu buraxılış, 1894-cü il, II bölmə, s. 155-219

## "ERMƏNI" NAĞILLARI

### Nazlı və yeddi qardaşın nağılı

Bir ailədə yeddi oğul var idi, amma valideynlərin böyük bədbəxtçiliyindən qızı yox idi. Onların oğulları böyüyüb boya-başa çatanda bacıları olmalarını daha çox istəyirdilər. Qardaşların heç olmazsa bir bacılarının belə olması arzusu uzun müddət arzu olaraq qaldı.

Günlərin bir günü onların anası uşaq doğmağa hazırlaşırdı. Körpə dünyaya gəlmək vaxtı yaxınlaşanda oğulları analarının yanına gəldilər və ona dedilər:

– Biz qonşuluqdakı uca dağa gedəcəyik. Əgər qız doğsan, evimizin damına al bayraq sancarsan ki, biz evə qayıdaq. Yox, əgər oğlan doğsan, ora taxta sanc və onun başına bir papaq qoyarsan. Bil ki, belə olsa, biz ata evini həmişəlik buraxıb gedəcəyik.

Qardaşlar bunu deyib çıxıb getdilər. Çox keçmədən anaları bir qız uşağı doğdu və əmr etdi ki, dama al bayraq sancsınlar. Amma bir qarı al bayrağı damdan çıxarıb, onun yerinə ucunda böyük papaq olan uzun bir şüvülu sancdı. Qardaşlar ata evinə baxıb papağı görüb elə başa düşdülər ki, anaları oğlan doğmuşdur. Onlar doğma yerlərini buraxıb özgə məmləkətlərə səyahətə çıxdılar.

Qardaşların ata evini buraxıb getmələrindən çox vaxt keçdi. Gözəl Nazlı (bacıya bu adı qoydular) böyüyüb yaşa dolurdu. Günlərin bir günü bir neçə qız, o cümlədən Nazlı da bir yerə yığışıb nağıllar nəql edir və corab toxuyurdular. Onlardan biri mil itirdi və onu rəfiqələrindən tələb etdi. Onların hamısı öz qardaşlarının adlarına (canlarına) and içdilər ki, mili görməyiblər. Nazlı isə qardaşlarının olmadığını

düşünərək sevimli iti Buldinin adına and içdi. Onlar bunu görüb gülüşdülər. Nazlı isə onların gülüşünün səbəbini bilməyərək qızardı. Qızlar Nazlıya dedilər:

– Əgər bizim hər birimizin bir, iki və ya üç qardaşı varsa, sənin yeddi qardaşın var. Bədbəxtlər sənə görə doğma yerlərini buraxıb gediblər və Allah bilir indi onlar haralarda dolaşırlar.

Nazlı bunu eşidib daha da qızardı və gözləri yaşlı anasının yanına gəldi və olanları anasına danışdı. Anası xeyli vaxt sirri ona açmaq istəmirdi və qızının israrlı tələblərindən sonra ona hər şeyi danışdı. Onda Nazlı anasının ayaqlarına düşdü və ondan öz doğma qardaşlarını gedib axtarmaq üçün rüsxət istədi. Anası qızının başını boş şeylərlə məşğul etməmək və özünü təhlükə və məhrumiyyətlərə məruz qoymamaq üçün onu fikrindən daşındırmağa çalışdı. Amma Nazlı dediyində israrlı idi.

Günlərin bir günü Nazlı öz sadiq itini özünə yol-yoldaşı edib anasından gizlicə qardaşlarını axtarmaq üçün uzaq yola çıxdı. O, iki günlük yorucu yerişdən sonra bir adam gördü. Ondan bu yaxınlıqda adamların yaşadığı yerin olub-olmadığını soruşdu. Adam cavab verdi ki, dağın arxasında çox da uzaq olmayan bir yerdə bir ev var, amma o evin kimə məxsus olduğunu bilmir. O, dağın arxasında olan yerdə boşuna adamların yaşayış yerini axtarırdı. Orada heç nə yox idi. Axırda ertəsi günün axşamı bir təpənin ətəyində çox gözəl bir ev gördü. O, sevincək evin həyətinə girdi, amma orada heç kimi görmədi. Nazlı çox da düşünmədən ora girdi, zibili təmizlədi, yemək hazırladı. Özü isə sədaqətli yol-yoldaşı iti ilə elə gizləndi ki, ev sahibi onu görməsin.

Birdən səs-küy və atların ayaq səsləri eşidildi. Eyni libaslar geyinmiş, eyni silahlarla silahlanmış yeddi ucaboylu, qəddi-qamətli və son dərəcə bir-birlərinə oxşayan bahadır evə daxil oldu. Bahadırlar yerlərində donmuş kimi təəccüblə bir-birlərinə baxdılar. Axırda böyük qardaş sükutu pozdu:

– Kimsən, burada gizlənirsən, bizdən qorxma, üzə çıx, özünü göstər! Əgər sən kişisənsə bizə qardaş, ata, qadınsansa bizə ana, bacı ol.

Amma heç kəs görsənmədi. Qardaşlar belə qərara gəldilər ki, növbə ilə evin naməlum qonağının qaravulunu çəksinlər.

Ertəsi gün onlar kiçik qardaşı evdə qoyub ova getdilər. Amma qardaş onlar gedən kimi yatdı. Nazlı isə gizləndiyi yerdən çıxaraq otağı təmizlədi, səhmana saldı, sıyıq bişirdi və bundan əlavə yatanın başını da yudu, özü isə yenə gizləndi. Çox keçmədən qardaşlar evə qayıtdılar və otağı daha təmiz və səhmanlı gördülər. Onlar qaravul çəkən qardaşdan kimisə görüb-görmədiyini soruşdular. O, isə bütün günü heç yerə çıxmadığını və heç kimi görmədiyini dedi. Beləliklə, yeddi qardaşın yeddisi də növbə ilə qaravul çəkdi və onların da başına kiçik qardaşın başına gələnlər gəldi.

Növbə nəhayət gəlib böyük qardaşa çatdı. O, yatağa uzandı və özünü yatmışlığa vurdu. Nazlı qaravul çəkəni yatmış bilib gizləndiyi yerdən çıxdı. Otağı səliqə-səhmana saldı, zibili süpürüb atdı, qazanı ocağın üstünə qoydu və qaravul çəkənin başını yudu. O, gizlənməyə hazırlaşarkən bahadır onu tutdu və soruşdu:

– Mələyim mənim, sən kimsən, səni kim göndəribdir və gəlib bizi necə tapmısan? Öz sirrini bizə aç söylə, heç nə gizlətmə! Kim olursan ol, bizə doğma bacı ol!

Nazlı hər şeyi təfsilatı ilə nəql etdi. Qardaş və bacı qucaqlaşdılar və sevincdən xeyli ağlaşdılar. Nazlı yenə də gizləndi.

Burada əlavə etmək lazımdır ki, qardaşlar vətənlərini tərk edib gedəndə özləri ilə on beş il otaqlarında asılı qalan bir böyük armud götürmüşdülər. Bu, onların ata evlərindən bir xatirə idi. Hər axşam onlar şam yeməyi yemək üçün masa arxasında oturanda bu armudu əllərinə alır və onu öz bacıları təsəvvür edərək növbə ilə öpürdülər.

Bu gecə armud həmişəki kimi əldən-ələ keçəndə böyük qardaş onun bir parçasını dişləyib qopartdı və yedi. Qardaşlar çox hirsləndilər və hətta onu öldürmək istədilər. Onda o, onları sakitləşdirdi və dedi:

– Bu vaxtadək bacımız hesab etdiyimiz bu əhəmiyyətsiz meyvə üçün hirslənməyin. Siz indi bizim əsil bacımızı görəcəksiniz.

O, bunu deyib Nazlını çağırdı və nələr baş verdiyini onlara danışdı. Doğma bacını görən kimi hamı onun ayaqlarına düşdü. Nazlı onların hər birini qaldırır və qucaqlayırdı. Qardaşlar Allaha şükür etdilər ki, onlar nəhayət müqəddəs arzuları olan bacılarını görmək şərəfinə nail oldular.

Bir dəfə Nazlı qardaşları ova getdikdən sonra süpürürkən yerdə bir kişmiş tapdı və itinə dedi:

– Buldi, mən kişmiş tapdım!

İt dedi:

– Lütfən onu mənə ver!

Amma Nazlı onun istəyini yerinə yetirmədi, kişmişi özü yedi. Buldi ondan incidi getdi və əziz qardaşlar üçün yeməyin bişdiyi ocağı söndürdü. Nazlı ümidsizlikdən bilmədi nə etsin. Qardaşlar ovdan qayıtdıqda yeməyin hazır olmadığını gördükdə onlara nə cavab verəcəkdir. O, fikirli halda həyətə çıxdı və gördü ki, harada isə uzaqda tüstü qalxır. O, həmin yerə yollandı və yeddi başlı divin yaşadığı gözəl bir imarətə çatdı. O, cəsarətlə evə girdi bütün otaqları gəzib dolaşdı və təmtəraqla bəzənmiş otaqlaın gənc ... otaqların birində gözəl bir gənc arvad gördü, onun qarşısında bir ocaq alovlanırdı.

O, Nazlıya müraciət edib dedi:

– Ay bədbəxt, sən buraya nə üçün gəldin? İndi mənim hökmdarım yeddi başlı div qayıdıb gələcək və sənin bütün sümüklərini qıracaqdır. Sağ qalmaq istəyirsənsə, tez çıx get!

Nazlı cavab verdi:

– Mən bura od götürmək üçün gəlmişəm, icazə ver bir neçə yanan kömür götürüm.

Arvad cavab verdi:

– Verə bilmərəm, div ocaqdakı kömürləri saymışdır və əgər kömürləri yerində hamısını tapmasa, məni elə bu ocaqda qızardar.

Nazlının israrlı təvəqqelərindən sonra o, razılıq verdi və bir neçə kömür götürməyə icazə verdi. Amma o, Nazlının cibinə nazik sap yumağı atdı və sapın bir ucunu isə əlində saxladı ki, sonra onunla onun haradan və nə üçün gəldiyini və qorxunc divin imarətinə nə məqsədlə gəldiyini asanlıqla öyrənmək mümkün olsun.

Çox keçmədən div ovdan qayıtdı. Dərhal adam iyini hiss etdi və qızdan tələb etdi ki, evə kimin gəldiyini desin, əks təqdirdə onu öldürəcək. Yazıq qız ölüm qorxusundan sapın bir ucunu ona verdi və dedi ki, o, bu sapla iyini aldığı adamı tapa bilər. Sap divi düz bahadırların evinə gətirib çıxardı, qapılar bağlı idi. Div boş yerə qapıları açmaq istədi. O, axırda güc işlətməklə qapıları aça bilməyəcəyini görüb hiyləyə əl atdı. O, yazıq Nazlını aldadaraq ona hədiyyə bahalı üzük gətirdiyini dedi. Buna görə də o, çeçələ barmağını qapıdakı yarıqdan çıxartsın ki, o, üzüyü onun barmağına taxa bilsin. Nazlı çeçələ barmağını uzatdı. Div onun barmağını sordu. Yazıq qız özündən gedib yerə yıxıldı. Qardaşlar evə qayıdanda heç kim onlara qapı açmadı. Onlar bir bədbəxtliyin baş verdiyini hiss edərək qapıları sındırdılar və bacılarını huşsuz halda yerdə yıxılmış gördülər. Onlar xeyli ciddi-cəhddən sonra nəhayət onu huşa gətirə bildilər. Qardaşlar bədbəxtliyin səbəbini öyrəndikdən sonra qərara gəldilər ki, divi evlərinə qonaq çağırsınlar və onu öldürsünlər. Bu məqsədlə onlar otaqda çox böyük bir quyu qazdılar və üstünü xalça ilə örtdülər, kiçik qardaşı isə divin dalınca göndərdilər. Div sevincək dəvəti qəbul etdi, çünkü bir qurban yerinə indi səkkiz qurban alacağını ümid edirdi. Div qonaqlığa gəldi. Qardaşlar bu sözlərlə qarşıladılar:

– Əziz qonaq, xoş gəlmisən! Çoxdandır ki, səni görmürdük. Sən özünün tənha qonşularını tamamilə unutmusan. Lütfən, sənin kimi əziz qonaq üçün xüsusi olaraq salınmış bu xalçanın üstündə otur.

Div çox da özünü gözlətmədi və təklif edilən yerə oturdu və həmin anda da quyunun dibinə düşdü. Quyu o saat daşlarla və torpaqla doldu. Divin ölümündən bir müddət keçəndən sonra qardaşlar hamısı birdən-birə xəstələndilər. Buna görə də Nazlı böyük kədər içində idi.

Günlərin bir günü yazıq Nazlı acı-acı ağlayanda bir cadugər qarı ona yaxınlaşdı və kədərinin səbəbini ondan soruşdu.

Nazlı dedi:

– Yeddi qardaşımın hamısı xəstə yatanda, mən necə də kədərlənməyim, bir azdan acından öləcəyik.

Cadugər dedi:

– Gözəl qız, ruhdan düşmə, bax divin qəbri üstündə bitmiş otlardan dər, az-az qardaşlarına ver və onlar bir müddətdən sonra sağalarlar.

Nazlı elə də etdi. Bədbəxt bacının yeddi bahadır qardaşının yerində yeddi ağ qoyun görəndə onun necə bir ümidsizliyə qapıldığını təsəvvür etmək olar! Nazlı uzun vaxt qardaşlarının bədbəxtçiliyinə ağladı. Nə etməli, taleyi ilə barışmalıdır.

O, hər gün özünün sevimli sürüsünü dəniz kənarına çıxarırdı və axşamlar isə ürəyi qüssəli evə qayıdırdı.

Günlərin bir günü Nazlı dəniz kənarında bir daşın üstündə oturaraq öz kədərini, qəmini adamın ruhuna, canına işləyən nəğməyə boşaldırdı. Bu vaxt bir şahzadə bu çoban qızın kim olduğunu öyrənmək istədi, ona görə də ona tərəf addımladı. Şahzadə onu görəndə çoban qızın bu vaxtadək görünməmiş gözəlliyinə məftun oldu. Sanki Yaradan bu gözəllik möcüzəsini yaratmaq üçün əlindən gələni etmişdir.

O, yaxınlaşıb titrək səslə soruşdu:

– Ey əziz çoban qız, kimin dərdini çəkirsən?

– Qara tale mənim əziz qardaşlarımı qoyuna çevirəndə mən necə də ağlamayım?! Mən özümün acı bəxtimə ağlayıram.

– Deməli, bunlar sənin qardaşlarındır?

– Gördüyün kimi.

Bunu deyib o, hər şeyi nəql etdi.

Şahzadə dedi:

– Kədərlənmə, gözəl qız! Mən sənin dərdinə çarə taparam.

Şahzadə bunu deyib cibindən bir toz çıxartdı, onları su ilə qarışdırdı və bu məhlulu qoyunlara içirtdi. Birdən qoyunlar əvvəlki bahadırlara çevrildilər. Bu möcüzəni görən Nazlının sevincinin həddi-hüdudu yox idi. O, şahzadəyə öz təşəkkürünü bildirmək üçün söz tapmırdı. Onun ayaqlarına düşdü və göz yaşlarını axıtdı. Şahzadə onu qaldırdı və Nazlıdan evlənməyə razılıq istədi. Nazlı cavab verdi:

– Qardaşlarımın buna razılığı olsa, mən də razıyam.

Qardaşları o saat bacılarının xilaskarlarına ərə getməsinə razı oldular.

Çox keçmədən toy etdilər. Toy məclisi yeddi gün, yeddi gecə davam etdi. Bir müddətdən sonra padşah öldü və gənc şahzadə taxta çıxdı. Şah ilə arvadı xoşbəxt həyat sürdülər, bahadırlar isə padşahın yaxın əyanları oldular.

Bundan sonra qardaşlar analarını axtarıb tapdılar və onu padşahın sarayına gətirdilər və o, burada həyatının qalan hissəsini xoşbəxtlik içində yaşadı.

Damdan bayrağı çıxararaq onları uzun müddət ata evindən didərgin salan arvada gəlincə isə onu atın quyruğuna bağlayıb şəhərdə sürüdülər.

***Yelizavetpol quberniyası, Zəngəzur qəzasının Artsevanik kəndində müəllim X. Arutyunov tərəfindən yazıya alınmışdır.***

## 24-cü buraxılış, 1898-ci il, II bölmə, s. 96-279

## "ERMƏNİ" RƏVAYƏTLƏRİ VƏ NAĞILLARI

### AĞIL VƏ XOŞBƏXTLİK

Biri var idi, biri yox idi, bir kənddə Əhməd adında bir kəndli yaşayırdı. Bu kəndlinin Ağlı və Xoşbəxtliyi bir-biri ilə mübahisə edirdilər ki, kim daha yaxşı və gərəklidir. Ağıl deyir:

– Mən səndən yaxşı və daha faydalıyam.

Xoşbəxtlik isə deyir:

– Yox, mən səndən daha yaxşı və faydalıyam. Sən mənsiz dünyada yaşaya bilməzsən. Ağıl bunu eşidən kimi Əhmədi tərk edib getdi, Allah bilir hara. Xoşbəxtlik isə Əhmədin yanında qaldı.

Yaxşı və günəşli bir gün idi. Əhməd bir cüt öküzə qoşulmuş kotanla yeri şumlamaq üçün tarlaya getdi. Birdən öküzlər dayandılar. O, öküzlərə bir qamçı vuranda öküzlər yenidən kotanı çəkdilər və kotan böyük bir daşı yerindən itələdi. Əhməd daşın altında yeddi iri qızıl kərpic gördü. O, kərpicləri qaldırdı və və hər kərpicin altında əşrəfilərlə dolu gil küp tapdı. Əhməd əşrəfiləri yem əvəzinə öküzlərin qabağına səpdi, amma onlar əlbəttə, bunu yemədilər. Onda o, əşrəfiləri yenə də küplərə doldurdu və yarımçıq qoyduğu işinə davam etdi.

Əhməd təsadüfən sağ tərəfə baxanda bir dəvə karvanı və onların yanında da atlı adamlar gördü. Əhməd atlılardan birini yanına çağırdı. O, at sürüb Əhmədin yanına gələndə atlıdan soruşdu:

– Bu öküz o birinin nəyidir? Onun qardaşıdır, atasıdır və ya nəyidir?

Atlı gülümsündü, Əhməddən aralandı və Əhmədin ondan soruşduğunu öz yoldaşlarına danışdı.

Bu arada Əhməd başqa atlını yanına çağırdı. Onda karvanın sahibi, "karvanbaşı" öz yoldaşlarına dedi:

– Bu adamın ağlında nəsə var. Bir onun yanına özüm gedim və nə iş olduğunu ondan öyrənərəm.

O, elə də etdi. Kəndli Əhməd isə atlıdan soruşur:

– Siz hara gedirsiniz?

Atlı cavab verdi:

– Biz Rum şəhərinə gedirik.

Əhməd deyir:

– Əgər siz Rum şəhərinə gedirsinizsə, onda özünüzlə mənim yeddi küp əşrəfini də götürün və onu mənim adımdan-kəndli Əhməddən Rum padşahına hədiyyə aparın. Mən buna görə sizə səkkiz funt qızıl verəcəyəm!

Karvanbaşı belə bir tapşırıq üçün çox sevindi. Səkkiz funt qızılı götürüb çantasına qoydu, yeddi küp əşrəfinin hamısını dəvəyə yüklədi və kəndli Əhməddən Rum padşahına hədiyyə apardı.

Padşah qızıllarla dolu küpləri alanda çox təəccübləndi və karvanbaşıdan soruşdu:

– Bu nədir?

Karvanbaşı cavab verdi:

– Əşrəfilərlə dolu bu yeddi küpü bizə Əhməd adlı bir kəndli verdi və təvəqqe etdi ki, bunlar onun adından sizə hədiyyə edək.

Padşah hədiyyəni qəbul etdi və özünün əyyanlarını, saray adamlarını çağırdı və aldığı hədiyyədən onları xəbərdar etdi və Əhmədi nə ilə mükafatlandırmağı onlardan soruşdu.

Onlar cavab verdilər:

– Ona müxtəlif rəngli libas və bir cüt kök öküz göndər!

Padşah əyanlarının dedikləri kimi də etdi.

Günlərin bir günü kəndli Əhməd yenə də tarlanı şumlayanda baxıb gördü ki, bir karvan gəlir və onun dalınca da iki

öküz gətirirlər. O, karvana yaxınlaşdı, çoxlu müxtəlif rəngli libaslar gördü və karvanbaşıdan soruşur:

– Bu malları hara aparırsınız?

Karvanbaşı dedi:

– Sən Rum padşahına əşrəfilərlə dolu yeddi küp göndərindin, o, isə sənə bu malları və iki öküz göndərdi.

Onda kəndli Əhməd soruşdu:

– İndi isə siz hara gedirsiniz?

Karvanbaşı cavab verdi:

– Biz Kəşmir şəhərinə gedirik.

Əhməd dedi:

– Əgər siz Kəşmir şəhərinə gedirsinizsə, təvəqqe edirəm bu libası Kəşmir padşahına verəsiniz.

O, öküzləri isə özü üçün saxladı və yeri şumlamaqda davam etdi.

Karvan Kəşmir şəhərinə yola düşdü. Karvanbaşı libası Kəşmir padşahına verdi və bunun kəndli Əhməddən ona hədiyyə olduğunu dedi.

Onda padşah özünün bütün əyan və saray adamlarını çağırdı və onlardan soruşdu:

– Belə hədiyyədən ötrü, kəndli Əhmədi nə ilə mükafatlandırmaq lazımdır?

Əyan və saray adamları dedilər:

– Ey padşah, sənin bir neçə qızın var. Ən gözəl qızını ona ərə ver!

Padşah onlarla razılaşdı və kəndli Əhmədə məktub göndərdi. O, bu məktubda onu öz yanına dəvət edirdi.

Məktubu kəndli Əhmədə verəndə o, oxuyub öküzlərinin hamısını, kotanı satdı və Kəşmir padşahının yanına yola düşdü.

O, şəhərə çatıb padşaha təzim etdi və dedi:

– Ey padşah, sənə nə lazımdır? Sən məni nə üçün yanına dəvət etmisən? Mən yanına gəlməyini tələb etdiyin həmin kəndli Əhmədəm.

Padşah ona cavab verdi:

– Mən qızlarımdan birini sənə ərə vermək istəyirəm, razısan, yoxsa yox?

Əhməd razı oldu.

Padşah qızlarının hamısını ona göstərdi və təvəqqe etdi ki, ən gözəlini özünə arvad seçsin. Əhməd padşahın Nərgiz xanım adlı kiçik qızını seçdi. Padşah Əhmədə yaxşı libas verdi və yeddi gün, yeddi gecə toy etdilər. Toya padşahın çoxlu qonağı gəlmişdi, hamı yedi, içdi, əyləndi və rəqs etdi. Toydan sonra cavanlar padşahın Əhmədə bağışladığı evdə yerləşdilər.

Bir neçə gündən sonra padşahın qızı Nərgiz xanım atasına bir məktub yazdı. O, məktubda atasını xəbərdar edirdi ki, onun əri Əhməd axmaqdır və hətta heç ağlıda yoxdur. Belə ki, o, heç bir səbəb olmadan rəqs edir, oynayır və gülür. Bundan başqa qız atasını məzəmmət edir ki, onu belə bir axmaq adama ərə vermişdir.

Padşah məktubu oxudu və bir neçə sərbazı[22] cəlladla yanına çağırdı və onlara dedi:

– Mənim kürəkənim Əhmədin yanına gedin və əgər siz görsəniz ki, o, doğrudan da axmaqdır, onda onu öldürün.

Sərbazlar cəllad başda olmaqla Əhmədin evinə girdilər. Əhməd bu vaxt üst mərtəbədə idi, onları görüb nə üçün gəldiklərini anladı və üst mərtəbədən aşağıya atıldı. Birdən Ağlı ilə Xoşbəxtliyi köhnə dostuqlarını bərpa etdilər, əmin amanlıq içində yaşamaq və Əhmədə hər işində kömək etmək qərarına gəldilər.

[22] Sərbaz- əsgər

O zaman Əhməd elə xoşbəxt və ağıllı adam oldu ki, ona bərabərini tapmaq çətin idi. Bunu hiss edən Əhməd Nərgiz xanımın yanına getməyə tələsdi. O, Nərgiz xanıma indi tamamilə ağıllı bir adam olduğunu danışdı. Sərbazlar Əhmədin arvadına danışdıqlarının hamısını eşitdilər, onlar padşahın yanına geri qayıtdılar və eşitdiklərini ona çatdırdılar. Padşah buna çox sevindi və kürəkəni Əhmədi bir dəfə də mükafatlandırmaq qərarına gəldi. Əhməd arvadı ilə xoşbəxt yaşamağa başladılar.

***İrəvan quberniyasında Caqrı ikisinifli orta məktəbin nəzarətçisi A.Ter-Markarov tərəfindən qələmə alınmışdır.***

## 28-ci buraxılış, 1900-cü il, II bölmə, s.1-167

# ZAQAFQAZİYADA "ERMƏNİ" XALQ FİLOLOGİYASI

## 1.Əfsanə və rəvayətlər

### Qarı-köpək

Şuşa və Cəbrayıl qəzalarının sakinləri "Qarı-köpək" adı altında Cəbrayıl qəzasında yerləşən böyük torpaq təpəni nəzərdə tuturlar. O, Qarabulaq malakan kəndindən 2 verst aralıda, Köndələnçayın sağ sahilində Ağdam-Cəbrayıl şossesində yerləşir. Bu təpəyə öyrəşmiş yerli əhalidə bu təpə heç bir təəssüat yaratmır, amma yoldan keçənləri öz möhtəşəm görünüşü ilə heyrətləndirir və tarixi keçmişə aparır. O keçmişə ki, insanlar qalalar və qəsrlər tikmişlər; bu təpə Mil çölünün yaxınlığında sanki keşikdə durub və öz əvvəlki əzəmətinin bərpasını – yerli rəvayətlərdə deyildiyi kimi, Asiya şahlarının, hökmdarlarının çadırına məskən olmasını gözləyir.

Bu böyük torpaq təpələri yerlilər, qocalar iki cür izah edirlər. Bəziləri söyləyirlər ki, bu təpə saysız-hesabsız sayda qoşunu ilə kiçik Qarabağ sahibkarlarının-məliklərinin və öz hərəmxanası üçün böyük sayda gözəl gürcü qızlarını əsir edib aparmaq üçün Gürcüstana gedən Nadir şahın əmri ilə bir qarının üzərində ucadılmışdır. İndi təsvir edilən təpənin ucaldıldığı yerdə şah yol gedərkən öz əkin yerində yabanı otları biçən bir qarıya rast gəlir. O, qarı ilə salamlaşır və deyir:

– Ay qarı, insana kömək yemək vaxtı lazımdır, ya iş vaxtı?

Şah qarıdan, – kömək yemək vaxtı lazımdır, – cavabını alanda ordusuna əmr edir ki, onu dərhal çörəyin əsas düşməni və şərin təmsilçisi kimi diri-diri basdırsınlar və hər bir döyüşçü üstünə bir ovuc torpaq atsın. Beləliklə də, çox keçmədən təpə əmələ gəlir. Şah təpəni "Qarı-köpək" adlandırır.

Digərləri isə deyirlər ki, bu torpaq təpənin əmələ gəlməsi qədim zamanlara gedib çıxır.

Nə vaxtsa bir padşah böyük qoşun ilə bu ölkədən keçib gedirmiş. Padşahın sevimli iti də onun yanındaymış. Bu it nə vaxtsa döyüşə gedərkən sahibi olan padşahın həyatını xilas etmişdi.

Bu dəfə isə Köndələn çayın üzərindən keçərkən it xəstələnir və ölür. Öz sevimli itini çox istəyən padşah əmr edir ki, döyüşçülərindən hər biri onun üstünə bir ovuc torpaq atsın. Beləliklə də, böyük bir təpə əmələ gəlir, padşah onu "Qarıköpək" adlandırır.

*Tuğ Zemski məktəbinin nəzarətçisi*
*M.Poqosov tərəfindən söylənmişdir*

## 2.Nağıllar

### Gecə çırağı

Bir şəhərdə bir qarı Əliqulu adlı oğlu ilə yaşayırdı. Onların var-dövlətdən iki qazları var idi. Bir gün yeməyə heç nə tapmayanda qazları satmağa məcbur oldular. Oğul onları satmaq üçün bazara apardı. Onun "bəxtindən" Şah Abbasın vəzirlərindən biri onun qazlarına müştəri çıxdı. O, qazların hər ikisinə iki qran[23] verəcəyini vəd etsə də, birini ödədi, yerdə qalanı vermədi. Əliqulu çox məyus oldu. O, evə gəlib anasına vicdansız vəzirin hərəkətindən danışdı və bu hərəkətinə görə ondan intiqam alacağına Böyük Peyğəmbərə and içdi. Əliqulu anasına dedi:

- Əgər mən bir qran yerinə onun burnundan bir neçə min qran tökməsəm, atamın oğlu deyiləm.

Əliqulu qazları satandan bir neçə gün sonra bir axşam vəzirin mətbəxinə gəldi və onun baş aşbazına dedi ki, vəzir harasa yola düşməyə hazırlaşır və şam yeməyi istəyir. Aşbaz hətta ondan kim olduğunu da xəbər almadı. Çünki hər gün

[23] Qran –28,5 qəpiyə bərabər İran pul vahidi

vəzirin evinə yeni nökərlər işə götürülmüşdür. O, tələm-tələsik bir şam yeməyi hazırladı, qızıl boşqaba qoydu və ona verdi.

Əliqulu elə bunu gözləyirdi. O, boşqabı götürdü, düz birbaşa öz evinə apardı və anasına hansı hiylə ilə əldə etdiyini danışdı.

Ertəsi gün o, oğurlanmış boşqabı anasına verdi və dedi ki, bazara getsin və onu satsın. Əldə edilən pulla yaxşı qadın libası alsın. Anası onun dediyini etdi. Libas hazır olanda Əliqulu onu geyindi və anasına dedi:

– Məni bazara apar, əgər bir kimsə səndən məni xəbər alsa, de ki, sənin qızınam və kasıblıqdan məni satmaq məcburiyyətindəsən. Sənə mənim üçün başqa adamlar nə versələr, məni satmağa razı olma. Bizim qazları alan vəzirə isə lap yarı qiymətə məni sat!

Onların bəxtindən yolda həmin vəzir onlara rast gəldi və qarıdan xəbər aldı:

– Bu kimin qızıdır və onu hara aparırsan?

Qarı Əliqulunun öyrətdiyi kimi cavab verdi.

Onda vəzir qız üçün beş yüz qran təklif etdi və qarı razılaşdı.

Vəzirin sevincinin həddi-hüdudu yox idi. O, evinə gələn kimi yeni arvadına var-dövlətini və otaqlarını göstərdi. Əliqulu isə ağlında utanmaq bilməyən vəzirə necə zərər vurmağın yolunu fikirləşirdi. Vəzir ona bir otaqdan başqa yerdə qalanları göstərdi. Amma onun yalançı arvadı israrla təvəqqe edirdi ki, vəzir ona bu otağı da göstərsin. Vəzir onun təvəqqesini yerinə yetirmək məcburiyyətində qaldı. O, otaqda bir dəzgah gördü və bunun nə olduğunu və nə üçün istifadə edildiyini xəbər aldı. Vəzir ona başa saldı ki, bu dəzgah cinayətkarları edam etməyə xidmət edir; cinaətkarı dəzgahın meydançasına oturdurlar və o qədər qaldırırlar ki, meydança tavana toxunsun.

Qız ona dedi:

– Onda dəzgahla yuxarı qalxacam, sən isə məni tavana sıx ki, mən cinayətkarın edamdan əvvəl nəyi hiss etdiyini təc-

rübədən keçirim, amma, mən sən deyəndə ki, məni ağrıdır, sən dəzgahı boşla.

Vəzir onun arzusunu yerinə yetirdi və vəzir yavaş-yavaş yalançı qızı tavana tərəf qaldırdı.

O, dəzgahdan düşəndə dedi:

– İndi növbə sənindir.

Vəzir gənc arvadını razı salmaq üçün sevinclə razı oldu. Əliqulu əvvəlcə onu yüngülcə tavana sıxdı və xəbər aldı kifayətdirmi? Heç nədən şübhələnməyən vəzir təvəqqe etdi ki, o, dəzgahı daha möhkəm sıxsın. Amma, tezliklə ağrı vəziri məcbur etdi ki, boşaltmağı təvəqqe etsin. Amma Əliqulu əksinə onu daha çox tavana sıxmağa başladı. Aldadılmış vəzir bağışlanması, əfv edilməsi üçün yalvarmağa başladı. Əliqulu ona dedi:

– Günah sənin özündədir. Sənin acgözlüyün səni bu günə saldı. Mən qız deyiləm, mən həmin adamam ki, sən qazları alarkən mənə bir qran ödəməkdən imtina etdin. Mənim adım Əliqulu olsa da, Gecə Çırağı deyirlər. Hə, indi də, qran ödəməkdən boyun qaçırırsan?

Vəzir yalvardı:

– Allah rizasına, mənə yazığın gəlsin, məni burax! Mən canla-başla sənin hər istəyini yerinə yetirməyə hazıram, amma mənə əziyyət vermə.

Gecə Çırağı vəziri yarımcan vəziyyətdə tərk etdi, özü isə kifayət qədər qızıl əldə edərək, heç kimin gözünə görünmədən çıxıb getdi.

Bədbəxt vəziri günorta yeməyinə gözlədilər, gəlmədi. Ertəsi gün də o, yenə də ortalıqda yox idi. Xidmətçilər düşünürdü ki, o, öz nişanlısı ilə otağındadır və heç kim onun yanına getməyə cürət etmirdi. Axırda cürəti olanlardan biri öz hökmdarının otağına girdi və orada heç kimi tapmayıb heyrətləndi. O, yoldaşlarının hamısını məsələdən xəbərdar etdi. Onlar axtarmağa başladılar və güclə nəfəs alan vəziri dəzgahla tavan arasında tapdılar. Onlar

vəzirə üz vermiş bədbəxtliyin səbəblərini bilmirdilər və baş verənlər haqqında Şah Abbası xəbərdar etdilər. Şah Abbas vaxt itirmədən öz baş həkimini xəstənin yanına göndərdi.

Xəstəni müalicə etmək həkim üçün asan olmadı. Yalnız bir neçə ay keçəndən sonra xəstə otura bildi. Şah Abbas xəstə haqqında çox fikirləşirdi. O, tez-tez onun evini ziyarət edir, hal-əhvalından xəbər tuturdu.

Günlərin bir günü Şah Abbas öz otağında oturub özünün sevimli vəzirinin taleyi haqqında düşünürdü. Bu vaxt ona dedilər ki, bir nəfər onu görmək istəyir. Gecə Çırağı şahın otağına girdi və dedi:

– Budur, artıq neçə aydır sənin vəzirin əziyyət çəkir və sənin baş həkimin onu müalicə edə bilmir. Əgər izn versən, mən Allahın və Böyük Peyğəmbərin köməyi ilə onu sağaldaram.

Gecə Çırağı çox inandırıcı bir şəkildə danışırdı və Şah Abbas onun sözlərinə inandı, xəstəni müalicə etməyə icazə verdi və onun bütün tələblərini yerinə yetirməyi vəd etdi.

Yeni həkimin tələbinə görə onun icazəsi olmadan heç kim, hətta Şah Abbasın özü belə xəstənin yanına gəlməməlidir; çalğıçıları dəvət etdilər və xəstənin yatdığı qapının ağzında yerləşdirdilər. Həkim onlara durmaq əmri verilənədək çalmağı tapşırdı.

Çalğıçıları bu şəkildə yerləşdirən Gecə Çırağı xəstənin yanına gəldi. O, müalicəyə başladı, özünün əvvəl zədələdiyi yerləri kəsdi, onlara duz və istiot səpdi.

Bundan sonra o, bizlə yaraları tikdi və əzablı əməliyyatın davamı olaraq bu sözləri təkrar etdi:

– Hə, nədir, sən qazları alanda mənə verməkdən imtina etdiyin qranını qaytaracaqsanmı? Mən Gecə Çırağıyam!

Yalançı həkim xəstəni belə dəhşətli vəziyyətdə tərk edib otaqdan çıxdı və gözdən itdi. Şah Abbas bunu bilib o saat başa düşdü ki, bu həkim əvvəl vəzirə əzab vermiş həmin adam imiş.

Ertəsi gün o, özünün baş həkimini yanına çağırdı və dedi:

– Mən bilirəm eyni adam artıq ikinci dəfədir ki, mənim sadiq vəzirimə əziyyət verir və mən inanıram ki, bu cani onu öldürənə qədər əl çəkməyəcək. Mən sənə öz adamlarımdam qırx atlı döyüşçü verəcəyəm və onların mühafizəsi altındasan. Vəziri elə yerə apararsan ki, səndən və bu atlılardan başqa heç kim bizim olduğumuz yeri bilməsin. Xəstə sağalanadək sənin icazən olmadan bu atlılardan heç kim cürət edib şəhərə gələ bilməz. Kim sənə tabe olmasa, onun boynu vurulacaqdır. Bundan başqa mən bir qocanı sizə təyin edəcəyəm, onun vəzifəsi hər gün şəhərdən sizə ərzaq gətirmək olacaq.

Şah Abbasın əmri dəqiqliklə yerinə yetirildi. Şəhər adamlarından heç kim xəstə vəzirin harada olduğunu bilmirdi. Gecə Çırağı nə qədər çalışsa da, xəstə vəzirin yerini öyrənə bilmədi. Günlər aramla keçib gedirdi. Uzunmüddətli və dəqiq axtarışlardan sonra Gecə Çırağı belə bir qərara gəldi:

– Qoy mən bir neçə gün dalbadal şəhər darvazasının yanında oturum, bəlkədə gəlib gedənlərdən vəzir haqqında bir şey öyrənərəm.

O, elə də edir. Günlərin bir günü şəhər darvazasının qapısının yanında oturanda gördü ki, bir qoca yüklənmiş iki eşşəklə şəhərdən çıxır. Gecə Çırağı ondan bu yüklənmiş eşşəkləri hara apardığını xəbər aldı. Qoca əvvəlcə sirri ona açmaq istəmir. Amma Gecə Çırağının israrlı təvəqqelərindən sonra o, hər şeyi təfsilatı ilə danışdı. Gecə Çırağl sevincindən bilmirdi nə etsin. O, qocaya eşşəkləri ona satmağı təklif etdi və onlarla vaxtında ərzaq aparacağını öz öhdəsinə götürdü.

Qoca razı oldu, amma bir şərtlə ki, o, özünü qocanın oğlu kimi qələmə versin. Gecə Çırağına da elə bu lazım idi. O, yuxu gətirən tozu tədarük etdi və vəzirin yanına yola düşdü. Həkim və atlılar onu görəndə çoxlu suallar verdilər ki, o, kimdir və nə üçün gəlmişdir. Gecə Çırağı özünü bu vaxtadək canfəşanlıqla ərzaq gətirən qocanın oğlu adlandırdı. O, dedi:

– Mənim bədbəxtliyimdən atam bu gün xəstələndi və buna görə də bu gün özü sizə ərzaq gətirə bilmədi.

Onlar dedilər:

– Yaxşı, baxıb görək sən də onun kimi bizə sədaqətlə xidmət edə biləcəksənmi?

Gecə Çırağı dedi:

– Hətta ondan yaxşı xidmət edəcəyəm, çünki o, qocadır, mən isə cavanam.

Gecə Çırağı onlara yemək hazırlamağa başladı. Yemək vaxtı onu masabəyi seçdilər, çünki onun da atası kimi boşboğaz olub-olmadığını yoxlamaq istəyirdilər. Masabəyi öz badəsindən başqa yerdə qalanları şərbətlə doldurub və xəstə vəzirin sağlığına söz demək təklif etdi. O, dedi:

– Hər birimiz bizim əziz və hörmətli vəzirin vəziyyətindən xəbərdarıq, onun sağlığına içək və qadir Allahdan və Böyük Peyğəmbərdən onun tezliklə sağalmasını və uzun ömür istəyək. Allahdan təvəqqe edək ki, bizim əziz vətəndə bizim sevimli vətənimizə öz işlərilə fayda gətirən belə nüfuzlu şəxsiyyətlər çox olsun.

Gecə Çırağı bir dəfəyə stəkanını boşaltdı. Hamı ondan nümunə götürdü. İkinci sağlıqdan sonra onlara bir yerdə oturmaq asan deyildi və qonaqlığın ortasında yuxu gətirən tozun təsirindən hamı dərin yuxuya getdi. Gecə Çırağı elə bunu istəyirdi. O, iti bir bıçaq götürdü və hamısının dodaq və burunlarını kəsdi.

Bundan sonra o, vəzirin çadırına girdi. Vəzir onu görəndə ildırım vurmuş kimi oldu. O, təqibçisinin belə tezliklə peyda olmasını gözləmirdi. Zavallı öz keşikçilərini köməyə çağırmağa cəhd etsə də, bacarmadı.

Gecə Çırağı ona bu sözlərlə müraciət etdi:

- Hə, nədir, deyəsən mənim qranımı qaytarmağın vaxtı gəlib çatmışdır.

Zavallı təvəqqe edirdi, özünün var-dövlətinin yarısını ona vəd edirdi, təki o, onu sağ buraxsın. Amma bizim qəhrəman rəhmsiz idi. O, bədbəxt vəzirə əzab verməyə başladı.

Zavallı onun qeyri-insani əzablarına davam gətirə bilmədi və həyatla vidalaşdı. Gecə Çırağı isə heç bir şey olmamış kimi şəhərə qayıtdı və belə bir şayiə yaydı ki, bəs hansısa padşah müharibə etmək üçün Şah Abbasın üstünə gəlir. Onun döyüşçüləri son dərəcə eybəcərdilər, onların dodaqları çox qırmızıdır və öz-özünə gülürlər. Bu şayiə Şah Abbasa da çatdı. O, qoşunun hazır vəziyyətdə saxlamağı və düşmən gəldikdə onun üstünə hərəkət etmək haqqında əmr verdi. Bunun üçün şəhər darvazasının xaricində qaravul təyin edildi. Onlar düşmən görünən kimi həyəcan işarəsi verməli idilər.

Doğrudan da bir müddət sonra qaravullar gördülər ki, qırmızı dodaqlı atlılar gəlirlər. Onlara qarşı bir qoşun göndərildi. Qoşun onların hamısını bir atlı qalanadək qırıb çatdı.

Qoşun fikirləşdi ki, bu düşmənin əsas qüvvəsidir və buna görə də qoşunun davamının gəlməsini gözləməyə başladı.

Bu arada şəhərlilərdən bəziləri yeni xalqa yaxından baxmaq istədilər. Onlar meyidləri görən kimi o saat öz şəhərlilərini tanıdılar. Şah Abbası xəbərdar etdilər. O, xəstə vəzirin yanına qasid göndərdi ki, onun hal-əhvalından bir şey öyrənsin. Onlar çox keçmədən geri qayıtdılar və şaha xəbər verdilər ki, vəzir və həkimi öldürüblər, atlılar isə onun qoşunu tərəfindən qırılıb çatılmışdır.

Şah başa düşdü ki, onu aldadıblar və bütün bunlar Gecə Çırağının işidir. O, hirsindən necə bir qərar qəbul etməyi bilmirdi, odur ki, özünün bütün nazir və vəzirlərini yığdı və onlara elan etdi ki, onlar bu qədər cinayətlərin səbəbkarını həyatdan məhrum etməlidirlər. Vəzirlərin hamısından ağıllı olanı dedi:

– Gecə Çırağını tapmaq çox çətindir. Amma mən bunun bir yolunu göstərəcəyəm. Bəlkə onu tutmaq bizə nəsib olar. Sən öz qızın Pəri xanımı adaya göndər və elan et ki, hər kim üzərək adaya

yetişsə, qızını ona verəcəksən. Gecə Çırağından başqa heç kim cürət etməz. Çünki onun üçün mümkün olmayan heç bir şey yoxdur.

Şah elə də etdi. Gecə çırağı bu xəbəri eşitdi. O, Pərixanım kimi bir gözəl qızın əri və belə böyük dövlətin şahının kürəkəni olmağı çox istədi. Odur ki, üzərək adaya çatdı. O, qürurla Pəri xanımın çadırına girdi və özünü onun adaxlısı elan etdi. Çünki o, sağ-salamat belə böyük su sahəsini üzüb keçməyi bacarmışdır.

Pərixanım onun arvadı olmağa razılıq verdi və onun adını xəbər aldı. O, öz adını dedi. Pəri xanım o saat adamlarına onun əl-ayaqlarını bağlamağı və ciddi nəzarət altında şahın yanına aparmağı əmr etdi.

Şah əmr etdi ki, dar ağacı hazır olana qədər onu quyuya atsınlar və üç gündən sonra xalq qarşısında assınlar. Quyuda ondan başqa iki qardaş da var idi. Onları bir aydan sonra asmalı idilər. Hər gecə bu qardaşlara şam yeməyi gətirirdilər. Gecə Çırağı bu qardaşlara şam yeməyi gətirənlərdən təvəqqe etdi ki, onu quyudan çıxarsınlar və söz verdi ki, ertəsi gün öz yoldaşlarını edamdan qurtaracaq.

Onu quyudan çıxardılar. Gecə Çırağı əyninə qoyun dərisi geyindi və ona zınqırovlar bağladı. Başına qoyun dərisindən papaq qoydu. Papağın buynuzu və saqqalı da var idi. O, gecə yarısı Şah Abbasın otağına girdi. Şah Abbas bu vaxtı rahat və sakit yuxuda idi. Birdən Gecə Çırağı bütün bədənini silkələdi, zınqırovlar elə səs saldılar ki, şah çox qorxdu. Bu bir neçə dəfə təkrar olundu. Axırda Gecə Çırağı dedi:

– Mən Əzrayılam, əgər sən sabah zavallı Gecə Çırağını azad etməsən və qızını ona verməsən, mən sənin canını alacağam. Bundan sonra sən necə şahsan ki, öz sözünü yerinə yetirmək istəmirsən?!

Şah Abbas razı oldu, təki Əzrayıl onun canını almasın. Amma Gecə Çırağı adi vədlərlə kifayətlənmədi. O, şahdan yazılı sözləşmə istədi və şah ona istədiyini verdi.

Gecə Çıırağı bu kağızı götürdü, getdi və həbs edildiyi quyuya endi.

Şah səhər özünün nazir və vəzirlərini yanına çağırdı və başına gələnləri təfsilatı ilə onlara danışdı. Onlar inanmaq istəmədilər. Amma şah onlara dedi:

– Gedin Gecə Çırağının yanına. Mən yazılı şəkildə qızımı Gecə Çırağına verməyi vəd etdim və bu kağız öz xəttimlə imzalanmışdır. Əgər bu kağız ondadırsa, Əzrayılın istəyini yerinə yetirmək lazımdır. Əgər sözləşmə onda olmasa, bu quldurun boynu vurulmalıdır.

Onlar quyuya tərəf gəldilər. Gecə Çırağından səhhətini və gecəni necə keçirdiyini xəbər aldılar. Gecə Çırağı cavab verdi:

– Gecə yanıma zınqırovlu qoyun dərisi geyinmiş bir nəfər gəlmişdi və o, mənə bir yazılı vərəq verdi.

Onu quyudan çəkib çıxardılar. Doğrudan da, Gecə Çırağının göstərdiyi yazılı vərəqdə Şah Abbas onun quyudan azad ediləcəyini və öz qızı Pərixanımı ona ərə verəcəyini vəd edirdi. Nə etməli, şah öz qızını ona ərə verdi və özünün yaxın adamlarından biri etdi. Gecə Çırağı ilə bir quyuda oturan iki qardaşa gəlincə isə, onlar onun təvəqqesinə görə həmişəlik cəzadan azad edildilər.

## Satın alınmış yuxu

Biri var idi, biri yox idi, bir məmləkətdə kasıb bir adam var idi. O, hər gün yaxınlıqdakı meşədə çırpı doğrayır, onu satmaq üçün şəhərə aparırdı. O, əldə edilən pulla ailəsini dolandırır və öz taleyindən razılıq edirdi.

Uzun illər davam edən bu həyatdan sonra bir gecə o, belə bir yuxu görür ki, onun başı üstündə günəş, ayaqlarında ay və sinəsi üstündə iki ulduz var. O, dərhal yuxudan ayılır, sonra isə uzun müddət yata bilmir. Elə hey fikirləşir və bu yuxunu heç cür yoza bilmir. Əvvəl nədənsə qorxuya düşür, amma sonra nə

isə xoşbəxt və sevinc gətirən bir şeyin intizarında tədricən ürəklənir və sakitləşir.

Səhər açılan kimi ayağa qalxıb bunu arvadına danışır və sözünə əlavə edir:

– Sən istəsən, elə öz qurşağını da götür (onların heç artıq ipi də yox idi), bir yerdə gedək, 2-3 gün mənə kömək et, daha çox çırpı gətirim. Əlimizə gələn pula yemək-içmək alaram, sonra arxayın yuxumun arxasınca gedərəm.

Arvadı razı olur. Onlar ikisi birlikdə bir həftə ərzində meşədən o qədər çırpı gətirib bazarda satırlar ki, onun puluna un, quru balıq kütüm, iki həftəlik digər ərzaq ehtiyatları ala bilirlər. Kasıb bütün bunları evdə qoyub, arvadı və uşaqları ilə vidalaşır və heç özünün də hara gedəcəyini bilmədən yola düşür.

O, çoxmu yol gedir, azmı yol gedir, bunu deyə bilmərik, çünki biz orada yox idik. Axırda böyük bir sürünü otaran bir çobana rast gəlir. Salam-əleykdən sonra çoban ona deyir:

– Qərib qardaş, sənə əlimdən gəldiyi qədər kömək etməyə hazıram. Əgər iştahan varsa, açıq söylə. Mən sənə qoyun və ya keçi südü sağaram, yeyərsən, sonra da yoluna davam edərsən.

Kasıb kişi ac idi, odur ki, bu təklifi məmnuniyyətlə qəbul edir. Çoban bütöv bir çörəyi doğrayır, keçinin südünü sağır və qonağa çörəklə süd təklif edir. Qonaq iştahla yeyib çobana təşəkkür edir və yoluna davam etmək istəyir. Çoban qonaqdan kim olduğunu, hara və nə üçün getdiyini xəbər alır. Kasıb kişi ona öz yuxusunu danışır və deyir ki, bu yuxunun ardınca gedir. Çoban bunu eşidib təvəqqe edir ki, bu yuxunu ona satsın. Kasıb kişi razı olmur. Çoban əvvəlcə ona qoyun, sonra onlarla qoyun əlavə edir, axırda isə bütün sürünü – min qoyun və keçini, uzunqulaq, it, sac və qazanını bağışlayır.

Çoban yuxunu alıb baş götürüb gedir. Kasıb kişi isə bütöv bir sürünün sahibi olub, göndərdiyi xoşbəxtlik və var-dövlət

üçün xaliqə təşəkkür edir. O, sürünü öz evinə gətirib, kef ilə yaşamağa başlayır.

Yuxunu satın alan çoban isə hara getməli olduğunu bilmədən yola düşür. O, çoxmu gedir, azmı gedir, gəlib hündür divarla əhatə olunmuş bir şəhərə yetişir. Bu qalanın bir qapısı olur və o da bağlı olur. Çoban onun ətrafında çox dolanır, bilmir nə etsin və qalaya necə girsin. Sonra özü-özlüyündə - axı mən həmişə açıq havada yaşamışam, elə bu gecəni də şəhər divarının altında keçirərəm, səhər isə baxarıq, Allah nə qismət edər, - deyə düşünür. Azmı yatır, çoxmu yatır, gecənin bir vədəsi at nallarının tappıltısını eşidir və görür ki, bir cavan göyçək oğlan ondan bir qədər aralıda darvazanın yanında dayanıb. Cavan oğlan özü ilə yəhərli bir başqa at da gətirib. O, atdan düşür, atları otlamağa buraxır. Özü isə otun üstündə mürgüləyir. Atlar tədricən uzaqlaşaraq hərəsi bir tərəfə dağılır. Çoban bunu görüb öz-özünə fikirləşir: "Atlar çıxıb gedəcəklər, sahibi isə onları səhər məndən istəyə bilər, çünki bizim ikimizdən başqa burda kimsə yoxdur". Buna görə də atları saxlayıb öz yanında otarır.

Cavan oğlan hələ yuxuda ikən şəhər divarının üstündə cavan bir qadın görünür. O, çobana müraciət edərək deyir:

– Bu heybəni götür, atın belinə bağla.

Çoban bunu yerinə yetirir. Sonra qadın deyir:

– Divara yaxın gəl, mənə düşməyə kömək et.

Çoban bunu da yerinə yetirir. O, çobanın köməyi ilə düşən kimi ata minir və çobana əmr edir ki, o da başqa ata minsin, onun ardınca var-gücü ilə çapsın. Onlar bütün gecəni dayanmadan səssiz-səmirsiz at çapırlar. Dan yeri ağaranda qadın çobana müraciət edir:

– Əmioğlu, biz ustalıqla qaça bildik. Bütün təhlükə sovuşub getdi, indi isə tələsmədən də gedə bilərik.

Çoban cavab verir:

– Xanım, sənin əmioğlun orada yatmağa qaldı, mən isə adi çobanam. Məni bağışla. Sən məni başqa adam biləndə səni vaxtında məsələdən xəbərdar etmək ağlıma heç gəlmədi.

Qız cavab verdi:

– Sən mənim əmimoğlumdan daha cəsarətli oldun, qoy o istədiyi qədər dincəlsin, sən isə əgər istəyirsən, mənim ərim ol. Alın yazısından heç kim qurtara bilməz.

Qız oradakı şahın qızı imiş və atasının istəyinə qarşı olaraq öz əmisioğluna ərə getmək istəyirmiş. Əmisi oğlu onunla əvvəlcədən razılaşaraq onun dalınca gəlibmiş, amma yuxuladığı üçün qız çobana nəsib olur.

Şah qızı ilə çoban çoxmu, yoxsa azmı getdilər, gəlib bir başqa vilayətin paytaxtına çıxdılar. Çoban bu vaxta qədər nimdaş geyimlə gəzib dolaşırdı. Şah qızı bir dəllalı yanına çağırır. O, dəllala əmr edir ki, Teymurşaha (o, çobanı belə adlandırmağa başlayır), şahzadəyə layiq bir dəst əyin-baş gətirsin. Dəllal ondan tələb olunan geyimi gətirir. Yeni geyim onun boy-buxununa, şah qızının zövqünə uyğun olur. Şah qızı dəllala paltarın pulunu verib çobana cansağlığı ilə geyinməyi arzulayır, sonra isə çobana deyir:

– Bundan sonra sənin adın Teymurşah olacaqdır. Sən artıq çobanlığını unut, özünü şah və şahzadə kimi apar.

Ertəsi gün şah qızı siniyə bir yığın qiymətli daş-qaş qoyub, Teymurşaha tapşırır ki, buranın şahına hədiyyə aparsın və şah hədiyyəni qəbul edəndə və ona oturmaq təklif edəndə o, sol tərəfdə yox, şahın sağ tərəfində oturmağa çalışsın. Qoy görsünlər ki, Teymurşah əsli-nəcabətli şah oğludur.

Şah məmnuniyyətlə hədiyyələri və Teymurşahı qəbul edir və ona oturmağı təklif edir. Teymurşah şah qızının öyrətdiyi kimi şahın sağ tərəfində oturur. Şah ondan kim olduğunu, haradan və onun torpaqlarına necə gəlib çıxdığını xəbər alanda Teymurşah cavab verir:

– Mən filan şahın oğluyam. Atamdan küsdüyüm üçün ondan ayrıldım və tam əminliklə sənin yanına gəldim ki, sən məni qəbul edərsən və şahlığında yaşamaq üçün mənə izn verərsən. Mərhəmətli ol, özünün geniş dövlətində mənə sığınacaq ver, mənə bir yer göstər ki, orada özümə ev tikim.

Şah böyük məmnuniyyətlə öz paytaxtında ona ən yaxşı torpaq sahəsi ayırır və Teymurşah dərhal tikinti işlərinə başlayır. O bu torpaq sahəsində ən qısa vaxt ərzində şahların heç birində olmayan bir bina ucaldır. Onun yanından ötüb keçən qoca və gənc, varlı və kasıb evin qarşısında dayanmadan, saatlarla onun gözəlliyindən zövq almadan keçib gedə bilmir.

Şah Teymurşahla tanış olduğu gündən tez-tez, demək olar ki, hər gün onu qonaq çağırır. Bir gün qonaqlıq vaxtı ona deyir:

– Gördüyün kimi, mənim ölümümdən sonra şahlıq edə bilən bir oğlum yoxdur, odur ki, mənə oğul ol, mən də sənin atan olum.

Teymurşah şahın bu təklifini minnətdarlıqla qəbul edir.

Günlərin bir günü arvadı Teymurşaha deyir:

– Demək olar ki, sən hər gün şahın yanında olursan, heç olmazsa, sən də bir dəfə onu qonaq çağır. Qoy o da sənin evini, yaşayışını görsün, bilsin ki, sən də şah kimi qonaq qarşılaya bilirsən. Dəvət et, amma öz çobanlığını unut, qonaqdan bir neçə addım irəlidə get və mənə öncədən xəbər ver, yoxsa şah məni görər və gözəlliyimə vurular, mənə sahib olmaq üçün səni öldürtdürər.

Teymurşah vəd verir, amma yerinə yetirmir. O, şahı və onun əyanlarının hamısını evinə dəvət edir. Onlar birlikdə Teymurşahın evinə yollanırlar. Teymurşahın başı söhbətə qarışdığından hörmətli qonağın gəlişi barəsində arvadını əvvəlcədən xəbərdar etməyi unudur.

Qonaqlar gəlib çatanda Teymurşahın arvadı eyvanda gəzişir. Teymurşahın arvadını görən kimi şah ona vurulur və elə o andan ona necə sahib olmaq haqqında düşünməyə başlayır.

Süfrəyə yemək gəlir, bütün vəzirlər və Teymurşah yeyib-içib şadlanır, yalnız şah Teymurşahın arvadına sahib olmaq haqqında düşünür, nə yeyir, nə içir, nə də onlarla söhbətə qoşulur. Yeməkdən sonra qonaqlar şad-xürrəm dağılışıb gedirlər, yalnız şah kefsiz olur. Evinə gəldikdən sonra çox möhkəm xəstələnir, vəzirlərini yanına çağırır. Teymurşahın arvadına sahib olmaq üçün onu necə məhv etməyi onlarla məsləhətləşməyə başlayır. Götür-qoy edirlər və axırda belə qərara gəlirlər ki, onu elə bir yerə göndərsinlər ki, oradan geri qayıda bilməsin. Şah Teymurşahı yanına çağırır və ona deyir:

– Filan dənizdə müxtəlif tüklü bir madyan var, get onu sağ və südündən mənə gətir ki, mən içim və sağalım.

Teymurşahın arvadı əvvəlcədən hiss edir ki, şah onun ərini nə üçün çağırır və onu hansı sonluq gözləyir. Ona görə də Teymurşah şahın yanına gedəndə arvadı ona deyir ki, şah ona hansı tapşırığı versə, ondan qırx gün möhlət istəsin. Teymurşah elə də edir. Şah ona öz istəyini bildirəndə Teymurşah 40 gün möhlət istəyir və şah da razı olur. Şah öz-özünə düşünür ki, o heç səksən günə də dəniz madyanının südünü gətirə bilməz.

Teymurşah evinə geri dönür. Otuz doqquz gün arvadı ilə yeyib-içib, şadlanır, otuz doqquzuncu gün axşam arvadı ona deyir:

– Get, dənizin kənarında iki çala qaz, onlardan birinə çaxır doldur, o birində isə özün gizlən ki, madyan ora gələndə heç cür səni görə bilməsin, yoxsa səni tapdalayar və öldürər. Nə vaxt ki, bunu etdin, yüyəni əlində hazır tut və ayıq ol. Madyan ora uçub gələcək, içib sərxoş olacaq və yerə yıxılacaq. Ayılıb özünə gələndə dərhal yüyəni başına keçirt, min və evə sür!

Teymurşah dərhal dənizə tərəf yollandı, çalalar qazdı, bir çalanı çaxırla doldurdu, o birində isə özü gizləndi və madyanı gözləməyə başladı. Budur, madyan uçub gəldi. O, çaxırı görüb o qədər içdi ki, ölü kimi yerə düşüb qaldı. Teymurşah fürsətdən istifadə edib yüyəni onun başına geyindirdi və onun ayılmağını

gözlədi. Madyan ayılmağa başlayanda onu mindi və evinə çapdı. Həmin gecə səhərə yaxın evinə gəlib çatdı, madyanı bağlayıb, yatdı. Qırxıncı gün səhər madyanı sağdı, südü aparıb şaha verib dedi:

– Bu da evə gətirdiyim müxtəlif tüklü dəniz madyanının südü.

Şah heyrətləndi, üzdən Teymurşaha təşəkkür etdi və onu evinə buraxdı. Sonra vəzirlərini yanına çağırdı və onlara dedi:

– Mən Teymurşahı gedib qayıda bilməyəcəyi bir yerə göndərdim. Amma o mənim tapşırığımı sağ-salamat yerinə yetirdi. İndi onu necə məhv etmək olar?

Vəzirlər götür-qoy edib axırda qərara gəldilər ki, onu cənnət almasının dalınca göndərsinlər. Onların məsləhəti şahın xoşuna gəldi, yenidən özünü xəstəliyə vurub Teymurşahı yanına çağırıb dedi:

– Mən yenə naxoşlamışam, sən mənə cənnət alması gətirməlisən ki, mən yeyib sağalım.

Teymurşah ona tapşırığı yerinə yetirəcəyini vəd etdi və qırx gün möhlət istədi. O, evinə geri dönüb düz otuz yeddi gün yedi-içdi, arvadı ilə şadlıq etdi, otuz səkkizinci gün səhər arvadı ona dedi:

– Müxtəlif tüklü dəniz madyanını min, o səni hara aparacağını bilir, o harada dayansa, orada düş. Madyanı bir yerdə bağlayıb özün isə gizlən. Günortadan sonra ora üç ayrı hovuzda çimmək üçün üç bacı gələcək. Onlar soyunub hovuza girəndə gizlincə hovuza yaxınlaş, onlardan birinin paltarını götür. Elə ki, bunu etdin, paltarın sahibi lüt qalıb gedə bilməyəcək, səndən öz paltarını istəməyə başlayacaq. O sənə ərə getməyə razı olanadək sən onun paltarını qaytarma. Sənə ərə getməyə razı olduqda onu geyindir və bura gətir.

Teymurşah arvadı ilə vidalaşdı, madyana mindi və getdi. Madyanın durduğu yerdə atdan endi, onu bağladı, gizlənib bacı-

ların gəlməyini gözləməyə başladı. Günortadan sonra onlar gəlib çıxdılar. Qızlar hovuzun yanında soyunub, çimməyə başladılar. Teymurşah gizlincə gəlib kiçik bacının paltarını özü oğurladı, heç kim onu görmədi. Qızlar geyinmək üçün hovuzdan çıxdıqda ikisi geyindi, kiçik bacı isə öz paltarını tapa bilmədi. O, tək qalıb yenə də hovuza girdi. Bu vaxt Teymurşah əlində paltar hovuzun yanında göründü. Kiçik qız nə qədər yalvarsa da, Teymurşah qızın paltarını vermədi. Qız ona ərə getməyə və onun istəyini yerinə yetirməyə razı olduğunu bildirəndə Teymurşah qızın paltarını ona qaytardı. O, paltarını geyinib heybəni götürdü və gözdən itdi. Çox keçmədən cənnət alması ilə dolu heybə ilə geri qayıtdı. Teymurşah buna çox sevindi. O, heybəni yəhərə bağladı, qızı atın sağrısına oturtdu və atı çapıb evinə yola düşdü. Birinci arvadı sevinclə onları qarşılayıb yaxşı qonaqlıq verdi.

Ertəsi gün səhər Teymurşah şaha tam bir sini cənnət alması apardı. Şah ondan xəbər alanda ki, almaları haradan əldə edib, Teymurşah ona cavab verdi ki, təkcə almaları deyil, özüylə Rum şahının qızını da gətirib. Şah bunu eşidib üzdən onu cəsarətini təriflədi və ona təşəkkür etdi, amma daxilən Teymurşaha çox qeyzləndi ki, onu məhv edə bilməmişdir.

Şah yenə də vəzirləri məşvərətə çağırdı ki, onu necə məhv etsin. Vəzirlər götür-qoy edib axırda belə qərara gəldilər - Teymurşaha deyilsin ki, şah ona görə çox xəstələnir ki, o biri dünyada olan valideynlərindən bixəbərdir. Qoy Teymurşah gedib onlara baş çəksin və şaha onlardan bir xəbər gətirsin. Şah vəzirlərinin bu məşvərətini bəyəndi və Teymurşahı yanına çağırdı. Onun ikinci arvadı Rum şahının qızı şahın ərini nədən yanına çağırdığını əvvəlcədən bilib, Teymurşahı şahın yanına yola salanda tapşırdı ki, şahdan qırx gün möhlət istəsin.

Teymurşah şahın yanına gəldi. Şah öz istəyini ona bildirdi, Teymurşah ondan qırx gün möhlət istədi, şah razı oldu. Bütün

bu vaxt ərzində Teymurşah arvadları ilə yedi-içdi, şadlandı, qırxıncı gün səhər ikinci arvadı Teymurşaha dedi:

– Şahın yanına get və ondan təvəqqe et ki, iyirmi araba odundan tonqal yandırsınlar, tonqala bir çəllək neft töksünlər və tonqalı alışdırsınlar. Güclü alov olanda səni oda atsınlar. Onda mən səni bacılarımla oddan çıxardacam. Tonqalın hamısı yanıb kül olanda külü dəfn edərik, sən isə şahın yanına gələrsən və ona deyərsən ki, onun valideynləri orada çox yaxşı yaşayırlar, onun üçün darıxıblar, xahiş edirlər ki, onları ziyarət etsin.

Şahın əmr etdi, Teymurşahın dedikləri tonqalı yandırdılar. Tonqalın hamısı yanıb qurtardıqdan sonra külü dəfn etdilər. Bir qədər vaxt keçdikdən sonra isə Teymurşah gəlib çıxdı və şaha xəbər verdi ki, o biri dünyada onun valideynləri yaxşı yaşayırlar, şah üçün çox darıxıblar, onunla görüşmək istəyirlər.

Şah sevindi və əmr etdi ki, tonqal qalasınlar. Bu tonqalda əvvəlkindən beş dəfə artıq odun və neft var idi, tonqal yaxşı alışanda şahın əmrinə görə ora əvvəlcə onun özünü, sonra isə onun ətrafını -vəzirlərin hamısını tonqala atdılar.

Beləliklə, şah və onun əyanları hamısı odda məhv oldular və Teymurşah taxtın vəliəhdi, varisi olaraq şah oldu. O, çox rəhmdil və ədalətli hökmdar oldu, belə ki, onun təəbələrinin hamısı onun mərhəmətli və ədalətli olduğunu görüb həmişə onun uzunömürlülüyü üçün dualar edirdilər.

Teymurşah belə xoşbəxtlik içində uzun ömür sürdü. Onun hər arvadından bir oğlu var idi. Günlərin bir günü o nədənsə naxoşladı və bütün ailəsi onun başına yığışdı.

Böyük arvadı onun başının üstündə, kiçik arvadı ayağının yanında dayanmış, oğlanları isə sinəsinin üstündə oynayırdılar. Teymurşah həmin an kasıb kişidən qoyun sürüsü qarşılığında satın aldığı yuxunu xatırladı və gözlənilmədən gülümsədi. Böyük arvadı bunu görüb xəbər aldı ki, hansı xoş xatirələr onun gülümsəməyinə səbəb olub, bəlkə, özünün cavanlığını

xatırlayıb. Teymurşah arvadına dedi ki, axır ki, kasıb kişinin ona satdığı yuxunun çin olmasını gördü.

Allahdan üç cənnət alması gəldi, biri nağıl danışanın, o biri qulaq asanın, üçüncüsü isə yoldan keçənin.

***15 yanvar 1896-cı ildə Göyçayda Şamaxı qəzasının Saqiyan kənd sakini Sarkis Osipov Kalaşevdən yazıya alınmışdır.***

## Keçəl Əhməd

Biri var idi, biri yox idi, qoca bir cadugər var idi. O, bir əlində imanı, bir əlində tüməni tuturdu. Onun Keçəl Əhməd adında bir oğlu var idi. O, heç bir işlə məşğul olmurdu, anasının hesabına yaşayırdı. Bunun üçün anası bütün günü səhər-axşam corab toxumaqla məşğul olurdu. O, hər gün oğluna bir cüt corab verirdi ki, aparıb bazarda satsın. Keçəl Əhməd corabları satır, anası üçün bir qədər çörək alırdı, amma o qədər az alırdı ki, o ac qalırdı. O, qazandığı pulun qalan, böyük hissəsini özünə götürür və özü kimi avara yoldaşları ilə göyə sovururdu.

Anası görəndə ki, o ac qalaraq daha çox əldən düşür və oğlundan heç bir fayda yoxdur, oğluna dedi:

– Əgər işləmək və məni yedirtmək istəmirsənsə, gəl bölüşək.

Onlar bütün əşyalarını yarıbayarı böldülər. Əhməd özünün payına düşəni bazara çıxardı və yetmiş qəpiyə satdı. Bundan sonra o, özü kimi qırx avaranı ətrafına yığdı; onlar qamış tüfənglərlə silahlandılar, at tapdılar, şəhərdən uzaqlaşdılar. Şəhərdən uzaq olmayan yerdə yolun işlək hissəsində kiçik bir ev tikdilər və burada yaşamağa başladılar. Bu dəstə quldduqluqla məşğul olaraq buradan keçən hər bir kəsi soyurdu.

Padşahın qorxubilməz ovçu oğlu var idi. O hər gün ova çıxırdı. Günlərin bir günü uzun sürən ovdan sonra o, bir bulağın yanında dayandı, soyuq sudan içdi və dincəlmək üçün

uzandı, atını isə yanına otlamaq üçün buraxdı. O, şirin yuxuda olarkən kimsə bunun üzünə su çilədi. Şahzadə yuxudan oyandı, ətrafa baxdı və gördü ki, qovaq ağacında bir gözəl oturubdur. Şahzadə özünə gələnə kimi gözəl uzaqlaşdı və gözdən itdi.

Ertəsi gün şahzadə yenə adəti üzrə ova çıxdı. Ovdan sonra yenə həmin budağın yanında dayandı. Dincini almaq və gözəli görmək ümidi ilə uzandı. Yorğunluq öz işini gördü. Şahzadə dərin yuxuya getdi. Gözəl elə bu vaxt gəldi, onu yatan görüb qamçı ilə vurdu. O gözlərini açdı. Onda ona çini fincan parçasını göstərdi və gözdən itdi.

Şahzadə ayağa qalxdı, ətrafa baxdı, amma heç kimi görə bilmədi. O, fikir içində evə qayıtdı.

Üçüncü gün şəhzadə yenidən ora gəldi, bulağın yanında oturdu, gözlədi, yoruldu və yuxuya getdi. Gözəl gəldi, onu yatmış görüb ona su çilədi və o gözlərini açanda ona üzük göstərdi və qaçdı. Şahzadə onun dalınca qaçmağa başladı, gözəl qaçır, şahzadə də onu qovurdu. Şahzadə gözəlin dalınca çoxmu, azmı qaçdı, axırda qız bir ceyrana çevrildi və gözdən itdi. Şahzadəyə evə qayıqmaqdan başqa bir çarə qalmadı.

O, evə gəlib çatanda xəstələndi. Gündən-günə onun vəziyyəti ağırlaşdı. Onun xəstəliyi uzun çəkdi, həkimlərin bütün cəhdləri uğursuz oldu. Padşah özünün həkimlərinin oğluna kömək edə bilməyəcəklərindən əmin olduqda öz vəzirlərindən birini qonşu dövlətə göndərdi ki, ən yaxşı həkimi tapsın.

Yolda Əhmədin başçılığı altında quldurlar vəzirə hücum etdilər və onu tər-təmiz soydular. Dəstənin başçısı onun kim olduğunu və nə üçün getdiyini biləndə şahzadəni sağaldacağını dedi, amma bir şərtlə ki, padşah qırx gün ərzində onun dəstəsini yedirib içirsin və qırxıncı gün o şahzadəni sağaldacaq.

Vəzir padşahın yanına gəldi və onu hər şeydən xəbərdar etdi və padşah yalançı həkimin həmin istəklərini yerinə yetirdi. Quldurlar 39 gün padşahın hesabına yedilər içdilər, kef

çəkdilər, qırxıncı gün isə şahzadəni də dəvət etdilər. Həmin gün qonaqlıq daha təmtəraqlı idi.

Keçəl Əhməd əvvəlcədən öz silahdaşlarına tapşırmışdı ki, qonaqlıq vaxtı ağlamağa başlasınlar və onun sualına cavab olaraq hər biri öz kədərli hekayəsini danışsın. Məsələn, biri valideynlərini, başqası nişanlısını, üçüncüsü sevgilisini, dördüncüsü vətənini xatırladığını desin.

Quldurbaşının tapşırığı yerinə yetirildi və qonaqlıq vaxtı hamı ağlamağa başladı. Və Əhmədin sualına cavab olaraq hər kəs öz kədərindən danışdı. Növbə şahzadəyə gəlib çatdı, amma o, quldurbaşının bütün israrlı suallarına cavab verirdi ki, onun xəstəlikdən başqa hec bir kədəri yoxdur. Quldurbaşı şahzadənin inadını görüb öz dəstəsinə evi dağıtmağı əmr etdi ki, şahzadə evin altında qalsın. Şahzadə görəndə ki, işlər pisdir, məsələni açdı, tanımadığı gözələ necə vurulduğunu onlara danışdı. Onunla görüşlərini təfsilatı ilə təsvir etdi.

Əhmədə elə bu lazım idi, o, bilirdi ki, o gözəl "Avaran eylağı"nın qızı idi. O şahzadəni götürdü və bir neçə dostu ilə padşahın yanına gəldi və elan etdi ki, əgər hökmdar onun tələblərini yerinə yetirsə, şahzadə sağalacaq.

Onda Keçəl Əhmədin təvəqqesinə görə padşah qırx qatır, qırx boş və qırx qızılla dolu sandıqlar verdi. Əhməd öz dəstəsini buraxdı və oradan beş-altı ən cəsur dəliqanlını özü ilə götürdü. Şahzadə və karvanla "Avaran eylağı" istiqamətində yola düşdü.

Onlar çoxmu, azmı yol getdilər, bir Allah bilir. Axır karvan gəlib həmin şəhərə çatdı. Burada Əhməd bir karvansaray tutdu və özü də Əhməd tacir adlanmağa başladı. O, boş və dolu sandıqları karvansarayda yerləşdirdi və elan etdi ki, bu gün sabah malları gəlib çatacaq və böyük ticarətə başlayacaq.

Əhməd bir neçə gündən sonra şəhərə gəzməyə çıxdı və ona lazım olan məlumatları toplamağa başladı. Gəzinti zamanı o bir qarıya rast gəldi, onunla tanış oldu və onu karvanasaraya

yanına çağırdı. Qarı əvvəlcə imtina etdi, sonra isə ona bir neçə qızıl sikkə verdikdə karavanasaraya Əhmədin yanına getdi.

Əhməd tacir ondan təvəqqe etdi ki, ona analıq etsin. Əhməd ona yaxşı libas sifariş verdi və hər cür qulluq etdi. Sonra o, "Avaran eylağı"nın qızı üçün bir sini qiymətli hədiyyələr hazırladı və hədiyyələri qarıya verərək tapşırdı ki, bu hədiyyələri qıza bulağın başında su çilədiyi oğlanın adından versin. onları bir gənc oğlanın adından versin. "Avaran eylağı"nın qızı dedi ki, belə bir şey heç vaxt olmayıb, bu uydurmadır və buna görə də o, xidmətçi qızlara qarını döyməyi və evdən qovmalarını əmr etdi. Xidmətçi qızlar xanımın əmrini yerinə yetirdilər və qarı çoxlu kötək yedi. O, küçəyə çıxdı və hirsindən Əhməd taciri söyməyə başladı.

Əhməd tacir qarını qızılla yenə yola gətirdi və daha çox hədiyyələrlə "Avaran eylağı"nın qızının yanına göndərdi. Tapşırdı ki, ona bu hədiyyələri vaxtı ilə qamçıladığı və çini fincanın parçasını göstərdiyi gənc oğlanın göndərdiyini desin.

Qarı hədiyyələri gətirdi və təzim edib hamısını qıza verdi. Amma "Avaran eylağı"nın qızı belə şey olmayıb deyərək əmr etdi ki, qarının əvvəlkindən də çox döysünlər.

Qarı öz bəlalarının səbəbkarı kimi Əhməd taciri söyərək onun yanına qayıtdı. Əhməd tacir bu dəfə də qarını daha çox qızıl sikkələrlə yola gətirdi və daha çox qiymətli hədiyyələrlə " Avaran eylağı"nın qızının yanına göndərdi və özü də onun arxasınca getdi. Qarı qızın yanına gəldi və hədiyyələri ona verərək dedi:

– Bunu sənə o adam göndərib ki, sən filan yerdə ona öz üzüyünü göstərmisən və o səni təqib edəndə sən ceyrana çevrilmisən.

"Avaran eylağı"nın qızı dedi ki, qarı yalan söyləyir, belə bir şey heç vaxt olmamışdır. O, qarını döyməyi və divarın üstündən küçəyə atılmasını əmr etdi.

Onun əmri yerinə yetirildi. Onu küçədə gözləyən Əhməd tacir onu qaldırdı və faytona mindirdi, karvansaraya öz yanına

gətirdi. Bu gecə Əhməd tacir şahzadəni “Avaran eylağı”nın qızının yanına göndərdi və ona dedi:

– Axşam saat doqquzda o valideynlərinin yanından öz mənzilinə gələcək. Sən onun xidmətçi qızlarını ələ al, onun mənzilinə girib və onunla söhbət eyləyə bilərsən.

Axşamın alaca qaranlığında şahzadə “Avaran eylağı”nın evinə tərəf yollandı. O gələndə qız yox idi, valideynlərinin yanında idi. Şahzadə xidmətçi qızları ələ aldı və onun otağına girdi. O, çox gözlədi, amma dözməyib mürgülədi, yuxuya getdi. Evin sahibəsi gələndə və onu yatan görəndə onun ciblərinə bir neçə qoz qoydu və özü isə yatmağa getdi. Şahzadənin gecə onun gəldiyindən xəbəri olmadı, beləcə səhərədək yatdı. O, yuxudan oyanan kimi dərhal evinə qaçdı və Əhməd tacirə xəbər verdi ki, boş yerə gözləyib, “Avaran eylağı”nın qızı evə qayıtmadı.

Şahzadə Əhməd tacirin tələbinə görə ciblərinə baxanda onların hər birində bir neçə qoz tapdı. Əhməd tacir şahzadənin cibindəki qozları belə izah etdi:

– Görünür o gələndə sən yatmış olmusan. Buna görə də sənin ciblərinə bu qozları qoyub. O, bununla demək istəyib ki, sənin oğlan uşağı kimi qoz-qoz oynayan vaxtındır, hələ evlənmək vaxtın deyildir.

Şahzadə ikinci gecə yenə qızın yanına getdi və yenə də gözləyə bilməyib yatdı. Qız gəldi və bu dəfə onun ciblərinə aşıqlar qoydu və öz otağına keçdi. Bununla da demək istədi ki, sənin hələ evlənmək vaxtın deyil, aşıq-aşıq oynamaq vaxtındır.

Üçüncü gecə Əhməd tacir şahzadəni yenə də “Avaran eylağı”nın qızının yanına göndərdi və o yatmasın deyə ona on qızıl sikkə verdi, dedi:

– Nə vaxt ki, gördün yatmaq istəyirsən, onları bir-bir say, beləcə sənin yuxun qaçacaq və sən qız gələnədək otura biləcəksən. Onunla görüşərkən isə ondan adaxlısının ona göndərdiyi və dövlətin yeddi illik qazancına başa gələn kürkü

istə. Nə qədər ki, kürkü əldə etməmisən, bir söz də demə. Nə vaxt ki, kürkü aldın və onunla danışdın, kürkü götür gəl.

Şahzadə "Avaran eylağı"nın qızının mənzilinə gəldi. Qız evdə yox idi. O, qızı gözləməyə başladı. Yuxusu gələndə Əhməd tacirin nəsihətləri yadına düşdü və qızıl sikkələri bir-bir saymağa başladı. Sayanda gördü ki, bir sikkə çatmır. Əhməd tacir şahzadəyə qızıl sikkələri verəndə şahzadə görmədən bir sikkəni qəsdən gizlətmişdi. Beləcə o, şahzadəyə qız gələnədək sikkələri saydırdı.

Qız şahzadəni oyaq görüb onu sorğu suala tutdu, o isə cavab vermirdi. Axırda şahzadə cavab verdi ki, onunla o vaxt danışacaq ki, adaxlısının ona gətirdiyi kürkü versin. Qız çox götür-qoy etdi, axırda kürkü gətirib ona verdi.

Bundan sonra onlar səhər açılanadək şirin söhbət etdilər. Axırda o, kürkü özü ilə götürərək qızla vidalaşdı və karvaransaraya qayıtdı. Əhməd tacir şahzadə gələn kimi öz satıcıları ilə boş sandıqların hamısını qırdı və küçəyə səpələdi və şahzadənin gətirdiyi kürkü isə karvansarayın qapısından asdı. O, belə bir şayiə buraxdı ki, gecə onu soymuşlar. Soyğuncular onun yuxudan ayıldığını görüb kürklərini atıb qaçmışlar.

Hamı bilirdi ki, kürk "Avaran eylağı"nın qızınındır. Bu şayiə şəhərə yayıldı və "Avaran eylağı"nın özünə də çatdı. O, hirsləndi, cəlladları hüzuruna çağırtdırdı və onlara əmr etdi ki, qızını öldürsünlər.

Bu arada Əhməd tacir qızın edama aparılacağı yolun üstündə bir qəbir qazdı və qəbrin içində oturub Quran oxumağa başladı. Cəlladlar "Avaran eylağı"nın qızını qəbrə tərəf gətirəndə Əhməd tacir onlara müraciət etdi və təvəqqe etdi ki, boş yerə günahsız qızın qanını tökməsinlər. Çünki bu Quranın kəlamlarına ziddir, ən yaxşısı budur ki, onu bu qəbirdə sağ-salamat buraxsınlar ki, acından ölsün.

"Avaran eylağı"nı aldatmaq üçün isə bazardan keçi alıb kəssinlər və onun qanını silah və qızın libasına bulaşdırsınlar.

O, bunu deyib cəlladlardan hər birinə bir ovuc qızıl sikkə verdi. Satılmış cəlladlar "Avaran eylağı"nın qızını qəbrə düşürdürlər, keçi kəsdilər və evlərinə qayıtdılar.

Əhməd tacir şahzadəni və "Avaran eylağı"nın qızını əvvəlcədən hazırlanmış faytona mindirdi və öz qatırlarına isə əvvəlcədən tədarük edilmiş bütün var-yoxunu yüklədi, bir an da gecikmədən məmləkətinə yola düşdü.

Onlar çoxmu yol getdilər, azmı getdilər, axır gəlib şahzadənin şəhərinə çatdılar. Burada Əhməd tacir Əhməd padşahın yanına gəldi və təzim edib dedi:

– Budur, sənin oğlun və dərdindən uzun müddətdir xəstə düşdüyü sevgilisi.

Padşah oğlunun qayıtmasına çox sevindi, Keçəl Əhmədə və onun yoldaşlarına təşəkkür etdi, onları əvvəlki soyğunçuluqlarına görə bağışladı, səxavətlə mükafatlandırdı.

Sonra o, böyük toy məclisi qurdu. Bütün xalq iki həftə ərzində, yedi, içdi və kef çəkdi.

Göydən üç alma düşdü. Biri söyləyiciyə, biri dinləyiciyə üçüncüsü isə..

***1896-cı ilin yanvarında Göyçayda Şamaxı qəzasının Sagiyan kənd sakini Sərkis Osipov Kalasevin dilindən yazıya alınmışdır.***

## Kəndli və ilan

Bir kəndli qış vaxtı tarlada soyuqdan büzüşmüş bir ilanı tapıb evinə gətirdi, isinmək üçün ocağa yaxın oturdu, ilanı isə yanına qoydu. O isinəndə ilan da isindi, ayılan kimi öz xilaskarının boynuna sarılıb, onu çalmaq istədi. Kəndli məzəmmətlə ilana dedi:

– Mən səni isindirdim və bununla da ölümdən qurtardım, mən məgər bunu ondan ötrü etdim ki, sən məni çalasan?

İlan cavab verdi:

– Allah bizə yalnız çalmaq qabiliyyəti vermişdir və biz adamları çalmalıyıq, çünki insan kimi yer üzündə nankor başqa məxluq yoxdur. Bir də kim yaxşılığa yaxşılıq edir ki?

Kəndli ilana xahiş etdi:

– Mənə qulaq as, məni vurma və öz məhkəmənlə məni mühakimə etmə. Ən yaxşısı odur ki, üç bitərəf hakim tapaq, qoy onlar bizə hökm (qərar) versinlər.

İlan razılaşdı və onlar yola çıxdılar. İlk olaraq çəməndə otlayan, ayaqlarını güclə çəkən qoca, axsaq, arıq bir ata rast gəldilər və ondan xəbər aldılar ki, yaxşılıq edən insana əvəzini nə ilə ödəmək lazımdır?

At dedi:

– Dünyadakı məxluqlar arasında ən nankoru insandır, çünki o, yaxşılığa pislik edir. Baxın, mən sizin üçün bir sübutam. Mən cavan və güclü olanda yorulmadan gecə və gündüz bir adam üçün işləyirdim, onu öz üstümdə gəzdirirdim. Mən neçə davada, neçə quldurun əlindən onun həyatını qurtarmışam, istədiyi hər şeyi onun üçün etmişəm. İndi isə mən qocalanda iş görə bilmədiyim üçün sahibim məni diqqətindən məhrum etdi. Əvvəlki kimi məni yedirmir, məni başlı-başına buraxır, hətta məni kəsmək istəyir ki, dərimi soyub satsın.

İlan istehza ilə xəbər aldı:

– Eşidirsən?

Kəndli kədərlə cavab verdi:

– Eşidirəm.

Onlar bu ittihamı eşidib yollarına davam etdilər və qoca bir camışa rast gəldilər. Onlar xəbər aldılar:

– İnsanın yaxşılığını nə ilə ödəmək lazımdır?

Camış belə cavab verdi:

– Mən həyatımda insan kimi nankor bir məxluq görməmişəm. Nə qədər ki, mən cavan və güclü idim, o məni arabaya, kotana, malaya qoşurdu. Mən onunçun dən üyüdür, dəyirmana

dən aparır, meşədən odun gətirirdim. Sözün qısası, o mənim gücümdən hər cür faydalanırdı. İndi isə mən artıq qocalmışam, iş görə bilmirəm. O, məni yedirtməkdən imtina edir, məni başlı-başına buraxmışdır. Məni kəsmək istəyir ki, ətimi yesin, dərimdən də ayaqqabı tikdirsin. Deməli, insanlar belə düşünürlər ki, yaxşılıq edənə pislik etmək lazımdır.

İlan yenə xəbər aldı:

– Eşidirsən?

– Adam cavab verdi:

– Eşidirəm.

Onun işi pisliyə doğru gedirdi, bir hakimin ittihamını dinləmək qalırdı. Onlar yollarına davam etdilər və bir bulağa rast gəldilər, bulaqdan xəbər aldılar:

– İnsanın yaxşılığını nə ilə ödəmək lazımdır?

Bulaq onların mübahisəsini eşidib belə cavab verdi:

– İnsan dünyada ən nankor məxluqdur. Yayın isti vaxtı susuzluğunu insan mənimlə yatırır, quraqlıq vaxtı bağları, bostanları və s. əkin yerlərini mənim suyumla suvarır, qüsul edir, öz bədənini, ev əşyalarının təmizliyini mənimlə edir, bütün bunlara baxmayaraq, içib susuzluğunu söndürdükdən sonra insan mənə tüpürür. İnsanlar nankorluğa görə hər cür cəzaya layiqdirlər.

İlan dedi:

– Eşidirsən?

Kəndli cavab verdi:

– Eşidirəm.

Hər üç hakim məsələni ilanın xeyrinə həll edəndə ilan istehza və təntənə ilə kişiyə dedi:

– Əgər istəyirsən elə soruşduğumuz qədər də hakim dəvət edə bilərsən, mən əminəm ki, onların hamısı məsələni mənim xeyrimə həll edəcəklər.

Suda batan saman çöpündən tutan kimi adam da bu təklifdən tutdu. Kəndli dedi:

– Əgər sən razısansa, mən çox məmnun olardım.

Onlar bulağın başında bitmiş kölgəli ağaca müraciət etdilər:

– İnsanın yaxşılığı nə ilə ödənilməlidir?

– İnsan ən böyük cəzaya layiqdir. Günortanın istisində səyahət edəndə mənim budaqlarımın altında dayanır, mənim kölgəmlə örtülərək yatır, mən ona və atına sərinlik verirəm, o isə kölgəmin altından çıxıb gedəndə atını qovalamaq üçün mənim kiçik budağımı qopardır.

İlan xəbər aldı:

– Eşidirsən?

Kəndli cavab verdi:

– Eşidirəm.

Onun işi tamam pis idi. O bu ittihamlarla razılaşmaq istəyirdi, amma xoşbəxtlikdən uzaqda bir tülkü görüb ilana dedi:

– Mənə bir yaxşılıq da elə. Gedək o tülkünün yanına, onun da ittihamını dinləyək. İlan razı oldu.

Kəndli ölümü düşünməkdən tam əldən düşmüşdü, yarpaq kimi əsirdi. Birtəhər tülküyə çatdı. O, ilanın arxasında dayanaraq əlini boğazına qədər qaldırdı və əli ilə onu sıxdı. O, bu işarə ilə tülküyə başa salmaq istədi ki, o, təhlükədədir, onu bu bəladan qurtarmağını xahiş edir. Onlar tülküdən xəbər aldılar:

– İnsanın yaxşılığını nə ilə ödəmək lazımdır.

Tülkü insanın necə bir çətin vəziyyətdə olduğunu görüb ona ürəyi yandı, onu bu bəladan qurtarmaq qərarına gəldi. Bu məqsədlə də belə bir hiyləyə əl atdı. O, ilana həyatı və adətləri haqqında suallar verməyə başladı. İlan ona cavab verdi ki, o, yuvada yaşayır və yaşadığı yuvanı tülküyə göstərdikdə tülkü ona inanmayıb dedi:

– Bacım mənim, ilan, mən başa düşə bilmirəm, sən belə bir deşiyə necə yerləşə bilərsən? Buyur, göstər görək sən bunu necə edirsən?

İlan deşiyə girdi və oradan başını yuxarı çıxartdı. Onda tülkü dedi:

– Bax, görürsən mən haqlı idim, sənin başın oraya yerləşmir.

İlan deşikdə başını da gizlətdi, tülkü isə başı ilə ilanı göstərərək deşiyi cəld bağlamağı kişiyə işarə etdi. Kəndli deşiyi böyük bir daşla bağladı və bununla da qaçılmaz ölümdən qurtuldu.

Kəndli nankor ilandan qurtulub tülkünü mükafatlandırmaq istədi və bunun üçün də onu evinə dəvət etdi. Tülkü israrla bu dəvətdən imtina edib dedi:

– Xeyirxah insan, yaxşısı budur ki, məni rahat buraxasan, səndən mənə heç bir şey lazım deyil. İnsanlar heç bir vaxt yaxşılığı xatırlamırlar. Sən minnətdarlıq yerinə mənə dərd verəcəksən. Evinə yola düş, mən də evimə gedərəm.

Belə olduqda tülkünün xilas etdiyi insan ondan xahiş etdi ki, əgər onun evinə getmək istəmirsə, heç olmasa onun yaşadığı kəndin yaxınlığına gəlib onu kənarda gözləsin, o da tülküyə yağlı bir toyuq gətirə bilsin. Tülkü şirnikdi və getdi.

Onlar gəlib kəndə çatdılar. Tülkü kəndin kənarında gözləməyə başladı, kəndli isə evinə toyuq gətirməyə getdi. Onun nadinc bir oğlu var idi. O, atasının nə üçün toyuqları qovaladığını bilib, atasından gizlin tazını arxalığının ətəyinin altında gizlədib kəndin kənarına qaçdı. Tülkü uzaqdan ona tərəf gələn oğlanı görüb elə fikirləşdi ki, o, ətəyinin altında kəndlinin vəd etdiyi toyuğu gətirir, sevinib öz-özünə dedi: "Bu kəndli nəcib insan imiş, dediyi sözə sahib çıxdı". Oğlanın ona yaxınlaşması ilə şübhələr tülkünü narahat etməyə başladı. Ona elə gəldi ki, oğlanın arxalığının altında toyuq yox, nəsə böyük başqa bir şey var. Ona görə də tülkü ehtiyatdan qaçmağa başladı. Oğlan bunu görüb öz tazısını onu təqib etməyə buraxdı. Tazı çox keçmədən tülkünü haqladı, tutub dərisini dağıdaraq sümüklərini qırmağa başladı. Bu vaxt kəndli əlində vəd etdiyi toyuqla qaçıb gəldi və dedi:

– Tülkü bacı, budur, sənə vəd etdiyim toyuğu gətirdim.

Amma artıq gec idi, tülkü son nəfəsini verirdi. Atası onu ölümdən qurtaran xilaskarını incitdiyi üçün oğlunu danlamağa başladı. Lakin bu, tülkünü heç maraqlandırmırdı da. Tülkü son nəfəsini verərək dedi:

– Tülkü haqlı olduğunu sübut edənədək onun dərisini çəkib çıxardarlar.

## Ramazan

Bir şəhərdə misli görünməmiş uzunmüddətli yağışların yağması nəticəsində zəruri əşyaların gətirilməsi tamamilə dayanmışdı, buna görə də hər şey bahalaşmışdı. Bir gün hava düzəldi, yollar qurudu, şəhərə o qədər mal gəldi ki, hər şey iki dəfə ucuzlaşdı və az qala hər bir şey dəyər-dəyməzinə satılırdı. Ətraf kəndlərin sakinləri bahalaşmadan xəbər tutub satış üçün yarayan hər şeyi gətirməyə çalışırdılar. Yerli sakinlərdən bir simic görünməmiş ucuzluğa şirnikib atasının vəsiyyətini yadına saldı: "Lazımlı şeyi lazım olmayan vaxt al", yəni ucuz olan vaxt al. O, bir pud yağ, beş pud düyü və buna uyğun kəmiyyətdə kişmiş və qaysı aldı və hamballa evə göndərdi, özü də dalınca getdi. Arvadı ərini məzəmmət edərək dedi:

– Sən ağlını itirmisən, bu qədər ərzaq sənin nəyinə gərəkdir, oğluna toy etmirsən, atana ehsan vermirsən.

Kişi başına cin vurmuş arvadını sakitləşdirmək üçün dedi:

– Bu, Ramazan ovruğudur[24].

Bununla da məsələ həll olunmuş kimi göründü. Ərzaq əl toxunulmadan anbarda qaldı.

Bu məsələnin üstündən bir müddət keçəndən sonra evin xanımı pəncərənin qabağında oturmuşdu. O, iki öküzü qabağına qatıb qovan bir kəndlini görüb onu köçəri bildi və xəbər aldı:

– Qulaq as, sən Ramazan deyilsənmi?

[24] Köçərilər köç yerini dəyişəndə öz mal-dövlətini saxlamaq üçün oturaq sakinlərə verirlər. Buna da "ovruq" deyirlər.

Kəndli sualdan kiminlə danışdığını bilib xəbər aldı:

– Hə, mənəm, xanım. Hə, mənəm, əmrin nədir?

– Ay səni yaramaz. Mən sənin nə kölən, nə də nökərinəm, mən neçə vaxtdır sənin malını saxlayıram. Nə üçün gəlib götürmürsən, bizi də sərbəst buraxmırsan?

Qərib kişi məsələnin nə yerdə olduğunu anladı və sakit, yalvarışlı bir səslə dedi:

– Axı nə üçün dava edirsən? Görürsən ki, gəlmişəm, deməli, götürəcəyəm. Sən saxladığın üçün "çox sağ ol" deyirəm. Yaxşılığı axıra çatdırmaq lazımdır.

Qərib bunu deyərək evin xanımı ilə həyətə girdi. Evin xanımı içində düyü olan çuvalı, yağ küpəsini, kişmiş və qaysı torbalarını göstərib ondan xəbər aldı:

– Hə, nə deyirsən? Hər şeyi toxunulmaz saxlamışammı?

Qərib mallarını saxladığı üçün qadına təşəkkür etdi, ona beş funt yağ, yarım pud düyü və lazımi qədər kişmiş və qaysı ayırdı. O, ehtiyatdan ətrafına baxırdı ki, heç kim onu görməsin. Yalanı faş olmadan dərhal öküzləri yüklədi. Evin xanımına bir daha təşəkkür edib, onu həyətdə buraxıb oranı tərk etdi. Ona çata bilməsinlər deyə o, küçəyə çıxanda öz yolunun istiqamətini dəyişdirməyi də unutmadı və əks tərəfə yönəldi. Sonra iki-üç küçə getdikdən sonra geri dönüb öz yolu ilə getdi.

Evin xanımı yalançı Ramazan getdikdən sonra qollarını çirmələyib ocaqda od qaladı və aş bişirməyə başladı. Elə bu vaxt əri evə qayıtdı və onu hazırladıqlarını görüb dedi:

– Sən nə edirsən? Məgər mən sənə deməmişdim ki, bütün bunlar Ramazan üçün saxlanılmalıdır?

Arvadı cavab verdi:

– Mən axı öz başıma götürmədim. Ramazan gəlmişdi, hər şeyi götürdü və öz azuqəsinin bir hissəsini mənə bağışladı.

Əri qışqırdı:

– Sən nə danışırsan, ağlını itirməmisən ki? Hansı Ramazan gəlmişdi? Mən sənə demişdim ki, bütün bunları Ramazan orucluğuna almışam. Sən axmaq isə bizim ehtiyatımzı Allah bilir kimə vermisən!

Əri yalançı Ramazanın hara getdiyini xəbər aldı və onu təqib etmək üçün yola düşdü. Amma artıq gec idi. Onun izi-tozu da qalmamışdı. Ancaq oğurluğa məruz qalmış ev sahibi axtarışlarını davam etdirirdi. O, şəhərdən kənara gedib çıxsa da, heç kimi görmədi, amma yoluna davam edirdi. O, çoxmu getdi, azmı getdi, axırda bir kəndə gəlib çatdı, su içmək istədi, bulağın üstündəki fəvvarəyə tərəf döndü. Bu vaxt bir arvad kuzəsini su ilə doldururdu. O, gündən kömür kimi qaralmış yoldan keçəni görəndə təəccübləndi və haradan gəldiyini xəbər aldı. Kişi hirslə cavab verdi:

– Cəhənnəmdən.

Kuzəsinə su dolduran arvad belə kobud cavabdan hirslənib dedi:

– Mən bir insan kimi səndən xəbər alıram, sən isə nəzakətlə haradan gəldiyini de.

Kişi cavab verdi:

– Mən niyə yalan deməliyəm. Mən cəhənnəmdən gəlirəm və sənə həqiqəti söyləyirəm.

Arvad ona inanıb xəbər aldı:

– Zəhmət olmasa, söylə sən orada mənim baba və nəvəmi görmüsənmi?

– Necə yəni görməmişəm. Onlar bizimlə bir yerdə olurlar, əlbəttə ki, görmüşəm. Sənin babandan orada otuz manat pul və bir cüt paltar tələb edirlər. O isə ödəmək durumunda deyil. Buna görə də hər gün səhər tezdən ayaqlarından asırlar və axşamdan keçmiş azad edirlər. Ertəsi gün eyni şey təkrarlanır və beləcə ondan tələb olunan pulu ödəyənədək hər gün təkrar olunur.

Arvad deyir:

– Ah yadıma düşdü. Nə vaxtsa bir kasıb ondan bu məbləği tələb etmişdi, amma babam ödəmək istəmirdi. Deməli, kasıb haqlı idi, mənim babam isə yox. Zəhmət olmas de, əgər mən sənə bu pulları və paltarları versəm, onları babama çatdıra bilərsənmi? Buna görə mən sənə çox minnətdar olardım.

Yoldan ötən deyir:

– Nə üçün də yox, istəyirsən ver!

Arvad onu evinə çağırdı, babası üçün pul və bir cüt paltar verdi, kişiyə isə on manat bağışladı. Kişi bütün bunları götürüb dedi:

– Sən bunu yaxşı etdin, otuz manata o borcunu ödəyər, beş manatı mən xərcləyərəm, beş manatı isə babana kiçik xərclər üçün verərəm.

Qadın məsələni başa düşüb dedi:

– Hə, mən unutdum, bu iyirmi manatı da götür, babama kiçik xərclər üçün ver, sən isə on manatı özünə saxla, mən onları sənə bağışlayıram.

O, arvaddan bir cüt paltar və altmış manat alıb sevindi ki, yer üzündə onun arvadından axmaq məxluqlar var. O, sadəlövh arvadla vidalaşdı, sadəlövh arvadın ərinin ona çatmasından ehtiyat edərək tez gözdən itdi.

O, çıxıb gedəndən sonra çox keçmədən arvadın əri evinə gəldi. Uşaqlar ona şad xəbər verdilər ki, babanın yanından bir qasid gəlmişdi. Arvadı da bunu təsdiq etdi və əlavə etdi ki, yazıq babanı orada ayağından asırlar, ondan bir cüt paltar və otuz manat pul tələb edirlər. Qadın bu səbəbdən babaya otuz manat pul və bir cüt paltar da göndərdiyini söylədi. Əri bunu eşidib dəli oldu, arvadını düşüncəsizliyinə görə danlamağa başladı. Arvadından həmin adamın hansı istiqamətdə getdiyini xəbər aldı. Atını yəhərlədi və həmin adamın ardınca yola düşdü.

Aldadan adam atlını görüb başa düşdü ki, atlı onu izləyir, yaxınlıqdakı dəyirmana qaçıb gəldi. Onu qarşılayan dəyirman-

çıya dedi ki, şahın arvadı dəli olub və sağalması üçün gərək dəyirmançının başını yesin və buna görə də onu öldürməlidir. Dəyirmançı ona yalvarmağa başladı:

– Mənim böyük ailəm var, mənə və uşaqlarıma yazığın gəlsin. Heç qohum-əqrəbası olmayan, yalnız tək bir özü olan qonşum dəyirmançını öldür.

Hiyləgər dedi:

– İndi ki, belədir, mən səni bəladan qurtaracam, bir yerdə gizlən. Mən bura gələn atlıya deyərəm ki, burada dəyirmançı yoxdur, onda o biri dəyirmançının yanına gedər və sən bəladan qurtularsan.

Dəyirmançı dovuzluqda gizləndi, hiyləgər isə üstünə un səpdi və özünü dəyirmançıya bənzətdi və dəyirmanın qapısının yanında oturdu. Atlı gəlib çıxdı, onun yanına çağırdı və xəbər aldı:

– Bura qaçıb gələn adam haradadır?

O cavab verdi ki, ilk dəfə gördüyü bir adam qaçıb dəyirmana girdi və dovuzluqda gizləndi. Atlı dərhal atdan endi, yalançı dəyirmançıdan xahiş etdi ki, atını tutsun, özü isə dəyirmana girmək istədi, amma hiyləgər onu saxlayıb dedi:

– Ağa, mən görürəm, sən indi çox hirslisən, öz tüfəngini ver, mən saxlayım ki, özünün nəcib əlinlə əsəbdən boşuna qan axıtmayasan.

Atlı dəyirmançının sözünə qulaq asdı, öz silahını da ona verdi, özü isə dəyirmana girdi və kişini çağırmağa başladı. Bu arada yalançı dəyirmançı isə ata mindi, tüfəngi götürdü və yaxınlıqdakı təpəyə qalxdı. Əsil dəyirmançı isə dovuzluqdan yalvarmağa başladı:

– Mənim dörd uşağım var, o biri dəyirmançını götür, o, təkdir....

Gələn adam onu başa düşməyərək etiraz etdi:

– Sən nə boş-boş danışırsan, çıx və mənim pullarımı qaytar, yoxsa səni öldürərəm.

Dəyirmançı gördü ki, onu oğru bilirlər, odur ki, dovuzluqdan cavab verdi ki, o, əsil dəyirmançıdır və dəyirmandan heç bir yerə ayrılmamışdır və dovuzluğa necə düşdüyünü danışdı. İndi təqib edən başa düşdü ki, o da arvadı kimi yalanın qurbanı olub, at və tüfəngini arvadını aldadan adama öz əli ilə vermişdir. Dələduzu tutmaq ümidi ilə dəyirmandan çıxdı, amma tapmadı, yalnız uzaqdan onu təpə belində əli silahlı gördü. Aldadılmış saf adam ona qışqırdı:

– Pulları və paltarı özünə götür, atı və tüfəngi mənə qaytar.

Amma o, cavab olaraq gülümsədi və atı çapıb yoluna davam etdi.

Yazıq əliboş evinə qayıtdı və o, arvadını bir şey üçün məzəmmət edəndə birbaşa cavab yerinə arvadı xəbər alırdı:

– Yaxşısı budur, de görüm, atın və silahın hardadır? .

***N.D.Kalaşev Bakı quberniyasının Şamaxı və Göyçay qəzalarında yazıya almışdır.***

## 3.Yumoristik hekayələr, lətifələr, təmsillər

### Üç molla

Üç molla geniş yolla yol gedirdi. Onlar yolda bir atlıya rast gəldilər. Atlı adəti üzrə baş əydi və "Salaməleyküm" dedi. Atlı ötüb keçdi, mollalar isə dayandılar, atlının onlardan kimə baş əyməsi üstündə mübahisə etməyə başladılar. Onlar çox mübahisə etdilər və belə qərara gəldilər ki, gedib atlıya çatsınlar və onun özündən xəbər alsınlar. Necə qərar verdilərsə, elə də etdilər. Atlıya çatıb onu dayandırdılar və xəbər aldılar:

– Allah adamı, bizə bir de, sənin salamın bizdən kimə aid idi? Biz çox mübahisə etdik, amma mübahisəni həll edə bilmədik.

Heç şübhəsiz, atlı hər üçünə baş əymişdi, amma bu insanların axmaqlığını görərək onlara gülmək istədi və dedi:

– Mənim salamım sizlərdən daha çox axmaq olana aiddir. Bu məsələdə sizi müqayisə etmək üçün sizdən hər biriniz mənə öz həyatından bir hadisəni danışsın. Onda onun axmaqlığı üzə çıxar.

Mollalar razı oldular və onlardan birincisi, aşağıdakı hadisəni danışdı:

– Mən müəllim olarkən bir dəfə məktəbə gedəndə xəlfə[25] həyətdə məni qarşıladı və dedi:

– Molla, bu gün məktəbə getmə, sən çox solğunsan və gözlərin də çox bulanıqdır. Mən səni əvəz edərəm.

Mən cavab verdim:

– Xəlfə, sənə nə olub? Mən özümü tamamilə sağlam hiss edirəm və sinfə gedirəm.

Mən sinfə girdikdə bütün şagirdlər adi salamdan sonra ucadan dedilər:

– Bizim yazıq molla, sənə nə olub? Sən heç özünə oxşamırsan və s.

Açığı, mən çox qorxuya düşdüm, sinifdən çıxdım və evə qaçdım. Evdə isə arvadım bu vaxt dolma bişirirdi. Mən arvadıma qışqırdım:

– Mən xəstəyəm, tez həkim dalınca qaç!

Arvadım mənim əhvalımın pozulduğunu görüb təlaşlandı, bitirməkdə olan əlindəki işi bir kənara qoyub həkimin dalınca qaçdı. O gedərkən mən dolmaya diqqət etdim. Xəstəliyə baxmayaraq, o mənim çox xoşuma gəldi və arvadım evə gələnə kimi mən dolmanın hamısını yeyib bitirə bildim. Arvadım və həkim evə girəndə mən axırıncı dolmanı ağzıma qoydum, amma çeynəməyə və udmağa macal tapmadım.

Həkim tələsik yanıma gəldi və məni müayinə etməyə başladı və gördükdə ki, mənim yanağım qeyri-adi şəkildə şişmişdir və mən danışa bilmirəm, elə düşündü ki, bu çibandır. Hə-

[25] Xəlfə - baş şagird

kim ülgücü əlinə aldı və mən ağzımı açmamış yanağımı kəsib oradakı dolmanı çıxartdı, bu da onu çox təəccübləndirdi.

Birdən qəhqəhə qopdu, mən isə qanım axa-axa huşumu itirdim, yenidən gözlərimi açanda artıq həkim yox idi, arvadım mənə qulluq edirdi. Mən düz bir ay yataqda yatdım, sağalanda isə məktəbə nəinki getmək, özümü belə göstərməkdən utandığım üçün məktəbi buraxdım. Budur, indi mən pay yığa-yığa işsiz-gücsüz sərgərdan gəzirəm.

İkinci molla isə bu hadisəni danışmağa başladı:

– Mən də məktəbdə molla olmuşam, bir dəfə mənim başıma çox xoş olmayan bir hadisə gəldi. Məktəbin həyətində torpaqda çox böyük bir bardaq var idi. Onun içində adam rahat, sərbəst yerləşə bilərdi. Bardaq içi boş dururdu. Bir dəfə şagirdlər qorxmuş halda yanıma gəldilər və mənə dedilər ki, onlar bardaqda iki arşınlıq barmaqları ilə onları qorxudan, hədələyən şeytanı görüblər. Mən şagirdlərlə həyətdəki bardağa yaxınlaşdım, bardağın üstündən əyiləndə onun dibində bir üz (sifət) əks olundu. Sonradan məlum oldu ki, bardağın dibində su var imiş. O vaxt isə bardaqda iki arşınlıq barmağı olan şeytanın olduğundan əmin olub mən onu oradan qovmaq üçün bardağa girmək qərarına gəldim. Mən şagirdlərə ağaclar verdim və onlara əmr etdim ki, bardaqdan şeytanın başı görünən kimi ölənədək onu ağacla vursunlar. Mən bardağa girəndə orada heç bir şeytan yox idi, özümün səhv etdiyimi bilib, bardaqdan çıxmaq istədim, amma başımı qaldıran kimi ağac zərbələri dolu kimi üstümə töküldü. Mən ümidsizlik içində qışqırdım, amma şagirdlərim mənim səsimi tanımadılar. Mənim fəryadımı eşidib gələn arvadım onları qovanadək, məni bardaqdan yarımcan çıxaranadək onlar öz işlərinə davam etdilər. Bardaq da öz növbəsində ağac zərbələrindən zərər gördü və qırıldı. Mən bu zərbələrdən çətinliklə özümə gəldim və utancdan məktəbi tərk etdim.

Nəhayət, üçüncü molla da öz hadisəsini danışmağa başladı:

– Bədbəxtliyimdən mən də prixod[26] müəllimi idim. Məktəbdə mənimlə də xoşagəlməz hadisə baş verdi. Bir gün bizim verdə dərin quyuya düşdü. Mən təklif etdim ki, şagirdlərimdən biri quyuya düşüb vedrəni çıxartsın, amma onlardan heç kim quyuya düşməyə cəsarət etmədi. Nə etməli, mən özüm düşməli oldum. İpin bir ucunu şagirdlər tutmuşdu, o biri ucunu isə mən özümə möhkəm bağlamışdım. İş yaxşı getdi, məni artıq dərinliyin yarısınadək aşağı salmışdılar.

Birdən şagirdlərdən biri əsnədi. Mənim məktəbimdə belə bir adət var idi ki, biri əsnəyəndə başqaları gərək əsnəmək keçənədək diqqəti cəlb etmək üçün əl çalmalı idilər. Bədbəxtlikdən şagirdlərim bu hadisə vaxtı mənim təlimatlarımı unutmadılar. Onlar əmr almış kimi ipi əllərindən buraxdılar və əl çalmağa başladılar. Mən sürətlə quyunun dibinə uçdum. Arvad əgər məni quyudan çıxartmaq üçün qonşuluqdan kimsələri çağırıb yığmasaydı, yəqin ki, mən batacaqdım. Onlar böyük çətinliklə məni quyudan çıxartdılar. Bundan sonra mənim prixodlularım öz uşaqlarını məktəbə mənim yanıma göndərmədilər və mən başqa bir şəhərə köçmək qərarına gəldim ki, orada prixod molla yerini alım.

Mollalar öz hekayətlərini qurtarandan sonra atlı onlara baxıb dedi:

– Məncə, siz üçünüz də axmaq adına layiqsiniz.

## Həsən necə plov yeyirdi?

Həsən adında beş uşağı olan kasıb bir müsəlman var idi. Necə deyərlər, onlar yarıac, yarıtox yaşayırdılar. Plov yemək Həsənin ailəsinin çoxdankı arzusu idi. Kasıb Həsən üçün nə qədər çətin olsa da, o günlərin bir günü ailəsinə plov yedirtmək

[26] Prixod –xristianlarda aşağı kilsə təşkilatı və bu üzvlərinin yaşadığı yer, mərhələ

qərarına gəldi. O, toyuqlarından bir neçəsini satdı, qoyun əti, yağ aldı, sonra evinə qayıdıb azuqəni arvadına verdi.

Həsənin yazıq uşaqları çox sevindilər. Onun arvadı o saat plov bişirməyə başladı. Ev sahibinin özü isə dadlı yemək intizarında küçəyə çıxdı və bir yerdə oturub evin bacasından çıxan tüstüyə baxırdı. Bu vaxt qonşu evdə doyunca plov yeyib indi isə şirin yuxuya dalmaq üçün evlərinə qayıdan üç molla həmin küçə ilə gedirdilər. Həsən yaxşı bir müsəlman kimi nəzakətlə din xadimlərini salamladı və onları evinə dəvət etdi. O, əmin idi ki, mollalar doyunca plov yemişlər, buna görə də onların təklifdən imtina edəcəklərini gözləyirdi. Amma onun gözlədiyi kimi olmadı, mollalar onun plovunu da dadmaq arzusunda olduqlarını bildirdilər.

Həsənin arvadı qonaqları görüb plovun hamısını onların qarşısına qoydu, özü isə uşaqları ilə onların necə doyunca yeyib-içməklərinə tamaşa etdi. Bu arada mollalar iri nimçəyə hücuma keçdilər. Bədbəxt Həsən öz qonaqları qarşısında ehtiramla oturaraq çox keçmədən əmin oldu ki, nə ona, nə onun uşaqlarına plovdan bir düyü dənəsi də qalmayacaq. Həsənin uşaqları həyəcanla, az qala gözlərində yaşla iri nimçənin necə boşaldığını qonşu otaqdan izləyirdilər. Uşaqların anası şirin dilini işə salaraq uşaqları əmin etməyə çalışırdı ki, onlar üçün də yemək payı qalacaq. Amma mollalar bütün plovu qırıb çatdılar, hətta sahibinə təşəkkür etmədən daxmanın qapısına tərəf yönəldilər.

Mollaların bu davranışından pərt olmuş Həsən arvadı ilə onlara hücum edərək zərbələr endirib dedilər:

\- Bundan sonra tox olurkən vicdanınız olsun, yaxşı adamları öz aclıqlarını yatırtmaq imkanından məhrum etməyin.

***Kağızman məktəbinin nəzarətçisi İ.Novruzov***

## Biri o birindən daha yaxşı

Günlərin bir günü iki kəndli tatar yol gedirdilər. Onlardan birinin adı İrza, o birinin adı isə Abbas idi. Onların hər ikisi özlərinin asi taleyindən şikayətlənirdilər. İrza söhbət vaxtı gözlərini göyə tutub dedi:

– Allah, Allah, öz mərhəmətini məndən əsirgəmə, məni dözülməz vəziyyətimdən qurtar, mənə min qoyun və min keçi göndər!

Abbas ondan xəbər aldı:

– Allahın sənə göndərdiyindən mənə bir şey verəcəksənmi?

İrza cavab verdi:

– Əlbəttə ki, yox, sən nədən düşünürsən ki, mən səninlə bölüşməliyəm. Sən, deyəsən, bilirsən ki, mənim ailəm böyükdür. Yeddi arvadım, iyirmi altı uşağım var, mən hələ başqa qohumlarımı demirəm. Allah qoysa, özüm-özümü dolandıra bilim.

Abbas ucadan dedi:

– Allah, mənə beş yüz canavar ver ki, mən bir gecənin içində bu insafsız adamın sürüsünü qırıb çatım.

Çox keçmədən onlar sözdən işə keçdilər və Abbasla İrza arasında qırğın, əlbəyaxa dava başladı. Xoşbəxtlikdən iki bardaq narbək[27] yüklənmiş atını sürən bir hacı onlara yaxınlaşdı. O, məsələnin nə yerdə olduğunu öyrənib mübahisə edənlərin axmaqlığından çox təəccübləndi, cibindən bıçağını çıxartdı və onu narbək bardaqlarından birinə saplayıb ucadan dedi:

– Əgər yer üzündə sizdən axmaq məxluqlar varsa, Allah qoy mənim qanımı bu narbək kimi axıtsın!

***İrəvan şəhər ibtidai məktəbinin müəllimi***
***St.Sumbatyans yazıya aldı.***

[27] Qaynatma yolu ilə qatılaşdırılmış şirin nar şirəsi, narşərab

## 42-ci buraxılış, 1912-ci il

## ERMƏNİ NAĞILLARI

### Üç şahzadə

Məmləkətini əmin-amanlıqla iradə dən ədalətli bir şah var idi. Qüdrətli şahın var-dövləti başından aşırdı, buna görə də həmişə var-dövləti üçün narahat idi. Günlərin bir günü o, əmr etdi ki, daşdan çox böyük yeşik yonsunlar və o, bütün varidatını ora qoydu. Sonra isə bu yeşiyi boş torpağa basdırdı.

Şahın üç oğlu var idi. Onlar şah atalarının var-dövləti haqqında heç bir şey bilmirdilər. Şah ölümünün yaxınlaşdığını hiss edəndə bir səhər kiçik oğlunu yanına çağırdı:

– Oğlum, mən öz əməyimlə və zəhmətimlə çoxlu pul qazanmışam və onları sizə miras olaraq tərk edirəm. Ölümümdən sonra onu öz aranızda bərabər şəkildə bölərsiniz.

Şah varidatın basdırıldığı yeri də nişan verdi. Günorta ortancıl oğlunu yanına çağırdı, kiçik oğluna dediklərini ona da dedi. Axşam böyük oğluna da sirri açdı. Və xəzinəni qardaşlar arasında vicdanla bölüşdürməyi təvəqqe etdi.

Ertəsi gün şah öldü, bu arada kiçik qardaş dəfn və ehsanla məşğul olmaq yerinə gizlincə xəzinənin olduğu yerə getdi, daş sandığı qazıyıb çıxartdı və onu başqa yerə basdırdı. O biri iki şahzadə dəfn və ehsandan sonra pullara baxmağa getdilər, amma pulları tapmadılar. Hər şahzadə daş yeşiyi axtarmalarını o biri qardaşlarından saxlamağa çalışırdı.

Axırda günlərin bir günündə kiçik şahzadə qardaşlarına bildirdi ki, o atalarının xəzinəni basdırdığı yerə gizlincə gedib, amma tapmayıb. Başqa iki qardaş da eyni hərəkət etdiyini etiraf etdi və hər biri təsdiq etdi ki, xəzinə yox idi. Qardaşlar arasında dava və mübahisələr başladı, onlar bir-birini oğurluqda ittiham etməyə başladılar.

Allah bilir əgər onlar öz ədalətli məhkəmələri üçün üçlükdə qonşu padşahın yanına getməyi qərarlaşdırrmasa idilər, hələ nə qədər öz aralarında düşmənçilik edəcəkdilər. Qardaşlar yolda sakitcə söhbət edir və sözləşmirdilər.

Qardaşlar çoxmu, azmı yol getdilər məlum deyil. Nağıl tez söylənirsə də, amma iş tez görülmür. Bir o bəllidir ki, onlar padşahın yanına macərasız çatmadılar.

Böyük qardaş qonşu hökümdarı şəhərinə hələ gedib çatmamış dedi

– Qardaşlar, bu yol ilə bir az bundan əvvəl bir dişi qırıq və bir gözü kor olan dəvə getmişdir.

Bir qədər sonra ortancıl qardaş da dedi:

– Doğrudan da bu yol ilə bir dəvə getmişdir. Dəvə bal və yağla yüklüdür.

Qardaşlar bir bulağa çatanda kiçik şahzadə dedi:

– Qardaşlar, bilirsinizmi, hamilə bir arvad dəvənin üstündə oturmuşdu.

Üç şahzadənin hamısı bulaqdan su içdilər və yollarına davam etdilər.

Qardaşlar çoxmu, azmı getdilər, biz orada yox idik.

Onlar çox keçmədən bir adama rast gəldilər.

Qərib adam onlardan bir dəvəni görüb-görmədiklərini xəbər aldı. Hər üç şahzadə tanımadıqları adama cavab verdilər ki, dəvəni görməyinə görməmişlər, amma bilirlər ki, bu yol ilə bir gözü kor və bir dişsiz, bal və yağ yüklü bir dəvə keçib getmişdir və o dəvənin üstündə hamilə arvad oturubmuş. Qərib adam deyilən əlamətlərə görə öz dəvəsini tanıdı və qardaşlardan aydın cavab tələb etdi. Amma şahzadələr yenə müəmmalı cavab verdilər ki, onlar dəvəni görməyiblər, amma o bu yol ilə keçib getmişdir. Qərib adam qardaşları fırıldaçılıqda ittiham edərək onlarla birlikdə padşaha şikayətə getdi ki, rahatlansın.

Nəhayət, davaçıların hamısı şəhərə daxil oldu. Padşahın yanına saraya gəldilər. Qərib adam o saat padşaha yaxınlaşdı, qardaşlardan təfsilatı ilə ona danışıb şikayət etdi.

Onda padşah şahzadələrdən böyük qardaşa müraciət etdi və xəbər aldı:

– Gənc oğlan, mənə de görüm, sən haradan bildin ki, yoldan bir dişi qırıq və bir gözü çatışmayan dəvə keçib getmişdir?

Şahzadə cavab verdi:

– Ey böyük padşah, mən dəqiqi bilirəm ki, dəvə bu yoldan keçib-getmişdir. Onun izləri yerdə görünürdü. Mən həmçinin bilirəm ki, dəvə tək gözlü idi. O, otlamaq üçün yoldan çıxanda həmişə yolun bir tərəfində otlayırdı. Dəvə dişləri ilə otu qopardığı yerlərdə kiçik bir kol toxunulmadan qalırdı və mən də belə bir nəticəyə gəldim ki, dəvənin bir dişi çatmır.

Onda padşah ortancıl qardaşa müraciət etdi və xəbər aldı:

– Bəs sən gənc oğlan, nədən belə bir nəticəyə gəldin ki, dəvə bal və yağla yüklənmişdi?

Şahzadə cavab verdi:

– Ey hökmdar, gün isidəndə yağ və bal əriyib damcı-damcı dəvədən yerə düşürmuş, bir tərəfə yağ, o biri tərəfə isə bal. Yerdə bu çox aydın görünür. Yağı çox sayda qarışqalar yeyir, balın damcısı ətrafında isə milçəklər fırlanır və vızıldaşır.

Padşah kiçik şahzadədən xəbər aldı:

– Bəs gənc adam necə tapdın ki, dəvənin üstündə hamilə arvad gedirmiş?

Şahzadə cavab verdi:

– Ey böyük padşah, göründüyü kimi o arvadı susuzluq əldən salmışdır. Su içmək üçün onun bir qabı yox idi, odur ki, o, bulağa yaxın gəlib dəvədən yerə endi və uzanaraq su içdi. Bulağın ətrafında palçıq var idi. Arvadın qarnının izi palçıqda qalmışdı. Bu izə görə belə qənaətə gəlmək olur ki, arvad hamilə idi.

Şah uzun müddət qardaşların ayıqlığına çox təəccübləndi. Onların haqlı olduğunu gördü və dəvənin sahibinin şikayətini yerinə yetirməkdən imtina etdi.

Bu arada şah gənc şəhzadələrlə çox maraqlandı və onları yanında qonaq saxladı. O, onlara öz sarayında ayrı bir otaq verdi və xidmətçilərə əmr etdi ki, onlara yemək (kabab) və içmək (çaxır) versinlər. Şah arada xidmətçiləri əvvəlcədən xəbərdar etdi ki, onlara yemək verib pəncərə altında qonaqların söhbətini dinləsinlər və hər şeyi ona – Şaha xəbər versinlər. Şahın xidmətçiləri elə də etdilər, kabab verdilər, özləri isə gizlicə qapıların və ya pəncərələrin yanında oturub qardaşların söhbətinə qulaq asmağa başladılar.

Şahzadələr əvvəlcə səssizcə yeyirdilər, amma sonra böyük qardaş dedi:

– Hayıf ki, quzu it südü ilə qidalanıb.

Ortancıl qardaş isə dedi:

– Çaxır da yaxşıdır, heyif ki, insan qanı ilə qarışmışdır.

Kiçik qardaş əlavə etdi:

– Şah taxılı ölü meyidlərdən yığılıb və leş iyi verir.

Bundan sonra böyük şahzadə yenə danışdı:

– Bütün bunlar heç bir şeydir. Bununla razılaşmaq olar. Amma bir şeyə heyif ki, bu şah qeyri-qanuni vəliəhddir və şah oğlu deyildir.

Sonra qardaşlar səssizcə yeməyə davam etdilər.

Xidmətçilər eşitdiklərindən son dərəcə donub qaldılar, getdilər hər şeyi şaha danışdılar. Şah özü şahzadələrin sözlərindən az təəccüblənmədi. Amma onların sözlərinin doğruluğuna qəti şəkildə inanmaq üçün quzunun sahibini yanına çağırdı. Şah onun üstünə qışqırdı:

– Sən it südü ilə qidalanmış quzunu satmağa cürət etmisən?

Əvvəlcə satıcı onun boynuna qoyulan günahdan imtina etməyə başladı. Amma sonra etiraf etdi və məsələnin necə baş verdiyini danışdı. O şaha yalvardı:

– Ey böyük şah, məni edam etməyi əmr etmə, məni bağışlamağı əmr et! Şeytan məni yoldan çıxartdı. Nə etməli? Bu quzu dünyaya gələn kimi qoyun öldü. Zavallı quzu küçüklərlə bərabər it südü ilə qidalanmağa başladı.

Şah sonra şərab satanı yanına çağırdı və xəbər aldı ki, nə üçün çaxırı insan qanı ilə qarışdırır. O, əvvəlcə günahı boynundan atmağa başladı. Amma sonra etiraf etdi və şaha dedi:

– Ey şah baba, məni edam etməyi əmr etmə, bağışlamağı əmr et! Baş verənlərdə mənim günahım yoxdur. Mən bağda üzüm yığmağa başladım və bıçağım üzümdə qaldı. Mən ayaqlarımla üzümü əzəndə ayağımı yaraladım. Qan fışqırıb axdı və çaxırda qarışdı.

Az sonra şah çörək bişirəni yanına çağırdı və ondan xəbər aldı ki, o, öz tarlasını insan cəsədləri üzərində necə əkmişdir. Çörək bişirən imtina etməyə başladı, amma sonra etiraf etdi və dedi:

– Ey böyük hökmdar, mənə rəhmin gəlsin. Mən öz buğdamı qəbirsanlığa səpdim və çox yaxşı məhsul verdi və mən bu buğdanı yalnız şaha satmaq qərarına gəldim.

Şah öz qonaqlarının sözlərinin doğru olduğuna inanıb satıcıların hamısını (sərbəst) buraxdı. Şah sonra öz anasına müraciət etdi və ondan xəbər aldı:

– Əziz anam, de görüm doğrudanmı mən taxtın qeyri-qanuni vəliəhdiyəm və şah oğlu deyiləm?

Ana şahın sualından heyrətləndi. Nə etməli, etiraf etdi:

– Bəli, sən şah oğlu deyilsən. Bax bu, belə baş vermişdir: O vaxt hələ ərim-şah sağ idi, mən ona oğul-varis doğmurdum, mənim elə qızlarım olurdu, buna görə də şah məndən narazı idi. Bu məni də narahat edirdi. İş elə gətirdi ki, bizim qonşumuz, varlı tacir arvadı bir dəfə mənimlə eyni vaxtda hamilə qaldı. Onun həmişə oğlanları olurdu. Mən əvvəlcədən mamaçanı pulla ələ aldım ki, əgər tacir arvadının yenə oğlu, mənim isə qızım olsa, mənim yanıma oğlan uşağı qoysun. Bədbəxtlikdən elə də

oldu. Mən qız uşağı doğdum, tacir arvadı isə oğlan uşağı doğdu. Mamaça ona əmr ediləni dəqiqliklə yerinə yetirdi. Şah yalançı oğlu üçün sevindi və sən boya-başa çatanda şah oldun.

Ana sözünü deyib qurtardı, şah isə, qaş-qabağını tökdü, amma nə etməli? O, gənc şahzadələri bir qədər də yanında qonaq saxladı. Onlar şaha hələ bura nə məqsədlə gəldiklərini söyləməmişdilər.

Axşam şah şahzadələrlə uzun müddət söhbət etdi və onları gecələmək üçün öz yataq otağında saxladı. Gecə hamı yatdığı vaxt birdən şahzadələrdən biri yuxudan ayılır və görür ki, böyük bir ilan şahla arvadının yatağı üstündə tavandan sallanır. Şahzadə o saat qılıncını sıyırdı və ilanı vurub yerə sərdi. Bir neçə damcı qan şah ilə arvadının üzünə düşdü. Onda şahzadə dəsmalını çıxardı və onunla şahın və arvadının üzünü sildi. Şah birdən yuxudan oyandı və şahzadənin yataq üzərində uzadılmış əlini gördü.

Səhər şah car çəkdi ki, onun üç qonağının biri gördüyü günah işinə görə dar ağacından asılacaq.

Şahzadələr qorxuya düşdülər, kiçik qardaş onları sakitləşdirdi və gecə olanları onlara danışdı.

Sarayın hamısı təyin edilmiş vaxtda cinayətkar qonağın cəzalandırılmasına baxmaq üçün şəhər meydanına toplaşdı. Şah da özünü çox da gözlətmədən edam yerinə gəldi. Çox keçmədən cinayətkarı da gətirdilər, onunla dərin kədər içində olan iki qardaşı da gəldi.

Böyük şahzadə şaha müraciətlə dedi:

– Hökmdar, mənə izn ver bir neçə söz deyim.

Şah izn verdi və şahzadə danışmağa başladı:

– Bir padşahın, çox gözəl bağı var idi. Bu bağda isə möcüzəli özəlliyi olan bir alma ağacı var idi. Bu ağacın meyvəsini dadan hər bir qoca gənc olurdu. Günlərin bir günü padşah bağda gəzməyə çıxdı. Padşahın əlində onun sevimli şahini oturmuşdu, yan tərəfində isə sədaqətli iti gedirdi. Padşah birdən

gördü ki, möcüzəli alma ağacından bir alma yerə düşmüşdür. Padşah alma ağacına yaxınlaşdı və almanı yerdən qaldırdı ki yesin. Padşah almanı ağzına yaxınlaşdıran kimi şahin qanadları ilə onu padşahın əlindən vurub yerə saldı. Padşah hirsləndi və özünün sevimli şahinini öldürdü. Padşah almanı yenə yerdən qaldırdı və onu yemək istərkən it əlləri ilə onu padşahın əlindən vurub yerə saldı. Padşah yenə özündən çıxdı və sədaqətli itini öldürdü. Az sonra padşah fikrə getdi:

– Bu nə deməkdir, nədən bu heyvanlar məni onu yeməyə qoymurlar? Burada nə isə mənim bilmədiyim bir sirr vardır.

Padşah bunu deyib almadan kiçik bir parça kəsib pişiyə verdi. Pişik yedi və o saat da öldü. Padşah sevimli şahinə və sədaqətli itə heyfsləndi.

– Daha deməyə söz yoxdur.

Ortancıl qardaş da, böyük qardaşından sonra bir neçə söz demək üçün izn istədi.

Padşah ona izn verdi və bu şahzadə də bir ibrətli hekayə danışdı:

– Bir padşah öz əyanları ilə ova çıxmışdı. Onun əlində sevimli ov şahini oturmuşdu, yanında isə sədaqətli iti qaçırdı. Padşah yorulub əldən düşdü və güclü susuzluq hiss etdi, heç yerdə su yox idi.

Padşahın əyanlarının hamısı atlarını sürüb damcı-damcı su axan böyük bir qayaya gəlib yaxınlaşdı. Bu zaman padşah piyaləsini götürdü və damcıların altına tutdu. Piyalə su ilə doldu. Padşah suyu içmək üçün piyaləni ağzına yaxınlaşdırdı. Amma onun sevimli şahini qanadlarını çaldı və piyalə padşahın əlindən yerə düşdü. Padşah bərk hirsləndi və quşu öldürdü. Padşah şahini öldürəndən sonra yenidən piyaləni su ilə doldurdu və ağzına yaxınlaşdırdı. Amma sədaqətli it əlləri ilə piyaləni padşahın əlindən vurub yerə saldı. Piyalə yerə düşüb parça-parça

oldu. Padşah əvvəlkindən də çox hirsləndi və sədaqətli itini öldürdü. Belə olduqda fikirlər padşahı alıb apardı:

– Heyvanlar nə üçün ona içməyə imkan vermirlər, görəsən burada bir təhlükə varmı?

Padşah elə həmin dəqiqə atını qayanı yuxarısına yönəltdi, əyanlar da onun arxasınca getdilər. Qayanın yuxarısında birdən hamı gördüyü mənzərədən dəhşətə gəldi. Burada çox böyük ilan uzanmışdı. Əjdaha günəşin yandırıb-yaxan şüalarından çürümüşdü və suya oxşayan ağ maye qayanın üstü ilə aşağı axırdı. Padşah burada şahinin öz qanadları ilə piyaləni vurmasının və itin atılıb piyaləni salmasının səbəbini başa düşdü. Padşah özünün sədaqətli heyvanları üçün çox heyfsləndi.

Sonda ortancıl qardaş dedi:

– Daha deməyə söz yoxdur.

Sonra kiçik şahzadə müraciət etdi və dedi:

– Ey böyük hökmdar, mən bilmirəm sən məni nədə ittiham edirsən. Böyük Allah görür ki, mən günahsızam. Mən padşahdan təşəkkürdən başqa heç bir şeyə layiq deyiləm, çünki mən onu və arvadını qaçılmaz ölümdən xilas etmişəm.

Ey padşah, böyük bir ilan sənin başının üstündə sallananda sən yatmışdın. Mən yataqdan qalxdım və murdarı öldürdüm, sənin və arvadının üzünə sıçrayan qanı isə öz dəsmalımla sildim. Mən padşahın qəzəbinə nə üçün layiq olmalıyam?

Şahzadə bu sözləri deyib qan içində olan dəsmalını, sonra isə padşahın tələbinə görə qanlı xəncərini də göstərdi.

Padşah tələm-tələsik qərarına görə peşman oldu, şahzadəni xalqın qarşısında qucaqladı və öpdü.

Şahzadələr sevinc içində saraya qayıtdılar və yeməkdən sonra, nəhayət bura gəlişlərin məqsədini dedilər:

– Ey şah, atamız bizə pullar şəklində çox böyük miras qoymuşdur və onları daş yeşikdə torpağa basdırmışdır. Atamızın

ölümündən sonra yeşik yoxa çıxdı. Ədalətlə hökm ver, bizdən kim o yeşiyi gizlədə bilər?

Şah fikrə getdi, çox fikirləşdi, üç gün fikirləşdi. Şah qardaşlarından dönə-dönə hər şeyi xəbər aldı, bütün təfsilatları öyrəndi. Amma qızılı kimin oğurladığı məsələsində bir qərara gələ bilmədi.

Üç gündən sonra şah şahzadə qardaşların yanına gəldi və dedi:

– Yox, belə mürəkkəb məsələni mən həll edə bilmirəm. Və yeşiyin kimin oğurladığını belə ağlıma gətirə də bilmirəm. Qonşu şahın yanına gedin, o, fərasətlidir və tezliklə sizin mübahisəni həll edəcək.

Şah qardaşları gərəkən hər şey ilə təmin etdi və onlara qonşu şaha yazdığı məktubu da verdi və şahzadələr yola düşdülər.

Şahzadə qardaşlar yeni şahlığa çoxmu, azmı getdilər, məlum deyil, biz orada yox idik. Bircə o bəllidir ki, onlar müdrik şaha sağ-salamat çatdılar və elə ora gəlişlərinin birinci günü öz şikayətlərinin məqsədini elan etdilər. Onlar daş yeşiklə bağlı bütün təfsilatları danışdılar və onun müdrik qərarını gözlədilər. Şah üç gündən sonra qardaşlara aşağıdakı sözlərlə müraciət etdi:

– Mən dünən öz əyanlarımla ova çıxdım. Çöldə mən təsadüfən öz yol yoldaşlarımdan ayrıldım və gözəl bir vadidə bir qadına rast gəldm. O, çox gözəl libaslar geyinmişdi və bəzəkli cins ata minmişdi. Bu at mənimkindən daha yaxşı idi. Bu gözəl atın belində oturan arvadın qaməti çox incə idi. Belə gözəli həyatım boyu görməmişdim və görəcəyimə də ümid etmirəm. Qızıllarla dolu bir torba atın yəhərinə bağlanmışdı. Birdən tanış olmayan qadın mənə müraciət edir və ucadan deyir:

- Ey sən, bu yol hara gedir?

Mən təəssüfdən ona heç bir cavab vermədim, çünki o, məni- şahı saymazlıqla “sən” adlandırdı.

Şah sonra böyük qardaşa müarciət etdi və xəbər aldı:

– Mən bu qadına cavab verməməkdə yaxşımı etdim?

Şahzadə cavabladı:

– Qibleyi-aləm, əgər mən sizin yerinizdə olsaydım qadına yolu göstərərdim və hətta onu şəhərədək yola salardım. O, əgər sizi tanımadısa, onun günahı nədir?

Şah ortancıl şahzadəyə müraciət etdi:

– Bəs sən nə edərdin?

O, cavab verdi:

– Ey hökmdar, mən də belə edərdim, ona yol göstərərdim və hətta onu şəhərədək yola salardım. Əgər o, sizi tanımadısa, onun günahı nədir?

Şah sonra kiçik qardaşa müraciət etdi.

– Bəs sən necə edərdin?

Kiçik şahzadə cavab verdi:

– Ey hökmdar, əgər mən sənin yerində olsa idim, mən heç fürsəti əldən verməzdim, mən o gözələ evlənərdim və onun atına da, qızıllarına da sahib olardım. Siz ki, bunu etmədiniz, mən belə şübhələnirəm ki, siz qadınsınız.

Şah ona dedi:

– İndi hər şey mənə aydındır, mən doğrudan da qadınam. Mənim uzun illik şahlığım ərzində heç kim mənim qadın olduğumu bilməmişdir. Həmçinin sən həmin qadınla o cür hərəkət etməyi düşündüyündən sizin şah atanızın pulları məhz səndədir – kiçik şahzadədədir. Gedin pulları öz aranızda bərabər şəkildə bölüşdürün.

Şah bu məsələni belə həll etdi.

Kiçik şahzadə birdən ağappaq ağardı, qorxdu. O, səmimi qəlbdən qardaşlarının qarşısında öz günahını boynuna aldı. Onların hamısı öz padşahlıqlarına qayıtdılar. Orada onlar sakit ata mirasını öz aralarında bölüşdürdülər.

Göydən üç alma düşdü. Biri mənim, o biri şah-arvada və üçüncüsü pay istəyən dilənçiyə.

***Zəngəzur qəzasının Goruş şəhərinin sakini Samuel Masurovun dilindən yazılmışdır.***

## Dul arvad və üç oğlunun nağılı

Biri var idi, biri yox idi, bir dul arvad var idi. Onun üç oğlu var idi - Əhməd, Məmməd və Bəhram. Onlar hamısı azyaşlı atasız qalmışdı. Vaxt gəldi, onlar boya-başa çatdılar və böyük kişi oldular. Boyük qardaş Əhməd anasına dedi:

– Əziz anam, bizə bir de, bizim atamız olubmu? İndi o haradadır, vəziyyəti necədir, yoxsa o artıq ölmüşdür?

Anası cavab verdi:

– Ah, əziz uşaqlarım, atanızın taleyi pis oldu. Bir dəfə div onu tutub apardı. Mən bilmirəm o, indi haradadır, sağdırmı, ölmüşdürmü?

Əhməd çox götür-qoy etmədən anasından icazə istədi ki, gedib atasını axtarsın. O, hazırlaşdı və yola düşdü.

Əhməd bir gün yol getdi, iki gün yol getdi, qarşısına nabələd bir yol çıxdı. Nağıl tez söylənilir, iş isə gec görülür. Əhməd də belə.

Əhməd də atasının izinə çox tez düşə bilmədi, onu tapdısa, kömək edə bilmədi, əksinə, özü də bəlaya düşdü. Onun başına belə işlər gəldi.

O, çöldə gedəndə bir qoyun sürüsü otaran çobana rast gəldi. Əhməd çobanı görüb salamlaşdı:

– Salam əleykum!

Çoban cavab verdi:

– Əleykum salam, yaxşı, gənc oğlan, hara gedirsən?

Əhməd cavab verdi:

– Mən hələ azyaşlı olanda atamdan məhrum olmuşam, onu div qaçırıb. İndi isə divi axtarmağa və əgər atam sağdırsa, onu qurtarmağa gedirəm.

Çoban dedi:

– Ata-anaya sevgi yaxşı şeydir. Amma, Əhməd, sən bilməlisən ki, mən sənin atanı əsir edən həmin qorxunc divin çobanıyam. Gəl sənə bir tapşırıq verim. İndi iki qoç vuruşacaq,

əgər sən onları ayıra bilsən, onda atanı da divin caynaqlarından qurtara bilərsən.

Doğrudan da, çobanın bu sözlərindən sonra sürüdən iki qoç ayrıldı və vuruşmağa başladı. Əhməd onları ayırmağa atıldı, amma güclü heyvanlarla bir şey edə bilmədi.

Əhməd çobanın sözlərinə baxmayaraq yoluna davam etdi. O, heç bir saatlıq yol getməmişdi ki, bu dəfə qoyun sürüsünə deyil, camış sürüsünə rast gəldi. Çoban Əhmədi görüb hara getdiyini xəbər aldı. Əhməd bu çobana da qoca atasını divin qaçırtdığını və atasını bu xəbis divin əsirliyindən qurtarmaq istəyindən təfsilatı ilə danışdı. Bu çoban da birinci çoban kimi Əhmədə güləşən iki çamışı ayırmasını təklif etdi. Həm də belə bir şərt qoydu ki, əgər o, qudurmuş heyvanları bir-birindən ayıra bilsə, asanlıqla atasını divin əlindən qurtara bilər. Əhməd heyvanları nə qədər barışdırmaq və ayırmaq istədisə, bir şey edə bilmədi. Çoban ona geri qayıtmağı məsləhət gördü.

Amma Əhməd onun sözünə qulaq asmadı və yoluna davam etdi. Yavaş-yavaş o, məqsədinə yaxınlaşırdı. Bir müddətdən sonra o, üçüncü sürüyə - at ilxısına rast gəlir. Yenə də həmin hadisə baş verir. İlxıçı divin muzdlu adamı imiş. Bu üçüncü çoban Əhmədin öz atasını divin əlindən qurtarmaq istəyini bilib bir-birilə vuruşan iki qulunu ayırmağı təklif edir. Əhməd çox çalışdı, amma olmadı, iki hirsli heyvanı ayıra bilmədi. İlxıcı Əhmədə evinə qayıtmağı məsləhət gördü. Çünki onun istəyindən bir şey hasil olmayacaqdı.

Amma bütün bunlara baxmayaraq Əhməd yoluna davam etdi. O, çoxmu yol gedir, azmı gedir, məlum deyil. Əhməd evdən çıxdığının üçüncü günü divin çox böyük və zəngin sarayına gəlib çatdı. Div bu vaxt həmişəki adətinə görə böyük taxtda uzanmışdı və istirahət edirdi. Onun görünməmiş, vəsfə gəlməyən gözəl bacısı evinin bütün işlərinə baxırdı. Bu qız dünyada tayı-bərabəri olmayan gözəllikdə idi. Div gözəl qızdan xəbər aldı:

– Bacı, pəncərədən bax gör, kimsə gəlirmi? Sən çoxdandır ki, baxmırsan.

Qız pəncərədən baxdı və Əhmədi gördü. O, dedi:

– Bir adam gəlir.

Div xəbər aldı:

– O sürətləmi gəlir, ya yavaş addımlayır.

Qız cavab verdi:

– Yavaş gəlir.

Div yenə soruşdu:

– Bacı, bir bax bu adam harada su içəcək? Bulağın özündənmi, ya axardan aşağıda?

– Axarla aşağıda.

– Bir də diqqətlə bax, o mənim bağımdan üzümü necə yeyəcək, salxımlarla, ya dənə-dənə?

Bacısı dedi:

– O dənə-dənə yeyir.

Nəhayət, Əhməd saraya yaxınlaşdı və qorxunc divin taxtda uzandığı otağa girdi. Div xırıltılı səslə dedi:

– Cavan, sənə nə lazımdır?

Gənc oğlan cavab verdi:

– Mən qəddarlıqla incitdiyin atamı qurtarmağa gəlmişəm.

Div dedi:

– Mənə yaxın gəl və öz məsələni həll et!

Əhməd qorxmadı və irəli divə tərəf getdi, amma birdən xalıdan yıxılıb yer altına düşdü. Orada ayıldı, özünə gəldi və öz atasını görüb təəccübləndi. Ata və oğul birlikdə acı talelərinin həyəcanını yaşamağa başladılar.

Anası Əhmədi çox gözlədi, bir il gözlədi, daha bir il gözlədi, o, isə gəlmir ki, gəlmir. Anası tamam kədərləndi.

Məmməd bunu görüb anasına dedi:

– Əziz anam, məni burax gedim, atamı və qardaşımı axtarım. Bəlkə bir bədbəxtlik üz verib, onlara kömək edim.

Anası məmnuniyyətlə Məmmədi buraxdı və Məmməd yola hazırlaşdı.

Məmməd nabələd yerlərlə çoxmu getdi, azmı getdi, bilmirik, biz orada yox idik. Amma o da Əhmədin gördüyü qoyun sürüsünə rast gəldi. Çoban ondan xəbər aldı:

– Məmməd, hara gedirsən?

Məmməd cavab verdi:

– Atamı və qardaşımı divin əllərindən qurtarmağa gedirəm.

– Mən həmin divin çobanıyam, Məmməd, əgər sən vuruşan iki qoçu bir-birindən ayıra bilsən, onda sən qardaşını da, atanı da azad edə bilərsən.

Məmməd qoçları bir-birindən ayırmaq istədisə də, bacarmadı. Məmməd çobanın onun evə qayıtması haqqındakı sözlərinə qulaq asmadı və öz yoluna davam etdi. Çox keçmədən Məmməd camış sürüsünə rast gəldi. Bu sürünün çobanına hekayətini danışdışqda o, təklif etdi ki, vuruşan iki camışı bir-birindən ayırsın. Gənc oğlan çobanın təklifini yerinə yetirə bilməyəndə çoban dedi:

– Sənin zəhmətlərin boşuna gedəcək, yaxşısı budur ki, evinə qayıdasan, yoxsa divin əziyyətli əsirliyinə düçar olacaqsan.

Məmməd ona qulaq asmadı və yoluna davam etdi. Məqsədinə yaxınlaşırdı.

Nəhayət, at ilxısı onun qarşısına çıxdı. Məmməd ilxıçıya qışqırdı:

– Salam əleykum.

O, cavab verdi:

– Əleykum salam, Məmməd, yolun hayanadır?

– Atam və qardaşımı acıqlı divin əllərindən qurtarmağa gedirəm.

– Məmməd, sənin cəhdlərin boşuna gedəcək. Əvvəlcə dırnaqları ilə bir-birinin böyürlərini az qala dağıdan dayçaları

bir-birindən ayır. Onları ayırsan, divə də qalib gələrsən, bacarmasan divin rütubətli zirzəmisindən qurtara bilməzsən.

Məmməd heyvanları bir-birindən ayırmağa çalışdı, amma heç bir şey edə bilmədi. Dayçalar vuruşmağa davam edirdilər.

Məmməd hirsindən tüpürdü və yoluna davam etdi. Bir gün yol getdi, iki gün yol getdi, üçüncü gün divin sarayına çatdı. Div taxtda uzanıb gözəl bacısından xəbər aldı:

– Bacı, adamlardan kimsə gəlirmi?

Bacısı pəncərəyə baxdı, Məmmədi gördü və dedi:

– Bir gənc oğlan gəlir.

– Necə gəlir - sürətlə yoxsa yavaş?

– Yavaş gəlir.

– O, haradan su işir, bulaqdan yoxsa axarla aşağıda?

– Axarla aşağıda içir.

– O, bağa çatdımı?

– Çatdı.

– Bəs üzümü necə yeyir, salxımla yoxsa dənə-dənə?

– Dənə-dənə yeyir.

Div sakitləşdi və qonağı gözlədi. Məmməd içəri girdi və o saat atası ilə qardaşının azad edilməsini tələb etdi. Div dedi:

– Görmürsən mən uzanmışam, köməksizəm və silahsızam, gəl və məni öldür.

Məmməd irəliyə bir addım atdı, iki addım atdı və döşəmədən aşağı düşdü. O, zirzəmiyə yıxılıb orada atası və qardaşını görüb təəccübləndi. Beləcə hər üçü orada qaldı.

Bu arada anası elə hey gözləyir, Məmməd isə yoxdur ki, yoxdur. Rəhmdil arvad lap kədərləndi. Bəhram anasının kədərini görüb dedi:

– Əziz anam, izn ver mən də gedim bəxtimi sınayım. Öz qardaşlarımı və atamı tapmayacağammı? Bəlkə onlara bir bədbəxtlik üz verib və mən onların bir işinə yarıyaram.

Anası kiçik oğlu Bəhramı da buraxdı və səbrlə gözləməyə başladı.

Bəhram qoyunları otaran çobana rast gəldi və ondan atalarını axtaran gənc oğlanları görüb-görmədiyini xəbər aldı. Çoban cavab verdi ki, onlar ataları kimi divin qurbanı olmuşlar. Çoban ondan xəbər aldı:

– Bəs sən hara gedirsən?

Bəhram cavab verdi:

– Qardaşlarımı və atamı divin əsarətindən qurtarmağa gedirəm.

– Mən həmin divin çobanıyam. Bəhram, əgər sən indi vuruşacaq iki qoçu bir-birindən ayırsan, sən məqsədinə çatacaqsan.

Qoçlar sürüdən çıxdı və vuruşmağa başladılar. Bəhram onlara tərəf atıldı və çox əziyyət çəkmədən onların hər birini bir tərəfə ayırdı. Çoban dedi:

– Cəsur gənc oğlan, ürəklə irəli get.

Bəhram yoluna davam etdi və camış sürüsünə rast gəldi. O, çobana ucadan dedi:

– Salam əleykum!

Çoban cavab verdi:

– Əleykum salam! Bəhram, hara gedirsən?

– Qardaşlarımı və atamı divdən azad etməyə gedirəm.

Çoban dedi:

– Əvvəlcə vuruşan iki camışı bir-birindən ayır, onda atanı və qardaşlarını da azad edə bilərsən.

Bəhram vuruşan iki camışa yaxınlaşan kimi onların buynuzlarından tutdu və müxtəlif tərəflərə ayırdı.

Sonra Bəhram yoluna davam etdi, məqsədinə daha da yaxınlaşdı.

Budur o, üçüncü sürüyə-at ilxısına rast gəldi. O, ilxıçıya atasına üz verən bədbəxtlikdən və qardaşlarının itkin düşməsindən və həmçinin onları azad etmək niyyətindən danışdı.

İlxıçı Bəhrama əvvəlcə iki dayçaya qalib gəlməsini, sonra isə burnunu divin işlərinə soxmasını təklif etdi. Bəhram məmnuniyyətlə razı oldu. İki dayça dal ayaqları ilə bir-birinə var qüvvələri ilə vurmağa başlayanda, Bəhram onlara yanaşdı və sərbəstcə onları müxtəlif tərəflərə ayırdı. İlxıçı dedi:

– İndi cürətlə divin sarayına get!

Bəhram yoluna davam etdi. Bir gün divin bağları, vadiləri, bulaqları olan sarayına çatdı.

Div bu vaxt adəti üzrə taxtda uzanmışdı. O, bacısından xəbər aldı:

– Bacı, bir bax bir kimsə gəlirmi?

Qız pəncərəyə baxdı. Bəhramı gördü və narahatçılıqla cavab verdi:

– Bir adam gəlir.

– O, necə gəlir, sürətləmi, yoxsa yavaş?

– İldırım kimi üçur.

– O, haradan su içir, bulaqdanmı, yoxsa, axarla aşağıda?

– Bulağın özündən su içir, xırda daşları ilə birlikdə.

– O, mənim bağıma çatdımı və üzümü necə yeyir, salxımlarlaşmı, yoxsa dənə-dənə?

– O,üzümü tənəklərilə və yarpaqları ilə birlikdə yeyir.

Div narahat oldu, amma taxtdan qalxmadı. Bəhram otağa girəndə o, rahatca xəbər aldı:

– Gənc oğlan, sənə nə lazımdır?

– Ey div, sən çox yaxşı bilirsən mən nə üçün gəlmişəm. Elə indi mənə atamı və iki qardaşımı ver. Yoxsa sənin evini təməlinədək dağıdacağam, sənin xəzinəni götürəcəyəm, sənin özünə zəncir vurub yeraltına salacağam.

Div dedi:

– Gənc oğlan, belə hirslənmə! Gəl, yanımda otur və rahatca məsələdən danış!

– Sənin hiyləgərliyin mənə aydındır, sənin yanına gəlməyəcəyəm, döyüşmək üçün meydana çıx!

Görüləcək bir iş yox idi. Div taxtdan qalxdı, vəhşi heyvan kimi kükrədi və Bəhramın üstünə atıldı. Bəhram divi zəncirlədi.

Sonra Bəhram divin bacısından xəbər aldı:

– Tez de, qardaşının xəzinəsi haradadır?

Qız əvvəlcə yerini bilmədiyini deyib cavab verməkdən imtina etdi. Amma Bəhram onu öldürməklə hədələyəndə etiraf etdi:

– Mənim qardaşımın bir pişiyi var, onu öldür, qan hara axsa, harada yığılsa xəzinə orada olacaq.

Bəhram elə də elədi, o, pişiyi axtarıb tapdı və onu öldürdü. Qan bir yerə axdı. Bəhram orada qazımağa başladı və çox keçmədən böyük bir sandığı qazıb üzə çıxardı, amma açar yox idi. O, qızdan xəbər aldı:

– Açar haradadır?

O, cavab verdi ki, sandığın açarı onun div qardaşının dilinin altındadır. Bəhram açarı tapıb götürdü, sandığı açdı və təəccübdən yerində quruyub qaldı. Sandıq yalnız qızıl və qiymətli daşlarla dolu idi.

Sonra Bəhram divin otağına girdi, xalını açdı və döşəmədəki qapıdan yer altına gırdı. O, atasını və iki qardaşını yer altında gördü. O saat onları azad etdi, bir neçə dəvəni qızıl və qiymətli daşlarla yüklədi və karvanı yola hazırladı. Bəhram özü isə qaldı. Onun atası və qardaşları karvanı evlərinədək müşayiət etdilər.

Bəhram divin evində qaldı, onu öldürdü. Sonra karvanın ardınca evinə yola düşdü.

Yolda Bəhram yağışdan özünü qoruyaraq bir adamın qayanın altına girdiyini gördü. Bəhram ona qışqırdı:

– Ey yaxşı insan, tədbir gör, qaya üstünə düşür.

Tanımadığı adam əllərini qaldırdı, qayanı əlləri ilə saxlamağa başladı ki, üstünə düşməsin.

Bəhram isə onun yaxınlıqda otlayan atına mindi və çapıb getdi.Tanımadığı adam qışqırdı:

– Ey Bəhram, mənim atımı hara çapırsan?

Bəhram cavab verir:

– Atını çapıram ki, adamlara deyim gəlib səni azad etsinlər. Bəhram atı çaparaq yoluna davam etdi. Yolda o, bir kosa çobana rast gəldi və dedi:

– Çoban, qulaq as, mən tüklərin bitməsi üçün bir vasitə bilirəm. Keçini kəs, dərisini soy və burada üç gün uzan və sənin başına sıx tüklər çıxacaq.

Çoban elə də elədi, dəriyə büründü və uzandı. Bəhram isə onun sürüsünün hamısını evinə sürüb apardı.

Budur, bir gün keçdi, iki gün keçdi və üçüncü gün gəldi çatdı. Bəhramın kosa çobana və əlləri ilə düşən qayanı saxlamağa ümid edən tanımadığı adama yazığı gəldi. O, çobanın yanına getdi, bədbəxt çoban isə başında sıx saçların mütləq çıxacağı ümidi ilə torpağın üstündə uzanmışdı. Bəhram ona yaxınlaşdı və xəbər aldı:

– Sən nədən belə bürünmüsən və kötük kimi uzanmısan?

– Bir nəfər adam saçım çıxsın deyə bunu mənə məsləhət gördü.

– Sən nə edirsən, ağlınmı çaşıb, səninlə zarafat ediblər. Get evinə, qoca.

Çoban ayağa qalxdı və xəbər aldı:

– Bəs mənim sürüm haradadır?

Bəhram dedi:

– Sən lap qəribə adamsan, sən doğrudan da ağlını itirmisən. Sənin sürün üç gün bir yerdə dayanacaqmı?

O, bunu deyib yoluna davam etdi və hələ də əlləri ilə qayanı tutub saxlayan tanımadığı atlıya gəlib çatdı.

Bəhram xəbər aldı:

– Yaxşı, sən nə üçün əllərini qayaya dayamısan?

– Adamların gəlib məni azad etmələrini gözləyirəm. Görürsən, qaya üstümə yıxılır.

– Sən nə axmaq adamsan! Sən doğrudanmı fikirləşirsən ki, qayanı saxlayırsan. Onu burax, o düşmür, düşsə də nə sən, nə də adamlar onu saxlaya bilməzlər. Yaxşısı budur, get evinə, ağlın başına gəlsin.

***Gorusda Mkrtıç Yeritsyantsın dilindən yazıya alınmışdır.***

## Molla və oğlunun nağılı

Biri var idi, biri yox idi, bir molla var idi. Molla hər gün dua edərdi ki, Allah-təala ona bir oğul bəxş etsin. Budur, böyük sevinclə oğlu doğuldu. Onun adını Əli qoydular.

Əli gəlib boya-boşa çatdıqdan sonra atası ona hər gün bir çörək verir və deyirdi:

– Get dənizə və bu çörəyi dənizə at. Əli elə də edirdi, o, hər gün dənizə bir çörək atırdı.

Bu arada dənizdə bir balıq yaşayırdı. O, Əlinin hər dəfə atdığı çörəkləri tutub yeyirdi. Balıq belə bol və gündəlik yeməkdən elə kökəldi, elə böyüdü ki, nə nağılla söyləmək olar, nə də qələmlə təsvir etmək olar.

Çox keçmədən o biri balıqlar ondan qorxmağa başladılar, o öz çörəyindən onlara heç bir parça da vermirdi, həmişə onları incidirdi. Axırda balıqlar yığışıb öz padşahlarının yanına şikayətə getdilər ki, bəs, bizim dənizdə böyük balıq peyda olub. O heç kimə rahatlıq vermir və hamını incidir. Padşah o saat günahkarı yanına çağırdı və soruşdu:

– Sən nə üçün mənim balıqlarıma rahatlıq vermirsən, onları incidirsən? Sən nə yeyirsən ki, belə yağlı olmusan?

Balıq cavab verdi:

– Mən heç kimi incitmirəm, qibleyi-aləm. Yağlı ona görə oluram ki, Əli adında bir mərhəmətli insan hər gün dənizə bir çörək atır, mən də həmin çörəyi yeyirəm. Qoy başqa balıqlar da yesin, mən etiraz etmirəm.

Padşah balığın cavabından razı qaldı və ondan təvəqqe etdi ki, Əlini padşahın sarayına gətirsin.

Ertəsi gün Əli çörək gətirəndə ki, dənizə atsın, balıq çörək yerinə Əlinin özünü tutdu və dənizə çəkib apardı və dedi:

– Əli, məndən qorxma, mən səni öz padşahımızın yanına aparıram. Yəqin o səndən razı qalacaq. Əgər padşah sənə hədiyə təklif etsə, imtina et, yalnız padşahımızın dilinin altında olan tikanı istə. Onlar Balıqlar padşahının sarayına yaxınlaşdılar və içəri girdilər. Padşah Əlidən xəbər aldı:

– Sən nə üçün dənizə çörək atırsan?

Əli cavab verdi:

– Qubleyi-aləm, çörəyi ona görə atıram ki, sənin balıqların aclıq çəkməsin.

Padşah Əlidən razı qaldı və ona hədiyyə təklif etdi. Əli hər şeydən imtina etdi, ondan yalnız dilinin altında olan tikanı istədi. Padşah Əlinin təvəqqesini rədd etmədi, istədiyini verib yola saldı.

Əli padşahdan tikanı alan kimi balıqların və hər cür heyvanların dilini başa düşdü. Əli atasının yanına getdi və başına gələni danışdı. Amma qoca molla oğlunun sözlərinə fikir vermədi və ertəsi gün ona pul verib başqa şəhərlərə alver etməyə göndərdi.

Əli çoxmu getdi, azmı getdi, biz orada yox, idik bilmirik. Axır o, bir neçə adamın ətrafına toplaşdığı saman tayasına çatdı. Əli tayanın altında ölü adam gördü. Əli ölünün ətrafına toplaşmış adamlardan xəbər aldı:

– Nə etmək istəyirsiniz?

– Bu ölü bizə min manat borclu idi, borcunu verə bilmirdi. Biz də intiqam almaq üçün indi onu yandırırıq.

Əli atasının ona verdiyi min manatı borc verənlərə verdi. Özü isə evə qayıtdı. Molla oğlunu görüb xəbər aldı:

– Mallar haradadır?

Əli cavab verdi:

– Mən onları dəvələrə yükləmişəm, tezliklə gələcək.

Molla bir gün gözlədi, o biri gün gözlədi, mallar isə yox idi ki, yox idi. O, oğluna müraciətlə yenə xəbər alır:

– Oğlum, mallar haradadır?

Nə etməli, Əli etiraf etməli oldu və o, saman tayasının yanında baş vermiş hadisəni danışdı. Molla çox hirsləndi, oğlunu evindən qovdu.

Əli baş götürüb getdi və yolda bir ağacın altında dincəlmək üçün uzandı. Burada yuxuya getdi. Birdən iki qarğa uçub gəldi, Əlinin başı üstündəki budağa qondu. Bir qarğa o birinə dedi:

– Gəl bu yatan oğlanın gözlərini çıxaraq, deyirlər çox gözəl bir şeydir.

Amma Əli yatmırdı, o quşların söhbətini başa düşürdü və hər şeyi eşidirdi. Ona görə gözlərini daha möhkəm yumdu ki, quşlar onları çıxara bilməsinlər. Quşlar Əlinin yanına daha yaxın uçub gələndə o, bir anda onların ikisini də tutdu. Bu vaxt qarğaların qoca anası uçub gəldi və Əlidən təvəqqe elədi ki, uşaqlarını buraxsın və Əliyə bir yığın qızıl təkilf etdi.

Əli razı oldu, qızılları da ata yüklədi və onları molla atasına göndərdi, özü isə qonşu şəhərə getdi. Burada o bir zərgərin yanında şagird işləmək istədi. Zərgər məmnuniyyətlə razı oldu və o saat Əlini dənizə tərəf apardı və dedi:

– Bu dənizin ortasında almazdan kiçik bir ada var. İndi quşlar uçub gələcək və səni ora apacaqlar. Səni yalnız bir dəriyə bükmək lazımdır. Sən oradan daş dalınca daş, almaz dalınca almaz, topaz dalınca topaz at. Sonra sən adanın o biri tərəfində olan körpünün üstü ilə bura gələrsən və biz səninlə işimizi böyüdərik.

Usta bu sözləri deyib xurcunundan qalın dəri çıxarıb Əlini buna bükdü və dedi:

– İndi quşlar səni götürəcəklər.

Usta onu tutdu və var gücü ilə dənizə atdı. Əli adaya düşdü. O dəridən azad oldu və sahilə almazları atmağa başladı. O uzun müddət almazları atdı və axırda yoruldu və körpünün harada olmağını axtarmağa başladı.

Amma körpü yox idi, usta başqa gənc adamları aldatdığı kimi onu da aldatmışdı. Onların hamısı adada məhv olmuşdular. Amma Əli məhv olmadı.

Əlinin çörək yedirdiyi balıq onun çətin vəziyyətdə olduğunu gördü. O saat Əliyə kömək etməyə tələsdi və öz belində onu sahilə gətirib çıxardı.

Usta Əlini görüb dəhşətə gəldi, öz gözlərinə inanmadı, görəsən Əli sahilə necə keçmişdir?

Əli ona dedi:

– Bilirsən nə var, adanın o biri tərəfində olan körpü də almazdan imiş. İndi sən get, almazları bu tərəfə at, çünki mən çox yoruldum. Mən səni dəriyə bükərəm və quşlar səni adaya apararlar.

Usta Əliyə inandı və məmnuniyyətlə razılaşdı. Əli onu dəriyə bükdü və adaya atdı. Usta dəridən çıxdı və acgözlüklə almazları sahilə atmağa başladı. Axşam düşdü və yazıq zərgər körpünü axtarmağa başladı, amma körpü yox idi. Bədbəxt usta elə beləcə adada məhv oldu. Əli isə almazları bir neçə dəvəyə yüklədi və onları evə atasına göndərdi, özü isə yoluna davam etdi.

Əli çoxmu getdi, azmı getdi məlum deyil, yalnız bu bəllidir ki, yolda bir qoca kişiyə rast gəldi. Qoca Əli ilə görüşdü və dedi:

– Gəl qardaşlaşaq, mərhəmətli insan və bir yerdə səyahət edək. Əli razılaşdı.

Onlar bir yerdə yola davam etdilər və çox keçmədən bir mağara tapdılar və burada yaşamağa başladılar. Qoca dedi:

– Yat, Əli qardaş, mən isə sənin yuxunun keşiyini çəkəcəyəm.

Əli yuxuya getdi, qoca mağaranın küncündə çox böyük bir ilan gördü. İlan fısıldayıb, Əlinin üstünü atıldı, qoca dəqiq zərbə ilə ilanı yerində öldürdü. Əli yuxudan oyandı və bacardığı qədər qardaşlığına təşəkkür etdi. Qoca dedi:

– Əli, bilirsənmi harada ilanlar yaşayırlar, orada çoxlu qızıl olur. Gəl, bu mağarada yeri qazaq.

Qardaşlıqlar mağarada yeri qazmağa başladılar. Onlar qazıyıb çoxlu qızıl tapdılar, mağaranın yaxınlığında çox böyük bir saray tikdilər.

Qoca qızıldan çox gözəl sini hazırladı və onu padşaha hədiyyə kimi apardı. Padşah ondan xəbər aldı:

– Sən kimsən ki, belə var-dövlətin var? Məndən nə istəyirsən, de!

Qoca cavab verdi:

– Ey böyük hökmdar, səndən heç nə istəmirəm. Amma əgər bacarsan öz qızını hesaba gəlməyən var-dövləti olan mənim qardaşlığıma ver.

Padşah dedi:

Qoca, təəssüf ki, mənim qızım dəlidir, buna görə də sənin qardaşın onunla evlənə bilməz.

Qoca cavab verdi:

– Biz onu sağaldarıq.

Padşah qocanın sözünə çox sevindi, amma qızının sağalmağına inanmadı. Saraya çoxlu həkim, loğman gəlib getmişdi, amma onların hamısı şahzadə qızın xəstəliyi qarşısında aciz qalmışdılar.

Bu arada ertəsi gün qardaşlıqlar padşahın sarayına getdilər və şahzadə qızın onların otağına gəlməsini istədilər. Şahzadə

qızı əlləri və ayaqları bağlanmış gətirdilər. Qoca qılınc çəkdi və bir zərbə ilə şahzadə qızın qarnını yardı. Elə həmin dəqiqə şahzadə qızın qarnından qurbağalar, ilanlar və başqa sürünənlər yerə töküldü.

Bir dəqiqə sonra şahzadə qızı tam sağalmış padşahın yanına apardılar. Padşahın sevincinin həddi-hüdudu yox idi. O, sevimli qızını qucaqladı və elə həmin gün qızı ilə xilaskarı Əlinin toyunu təyin etdi.

Təntənəli toy məclisi oldu və Əli öz şahzadə qızı ilə yaşamağa başladılar. Qoca isə günlərin bir günü Əlinin evindən yox olub getdi. Əli qocanın otağına girdi və masanın üstündə min manat gördü.

Göydən üç alma düşdü, biri mənə-söyləyiciyə, o biri - dinləyicilərə və üçüncüsü-bütün dünyaya.

***Gorus şəhərində Qabriyel Səfərovun dilindən qeydə alındı.***

## KİTABIN İÇİNDƏKİLƏR

**Bir neçə söz (*R.Xəlilov, A.Xürrəmqızı)*..................... 3**

**7-ci buraxılış, 1889-cu il**
**Bakı quberniyası Şamaxı qəzasında**
**yazıya alınmış “erməni” nağılları**

Şah İsmayil ........................................................ 14
Əlixan ............................................................... 27
Novruz .............................................................. 34
Çığalı ................................................................ 42
Sövdəgər Əhməd ................................................ 48
Səqqa Yusif ........................................................ 54
Məlikməmməd.................................................... 63
Quluxan ............................................................. 69

**13-cü buraxılış, 1892-ci il**
**“Erməni” nağılları, rəvayətləri və əfsanələri**

Div-arxı rəvayəti.................................................. 75
Dərvişə verilmiş şahzadə..................................... 78
Xır-xır kosa......................................................... 84
Ata vəsiyyəti....................................................... 93
Aşıq Kərəm......................................................... 102

**19-cu buraxılış, 1894-cü il**
**“Erməni” nağılları**

Nazlı və yeddi qardaşın nağılı............................... 105

**24-cü buraxılış, 1898-ci il**
**“Erməni” rəvayətləri və nağılları**

Ağıl və xoşbəxtlik ............................................... 112

**28-ci buraxılış, 1900-cü il**
**Zaqafqaziyada erməni xalq filologiyası**
**1. Əfsanə və rəvayətlər**
Qarı-köpək ........................................................ 117

**2. Nağıllar**
Gecə çırağı ........................................................ 118
Satın alınmış yuxu ................................................ 126
Keçəl Əhməd ........................................................ 135
Kəndli və ilan ...................................................... 141
Ramazan ............................................................. 146

**3. Yumoristik hekayələr, lətifələr, təmsillər**
Üç molla ............................................................. 151
Həsən necə plov yeyirdi? ...................................... 154
Biri o birindən daha yaxşı ..................................... 156

**42-ci buraxılış, 1912-ci il**
**"Erməni" nağılları**
Üç şahzadə .......................................................... 157
Dul arvad və üç oğlunun nağılı ............................. 167
Molla və oğlunun nağılı ........................................ 176

**SMOMPK: Azərbaycan folkloru materialları, 4-cü cild.**
Bakı, Elm və təhsil, 2021.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Samirə Aşurova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/16
Mətbəə kağızı: №1
Həcmi: 184 səh.
Tirajı: 300

Kitab Azərbaycan MEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
"Elm və təhsil" NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.